# 31 DEKABR DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜDÜR


RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 286 (8879) CÜMƏ, 31 dekabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






## Dünya azərbaycanlılarının ZƏFƏR HƏMRƏYLİYİ



**Bu gün Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. 30 ildir ki, Azərbaycanda və dünyanın müxtəlif yerlərində yaşayan azərbaycanlılar bu tarixi əlamətdar bayramlardan biri kimi qarşılayırlar.**

Ötən ildən etibarən isə Milli Həmrəylik Günü tamamilə fərqli, daha yüksək əhvali-ruhiyyə və coşqu ilə qeyd olunur. Çünki artıq torpaqlarımız işğaldan azad olunub. Vətən müharibəsindəki tarixi qələbədə xalqımızın milli həmrəyliyi də böyük rol oynayıb.

### Ulu Öndər Heydər Əliyevin yaratdığı tarix

1991-ci ildə xalqımızın Ulu Öndəri Heydər Əliyevin təşəbbüsü ilə 31 Dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan edilməsi Azərbaycanın ən yeni tarixinin mühüm siyasi hadisələrindən birinə çevrildi. Çünki ümummilli mənafelərimizin həyata keçirilməsi naminə xalqımızın bütün gücünü bir yerə toplamaq arzusunu və əzmini təcəssüm etdirən bu gün bir-birindən ayrı düşən soydaşlarımızın milli mənlik şüuru əsasında sıx birləşməsi prosesinin başlanğıcını qoydu. Lakin 1991-1993-cü illərdə Azərbaycana rəhbərlik edənlər bu məsələdə maraqlı olmadılar. Ona görə də həmrəylik ideyalarının özünə yer tapmaması, hakimiyyət orqanlarının bu sahədə də fəaliyyətsizliyi həmin dövrdə cəmiyyətdə ciddi problemlərə yol açdı, milli inkişafı əngəlləyən amilə çevrildi. Həmçinin diaspor quruculuğuna maraq göstərilməməsi xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanmasına mənfi təsir göstərməklə yanaşı, soydaşlarımızın vətənlə əlaqələrinin genişlənməsinə, azərbaycançılıq ideyasının inkişaf etdirilməsinə, dünyaya səpələnmiş azərbaycanlıların həmrəyliyinin əldə olunmasına imkan vermədi.

Heydər Əliyevin 1993-cü ildə xalqın yekdil arzusu ilə hakimiyyətə dönüşündən sonra ölkədə davamlı sabitlik və iqtisadi tərəqqinin əsası qoyulmaqla yanaşı, həm də birliyə nail olundu, azərbaycançılıq anlayışı milli təfəkkür tərzinə çevrildi. Azərbaycan dünyanın ayrı-ayrı ölkələrində məskunlaşmış soydaşlarımız üçün milli iftixar, mənəvi dayaq və güvənc yeri oldu.

Ardı 21-ci səh.

## "Nizami ili"nin sonunda dahi mütəfəkkirin xatirəsinə ehtiram



**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Nizami Gəncəvi parkında yenidənqurmadan sonra yaradılan şəraitlə tanış oldular**

Bax: səh. 2

## Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Azərbaycan Respublikası Milli Məclisinin müraciəti

Əziz həmvətənlərimiz!

Dəyərli soydaşlarımız!

Xalqımızın birlik əzmindən yaranan, milli-mənəvi bütövləşmə arzusunu, ümumxalq amallarına sədaqətini təcəssüm etdirən Dünya Azərbaycanlılarının Həmrəyliyi Günündə hər birinizi ürəkdən salamlayırıq.

Taleyin hökmü ilə dünyanın dörd bir yanına yayılmış soydaşlarımızın mütəşəkkil qüvvə kimi formalaşmaq, öz tarixi Vətənləri ilə əlaqələrini sıxlaşdırmaq istəyinin reallığa çevrilməsi Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 30 il əvvəl başladılmış həmrəylik hərəkatı ilə bağlıdır. Ulu Öndər tərəfindən 31 Dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan edilməsi ən yeni tariximizin mühüm siyasi hadisələrindən biri olmuşdur. Bu birliyin, həmrəyliyin istinad nöqtəsini və ana xəttini azərbaycançılıq ideyası təşkil etmişdir.

Müdrikliklə müəyyən edilən dövlət siyasəti nəticəsində dünya azərbaycanlıları ilə əlaqələr inkişaf etdirilmiş, xarici ölkələrdə diaspor təşkilatlarının formalaşdırılmasına kömək göstərilmiş, soydaşlarımızın tarixi Vətənlə bağlarının gücləndirilməsinə nail olunmuşdur.

Ardı 4-cü səh.

## Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə valideyn himayəsindən məhrum və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün Yeni il şənliyi keçirilib





Heydər Əliyev Fondu hər il Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il ərəfəsində xüsusi qayğıya ehtiyacı olan uşaqları bayram əhvali-ruhiyyəsi ilə sevindirir. Bu il də istisna olmadı.

AZƏRTAC xəbər verir ki, əvvəlki illərdə fondun prezidenti Mehriban Əliyevanın iştirakı ilə Buta sarayında uşaq evləri və internat məktəblərinin sakinləri, eləcə də sağlamlıq imkanları məhdud olan uşaqlar üçün şənlik təşkil edilirdi. Amma son 2 ildir COVID-19 pandemiyası ilə əlaqədar çox sayda insanın bir yerə toplaşması karantin rejiminin qaydalarına uyğun olmadığından, fond bu kateqoriyadan olan uşaqları fərqli şəkildə təbrik edir.

Heydər Əliyev Fondunun əməkdaşları bayram ərəfəsində paytaxt Bakı və regionlarda uşaq evləri və internat məktəbləri, həmçinin sosial xidmət müəssisələrində olaraq fondun prezidenti Mehriban Əliyevanın təbrikini, müxtəlif oyuncaqlar və şirniyyatlardan hazırlanan bayram sovqatlarını çatdırıb. Bayram süfrəsi ətrafında Şaxta baba və uşaqların sevdikləri nağıl personajlarının iştirakı ilə şənlik təşkil edilib.





# “Nizami ili”nin sonunda dahi mütəfəkkirin xatirəsinə ehtiram

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Nizami Gəncəvi parkında yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva “Nizami Gəncəvi” adına mədəniyyət və istirahət parkında əsaslı təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, Bakının Xətai rayonunda 11,2 hektar ərazisi olan parkda paytaxt sakinlərinin və şəhərimizin qonaqlarının səmərəli istirahəti üçün hər cür şərait yaradılıb.

Mövcud park və xiyabanların yenidən qurulması və yenilərinin salınması Bakının müasir görünüşünə və ekoloji vəziyyətinə müsbət təsir edən əsas amillərdəndir. “Nizami ili”nin sonunda dahi mütəfəkkirin adını daşıyan parkın yenidənqurmadan sonra istifadəyə verilməsi həm də rəmzi olaraq xüsusi məna kəsb edir.

Bir vaxtlar “Luna Park” adı ilə məşhur olan ərazi uzun illər baxımsız qalmışdı. Ətraf ərazilərdə yaşayan sakinlərin sevimli istirahət məkanı olan parkda əsaslı yenidənqurmaya zərurət yaranmışdı. Bu məsələ Prezident İlham Əliyevin 2021-ci il 19 aprel tarixli sərəncamı ilə həllini tapdı.

Qeyd edək ki, 1922-ci ildə salınmış parkın şəhərin estetik görünüşünə uyğunlaşdırılması məqsədilə onun ərazisində yerləşən bir və ikimərtəbəli inzibati binalarda əsaslı təmir və yenidənqurma işləri həyata keçirilib, süni göl yaradılıb, amfiteatr və 1938-ci ildən mövcud olan yay kinoteatrı yenidən qurulub, iki fəvvarə kompleksi və müasir tipli işıqlandırma sistemi yaradılıb. Parkda müasir söhbətgahlar, müxtəlif ölçülü oturacaqlar, idman qurğuları quraşdırılıb, uşaq əyləncə kompleksi yaradılıb. Yay kinoteatrının qarşısında çay daşlarından qədim tipli yeni qala divarı tikilib. Parkın ərazisində yaşıllaşdırma işləri görülüb, minlərlə ağac-kol və dekorativ bəzək bitkiləri əkilib.








## Baş nazir Əli Əsədov ilə Rusiya Hökumətinin Sədri Mixail Mişustin arasında telefon danışığı olub

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Rusiya Federasiyası Hökumətinin Sədri Mixail Mişustin arasında dekabrın 29-da telefon danışığı olub.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, danışıq zamanı hökumət başçıları Rusiya-Azərbaycan iqtisadi-ticari əməkdaşlığının inkişafının aktual məsələlərini, o cümlədən müxtəlif sahələrdə birgə layihələrin həyata keçirilməsini, həmçinin Müstəqil Dövlətlər Birliyi çərçivəsində qarşılıqlı inteqrasiya fəaliyyətini müzakirə ediblər. Koronavirus infeksiyasına qarşı mübarizə, əhalinin kütləvi immunizasiyası məsələlərinə xüsusi diqqət yetirilib.

Əli Əsədov və Mixail Mişustin Cənubi Qafqazda iqtisadi əlaqələrin bərpası, nəqliyyat blokadasının açılması istiqamətində Azərbaycan, Ermənistan, Rusiya baş nazir müavinləri səviyyəsində üçtərəfli İşçi qrupunun fəaliyyətinin mühüm əhəmiyyət daşıdığını vurğulayıblar.

## YAP Sədrinin müavini Tahir Budaqov Kubanın ölkəmizdəki səfiri ilə görüşüb

Dekabrın 30-da Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Kuba Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Alfredo Nieves Portuondo ilə görüşüb.

YAP-ın Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan-Kuba münasibətləri, eləcə də hər iki ölkənin hakim partiyaları arasındakı əlaqələrin inkişaf perspektivləri müzakirə olunub.

YAP Sədrinin müavini Tahir Budaqov növbəti ildə Azərbaycan ilə Kuba arasında diplomatik münasibətlərin qurulmasının 30 ilinin tamam olacağını xatırladıb, son dövrdə iki ölkənin, xüsusən də Qoşulmama Hərəkatı çərçivəsində əlaqələrinin müsbət dinamikasının olduğunu qeyd edib.

O da vurğulanıb ki, Kuba COVID-19 pandemiyası ilə mübarizə və vaksinlərin dünya üzrə qeyri-bərabər bölünməsi problemi də daxil olmaqla Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi BMT müstəvisində irəli sürdüyü bütün təşəbbüsləri dəstəkləyib. Həmçinin ötən il pandemiyanın ən kəskin dövründə Kubadan ümumilikdə 230 nəfər tibb mütəxəssisinin Azərbaycana gələrək öz təcrübələrini yerli həkimlərlə bölüşməsi, COVID-19 xəstələrinin müalicəsində iştirak etməsi yüksək qiymətləndirilib.



Öz növbəsində səfir Alfredo Nieves Portuondo Azərbaycanda gedən inkişaf proseslərini çox yaxından izlədiklərini bildirərək ölkəmizin Kubaya qarşı iqtisadi, ticarət və maliyyə blokadasının aradan qaldırılması ilə bağlı BMT qətnamələrinin lehinə səs verdiyini məmnunluqla vurğulayıb. Səfir həmçinin Kubanın Azərbaycanın işğaldan azad olunan ərazilərində bərpa-quruculuq prosesində əməkdaşlığa hazır olduğunu diqqətə çatdırıb.

Görüşdə Yeni Azərbaycan Partiyası ilə Kuba Kommunist Partiyası arasında əlaqələrin yaradılmasının hər iki ölkənin və xalqının mənafelərinə xidmət edəcəyi qeyd olunub. Bu məqsədlə növbəti ildə iki partiya arasında onlayn görüşlərin keçirilməsi, eləcə də qarşılıqlı səfərlərin təşkili barədə fikir mübadiləsi aparılıb.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri, hörmətli Prezident İlham Əliyev!

Sizi 60 illik yubileyiniz münasibətilə təbrik edirəm. Sizə uzun ömür, möhkəm cansağlığı, ölkənizin və xalqınızın mənafeyinə yönəlmiş fəaliyyətinizdə uğurlar arzulayıram.

Son illər Sizin üçün çox əlamətdar oldu. İşğal edilmiş əraziləriniz uzun illərdən sonra yenidən ölkənizin tərkib hissəsi oldu.

Cənab Prezident, Sizə və ailənizə Yeni ildə ən xoş arzularımı çatdırıram. Qoy 2022-ci il Sizə və xalqınıza sülh, firavanlıq və xoşbəxtlik gətirsin!

Pandemiyadan sonra gözəl ölkənizə səfər edəcəyimə ümidvaram.

*Hörmətlə,*

***Rene Van der LİNDEN,***
***Niderland-Azərbaycan Dostluq Qrupunun sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Sizi 60 illik yubileyiniz münasibətilə təbrik edirəm.

Siz gözəl bir ölkənin müdrik lideri kimi respublikada dəyişikliklər prosesinə sanballı töhfələr vermisiniz və bu gün çox mühüm dövlət proqramlarını həyata keçirməkdə davam edirsiniz. Əminəm ki, Siz əldə edilən nəticələrdən qürur duyursunuz, lakin daha çox nailiyyət əldə etmək inamı tükənməzdir. Ümidvaram ki, Sizin rəhbərliyinizlə dövlətlərimiz arasında münasibətlər qarşılıqlı hörmət əsasında daha faydalı xarakter daşıyacaqdır.

Sizə möhkəm cansağlığı, fəaliyyətinizdə böyük uğurlar, xalqınıza firavanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Vladimir JİRİNOVSKİ,***
***Rusiya Federasiyasının Dövlət Dumasında Rusiya Liberal Demokrat Partiyası fraksiyasının rəhbəri***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

İcazə verin, Ukraynanın "Müxalifət platforması - Həyat uğrunda" partiyasının rəhbərliyi adından və şəxsən öz adımdan Sizi əlamətdar yubileyiniz - anadan olmağınızın 60 illiyi münasibətilə təbrik edim, Sizə möhkəm cansağlığı, firavanlıq və Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayım.

Bizim partiyamız Azərbaycanın ən iri və əsas siyasi partiyasının - Sizin rəhbərlik etdiyiniz Yeni Azərbaycan Partiyasının müdrik və uzaqgörən rəhbərliyi ilə ölkənizin sosial-iqtisadi, hərbi-texniki və digər sahələrdə, həmçinin beynəlxalq miqyasda qazandığı uğurları dərin maraqla izləyir. Biz Azərbaycan hökumətinin regional və beynəlxalq gündəlikdə ən aktual məsələlərə ölçülüb-biçilmiş və konstruktiv yanaşmasını da yüksək qiymətləndiririk. Əminik ki, belə yanaşma, həqiqətən, müstəqil, uğurlu dövlətin firavanlaşmasına kömək edir.

Möhtərəm İlham Heydər oğlu, səmimi-qəlbdən ümid edirik ki, partiyamızın Azərbaycanın aparıcı siyasi qüvvəsi ilə əməkdaşlığı səmərəli və uzunmüddətli olacaq. Həm ikitərəfli formatda, həm də çoxtərəfli beynəlxalq strukturlar, o cümlədən Sizin haqlı olaraq fəxri üzvü olduğunuz Avropa Şurası Parlament Assambleyası çərçivəsində əməkdaşlığın inkişafının çox böyük perspektivləri olduğunu görürük. Bununla əlaqədar bizim partiyanın nümayəndələri AŞPA-da Azərbaycan nümayəndə heyətinin üzvləri ilə təşkilatda müzakirə edilən əsas məsələlərə dair səmərəli dialoqa ümid bəsləyirlər.

Fürsətdən istifadə edərək, Sizin Ulu Öndər Heydər Əliyevin siyasətinin davamçısı kimi müstəqil Azərbaycan Respublikasında aparılan quruculuq işlərində, xüsusən xalqın rifahının yüksəldilməsində və ölkədə ictimai-siyasi sabitliyin möhkəmlənməsində müstəsna rolunuzu bir daha qeyd etmək istəyirəm.

Doğum gününüz münasibətilə bir daha Sizə ən xoş arzularımı və dərin ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Viktor MEDVEDÇUK,***
***Ukraynanın Xalq deputatı, "Müxalifət platforması - Həyat uğrunda" partiyasının sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

İspaniyada yaşayan azərbaycanlılar adından Sizə 60 illik yubileyiniz münasibətilə səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırıram.

Sizin müdrik rəhbərliyinizlə qazanılan böyük Qələbə nəticəsində Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Sizin adınız bu Qələbə tarixinin ən gözəl səhifəsində qızıl hərflərlə yazıldı. Siz bütün dünya azərbaycanlılarını bir yumruq kimi birləşdirən qətiyyətli lider, işğaldan azad edilmiş torpaqlarımızda üçrəngli bayrağımızı qaldıran Müzəffər Ali Baş Komandansınız.

Sizin Ümummilli Lider Heydər Əliyevin siyasi xəttini yüksək səviyyədə davam və inkişaf etdirməyiniz müasir dövrdə Azərbaycanın dinamik tərəqqisini şərtləndirən mühüm amildir.

Biz, İspaniyada yaşayan azərbaycanlılar dövlətimizin qayğısını hər zaman öz üzərimizdə hiss edirik. Dünyanın harasında yaşamağımızdan asılı olmayaraq, ürəyimiz hər zaman ölkəmizlə döyünür. Azərbaycan həqiqətlərini beynəlxalq siyasi arenada qətiyyətlə səsləndirən, öz xalqını ailəsi qədər sevən Sizin kimi dövlət başçımızın olması ilə hər zaman fəxr edirik.

Cənab Prezident, biz Sizi dəstəkləyirik, Sizə möhkəm cansağlığı, fəaliyyətinizdə uğurlar arzulayırıq.

*Dərin hörmətlə,*

***Kərim KƏRİMOV,***
***İspaniyada fəaliyyət göstərən Barselona Azərbaycan Evinin direktoru***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi İordaniyadakı Azərbaycan diasporu adından 60 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirik. Sizə cansağlığı, uzun ömür, işlərinizdə uğurlar diləyirik.

Sizin rəhbərliyinizlə işğaldan azad edilmiş torpaqlarımızda aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri bizdə böyük sevinc və gələcəyə tam inam hissi yaradıb.

Uzaqgörən, düşünülmüş siyasətiniz, ordumuzun peşəkarlığı və yüksək döyüş hazırlığı, xalqın Sizə olan böyük sevgisi və etimadı nəticəsində qazanılmış möhtəşəm Qələbə hamımızı qürurlandırdı, başımızı uca etdi. Biz qalib xalq olaraq hər zaman qalib Prezidentimizin yanındayıq.

*Hörmətlə,*

***Zümrüd DADAŞOVA,***
***İordaniyadakı Azərbaycan diasporunun rəhbəri, Ərəb Ölkələri üzrə Azərbaycanlıların Koordinasiya Şurasının İordaniya üzrə əlaqələndiricisi***



❖ ❖ ❖

Əziz İlham Heydər oğlu!

Sizi - azad və firavanlaşan Azərbaycanın Prezidentini şanlı 60 illik yubileyiniz münasibətilə təbrik edirəm.

Siz atanız, dahi Heydər Əliyevin vəsiyyətlərinə yaradıcılıqla yanaşır, müasir Azərbaycanın parlaq gələcəyinin formalaşmasına öz bənzərsiz töhfələrinizi verirsiniz. Sizin 60 illik yubileyiniz XXI əsrin sınaqları və çağırışları şəraitində hərtərəfli istedadlı şəxsiyyət, zəkalı və məqsədyönlü islahatçı olan bir siyasətçi üçün gözəl yaşdır.

Əziz İlham Heydər oğlu, Sizə, Sizin gözəl ailənizə və bütün Azərbaycan xalqına ən xoş arzularımı çatdırıram.

Yaşasın firavanlaşan azad Azərbaycan, yaşasın xeyirxahlıq!

*Hörmətlə,*

***Gennadi BURBULİS,***
***Rusiya Federasiyasının sabiq dövlət xadimi***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Yubileyiniz münasibətilə Fransa azərbaycanlılarının səmimi təbriklərini Sizə çatdırmaqdan qürur duyuruq. Sizə möhkəm cansağlığı, əzizlərinizin və doğmalarınızın əhatəsində uzun və xoşbəxt həyat arzulayırıq.

Həm geosiyasi mövqeyi, həm də zəngin milli tərkibi baxımından Azərbaycan kimi bir ölkənin lideri olmağın nə qədər çətin və şərəfli olduğunu yaxşı başa düşürük. Odur ki, Sizə doğma Vətənimiz naminə gördüyünüz işlərdə daha çox güc-qüvvət və yeni-yeni uğurlar arzulayırıq. Əminik ki, Sizin, Ali Baş Komandanı olduğunuz ordumuzun, bütövlükdə xalqımızın şah əsəri sayılan Zəfərimiz nəticəsində ərazi bütövlüyü bərpa edilmiş Azərbaycan üçün yaşayıb, qurub, yaradacaqsınız. Fransada yaşayan və qəlbi Azərbaycanla döyünən həmvətənləriniz hər zaman Sizin arxanızdadırlar.

Doğum gününüz mübarək, cənab Prezident!

Yaşasın Azərbaycan və onun böyük lideri!

*Hörmətlə,*

***Fransa Azərbaycanlıları Koordinasiya Şurasının üzvləri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

"QALA" Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyəti və Yunanıstanda yaşayan azərbaycanlı icma adından Sizi yubileyiniz münasibətilə təbrik edirəm. Sizə və ailənizə möhkəm cansağlığı, xoşbəxtlik, müvəffəqiyyətlər arzulayıram.

Cənab Prezident, Siz həm döyüş meydanında, həm də siyasi arenada zəfər qazanan, Azərbaycan torpaqlarını 30 illik işğaldan 44 gün ərzində azad edən, ərazi bütövlüyümüzü bərpa edən Müzəffər Ali Baş Komandan, böyük sərkərdəsiniz.

Fürsətdən istifadə edərək, Sizi 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və qarşıdan gələn Yeni il münasibətilə də təbrik edirəm. 2022-ci ilin xalqımız, dövlətimiz üçün xeyirli və uğurlu olmasını diləyirəm.

*Hörmətlə,*

***Rəşid MƏMMƏDOV,***
***"QALA" Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Sizi 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir, ən xoş arzularmı bildirirəm. Sizə möhkəm cansağlığı, ailə səadəti və müstəqil Azərbaycanımızın tərəqqisi, firavanlığı, Qarabağda quruculuq işləri naminə fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

Cənab Prezident, bu gün Gürcüstan ilə Azərbaycan arasındakı dostluq, mehriban qonşuluq və strateji tərəfdaşlıq münasibətləri biz Gürcüstan azərbaycanlılarını, eləcə də gürcü ictimaiyyətini hədsiz dərəcədə sevindirir. Təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş müasir Azərbaycanın inkişafı, qüdrətlənməsi, eyni zamanda dünyada və regionda etibarlı tərəfdaş kimi qəbul olunması Sizin adınızla bağlıdır. Gürcüstanda yaşayan minlərlə azərbaycanlı gənc Sizin göstərişiniz və dəstəyinizlə bu ölkənin ali təhsil müəssisələrində təhsil alır və müasir gürcü cəmiyyətinə inteqrasiya edir.

Hörmətli cənab Prezident, 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan kimi qazandığınız şanlı və tarixi Qələbə Cənubi Qafqazda əməkdaşlıq, sülh və davamlı inkişaf üçün yeni münasibətlərin təməlini qoymuşdur. Sizin uzaqgörən siyasətiniz nəticəsində ordumuzun gücü və qüdrəti, xalqımızın birliyi Qarabağı bizə qovuşdurdu.

Möhtərəm Prezident, Sizi bir daha yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə və ailənizə xoşbəxt, firavan həyat, Odlar Yurdu Azərbaycanınızın inkişafı naminə fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

Biz birlikdə güclüyük!

*Dərin hörmətlə,*

***Məhəbbət İMANOV,***
***Gürcüstanda fəaliyyət göstərən "Borçalı-İrəli" İctimai Birliyinin İdarə Heyətinin sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Rusiyanın Rostov vilayətindəki Azərbaycan diasporunun üzvləri adından Sizi yubileyiniz münasibətilə təbrik edirəm.

Bu gün Azərbaycan öz inkişafının yeni mərhələsinə qədəm qoyub və bu, şübhəsiz ki, Ümummilli Lider Heydər Əliyevin başlatdığı işlərin layiqli davamçısı kimi Sizin xidmətlərinizdir.

Biz, Rostov vilayətində yaşayan azərbaycanlılar şahidik ki, Siz təkcə Azərbaycan vətəndaşlarının deyil, həm də xaricdə yaşayan soydaşlarımızın qayğısına qalırsınız. 1980-ci ildə Ulu Öndər Heydər Əliyevin sayəsində ərsəyə gəlmiş, 2011-ci ildə Sizin dəstəyinizlə təmir olunmuş və azərbaycanlılar üçün də müqəddəs məkana, millətlərarası dostluğun simvoluna çevrilmiş "Sambek yüksəklikləri" hərbi-tarixi muzey kompleksi bu qayğının bariz nümunəsidir.

Azərbaycanın, onun vətəndaşlarının və xaricdəki soydaşlarımızın rifahı naminə fəaliyyətinizdə Sizə möhkəm cansağlığı, tükənməz enerji arzulayırıq.

*Hörmətlə,*

***Fuad İBRAHİMOV,***
***Rusiyanın Rostov vilayətindəki Azərbaycan diasporunun nümayəndəsi***

❖ ❖ ❖

Hörmətli Prezident, cənab Ali Baş Komandan!

Qafqaz Müsəlmanları İdarəsinin Türkiyə nümayəndəliyi olaraq Sizi 60 illik yubileyiniz münasibətilə təbrik etməkdən sevinc və qürur duyuruq.

Siz təkcə Azərbaycanın deyil, türk və İslam dünyasının iftixar mənbəyisiniz. Çünki Siz illərlə qələbə xəbəri gözləyən türk və İslam dünyasına Zəfər qürurunu yaşatdınız. Sağ olun, var olun!

Hörmətli Ali Baş Komandan, Siz qədirbilən Azərbaycan xalqının zati-alinizə olan inamı, sevgisi, dəstəyi ilə dövlət-xalq birliyini təmin etdiniz, möhkəmləndirdiniz, ordunu müasirləşdirdiniz. Bunun sayəsində tarixə qızıl hərflərlə yazılan böyük uğur, parlaq Zəfər qazandınız. Siz Azərbaycanı beynəlxalq aləmdə layiq olduğu səviyyəyə çatdırdınız. Artıq Azərbaycan daha qüdrətli, daha çox söz sahibi olan dövlətdir.

Cənab Prezident, Sizin rəhbərlik etdiyiniz qalib ölkənin qardaş Türkiyədə təmsilçisi olmağımın qürurunu xüsusilə yaşayıram. Allah Sizi qorusun! Möhtəşəm zəfərləriniz davamlı olsun!

Sizi bir daha ürəkdən təbrik edir, cansağlığı arzulayır, ən yüksək ehtiramımı çatdırıram.

*Hörmətlə,*

***Bünyamin ÇİL,***
***Qafqaz Müsəlmanları İdarəsinin Türkiyə üzrə səlahiyyətli nümayəndəsi***

Milli Məclisin iclasında

# 2021-ci ilin payız sessiyası başa çatdı




Dekabrın 30-da Milli Məclisin 2021-ci ildə son iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasın gündəliyi qəbul edildikdən sonra Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, ənənəyə uyğun olaraq hər il Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində Milli Məclis dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımıza və həmvətənlərimizə müraciət qəbul edir. Sədrin təklifi ilə Milli Məclis Sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimlinin sədrliyi ilə 7 nəfərdən ibarət Redaksiya komissiyası yaradılıb. Fəzail İbrahimli komissiyanın sədri, Eldar Quliyev, Afət Həsənova, Ceyhun Məmmədov, Könül Nurullayeva, Şahin Seyidzadə və Elşən Musayev komissiyanın üzvləri təyin ediliblər.

Sonra iclasda cari məsələlərin müzakirəsinə başlanılıb.

Komitə sədri Zahid Oruc, deputatlardan Hikmət Məmmədov, Fazil Mustafa, Məlahət İbrahimqızı, Razi Nurullayev, Aydın Hüseynov, Nurlan Həsənov, Naqif Həmzəyev, Emin Hacıyev, Cavid Osmanov ölkə rəhbərliyini və xalqımızı qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik ediblər, 2021-ci ilin yekunları ilə bağlı fikirlərini açıqlayıblar.

Bildirilib ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan çox uğurlu bir yol keçib. 2021-ci il həm diplomatik müstəvidə, həm regionların inkişafı baxımından, habelə işğaldan azad edilmiş ərazilərimizdə yenidənqurma və bərpa işlərinin aparılması sahəsində, dövlətin iqtisadi potensialının artırılması baxımından çox əhəmiyyətli il olub. Qeyd olunub ki, Milli Məclisin Sədri Sahibə Qafarovanın rəhbərliyi ilə Azərbaycan parlamenti də xeyli uğurlar əldə edib. Dövlət başçısının təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsinin təsis olunması və bu işdə parlament rəhbərliyinin əməyi yüksək qiymətləndirilib.

Çıxışlarda cari ildə Azərbaycan tarixində baş vermiş önəmli hadisələrdən, o cümlədən mühüm əhəmiyyət kəsb edən Şuşa Bəyannaməsinin imzalanması, tarixi ədalətin təntənəsi olaraq Zəfər yolunun açılışı, Füzuli Beynəlxalq Hava Limanının açılışı, habelə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının İstanbulda keçirilən zirvə toplantısı və bu görüşdə qurumun adının Türk Dövlətləri Təşkilatı kimi təqdim edilməsi barədə söhbət açılıb. Prezident İlham Əliyev tərəfindən imzalanmış sərəncam və fərmanların Azərbaycan vətəndaşlarının sosial müdafiəsinin gücləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəliyə 9 məsələ daxil edilib. Bunlardan 2-si Milli Məclisin qərar layihələridir, 4-ü beynəlxalq sazişlərdir, 1-i üçüncü oxunuşda, 2-si isə bir oxunuşda qəbul ediləcək qanun layihələridir.

Parlamentin sədri bildirib ki, birinci məsələ İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının tərkibində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərar layihəsidir. "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası qanununun tələbinə görə, İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvləri Milli Məclisdə seçilir. Bu il həmin Yayım Şurasının üç üzvünün səlahiyyət müddəti başa çatıb. Bununla əlaqədar Sahibkarlar Şurası, gənclər təşkilatları və qadın cəmiyyətləri tərəfindən Milli Məclisə namizədlər təqdim edilib. Hər bir qurum iki namizəd təqdim edib.

Sonra məsələ barədə Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva məlumat verib. Qeyd olunub ki, "İctimai televiziya və radio yayımı haqqında" qanunun 17.4-cü maddəsinə uyğun olaraq, İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasına Sahibkarlar Şurası, gənclər təşkilatları və qadın cəmiyyətləri tərəfindən irəli sürülmüş namizədlərin 6 illik səlahiyyət müddəti başa çatdığına görə, yeni namizədlərin irəli sürülməsi ilə bağlı Milli Televiziya və Radio Şurası tərəfindən müvafiq təşkilati tədbirlər görülüb.

Bildirilib ki, Sahibkarlar Şurası, gənclər təşkilatları və qadın cəmiyyətləri tərəfindən irəli sürülmüş namizədlər arasından hər təşkilatdan bir nəfər olmaqla 6 il müddətinə İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvlərinin təsdiq edilməsi üçün lazımi tədbirlərin görülməsi xahiş olunur.

Müzakirələr zamanı çıxış edən komitə sədri Siyavuş Novruzov, deputatlardan Fazil Mustafa, Etibar Əliyev, Pərvin Kərimzadə, Sahib Alıyev, Hikmət Məmmədov, Fəzail Ağamalı İctimai Televiziyanın fəaliyyəti ilə bağlı öz fikirlərini səsləndiriblər, qeyd və təkliflərini bildiriblər.

Sonra səsvermə nəticəsində təqdim olunan namizədlərdən Sahibkarlar Şurası tərəfindən Vüqar Zeynalov, gənclər təşkilatları tərəfindən Azər Əliyev, qadın cəmiyyətləri tərəfindən Sevil Yusifova İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvləri seçiliblər.

İclasda Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya qanununun tələbinə əsasən, beynəlxalq sazişlərlə bağlı növbəti qanun layihələri bir oxunuşda qəbul ediləcək.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov "Azərbaycan Respublikası və Dünya Bankı Qrupu Təşkilatları arasında Azərbaycan Respublikasında Ofislərin Qurulmasına və Fəaliyyətinə dair" Sazişin təsdiq edilməsi haqqında qanun layihəsi barədə məlumat verib.

Bildirilib ki, saziş 2021-ci il noyabrın 18-də Bakı şəhərində imzalanıb. Sazişdə Azərbaycan Hökuməti ilə Dünya Bankı arasında əməkdaşlıq imkanları, eyni zamanda Dünya Bankına daxil olan qurumların ölkəmizdə ofislərinin yaradılması və fəaliyyəti öz əksini tapıb. Sənəddə Azərbaycan Respublikasının Dünya Bankı Qrupu Təşkilatlarının - Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB), Beynəlxalq İnkişaf Assosiasiyası (BİA), Beynəlxalq Maliyyə Korporasiyası (İFC) və Çoxtərəfli İnvestisiyalar üzrə Zəmanət Agentliyinin (MİGA) üzvü olması, bu təşkilatların Azərbaycan Respublikası üçün mütləq olan müvafiq Saziş Maddələrinə və Çoxtərəfli İnvestisiyalar üzrə Zəmanət Agentliyinin Təsisi haqqında Konvensiyaya qoşulması qeyd olunur, ofislərin Azərbaycan Respublikasında statusunun, imtiyaz və immunitetlərinin müəyyənləşdirilməsi və Dünya Bankı Qrupu Təşkilatlarına Azərbaycanda öz məqsədlərini və funksiyalarını yerinə yetirmək üçün imkanların yaradılması niyyəti bildirilir.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov rəhbərlik etdiyi komitənin sənədlə əlaqədar müsbət rəyini bildirilib.

Qanun layihəsi səsə qoyularaq bir oxunuşda qəbul edilib.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Məzahir Əfəndiyev növbəti məsələni - "Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihəsini təqdim edib. Bildirilib ki, iki ölkənin gömrük orqanları arasında inkişaf perspektivləri genişlənir və bu istiqamətdə atılacaq addımlar qarşılıqlı ticarət dövriyyəsinin artmasına da müsbət təsir göstərəcək.

2021-ci il noyabrın 15-də Ər-Riyad şəhərində imzalanmış sənəddə malların ixracı və ya idxalı zamanı tətbiq edilən gömrük rüsumlarının, vergilərin, digər ödənişlərin dəqiq qiymətləndirilməsinin, qadağa, məhdudiyyət və nəzarət tədbirlərinin düzgün icrasının təmin edilməsinin əhəmiyyəti bildirilir və tərəflərin qoşulduğu beynəlxalq konvensiyalar nəzərə alınaraq müvafiq maddələrdə təsbit olunan məsələlərlə bağlı razılıq əldə edilir.

Komitə sədri Səməd Seyidov sazişə dair Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin də müsbət rəyinin olduğunu deyib.

Qanun layihəsi səsə qoyularaq bir oxunuşda qəbul olunub.

Daha sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Elnur Allahverdiyev "Sellülyar səyyar rabitə sistemlərinin inkişaf etdirilməsində və onlardan istifadə olunmasında əməkdaşlıq haqqında 1997-ci il 17 yanvar tarixli Sazişə dəyişikliklər edilməsi barədə Protokol"un təsdiq edilməsi haqqında qanun layihəsindən bəhs edib. Diqqətə çatdırılıb ki, adı çəkilən saziş 1997-ci il yanvarın 17-də Moskva şəhərində Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının iclasında imzalanıb. Sazişin məqsədi rabitə sistemlərinin inkişafı və dövlətlərarası rabitə xidmətləri bazarının təkmilləşdirilməsi sahəsində MDB ölkələrinin əməkdaşlığını təmin etməkdir.

Bildirilib ki, sazişə təklif olunan dəyişikliklərdə telefon rabitəsində, məlumatların ötürülməsində, internetə çıxışda müasir rəqəmsal standartların yaratdığı yeni imkanların səyyar radiotelefon rabitəsi sahəsində nəzərə alınması üçün MDB dövlətlərinin mobil radiotelefon rabitəsi sahəsində qarşılıqlı fəaliyyətinin genişləndirilməsi nəzərdə tutulur.

Sənədə əsasən, tərəflər həmçinin mobil rabitə sistemlərindən istifadədə göstərilən transsərhəd xidmətlərin inkişafına kömək etmək, rabitə operatorları üçün xidmətlərin göstərilməsi üzrə fəaliyyətlərin tənzimlənməsini sadələşdirmək və sərhədyanı stansiyalarından gələn siqnalın gücünün tənzimlənməsi üzrə tədbirlər görmək niyyətindədirlər. Bundan əlavə, təhlükəsizlik sahəsində aktual problemlərin, o cümlədən mobil radiotelefon şəbəkələri vasitəsilə ötürülən qeyri-qanuni və aşağıkeyfiyyətli trafik nəticəsində yaranan maliyyə itkiləri ilə bağlı problemlərin həllində əməkdaşlıq da nəzərdə tutulur.

Məsələ ilə bağlı çıxış edən Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov bildirib ki, qanun layihəsi qeyd-şərtlə qəbul olunur. Qeyd edilib ki, biz ölkənin ərazi bütövlüyü ilə əlaqədar olaraq qanun layihələrinə qeyd-şərt daxil edirdik. Artıq torpaqlarımız azaddır və hazırda qeyd-şərt Azərbaycanla Ermənistan arasında olan münasibətlərə aiddir və bu, çox vacib məsələdir. Hər bir qanunda belə qeyd-şərtin olması gələcəkdə məsələlərin öz həllini tapmasına xidmət edir.

Qanun layihəsi səsə qoyularaq bir oxunuşda qəbul edilib.

Sonra komitə sədri Səməd Seyidov "Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında ümumvətəndaş pasportlarına malik şəxslərin viza tələbindən azad edilməsi haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihəsi barədə məlumat verib. Bildirilib ki, bu, Azərbaycan pasportunun güclənməsini göstərən vacib qanun layihəsidir.

Sənədə əsasən, tərəflər arasındakı dostluq münasibətlərini daha da inkişaf etdirmək niyyəti ilə, ümumvətəndaş pasportlarına malik olan şəxsləri viza tələbindən azad etməklə öz vətəndaşları üçün səyahəti və hər iki ölkədə qısamüddətli qalmanı asanlaşdırmaq məqsədilə razılıq əldə edilib. Sazişdə qeyd olunur ki, hər iki ölkənin yuxarıda göstərilən pasportlara malik olan vətəndaşları qarşı tərəfin ərazisinə vizasız daxil ola, tranzit keçə, oranı tərk edə və orada 30 gün müddətində qala bilərlər.

Qanun layihəsi səsə qoyularaq bir oxunuşda qəbul edilib.

Sonra iclasda üçüncü oxunuşda "Media haqqında" qanun layihəsinə baxılıb. Parlamentin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, bugünkü iclasda media təşkilatlarının və müxtəlif media orqanlarının rəhbərləri və təmsilçiləri iştirak edirlər. Milli Məclisin Sədri qeyd edib ki, iki gün əvvəl qanun layihəsi ilə bağlı Milli Məclisin iki komitəsinin və media nümayəndələrinin iştirakı ilə növbəti geniş dinləmələr keçirilib.

İclasda "Media haqqında" qanun layihəsini üçüncü oxunuşda İnsan hüquqları komitəsinin sədri Zahid Oruc təqdim edib. Bildirilib ki, layihə sağlam jurnalistikanın gücləndirilməsinə yönəlib. Avropa Şurasının Venesiya Komissiyası hazırkı layihənin bazasında hazırlanmış iki qanuna - "KİV haqqında" və "Teleradio yayımı haqqında" qanunlara müsbət rəy verib və Milli Məclis vahid sənəddə birləşdirdiyi və yeni tənzimləyici normalar əlavə etdiyi sənədi yasaqlayıcı saymır və istənilən beynəlxalq təşkilatla bu yöndə diskussiyalara hazırdır. O da diqqətə çatdırılıb ki, media şirkətləri öz reportajlarını və digər məlumatlarını yaymaq üçün sosial media platformaları da daxil olmaqla, bütün kommunikasiya mexanizmlərindən istifadəyə davam edəcəklər, çünki layihə sosial şəbəkə və yutub kanallarını tənzimləmir. Qeyd edilib ki, jurnalistlər üçün Media Reyestrində qeydiyyat məcburi deyil, istəyə bağlıdır. Müstəqil bloqerlər məhdudiyyətsiz fəaliyyətlərini davam etdirə bilərlər. Sənəddə bütün jurnalistləri yalnız vahid vəsiqə altına yığmaq məqsədi qarşıya qoyulmayıb. Burada könüllülük prinsipi seçilib. Komitə sədri heç bir partiyanın və dini qurumların informasiya məkanına çıxışını məhdudlaşdırmaq üçün yeni normaların yaradılmadığını da söyləyib.

Sonra komitə sədri "Media haqqında" qanun layihəsinə maddələr üzrə təklif olunan dəyişikliklər barədə məlumat verib. Diqqətə çatdırılıb ki, sənədin 13.3-cü maddəsinə informasiya agentliklərinin təklifinə əsasən, media subyektləri üçün informasiya agentliklərinin məlumatlarından istifadə zamanı istinad göstərmək öhdəliyini daha aydın müəyyən etmək üçün "istinadla bağlı tələb istisna olmaqla" sözlərinin əlavə edilməsi təklif olunub. 14.1.11-ci maddədə "faktlar və hadisələr qərəzsiz və obyektiv şərh olunmalı, birtərəfliliyə yol verilməməlidir" cümləsində media nümayəndələrinin təklifi ilə "şərh olunmalı" sözləri "təqdim olunmalı" sözləri ilə əvəzlənib.

Qeyd edilib ki, layihəyə əlavə olunan yeni 30.8-ci maddədə dəqiq göstərilib ki, "Birbaşa internet üzərindən audiovizual proqramlar yayımlayan şəxslər yalnız öz müraciətləri əsasında platforma yayımçısı lisenziyası ala bilərlər". Bunun davamı olaraq 30.2-ci maddədə də bildirilir ki, internet televiziyaları istisna olmaqla digər platforma yayımçıları lisenziya əsasında fəaliyyət göstərir.

Növbəti dəyişikliklə bağlı bildirilib ki, proqramların istehsalında istifadə olunan hər hansı bir texniki avadanlığın uyğunluğunun qiymətləndirilməsi bu layihənin predmeti olmadığı üçün qanun layihəsinin 36-cı maddəsinin "proqramların istehsalı, ötürülməsi və yayımlanmasını" ifadəsində "istehsalı" sözü çıxarılıb.

Məlumat verilib ki, 39.1.2-ci maddədə edilən dəyişiklik 2017-ci ildə qəbul olunmuş "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanunun müddəaları ilə uyğunlaşdırma xarakteri daşıyır. Milli qanunvericilikdəki yeni yanaşma nəzərə alınaraq, 39.1.2-ci maddənin "tütün istifadəsi prosesinin açıq nümayiş etdirildiyi proqramlarda tütündən istifadənin sağlamlığa və ətraf mühitə zərərli təsiri barədə xüsusi xəbərdaredici məlumatların verilməsini təmin etmək" müddəasından "açıq" sözü çıxarılıb.

Həmçinin normativ hüquqi akt layihəsinin qəbul olunma prosedurunun yekunlaşacağı vaxtın əvvəlcədən müəyyən edilməsi çoxsaylı müzakirələrə səbəb olduğundan müvafiq 78.4-cü maddə layihədən çıxarılıb.

Bundan başqa, sənədə 78.6-cı maddə əlavə olunub. Yeni maddəyə əsasən, bu Qanunun 26.3.1-ci və 74.2.3-cü maddələri qanun qüvvəyə mindikdən sonra yaranmış hallara şamil olunur. Qeyd edilib ki, layihənin müvafiq maddələrində ağır və ya xüsusilə ağır cinayətlərə, habelə ictimai mənəviyyat əleyhinə olan cinayətlərə görə əvvəllər məhkum edilmiş şəxslərə münasibətdə media subyekti təsis etməyi və jurnalist kimi Media Reyestrinə daxil olunmağı qadağan edən normaların qanunun qəbulundan əvvəl yaranmış münasibətlərə də şamil olunacağına dair fikirlərin qarşısını almaq üçün sözügedən müddəanın təsbiti məqsədəuyğun sayılıb.

Bildirilib ki, son dəyişiklik 26.3-cü maddə ilə bağlıdır. Belə ki, 26.3.4-cü və 26.3.5-ci maddələrin "Siyasi partiyalar və dini qurumlar yalnız çap mediasının təsisçisi (iştirakçısı) ola bilərlər" məzmununda 26.4-cü maddə ilə əvəzlənməsi məqsədəmüvafiq hesab edilib.

*Ardı 5-ci səh.*

## Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Azərbaycan Respublikası Milli Məclisinin müraciəti

***Əvvəli 1-ci səh.***

Bakıda dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi, xaricdə yaşayan azərbaycanlılarla iş üzrə dövlət qurumunun yaradılması sayına və intellektual potensialına görə dünyanın böyük millətləri ilə bir sırada dayanan xalqımızın mütəşəkkil qüvvə kimi formalaşmasına güclü təkan vermişdir.

Dövlət müstəqilliyimizlə yaşıd olan bu proses sonrakı mərhələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilmiş, diaspor siyasəti vahid dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir.

Əziz həmvətənlər!

Xalqımız 30 il ərzində Qarabağın işğaldan qurtarılacağı, doğma torpaqlarımıza qayıdacağımız günün həsrəti ilə yaşamışdır. Artıq bu həsrətə son qoyulmuş, dünyanın müxtəlif ölkələrində yaşayan 50 milyondan çox azərbaycanlının Qarabağı azad, Vətəni bütöv görmək kimi müqəddəs arzusu gerçəkləşmişdir. Yola salmaqda olduğumuz 2021-ci il Vətən müharibəsi nəticəsində azad edilmiş Qarabağa Böyük Qayıdışın başlanması ilə əlamətdar olmuşdur. Bu imkanı xalqımıza Müzəffər Ali Baş Komandan İlham Əliyev və yenilməz Ordumuzla bərabər dünya azərbaycanlılarının birliyi qazandırmışdır.

Həmin tarixi günlərdə dünyanın müxtəlif ölkələrində diaspor təşkilatlarımızın, icmalarımızın, fəalların necə fədakarlıqla və mütəşəkkil qaydada erməni yalanlarına ardıcıl, tutarlı cavablar verdiklərinin, xalqımızın haqq işini dəstəkləmək üçün çoxsaylı tədbirlər, yürüşlər, piketlər keçirdiklərinin, mümkün olan bütün vasitələrlə qələbəmizə töhfə verdiklərinin şahidi olduq. Həmvətənlərimizin Azərbaycan Prezidentinin rəhbərliyi altında əzəli və doğma torpaqlarımızda başlanmış bərpa-quruculuq işlərində fəal iştirak edəcəklərinə, Qarabağın, Şərqi Zəngəzurun dirçəldilməsinə layiqli töhfələr verəcəklərinə də inanırıq.

Dəyərli soydaşlarımız!

Bu gün Cənubi Qafqazın lider dövləti kimi bu bölgənin geosiyasi mənzərəsinin müəyyənləşməsində söz sahibi olan Azərbaycan Respublikası dünyanın iqtisadi cəhətdən ən dinamik inkişaf edən ölkələri sırasındadır. Son illərdə Azərbaycanın hərtərəfli və ardıcıl inkişafı, hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolunda qazandığı uğurlar onun dünyadakı nüfuzunu daha da artırmışdır.

Dövlətimizin uğurları dünya azərbaycanlılarını qəlbən sevindirir, soydaşlarımızı ümumxalq mənafeləri naminə daha sıx birləşməyə, ümid və istinad yeri, ata-baba yurdları olan doğma Vətənin tərəqqisində fəal iştirak etməyə ruhlandırır. Son vaxtlar diaspor və icmalarımızın daha da inkişaf edib möhkəmlənməsi, soydaşlarımızın siyasi, iqtisadi, sosial və mədəni hüquqlarının müdafiəsi işinə yaxından cəlb olunmaları da sevindiricidir.

Azərbaycan Respublikasının dünyanın qabaqcıl və inkişaf etmiş ölkələri sırasında, azadlıq və firavanlıq şəraitində daim irəliləməsi xalqımızın birliyindən çox asılıdır. Bu birliyin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlılarının mütəşəkkil qüvvəyə çevrilməsi üçün görəcəyimiz işlər də az deyil.

Əziz həmvətənlərimiz! Dəyərli soydaşlarımız!

Sizi ümummilli məqsədlərimizin gerçəkləşməsi naminə daha sıx birliyə çağırır, xalqımızın mənafelərinin qorunması uğrunda fəal mübarizəyə səsləyirik. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni 2022-ci ilin gəlişi münasibəti ilə hamınızı səmimi-qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, ailə səadəti, doğma Azərbaycanımıza yeni qələbə sevincləri, nurlu sabahlar arzulayırıq!

**(Müraciət Azərbaycan Respublikası Milli Məclisinin 2021-ci il 30 dekabr tarixli iclasında qəbul edilmişdir).**

Milli Məclisin iclasında

# 2021-ci ilin payız sessiyası başa çatdı





*Əvvəli 4-cü səh.*

Zahid Oruc çıxışının sonunda işçi qrupunun rəhbəri Əhməd İsmayılova, Teleradio Şurasının sədri İsmət Səttarova, Milli Məclis Aparatına qanun layihəsinin hazırlanmasında göstərdikləri xidmətlərinə görə təşəkkürünü ifadə edib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli rəhbərlik etdiyi komitə üzvlərinin layihə ilə bağlı bütün mərhələlərdə gedən proseslərdə aktiv iştirak etdiyini bildirib.

Sonra qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

İclasda iştirak edən Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov "Media haqqında" qanun layihəsinin cəmiyyət üçün müstəsna əhəmiyyətini nəzərə alaraq, onun ətrafında Milli Məclis səviyyəsində dəfələrlə müzakirələrin təşkil olunmasına, həmçinin çoxsaylı media nümayəndələrinin və ekspertlərin bu müzakirələrdə iştirakına göstərilən xüsusi diqqətə görə minnətdarlığını ifadə edib. Qanun layihəsinin işçi qrupunda hazırlanması, Milli Məclisdə müzakirələr zamanı layihənin təkmilləşdirilməsi istiqamətində verdikləri töhfələrə görə parlamentin Hüquq siyasəti və dövlət quruculuğu və İnsan hüquqları komitələrinin sədrlərinə, müzakirələrdə fəal iştirak etdiklərinə görə bütün deputatlara təşəkkürünü bildirib.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Anar Məmmədov Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi ilə bağlı məlumat verib. Bildirilib ki, ölkəmizdə 2020-ci il yanvarın 1-dən icbari tibbi sığortanın tətbiqinə başlanıb. İcbari tibbi sığorta çərçivəsində tibbi xidmətlər icbari tibbi sığorta fondunun vəsaiti hesabına maliyyələşdirilir. 2020-ci il yanvarın 1-dən 2 il müddətinə bu vəsaitlər hesabına tibbi xidmətlərin göstərilməsi ƏDV-dən azad edilib. Qanun layihəsində qeyd olunan müddətin daha bir il uzadılması nəzərdə tutulur.

Deputat Elşad Mirbəşir çıxış edərək qanun layihəsini təqdir edib, bunu dövlətimiz tərəfindən növbəti humanist addım kimi qiymətləndirib, bir sıra təkliflərini səsləndirib.

Qanun layihəsi səsə qoyularaq bir oxunuşda qəbul edilib.

Sonra Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini təqdim edib. Bildirib ki, Mənzil Məcəlləsində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi hallar var, lakin qaydalar qeyd olunmayıb. Bu qaydalar ölkə Prezidentinin tapşırığına əsasən Nazirlər Kabineti tərəfindən hazırlanacaq. Buna görə də Məcəllənin 146.4-cü maddəsinə "qaydalar" sözünün əlavə edilməsi təklif olunur.

Qanun layihəsi səs qoyularaq bir oxunuşda qəbul edilib.

Sonra Sahibə Qafarova bildirib ki, gündəliyin 9-cu məsələsi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibəti ilə Azərbaycan Respublikası Milli Məclisinin Müraciəti haqqındadır. Qeyd edib ki, artıq komissiya öz işini bitirib və müraciətin mətni hazırdır.

İclasda deputat Könül Nurullayeva Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibəti ilə Milli Məclisin Müraciətini oxuyub.

Parlamentin komitə sədri Hicran Hüseynova, deputatlardan Aydın Hüseynov, Nizami Cəfərov məsələ ilə bağlı fikirlərini söyləyiblər, qeyd və təkliflərini bildiriblər.

Milli Məclis Sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin, həmçinin müraciətin hazırlanması üzrə Redaksiya komissiyasının sədri Fəzail İbrahimli Milli Məclisin müraciəti barədə öz düşüncələrini açıqlayıb, səsləndirilən fikirlərə münasibət bildirib.

Müzakirələrin sonunda Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Azərbaycan Respublikası Milli Məclisinin Müraciəti səsə qoyularaq qəbul edilib.

*(Müraciətin mətni qəzetin bugünkü nömrəsində təqdim olunur).*

Gündəlikdəki məsələlərin müzakirəsi başa çatdıqdan sonra Mili Məclisin Sədri Sahibə Qafarova bildirib ki, bu gün payız sessiyasının son iclasıdır. Biz həm payız sessiyasına, həm də ilə yekun vururuq.

Parlamentin Sədri sessiya dövründə və 2021-ci il ərzində görülmüş işlər haqqında qısa məlumat verərək bildirib ki, Milli Məclisin 2021-ci il payız sessiyasında 16 plenar iclas keçirilib, 91 qanun və 11 qərar, o cümlədən 1 Konstitusiya qanunu qəbul olunub, 71 qanunda dəyişiklik edilib. Ümumilikdə 2021-ci ildə 38 plenar iclas keçirilib, 189 qanun və 33 qərar, o cümlədən 2 Konstitusiya qanunu qəbul olunub, 154 qanunda dəyişiklik edilib.

Sahibə Qafarova bu qanun və qərarların arasında yeni qəbul edilən "Müstəqillik günü haqqında" qanunu, "8 noyabr - Zəfər Günü münasibəti ilə amnistiya elan edilməsi haqqında" Milli Məclisin Qərarını, "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında", "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında", "Turizm haqqında" qanunları, bu gün qəbul edilən "Media haqqında" qanunu, 22 qanundan ibarət dövlət büdcəsi zərfini xüsusi qeyd edib. Bildirib ki, dövlət büdcəsi zərfinə daxil olan həmin 22 qanunun əksəriyyəti sosial məsələlərlə bağlı qanunlar olub.

Diqqətə çatdırılıb ki, Milli Məclis 2021-ci ildə Konstitusiya ilə nəzərdə tutulan qanunvericilik səlahiyyətlərini tam həcmdə yerinə yetirib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uzaqgörən daxili və xarici siyasətini parlament səviyyəsində dəstəkləmək üçün zəruri işlər həyata keçirilib.

Milli Məclis Vətən müharibəsinin başlanmasının ildönümü, 27 Sentyabr - Anım Günü və müharibədə əldə edilmiş böyük qələbə, 8 noyabr Zəfər Günü münasibəti ilə bəyanatlar qəbul edib. Həmin bəyanatlarda Azərbaycan xalqının son 200 ildə yaşadığı faciələrə münasibət bildirilib, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərkərdəlik və siyasi, diplomatik məharəti nəticəsində Vətən müharibəsində qazanılmış böyük qələbə ilə Azərbaycanın ərazi bütövlüyünün bərpa olunduğu qeyd edilib. Eyni zamanda, bu qələbədən sonra əzəli və tarixi torpağımız olan Qarabağın həyatında yeni dövr - bərpa və quruculuq dövrünün başlanması, Azərbaycanın Cənubi Qafqaz bölgəsində yeni geosiyasi reallıq yaratması vurğulanıb.

Sahibə Qafarova qeyd edib ki, həmin bəyanatlar ingilis dilinə tərcümə olunaraq 82 ölkənin parlamentinə və 11 beynəlxalq parlament təşkilatına göndərilib. Ayrıca olaraq Milli Məclis tərəfindən 82 ölkənin parlamentinə müvafiq məktublar ünvanlanıb. Həmin məktublara cavab olaraq 30-a yaxın ölkənin parlamentindən və bir sıra beynəlxalq parlament təşkilatından Milli Məclisə təbrik və dəstək xarakterli məktublar daxil olub. Zəfər Günü münasibəti ilə bir sıra ölkələrin elm və ictimai-siyasi xadimlərindən də təbrik məktubları almışıq.

Eyni zamanda, Milli Məclis tərəfindən 14 xarici ölkədə və ölkə daxilində Anım və Zəfər günlərinə həsr edilmiş bir sıra tədbirlər, o cümlədən müxtəlif universitetlərlə birgə konfranslar təşkil edilib.

Milli Məclisin deputatları Vətən müharibəsi şəhidlərinin, həmçinin müharibə dövründə erməni silahlı birləşmələri tərəfindən raketlər atılması nəticəsində həlak olanların ailələri və qazilərlə çoxsaylı görüşlər keçirmiş, şəhidlərimizin ildönümü, adlarının əbədiləşdirilməsi və digər tədbirlərdə fəal iştirak ediblər. Deputatlarımız, ümumən, 2200-dən çox bu cür tədbirdə iştirak ediblər.

İl ərzində Milli Məclisin əməkdaşlıq etdiyi ölkələrin parlamentlərinə və beynəlxalq parlament təşkilatlarına Milli Məclisin Sədri və müvafiq komitə rəhbərləri tərəfindən 635 məktub göndərilib. Eyni zamanda, Milli Məclisin Sədri və deputatlarımız yerli və xarici kütləvi informasiya vasitələrində müntəzəm çıxışlar ediblər, 2021-ci il ərzində deputatlarımız xarici ölkələrdəki həmkarları ilə 75 canlı, 152 onlayn görüş keçirmiş və telefon danışıqları aparmış, xalqımızın haqq işinə beynəlxalq dəstəyi təmin etmək üçün hər bir imkandan istifadə ediblər.

S.Qafarova bildirib ki, Milli Məclisin deputatlarının il ərzində seçki dairələrində öz seçiciləri ilə 5538 səyyar və onlayn görüşü keçirilib.

Milli Məclisin yaz və payız sessiyalarının iclaslarında Nazirlər Kabinetinin və Hesablama Palatasının 2020-ci ildə fəaliyyətləri haqqında illik hesabatlar, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun və Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının illik məlumatları, İnsan hüquqları üzrə müvəkkilin və bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən müvafiq qurumun illik məruzələri dinlənilib və nəzərə alınıb, 2022-ci ilin dövlət büdcəsi müzakirə və qəbul edilib.

Sahibə Qafarova iyunun 16-da Azərbaycan parlamentinin tarixi bir gün yaşadığını xatırladıb. Bildirib ki, həmin gün ölkəmizdə rəsmi səfərdə olan türk dünyasının böyük siyasi və dövlət xadimi, qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan parlamentində çıxış edib. Bu çıxış 44 günlük Vətən müharibəsində olduğu kimi, Türkiyə Cümhuriyyətinin Prezidentinin, türk xalqının bu gün də Azərbaycanın yanında olmasını, Türkiyə-Azərbaycan dostluğu və qardaşlığının əbədi və sarsılmaz olduğunu göstərdi.

Parlamentin Sədri 2021-ci il iyul ayının 27-də Milli Məclisdə Azərbaycan, Türkiyə və Pakistan parlament sədrlərinin Üçtərəfli Bakı Bəyannaməsinin imzalanmasını da yola saldığımız ilin ən mühüm uğurlarından biri kimi qiymətləndirib. Vurğulayıb ki, xalqlarımızın ortaq maraqlarına xidmət edən Bakı Bəyannaməsi qardaş ölkələrimizin parlamentləri arasında əməkdaşlığın daha da genişləndirilməsini, tarixi qardaşlıq və dostluq münasibətlərinin inkişaf etdirilməsini nəzərdə tutur. Eyni zamanda, bu strateji sənədin imzalanması ilə Milli Məclis ilk dəfə olaraq yeni, üçtərəfli əməkdaşlıq formatını tətbiq etdi.

Milli Məclisin Sədri qeyd edib ki, Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun, Pakistan İslam Respublikası Milli Assambleyasının sədri Əsəd Qeysərin və onun rəhbərlik etdiyi nümayəndə heyətlərinin Şuşaya səfəri də çox təsirli və faydalı olub. Səfər zamanı qonaqlar ermənilərin 30 il ərzində işğal altında saxladıqları ərazilərimizi, kənd və şəhərlərimizi necə viran qoyduqlarının şahidi olublar. Onlar bu gün Azərbaycanın həmin torpaqlarda apardığı bərpa-quruculuq işlərini görüblər. Şuşa ziyarətinə rahat "Zəfər yolu" ilə getmələri, tikilməkdə olan Füzuli Beynəlxalq Hava Limanı, digər infrastruktur obyektləri ilə tanış olmaları qonaqlarda böyük təəssürat yaradıb. Nümayəndə heyətləri Şuşanın tarixi yerlərində, Ermənistanın işğalı dövründə dağıtdığı, hazırda bərpa və yenidənqurma işləri aparılan məsciddə olublar.

Sahibə Qafarova diqqətə çatdırıb ki, 2 ildən artıqdır ki, bütün dünyanın, o cümlədən Azərbaycanın pandemiya ilə mübarizə şəraitində yaşaması reallığı Milli Məclisin fəaliyyətinə öz təsirini göstərsə də, iş ahəngini qoruyub saxlamaq mümkün olub. Bu şəraitdə komitə və komissiyaların iclasları, əsasən, videokonfrans formatında keçirilsə də, canlı iclaslar da olub, 4 məsələ ilə bağlı dinləmələr baş tutub.

Pandemiya şəraitinə baxmayaraq, parlamentin beynəlxalq əlaqələrinin inkişafı sahəsində işlərdə ötən illə müqayisədə canlanma müşahidə edilib. Belə ki, payız sessiyası və ümumən 2021-ci il Milli Məclisin nümayəndə heyətlərinin xarici ölkələrə rəsmi və işgüzar səfərləri baxımından sıx və səmərəli olub. Milli Məclisin Sədri və deputatlarımız bir sıra xarici ölkələrə rəsmi və işgüzar qaydada baş tutmuş səfərlər zamanı konfrans, iclas, müzakirə formatında keçirilən tədbirlərdə iştirak və çıxış ediblər. Deputatlarımız həmçinin beynəlxalq təşkilatların, tərəfdaş parlamentlərin videokonfrans formatında baş tutmuş tədbir və toplantılarına qatılıblar.

S.Qafarova plenar iclaslar zamanı xarici ölkələrə səfərlər və onların nəticələri barəsində hər dəfə geniş məlumat verdiyinə görə təkrara yol verməmək üçün rəsmi və işgüzar səfərlərlə bağlı konkret statistikanı və qısa məlumatı da diqqətə çatdırıb.

Bildirib ki, 2021-ci ildə Milli Məclisin nümayəndə heyətinin onun rəhbərliyi altında xarici ölkələrə 15 rəsmi və işgüzar səfəri olub. Onların 5-i rəsmi, 10-u isə işgüzar səfər olub. Milli Məclis Sədrinin müavinlərinin 6 ölkəyə, deputatların isə 64 ölkəyə işgüzar səfəri baş tutub. Bu səfərlər zamanı Milli Məclisin Sədri və nümayəndə heyətlərimizin üzvləri çoxsaylı tədbirlərdə iştirak və çıxış ediblər.

Sahibə Qafarova qeyd edib ki, Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə aprelin 15-16-sı, oktyabrın 12-si və noyabrın 25-də parlament nümayəndə heyətinin işgüzar səfərləri zamanı MDB Parlament Assambleyasının 52-ci və 53-cü plenar iclaslarında, 3-cü Avrasiya Qadınlar Forumunda, həmçinin bir neçə beynəlxalq təşkilat tərəfindən təşkil edilən beynəlxalq konfranslarda çıxışları olub.

Nümayəndə heyətimiz iyunun 1-i və 2-də Pakistanın İslamabad şəhərində keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının İkinci Ümumi Konfransında aparılan müzakirələrdə fəal iştirak edib. Təşkilatçıların dəvəti ilə Milli Məclisin Sədri konfrans çərçivəsində keçirilən qadın parlament üzvlərinin iclasının ilk sessiyasına sədrlik edib.

S.Qafarova deyib ki, Milli Məclisin nümayəndə heyətinin Macarıstana rəsmi səfəri çərçivəsində, iyunun 29-da Türk Şurasının Budapeşt nümayəndəliyinin ofisində "2021-ci il - Nizami Gəncəvi ili"nə həsr olunmuş tədbirdə çıxış edib və Türk Şurasının öz strateji baxışını yaratması barədə fikirlərini bölüşüb. Həmin səfər çərçivəsində S.Qafarova deputat həmkarları ilə birlikdə ölkənin Baş naziri, xarici işlər naziri, spiker və dostluq qrupunun üzvləri ilə görüşlər keçirib.

Sahibə Qafarova bildirib ki, Milli Məclisin nümayəndə heyəti 2021-ci il sentyabrın 5-dən 9-dək Avstriyada işgüzar səfərdə olub. Səfər çərçivəsində Vyana şəhərində keçirilən parlament sədrlərinin 5-ci dünya konfransında "COVID-19 pandemiyasına qlobal cavab multilateralizmin insanlara yardımını çətinləşdirir" mövzusunda müzakirələrdə çıxışında o, COVID-19 pandemiyası ilə mübarizədə beynəlxalq ictimaiyyətin səylərinin artırılmasına böyük ehtiyac olduğunu bildirib və ölkəmizin bu bəlaya qarşı mübarizədə həyata keçirdiyi tədbirlər və qlobal miqyasda irəli sürdüyü təşəbbüslər barədə məlumat verib. Azərbaycan Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatı adından irəli sürdüyü, 150-dən çox dövlətin dəstəklədiyi təkliflə 2020-ci ilin dekabrında Nyu Yorkda BMT Baş Assambleyasının COVID-19 ilə mübarizəyə həsr edilmiş Xüsusi Sessiyasının keçirildiyini qeyd edib.

S.Qafarova qeyd edib ki, oktyabrın 20-dən 22-dək Yunanıstana işgüzar səfər zamanı Afina şəhərində keçirilən Avropa Şurasının üzvü olan ölkələrin Parlament Sədrlərinin Avropa Sammitində iştirakımız da çox səmərəli olub. 47 ölkənin parlament sədrlərinin qatıldığı konfransda Sahibə Qafarovanın 2 mövzu üzrə, "Demokratiya COVID-19 pandemiyasının səhiyyədə yaratdığı böhranla üz-üzə" və "Bütün Avropa vətəndaşlarının ümumi gələcəyi" mövzusunda çıxışı olub.

Milli Məclisin Sədri İspaniyanın paytaxtı Madrid şəhərində noyabrın 27-28-də keçirilən Parlamentlərarası İttifaqın 143-cü Assambleyasında "Demokratiyanın üzləşdiyi müasir çağırışlar" mövzusunda müzakirələri və Assambleya çərçivəsində Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsinin təsis edilməsi ilə əlaqədar iclası xüsusi qeyd edib.

Bildirib ki, Milli Məclisin Sədri kimi 50-yə yaxın ölkədən 200-ə qədər nümayəndənin iştirak etdiyi təsis iclasına sədrlik etmək, həqiqətən çox qürurverici idi. Çünki bu iclasda Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsinin təsis edilməsinə dair Madrid Bəyannaməsi qəbul olundu, Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan yeni beynəlxalq qurum tarixə Azərbaycanın adı ilə daxil oldu.

S.Qafarova Prezidentin bütün təşəbbüsləri kimi, yeni yaradılan beynəlxalq təsisatın fəaliyyətinin də uğurlu olacağına, üzv dövlətlərin parlamentləri arasında çoxistiqamətli əməkdaşlıq platforması rolunu oynayacağına inamını ifadə edib.

Diqqətə çatdırıb ki, Türkiyənin İstanbul şəhərində dekabrın 10-da keçirilən İslam Əməkdaşlığı Təşkilatı Parlament İttifaqının "Paylaşım, vicdan və İslam: Fələstin, miqrasiya və Əfqanıstan" mövzusuna həsr edilmiş 16-cı konfransı da xüsusi əhəmiyyət kəsb edirdi. Sahibə Qafarova həmin konfransdakı çıxışında təşkilatın üzvü olan ölkələr arasında inteqrasiya proseslərinin güclənməsinin bizim bölgələrimizin zəngin təbii ehtiyatlarının, nəqliyyat imkanlarının və intellektual potensialının daha səmərəli istifadəsinə kömək edəcəyini və digər məsələləri qeyd edib.

Milli Məclisin nümayəndə heyətinin mayın 17-dən 19-dək İtaliya Respublikasına, iyunun 28-dən 30-dək Macarıstan Respublikasına, avqustun 5-6-da İran İslam Respublikasına, sentyabrın 27-dən 29-dək Qazaxıstan Respublikasına, oktyabrın 7-dən 9-dək Slovakiya Respublikasına rəsmi səfərləri də çox səmərəli və uğurlu olub.

Sahibə Qafarova qeyd edib ki, xarici səfərlər zamanı nümayəndə heyətimizin səfər etdiyi ölkələrdə həmin ölkələrin yüksəkvəzifəli şəxsləri ilə onun rəsmi görüşləri baş tutub. Bu görüşlərdən 3-ü həmin ölkələrin prezidentləri, 2-si baş nazirləri, 35-i parlament sədrləri ilə keçirilib. Eyni zamanda, dost və tərəfdaş ölkələrin parlamentlərində fəaliyyət göstərən Azərbaycanla dostluq qruplarının üzvləri ilə də səmərəli görüşlər olub.

Milli Məclisin Sədri rəsmi və işgüzar səfərlər zamanı bütün görüşlərində və etdiyi çıxışlarda deputat həmkarları ilə birgə Azərbaycanın Vətən müharibəsində qazandığı inamlı qələbə ilə öz ərazilərini Ermənistan silahlı birləşmələrinin işğalından azad etməsi, ərazi bütövlüyünü, ədaləti bərpa etməsi, işğalın nəticələrinin aradan qaldırılması üçün artıq irimiqyaslı proqramların icrasına başlamasının bütün çıxışlarda qırmızı xətt kimi keçdiyini vurğulayıb.

Milli Məclisin Sədri deyib ki, 2021-ci il ərzində Milli Məclisdə 3 ölkənin parlament sədrini, 1 ölkənin Baş nazirini, 3 ölkənin xarici işlər nazirlərini, 16 ölkənin Azərbaycandakı səfirlərini və Azərbaycanın xarici ölkələrdə çalışan 10 səfirini qəbul edib.

Sahibə Qafarova çıxışının sonunda bildirib ki, beləliklə, Milli Məclis payız sessiyasını və 2021-ci ili uğurla başa çatdırır. Bununla əlaqədar Milli Məclisin Sədri hamıya səmərəli iş üçün dərin təşəkkürünü bildirib. Həm Aparatın, həm də İşlər idarəsinin işçilərinə də dərin minnətdarlığını ifadə edən S.Qafarova pandemiya dövrünə baxmayaraq, həm keçən il, həm bu il bir iclasın da buraxılmadığını deyib. Hər bir iclasın da səmərəli olduğunu, Aparatın da, İşlər idarəsinin də işçilərinin deputatların iş şəraitinin normal olması üçün əllərindən gələni etdiklərini diqqətə çatdırıb.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, qarşıdan bizim gözəl bayramlarımız gəlir. Xalqımız Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü və Yeni ili qeyd edəcəkdir. Milli Məclisin Sədri bayramlar münasibəti ilə hər kəsi səmimi-qəlbdən təbrik edib. Sahibə Qafarova iclası izləyən media nümayəndələrini də təbrik edərək gələn il onların da deputatlarla eyni zalda bir yerdə oturmalarını arzu edib.

Milli Məclisin Sədri təklif edib ki, Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlansın. Həmin məktublarda Azərbaycan dövlətinin daha da möhkəmlənməsi və inkişaf etməsi, xalqımızın rifahının yüksəlməsi naminə dəyərli fəaliyyətlərində onlara yeni uğurlar barədə arzular ifadə olunsun. Milli Məclis Sədrinin təklifi müsbət qarşılanıb.

Sonra Sahibə Qafarova Milli Məclisin payız sessiyasını bağlı elan edib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Bununla da Milli Məclisin 2021-ci il payız sessiyası başa çatıb.

## İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının tərkibində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

"İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun 17.2-17.4-cü və 17.6-cı maddələrinə əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Aşağıdakı şəxslər 6 il müddətinə İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvü seçilsinlər:

Vüqar Eldar oğlu Zeynalov - namizədliyi Sahibkarlar Şurası tərəfindən irəli sürülmüşdür;

Azər Ruslan oğlu Əliyev - namizədliyi gənclər təşkilatları tərəfindən irəli sürülmüşdür;

Sevil Şərif qızı Yusifova - namizədliyi qadın cəmiyyətləri tərəfindən irəli sürülmüşdür.

**Sahibə QAFAROVA,**
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 30 dekabr 2021-ci il*

# “Atçılıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Atçılıq haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 5, maddə 399; 2008, № 6, maddə 462; 2009, № 12, maddə 954; 2017, № 1, maddə 13, № 7, maddə 1274; 2020, № 7, maddə 830) 31-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

**“Maddə 31. Cıdır-şans (totalizator) oyunlarının təşkili və keçirilməsi**

Cıdır-şans (totalizator) oyunları idman mərc oyunlarının operatoru tərəfindən “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada təşkil olunur və keçirilir.”.

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2021-ci il*

# “Atçılıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 457-VIQD nömrəli Qanununun tətbiqi və “Atçılıq haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 may tarixli 580 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Atçılıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 457-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. “Atçılıq haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 may tarixli 580 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 5, maddə 462; 2010, № 5, maddə 402; 2017, № 1, maddə 34) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-ci bənddə “, 30.3-cü və 31.3-cü” sözləri “və 30.3-cü” sözləri ilə əvəz edilsin;

1.2. 2.3-cü bənddə “Vergilər” sözü “İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat” sözləri ilə əvəz edilsin;

1.3. 2.4-cü bənd ləğv edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Atçılıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 457-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2021-ci il*

# Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında” 2013-cü il 5 mart tarixli 833 nömrəli və “Azərbaycan Respublikasında nəqliyyat, rabitə və yüksək texnologiyalar sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Telekommunikasiya haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 460-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 5 mart tarixli 833 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 3, maddə 235; 2014, № 9, maddə 1027; 2017, № 3, maddə 353; 2018, № 9, maddə 1839; 2019, № 3, maddə 410, № 12, maddə 1928) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti haqqında Əsasnamə”nin 3.1.20-8-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

“3.1.20-8. Azərbaycan Respublikasında lotereya təşkilatçısının və (və ya) idman mərc oyunlarının operatorunun məlumatı əsasında, telekommunikasiya xidmətləri vasitəsilə qumar oyunlarının təşkilinin və keçirilməsinin, qumar oyunlarında iştirak üçün biletlərin satışının təşkilinin və (və ya) satışının, həmçinin qumar oyunlarında iştirakın, o cümlədən ölkə ərazisindən xarici lotereya təşkilatçılarının və idman mərc oyunları operatorlarının, habelə onların satıcılarının virtual mühitə çıxışlarının qarşısının alınması üçün qanunla müəyyən edilmiş qaydada tədbirlərin görülməsini təmin etmək;”.

2. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 41; 2019, № 1, maddə 95, № 6, maddə 1027, № 11, maddə 1702, № 12, maddə 1929; 2020, № 3, maddə 231, № 4, maddə 407, № 8, maddə 1044; 2021, № 6 (I kitab), maddə 593; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 18 dekabr tarixli 1491 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi haqqında Əsasnamə”nin 3.0.89-cu yarımbəndi aşağıdakı redaksiyada verilsin:

“3.0.89. Azərbaycan Respublikasında lotereya təşkilatçısının və (və ya) idman mərc oyunlarının operatorunun məlumatı əsasında, telekommunikasiya xidmətləri vasitəsilə qumar oyunlarının təşkili və keçirilməsinin, qumar oyunlarında iştirak üçün biletlərin satışının təşkilinin və (və ya) satışının, həmçinin qumar oyunlarında iştirakın, o cümlədən ölkə ərazisindən xarici lotereya təşkilatçılarının və idman mərc oyunları operatorlarının, habelə onların satıcılarının virtual mühitə çıxışlarının qarşısının alınması üçün qanunla müəyyən edilmiş qaydada tədbirlərin görülməsini təmin etmək;”.

3. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2021-ci il*

# “Reklam haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 12-ci və 26-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Reklam haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 812; 2016, № 11, maddə 1755, № 12, maddə 1996; 2017, № 3, maddə 334, № 5, maddələr 675, 748, № 6, maddə 1029, № 7, maddə 1307, № 12 (I kitab), maddə 2230; 2019, № 1, maddə 29, № 3, maddə 390, № 4, maddə 578, № 8, maddə 1384, № 12, maddə 1881; 2020, № 6, maddə 670, № 7, maddə 843) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 32.1-ci maddənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

“Lotereyaların (stimullaşdırıcı lotereya istisna edilməklə) və idman mərc oyunlarının reklamının sifarişçisi qismində “Lotereyalar haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş lotereya təşkilatçısı (stimullaşdırıcı lotereyanın təşkilatçısı istisna olmaqla) və “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş idman mərc oyunlarının operatoru çıxış edir.”;

1.2. 32.7-ci maddə aşağıdakı redaksiyada verilsin:

“32.7. Qumar oyunlarının, belə oyunların təşkilatçısının (operatorunun) və ya satıcısının, həmçinin “Bədən tərbiyəsi və idman haqqında” və “Lotereyalar haqqında” Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş qaydada dayandırılmış, ləğv edilmiş və ya keçirilməsi qadağan edilmiş idman mərc oyunlarının və lotereyaların reklamına yol verilmir.”.

**Maddə 2.** Bu Qanun 2022-ci yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2021-ci il*

# “Reklam haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 458-VIQD nömrəli Qanununun tətbiqi və “Reklam haqqında” Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununun tətbiqi və “Reklam haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 644 nömrəli Fərmanının ləğvi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 554 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Reklam haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 458-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. “Reklam haqqında” Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununun tətbiqi və “Reklam haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 644 nömrəli Fərmanının ləğvi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 554 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 822; 2016, № 8, maddə 1384, № 11, maddə 1821, № 12, maddə 2062; 2017, № 3, maddə 354, № 7, maddə 1378, № 12 (I kitab), maddə 2295; 2018, № 11, maddə 2289; 2019, № 3, maddə 439, № 4, maddə 611; 2020, № 7, maddə 891) 2.10-cu bəndi ləğv edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Reklam haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 458-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2021-ci il*

# “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 613; 2010, № 6, maddə 489; 2011, № 2, maddə 71; 2013, № 11, maddə 1281; 2014, № 4, maddə 340; 2015, № 5, maddə 507; 2016, № 3, maddə 420, № 12, maddə 2021; 2017, № 1, maddə 11, № 7, maddə 1272; 2018, № 7 (I kitab), maddələr 1393, 1412, № 10, maddə 1966; 2019, № 5, maddə 797; 2020, № 6, maddə 670, № 7, maddə 830; 2021, № 2, maddə 109, № 6 (I kitab), maddə 547) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.0.27-ci maddə aşağıdakı redaksiyada verilsin:

“1.0.27. idman mərc oyunları - real vaxt rejimində keçirilən idman yarışlarının və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi idman mərc oyunlarının təşkili və keçirilməsi qaydalarında müəyyən olunan real vaxt rejimində keçirilən digər yarışların (cıdır-şans oyunları, tazı yarışları və s.) nəticələrinin və ya həmin yarışlardakı hadisələrin əvvəlcədən proqnoz edilməsinə əsaslanmaqla oynanılan və iştirakçılar arasında doğru ehtimalı tapanlara əvvəlcədən bəyan edilən meyarlar əsasında pul mükafatı (uduş) qazandıran, idman mərc oyunlarının operatoru tərəfindən keçirilən oyunlar. “Lotereyalar haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş lotereyalar idman mərc oyunları hesab olunmur;”;

1.2. 1.0.28-ci maddədə “maddəsi ilə müəyyən edilmiş qaydada akkreditasiya olunmuş” sözləri “maddəsində nəzərdə tutulan” sözləri ilə əvəz edilsin;

1.3. 1.0.30-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 1.0.31 - 1.0.34-cü maddələr əlavə edilsin:

“1.0.31. virtual mühit - idman mərc oyunlarının operatorunun və ya virtual satıcının idman mərc oyunlarının oynanılması üçün yaratdığı telekommunikasiya şəbəkələri, informasiya sistemləri və şəbəkələri, informasiya-telekommunikasiya şəbəkələri, o cümlədən internet şəbəkəsi, mobil rabitə şəbəkələri, sosial media platformaları, digər elektron rabitə vasitələri, internet və mobil telekommunikasiya tətbiqləri və digər texnologiyalara əsaslanan, idman mərc oyunlarının operatorunun əmtəə nişanı altında və idman mərc oyunlarının operatorunun mərkəzi mərc sisteminə bağlı olaraq fəaliyyət göstərən platformalar;

1.0.32. idman mərc oyunları satıcısı - real mühitdə idman mərc oyunları satıcısı və virtual satıcı;

1.0.33. real mühitdə idman mərc oyunları satıcısı - idman mərc oyunlarının operatoru ilə bağlanılmış müqaviləyə (idman mərc oyunlarının operatoru idman mərc oyunlarının satıcısı olduğu hallar istisna olmaqla) əsasən yalnız idman mərc oyunlarının operatorunun əmtəə nişanından istifadə edərək onun təşkil etdiyi idman mərc oyunlarının satışını həyata keçirən və idman mərc oyununun iştirakçıları ilə idman mərc oyunlarının operatoru arasındakı bütün əlaqələri stasionar və (və ya) səyyar terminallar vasitəsilə mərkəzi mərc sisteminə bağlı olaraq təmin edən şəxs;

1.0.34. virtual satıcı - idman mərc oyunlarının operatoru ilə bağlanılmış müqaviləyə əsasən yalnız idman mərc oyunlarının operatorunun əmtəə nişanından istifadə edərək onun təşkil etdiyi idman mərc oyunlarının satışını həyata keçirən və idman mərc oyunlarının iştirakçıları ilə idman mərc oyunlarının operatoru arasındakı bütün əlaqələri virtual mühit vasitəsilə mərkəzi mərc sisteminə bağlı olaraq təmin edən hüquqi şəxs.”;

1.4. 4.0.41-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 4.0.42-ci maddə əlavə edilsin:

“4.0.42. idman mərc oyunlarının təşkili və keçirilməsi sahəsində dövlət tənzimlənməsinin həyata keçirilməsi.”;

1.5. 13.2-ci maddə 13.3-cü maddə hesab olunsun və aşağıdakı məzmunda 13.2-ci maddə əlavə edilsin:

“13.2. Dayandırılmış, ləğv edilmiş və ya keçirilməsi qadağan edilmiş idman mərc oyunlarının reklamına yol verilmir.”;

1.6. 40-2.1.1-ci və 40-2.1.3-cü maddələrdən ismin müvafiq hallarında “, maliyyə bazarlarına nəzarət orqanı” və 40-2.1.4-cü maddədən isə “və maliyyə bazarlarına nəzarət orqanı” sözləri çıxarılsın;

1.7. 53-1-ci maddə üzrə:

1.7.1. 53-1.1-ci maddəyə “inkişafına” sözündən sonra “, habelə sosial əhəmiyyətli layihələrə” sözləri əlavə edilsin;

1.7.2. 53-1.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

“53-1.2. İdman mərc oyunları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum), habelə 2021-ci il dekabrın 1-dək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada akkreditasiya olunmuş hüquqi şəxs (idman mərc oyunları operatoru) tərəfindən həyata keçirilir.”;

1.7.3. 53-1.4-cü maddəyə “inkişafına” sözündən sonra “, habelə sosial əhəmiyyətli layihələrə” sözləri və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müqavilə əsasında idarəetməyə verildikdə isə bu maddənin birinci cümləsində nəzərdə tutulan ödənilməli vəsaitin əvəzinə idarəetmə müqaviləsində nəzərdə tutulmuş məbləğ idarəedici tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hər il üzrə müəyyən etdiyi bölgüyə uyğun olaraq ödənilir.”;

1.7.4. 53-1.5-ci maddədə “maliyyə bazarlarına nəzarət orqanı” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin;

1.7.5. 53-1.6-cı maddənin birinci cümləsində “İdman” sözü “İdman mərc oyunlarının operatoru idman mərc oyunlarının satıcısı olduğu hallar istisna olmaqla, idman” sözləri ilə əvəz edilsin və həmin maddənin ikinci cümləsi çıxarılsın;

1.7.6. aşağıdakı məzmunda 53-1.6-1-ci və 53-1.6-2-ci maddələr əlavə edilsin:

“53-1.6-1. İdman mərc oyunlarının operatoru onun keçirdiyi idman mərc oyunlarını fərqləndirən əmtəə nişanının (işarənin) qeydiyyata alınıb-alınmamasından asılı olmayaraq, idman mərc oyunlarını yalnız bir əmtəə nişanı (işarə) vasitəsilə (həmin əmtəə nişanının (işarənin) oxşarı da daxil olmaqla) həyata keçirə bilər.

53-1.6-2. İdman mərc oyunlarının operatoru idman mərc oyunlarını virtual mühit vasitəsilə ya özü, yaxud bu məqsədlə yalnız bir virtual satıcı ilə müqavilə bağlamaqla həyata keçirir.”;

1.7.7. 53-1.7-ci maddə ləğv edilsin.

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2021-ci il*

# “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 455-VIQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2009-cu il 27 avqust tarixli 147 nömrəli və “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə” Azərbaycan Respublikasının 2010-cu il 31 may tarixli 1019-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında” 2010-cu il 10 iyun tarixli 282 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 455-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikası Qanununun 1.0.27-ci, 53-1.2-ci (hər iki halda) maddələrində, 53-1.4-cü maddəsinin ikinci cümləsində (hər iki halda) və 53-1.5-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 1.0.27-ci, 53-1.2-ci (ikinci halda) və 53-1.4-cü (ikinci halda) maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 53-1.5-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.4. həmin Qanunun 53-1.2-ci (birinci halda) və 53-1.4-cü (birinci halda) maddələrində “orqan (qurum)” dedikdə “Azərlotereya” Açıq Səhmdar Cəmiyyəti nəzərdə tutulur.

2. “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli 147 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 623; 2015, № 8, maddə 909; 2016, № 7, maddə 1254, № 10, maddə 1645; 2017, № 12 (I kitab), maddə 2296; 2018, № 6, maddə 1224, № 7 (I kitab), maddə 1464; 2021, № 6 (I kitab), maddə 571) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bəndə “Qanununun” sözündən sonra “1.0.27-ci,” sözləri əlavə edilsin və həmin bənddə “maddələrində” sözü “, 53-1.2-ci (hər iki halda) maddələrində, 53-1.4-cü maddəsinin ikinci cümləsində (hər iki halda) və 53-1.5-ci maddəsində” sözləri ilə əvəz edilsin;

2.2. 2.1-1-ci bənddə “58.2-ci maddələrində” sözləri “53-1.3-cü maddələrində, 53-1.4-cü maddəsinin birinci cümləsində, 58.2-ci maddəsində” sözləri ilə əvəz edilsin;

2.3. aşağıdakı məzmunda 2.1-2-ci və 2.1-3-cü bəndlər əlavə edilsin:

“2.1-2. həmin Qanunun 1.0.27-ci, 53-1.2-ci (ikinci halda) və 53-1.4-cü (ikinci halda) maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.1-3. həmin Qanunun 53-1.5-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;”;

2.4. 2.19-cu bənd aşağıdakı redaksiyada verilsin:

“2.19. həmin Qanunun 53-1.2-ci (birinci halda) və 53-1.4-cü (birinci halda) maddələrində “orqan (qurum)” dedikdə “Azərlotereya” Açıq Səhmdar Cəmiyyəti nəzərdə tutulur;”;

2.5. 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

“4. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Azərbaycan Respublikasında lotereya təşkilatçısının və (və ya) idman mərc oyunlarının operatorunun məlumatı əsasında, telekommunikasiya xidmətləri vasitəsilə qumar oyunlarının təşkilinin və keçirilməsinin, qumar oyunlarında iştirak üçün biletlərin satışının təşkili və (və ya) satışının, həmçinin qumar oyunlarında iştirakın, o cümlədən ölkə ərazisindən xarici lotereya təşkilatçılarının və idman mərc oyunları operatorlarının, habelə onların satıcılarının virtual mühitə çıxışlarının qarşısının alınması üçün zəruri tədbirlər görsün.”;

2.6. 5-ci hissədə “və Vergilər” sözləri “Nazirliyinə və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində İqtisadiyyat Nazirliyinə” sözləri ilə əvəz edilsin.

3. “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə” Azərbaycan Respublikasının 2010-cu il 31 may tarixli 1019-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 10 iyun tarixli 282 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 497; 2016, № 9, maddə 1469) 2-ci hissəsi ləğv edilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 455-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

5. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2021-ci il*

# “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 632, № 12, maddələr 2017, 2036; 2017, № 4, maddə 520, № 5, maddə 743; 2018, № 6, maddə 1187; 2019, № 1, maddə 28, № 5, maddə 797, № 6, maddə 986, № 8, maddə 1360, № 11, maddə 1692, № 12, maddə 1903; 2020, № 6, maddə 662; 2021, № 6 (I kitab), maddə 551, № 7, maddə 701) 3.4-cü maddəsindən “Lotereyalar haqqında”,” sözləri çıxarılsın və həmin maddədə “və “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının qanunları ilə” sözləri “, “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının qanunları və maliyyə bazarları sahəsində qəbul edilən digər qanunlarla” sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2021-ci il*

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, №11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, №11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590, № 5, maddələr 796, 801, 804, 812, 814, № 8, maddələr 1364, 1373, 1378, № 12, maddə 1894; 2020, № 5, maddə 522, № 6, maddələr 668, 678, № 7, maddə 832, № 8, maddə 1013, № 11, maddələr 1328, 1334, № 12 (I kitab), maddələr 1439, 1441, 1454, 1455; 2021, № 3, maddə 211, № 6 (I kitab), maddələr 541, 551, 555, № 7, maddələr 698, 711, № 8, maddə 894, № 10, maddələr 1090, 1092) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 13.2.43 - 13.2.45-ci maddələr ləğv edilsin;

1.2. 16-cı maddə üzrə:

1.2.1. 16.1.8.4-cü maddədə "və lotereya biletlərinin" sözləri ", lotereya biletlərinin, idman mərc oyunu biletlərinin və elektron idman mərc oyunu biletlərinin" sözləri ilə əvəz edilsin;

1.2.2. 16.1.9-cu maddəyə "nağd" sözündən əvvəl "lotereya biletlərinin, idman mərc oyunu biletlərinin və elektron idman mərc oyunu biletlərinin alışı istisna olmaqla" sözləri əlavə edilsin;

1.2.3. aşağıdakı məzmunda 16.1.11-6.4-cü və 16.1.11-12-ci maddələr əlavə edilsin:

"16.1.11-6.4. lotereya biletlərinin, idman mərc oyunları biletlərinin və elektron mərc oyunu biletlərinin satışı, habelə lotereya biletlərinin agent qaydasında satışı ilə bağlı xidmətlərin göstərilməsi;";

"16.1.11-12. lotereya təşkilatçısı tərəfindən lotereya biletlərinin, idman mərc oyunları operatoru tərəfindən idman mərc oyunu biletlərinin və elektron mərc oyunu biletlərinin satışı, lotereya biletlərinin və idman mərc oyunlarının satıcılarının haqları (mükafatları) haqqında məlumatların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş formada lotereya təşkilatçısının və idman mərc oyunları operatorunun malik olduqları müvafiq olaraq informasiya sistemi və mərkəzi mərc oyunu sistemi vasitəsilə gündəlik əsasla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülməsini təmin etmək;";

1.3. 99.3.12-ci maddədə "idman oyunları ilə əlaqədar aparılan mərc oyunlarından" sözləri "lotereyalardan və idman mərc oyunlarından" sözləri ilə əvəz edilsin;

1.4. 100-cü maddədə "və idman oyunları ilə əlaqədar aparılan mərc oyunlarından" sözləri ", lotereyalardan və idman mərc oyunlarından" sözləri ilə əvəz edilsin;

1.5. 101.5-ci maddədə "İdman oyunları ilə əlaqədar aparılan mərc oyunlarından, lotereyaların keçirilməsindən" sözləri "İdman mərc oyunlarından, lotereyalardan" sözləri ilə əvəz olunsun və həmin maddəyə ikinci halda "mərc oyunlarından," sözlərindən sonra "lotereyalardan," sözü əlavə edilsin;

1.6. 102-ci maddə üzrə:

1.6.1. 102.1.26-cı maddə aşağıdakı redaksiyada verilsin:

"102.1.26. lotereya təşkilatçısı tərəfindən keçirilən lotereyalardan və idman mərc oyunları operatoru tərəfindən keçirilən idman mərc oyunlarından pul şəklində əldə edilən 500 manatadək uduşlar;";

1.6.2. 102.1.35-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 102.1.36-cı maddə əlavə edilsin:

"102.1.36. lotereya biletlərinin satıcısı ilə bağlanmış müqavilə əsasında və ya onun tapşırığı əsasında lotereya biletlərinin bütün mərhələlərdə agent qaydasında satışının həyata keçirilməsi üzrə göstərilən xidmətlərdən əldə olunan gəlirlər.";

1.7. 106.1.28-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 106.1.29-cu maddə əlavə edilsin:

"106.1.29. lotereya biletlərinin satıcısı ilə bağlanmış müqavilə əsasında və ya onun tapşırığı əsasında lotereya biletlərinin bütün mərhələlərdə agent qaydasında satışının həyata keçirilməsi üzrə göstərilən xidmətlərdən əldə olunan gəlirlər.";

1.8. 125.1.8-ci və 150.1.10-cu maddələrdə "idman oyunları ilə əlaqədar aparılan mərc oyunlarından, lotereyaların keçirilməsindən" sözləri "idman mərc oyunlarından, lotereyalardan" sözləri ilə əvəz edilsin;

1.9. 150.1.11-ci maddədə "lotereyaların keçirilməsindən," sözləri "idman mərc oyunlarından, lotereyalardan," sözləri ilə əvəz edilsin;

1.10. 164.1.56-cı maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 164.1.57-ci maddə əlavə edilsin:

"164.1.57. lotereya biletlərinin satıcısı ilə bağlanmış müqavilə əsasında və ya onun tapşırığı əsasında lotereya biletlərinin bütün mərhələlərdə agent qaydasında satışının həyata keçirilməsi üzrə xidmətlərin göstərilməsi.";

1.11. 168.1.5-ci maddənin birinci hissəsinin on birinci abzasına və 169.3-cü maddənin üçüncü hissəsinə "lotereyaların" sözündən sonra "(o cümlədən virtual lotereyaların), idman mərc oyunlarının," sözləri əlavə edilsin;

1.12. 172.3-cü maddənin ikinci hissəsində "Lotereyalar, turist" sözləri "Turist" sözü ilə əvəz edilsin;

1.13. 172.5.1-ci maddə ləğv edilsin;

1.14. 218.4.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"218.4.2. idman mərc oyunlarının operatoru və idman mərc oyunlarının satıcıları, habelə lotereya təşkilatçısı və lotereya biletlərinin satıcıları olan şəxslər;";

1.15. aşağıdakı məzmunda 218-1.1.6-cı maddə əlavə edilsin:

"218-1.1.6. Lotereya biletlərinin satıcısı ilə bağlanmış müqavilə əsasında və ya onun tapşırığı əsasında lotereya biletlərinin bütün mərhələlərdə agent qaydasında satışının həyata keçirilməsi üzrə göstərilən xidmətlərdən əldə olunan gəlirlər.";

1.16. 219.4-cü və 220.9-cu maddələr aşağıdakı redaksiyada verilsin:

"219.4. İdman mərc oyunlarının operatoru üçün idman mərc oyunları biletlərinin satışından əldə edilmiş vəsait, idman mərc oyunlarının satıcısı üçün isə idman mərc oyunlarının operatorunun ona verdiyi haqq (mükafat) sadələşdirilmiş verginin vergitutma obyektidir.";

"220.9. İdman mərc oyunlarının operatoru tərəfindən idman mərc oyunları biletlərinin satışından əldə edilmiş vəsaitdən 6 faiz dərəcəsi ilə, idman mərc oyunlarının satıcısı tərəfindən isə idman mərc oyunlarının operatorunun ona verdiyi haqdan (mükafatdan) 4 faiz dərəcəsi ilə sadələşdirilmiş vergi hesablanır.";

1.17. aşağıdakı məzmunda 219.4-1-ci və 220.9-1-ci maddələr əlavə edilsin:

"219.4-1. Lotereya təşkilatçısı üçün lotereya biletlərinin satışından əldə edilmiş vəsait, lotereya biletlərinin satıcısı üçün isə lotereya təşkilatçısının ona verdiyi haqq (mükafat) sadələşdirilmiş verginin vergitutma obyektidir.";

"220.9-1. lotereya təşkilatçısı tərəfindən lotereya biletlərinin satışından əldə edilmiş vəsaitdən 6 faiz dərəcəsi ilə, lotereya biletlərinin satıcısı tərəfindən isə lotereya təşkilatçısının ona verdiyi haqdan (mükafatdan) 4 faiz dərəcəsi ilə sadələşdirilmiş vergi hesablanır.";

1.18. 221.3.1-ci maddədə "220.9-cu maddəsində" sözləri "220.9-cu və 220.9-1-ci maddələrində" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2021-ci il*

# Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq qərara alır:

**Maddə 1.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 5, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 696, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441, № 10, maddə 1972, № 11, maddə 2213, № 12 (I kitab), maddə 2472; 2019, № 4, maddə 586, № 7, maddə 1201, № 8, maddə 1367; 2020, № 3, maddə 223, № 5, maddə 518, № 7, maddə 832, № 8, maddə 1010, № 11, maddələr 1332, 1333; 2021, № 6 (I kitab), maddə 541, № 8, maddə 894) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 73-2.2-ci maddədən "192-1," rəqəmləri çıxarılsın;

1.2. 190-cı maddənin "Qeyd" hissəsindən "192-1.1, 192-1.2," və "192-1.3.2," rəqəmləri çıxarılsın;

1.3. 192-1-ci maddə ləğv olunsun;

1.4. 244-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 244-1. Qumar oyunlarının təşkili və ya keçirilməsi**

244-1.1. Qumar oyunlarının təşkili və ya keçirilməsi, habelə qumar oyunlarının keçirilməsi üçün yer təşkiletmə və ya saxlama -

beş min manatdan on min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

244-1.2. Eyni əməllər:

244-1.2.1. təkrar törədildikdə;

244-1.2.2. internet informasiya ehtiyatlarından və ya informasiya-telekommunikasiya şəbəkələrindən istifadə etməklə törədildikdə;

244-1.2.3. yetkinlik yaşına çatmayanların qumar oyunlarında iştirakına yol verməklə törədildikdə;

244-1.2.4. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

244-1.2.5. xeyli miqdarda gəlir əldə etməklə törədildikdə -

on min manatdan on beş min manatadək miqdarda cərimə və ya iki ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

244-1.3. Bu Məcəllənin 244-1.1-ci və ya 244-1.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

244-1.3.1. mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə;

244-1.3.2. külli miqdarda gəlir əldə etməklə törədildikdə -

üç ildən dörd ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

244-1.4. Bu Məcəllənin 244-1.1 - 244-1.3-cü maddələrində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda gəlir əldə etməklə törədildikdə -

dörd ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Qeyd:**

1. Bu Məcəllənin 244-1-ci maddəsində "qumar oyunu" dedikdə, pul vəsaitləri, maddi və sair nemət (uduş) barəsində oynanılan və uduşu qeyri-müəyyənlikdən və ya təsadüfdən asılı olan oyunlar (o cümlədən mərclər) başa düşülür.

2. "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada keçirilən lotereyalara və "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada keçirilən idman mərc oyunlarına bu maddənin qüvvəsi şamil edilmir.

3. Bu Məcəllənin 244-1.2.5-ci maddəsində "xeyli miqdar" dedikdə əlli min manatdan yuxarı, lakin iki yüz min manatdan artıq olmayan məbləğ, 244-1.3.2-ci maddəsində "külli miqdar" dedikdə iki yüz min manatdan yuxarı, lakin beş yüz min manatdan artıq olmayan məbləğ, 244-1.4-cü maddəsində "xüsusilə külli miqdar" dedikdə beş yüz min manatdan yuxarı olan məbləğ başa düşülür.

4. Bu Məcəllənin 244-1.2.5-ci, 244-1.3.2-ci və 244-1.4-cü maddələrində nəzərdə tutulmuş əməlləri törətmiş və cinayət nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürmüş şəxs, bundan əlavə əldə edilmiş gəlirin bir misli miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən azad edilir.

5. Şəxs bu "Qeyd"in 4-cü bəndində nəzərdə tutulmuş qaydada cinayət məsuliyyətindən yalnız bir dəfə azad edilir.".

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2021-ci il*

# "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 454-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 454-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 16.1.11-12-ci maddəsində (hər iki halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 16.1.11-12-ci maddəsində birinci halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 16.1.11-12-ci maddəsində ikinci halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

2.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 16.1.11-12-ci maddəsinə uyğun olaraq, məlumat formasını iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 454-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 454-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

4. "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616; 2005, № 12, maddə 1099; 2006, № 5, maddə 400, № 12, maddə 1034; 2007, № 4, maddə 323, № 12, maddə 1225; 2008, № 11, maddə 972; 2009, № 3, maddə 163, № 4, maddə 226, № 10, maddə 780; 2010, № 7, maddə 610; 2011, № 7, maddə 631; 2013, № 7, maddə 805, № 11, maddə 1324; 2014, № 4, maddə 359, № 5, maddə 477, № 9, maddə 1027, № 10, maddə 1198, № 11, maddələr 1390, 1420; 2015, № 1, maddə 12, № 12, maddə 1454; 2016, № 2 (II kitab), maddələr 261, 265, № 3, maddə 450, № 5, maddə 882, № 6, maddələr 1023, 1024, 1042, 1065, № 7, maddə 1257, № 9, maddə 1464, № 11, maddə 1838, № 12, maddə 2089; 2017, № 5, maddələr 760, 811, 845, № 7, maddə 1344, № 8, maddə 1521; 2018, № 9, maddələr 1830, 1843, № 12 (I kitab), maddələr 2571, 2599; 2019, № 8, maddələr 1396, 1407; 2020, № 5, maddə 560, № 11, maddə 1356, № 12 (I kitab), maddə 1504; 2021, № 1, maddə 35, № 3, maddə 220, № 4, maddə 323, № 6 (I kitab), maddə 585) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.1-ci bəndə "16.1.11-11-ci," sözlərindən sonra "16.1.11-12-ci (hər iki halda)," sözləri əlavə edilsin;

4.2. 1.10-cu bəndə "16.1.11-11-ci," sözlərindən sonra "16.1.11-12-ci (birinci halda)," sözləri əlavə edilsin;

4.3. 1.12-ci bəndə "16.1.8-ci (ikinci halda)," sözlərindən sonra "16.1.11-12-ci (ikinci halda)," sözləri əlavə edilsin.

5. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2021-ci il*

# "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 453-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 453-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610; 2001, № 10, maddə 646; 2002, № 5, maddələr 273, 279, № 7, maddə 413, № 8, maddə 478, № 9, maddə 563; 2003, № 8, maddə 434; 2004, № 1, maddə 19, № 5, maddə 345; 2005, № 1, maddə 18, № 4, maddə 299, № 9, maddə 799, № 12, maddə 1101; 2006, № 8, maddə 676, № 11, maddə 935; 2007, № 1, maddə 10, № 3, maddə 223, № 9, maddə 865, № 12, maddə 1247; 2008, № 1, maddələr 7, 10; 2009, № 7, maddələr 531, 534; 2010, № 7, maddə 615; 2011, № 11, maddə 999; 2013, № 5, maddə 509, № 6, maddə 649, № 8, maddə 900; 2014, № 4, maddə 348, № 6, maddə 625; 2015, № 12, maddələr 1450, 1461; 2016, № 4, maddələr 667, 669, № 10, maddə 1644; 2017, № 3, maddə 353, № 5, maddə 814, № 7, maddə 1321; 2018, № 3, maddə 444, № 4, maddə 680, № 6, maddə 1219, № 9, maddələr 1824, 1832, № 10, maddə 2004, № 11, maddə 2271; 2019, № 4, maddə 648, № 7, maddə 1241; 2020, № 7, maddə 883, № 11, maddələr 1345, 1356; 2021, № 6 ( I kitab), maddə 565) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü hissə üzrə:

1.1.1. ikinci abzasda "242-246" rəqəmləri "242-244, 245-246" rəqəmləri ilə əvəz edilsin;

1.1.2. on altıncı abzas aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 244-1-ci maddəsində nəzərdə tutulmuş cinayətlərə dair işlər üzrə - bu işi başlamış Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və ya daxili işlər (polis) orqanları.";

1.2. 4-cü hissədən "192-1-ci (Lotereyaların və idman mərc oyunlarının təşkili və ya keçirilməsi qaydalarının pozulması)," sözləri çıxarılsın, həmin hissədə "və 213-1-ci" sözləri ", 213-1-ci" sözləri ilə, hər iki halda "Respublikası Vergilər" sözləri "Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat" sözləri ilə əvəz olunsun və "maddələri" sözündən əvvəl "və 244-1 (Qumar oyunlarının təşkili və ya keçirilməsi)" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 453-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2021-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1182 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlətə məxsus olan hüquqi şəxslərin daxili və xarici borcalması Qaydası"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1182 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2100; 2018, № 10, maddə 1991; 2019, № 4, maddə 644; 2020, № 1, maddə 5) ilə təsdiq edilmiş "Dövlətə məxsus olan hüquqi şəxslərin daxili və xarici borcalması Qaydası"na aşağıdakı məzmunda 1.5-ci bənd əlavə edilsin:

"1.5. Müqavilə əsasında idarəetməyə verilən və payları (səhmləri) yüz faiz dövlətə məxsus lotereya təşkilatçısı və (və ya) idman mərc oyunları operatoru olan hüquqi şəxsə bu Qaydanın müddəaları idarəetmə müqaviləsi qüvvədə olduğu müddət ərzində şamil edilmir.".

2. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2021-ci il*

## "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə", "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında", "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə", "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında", "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartının tətbiqi müddətləri ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası qanunlarının ləğv edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 18, maddə 244; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 142; 2002, № 6, maddə 328; 2004, № 7, maddə 505; 2006, № 12, maddə 1033; 2007, № 1, maddə 4; 2010, № 5, maddə 386; 2011, № 2, maddə 71, № 12, maddə 1086; 2012, № 2, maddə 62; 2013, № 5, maddə 466, № 7, maddə 796; 2016, № 2 (I kitab), maddə 198; 2017, № 12 (I kitab), maddə 2264; 2018, № 10, maddə 1981, № 11, maddə 2215; 2019, № 8, maddə 1385) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci maddə üzrə:

1.1.1. üçüncü hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"15 yaşı tamam olmamış Azərbaycan Respublikasının vətəndaşı şəxsiyyət vəsiqəsini onun valideyninin, vətəndaşı övladlığa götürənin, vətəndaşın qəyyumunun və ya himayəçisinin (bundan sonra - qanuni nümayəndəsinin), habelə qanuni nümayəndəsinin notariat qaydasında təsdiq edilmiş etibarnaməsi əsasında təyin olunmuş şəxsin müraciəti əsasında almaq hüququna malikdir.";

1.1.2. dördüncü hissəyə "vətəndaş" sözündən sonra "və ya vəsiqə sahibinin qanuni nümayəndəsi" sözləri əlavə edilsin;

1.1.3. beşinci hissənin ikinci cümləsinə "onun sahibi" sözlərindən sonra "və ya vəsiqə sahibinin qanuni nümayəndəsi" sözləri əlavə edilsin;

1.2. 3-cü maddənin ikinci hissəsinin beşinci abzasında "soyadı və adı" sözləri "soyadı, adı, atasının adı, vətəndaşın qanuni nümayəndəsinin soyadı, adı, atasının adı və əlaqə məlumatları (poçt ünvanı, telefon nömrələri)" sözləri ilə əvəz edilsin;

1.3. 4-cü maddə üzrə:

1.3.1. birinci hissənin birinci cümləsinə "hər bir vətəndaşının" və "tərəfindən vətəndaşın" sözlərindən sonra "və ya onun qanuni nümayəndəsinin, habelə qanuni nümayəndəsinin notariat qaydasında təsdiq edilmiş etibarnaməsi əsasında təyin olunmuş şəxsin" sözləri və həmin hissəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"5 yaşadək olan vətəndaşa verilən şəxsiyyət vəsiqəsi vətəndaşın 5 yaşı tamam olanadək, 5 yaşı tamam olmuş vətəndaşa verilən şəxsiyyət vəsiqəsi isə vətəndaşın 15 yaşı tamam olanadək etibarlıdır.";

1.3.2. üçüncü hissəyə "vətəndaş" sözündən sonra "və ya onun qanuni nümayəndəsi" sözləri, "vəsiqəni verən orqana" sözlərindən sonra isə "özü və ya vətəndaşın qanuni nümayəndəsinin notariat qaydasında təsdiq edilmiş etibarnaməsi əsasında təyin olunmuş şəxs vasitəsilə" sözləri əlavə edilsin;

1.3.3. dördüncü hissə yeddinci hissə hesab edilsin və aşağıdakı məzmunda dördüncü-altıncı hissələr əlavə edilsin:

"15 yaşı tamam olmamış vətəndaşa şəxsiyyət vəsiqəsinin verilməsi və ya dəyişdirilməsi onun qanuni nümayəndəsinin, habelə qanuni nümayəndəsinin notariat qaydasında təsdiq edilmiş etibarnaməsi əsasında təyin olunmuş şəxsin ərizəsi və müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə"də nəzərdə tutulan digər sənədlər əsasında həyata keçirilir.

15 yaşı tamam olmamış vətəndaşa verilən şəxsiyyət vəsiqəsində onun fotoşəkli yerləşdirilir, lakin şəxsi imzası göstərilmir.

15 yaşı tamam olmamış vətəndaşdan əl-barmaq izləri götürülmür, habelə ona verilən şəxsiyyət vəsiqəsinin elektron daşıyıcısına vətəndaşın ailə vəziyyəti, boyu, gözlərinin rəngi, hərbi vəzifəsi və bu Qanunun 3-cü maddəsinin ikinci hissəsinin altıncı-səkkizinci abzaslarında göstərilən məlumatlar daxil edilmir.";

1.4. 6-cı maddənin ikinci hissəsinin birinci cümləsinə "cəzaya məhkum olunmuş" sözlərindən sonra ", qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilmiş" sözləri və "cəzanı icra edən orqanlar" sözlərindən sonra "və ya qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsi" sözləri, ikinci cümləsinə isə "dərhal sahibinə" sözlərindən sonra "və ya onun qanuni nümayəndəsinə, habelə qanuni nümayəndəsinin notariat qaydasında təsdiq edilmiş etibarnaməsi əsasında təyin olunmuş şəxsə" sözləri əlavə edilsin;

1.5. 8-ci maddəyə "vətəndaşdan" sözündən sonra ", qanuni nümayəndəsindən, habelə qanuni nümayəndəsinin notariat qaydasında təsdiq edilmiş etibarnaməsi əsasında təyin olunmuş şəxsdən" sözləri əlavə edilsin;

1.6. 9-cu maddə ləğv edilsin.

**Maddə 2.** "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 19 aprel tarixli 621-IVQD nömrəli Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 5, maddə 470, № 12, maddə 1501; 2015, № 6, maddə 682; 2016, № 2 (I kitab), maddə 199, № 12, maddə 2026; 2017, № 12 (I kitab), maddə 2241; 2018, № 7 (I kitab), maddə 1433; 2019, № 8, maddə 1385) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.1-ci maddə ləğv edilsin;

2.2. 2-ci maddədən "1.1.1-ci maddəsi 2022-ci il yanvarın 1-dən," sözləri çıxarılsın.

**Maddə 3.** "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 19 aprel tarixli 626-IVQD nömrəli Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 5, maddə 475, № 12, maddə 1505; 2015, № 6, maddə 682; 2016, № 11, maddə 1757; 2017, № 1, maddə 28, № 12 (I kitab), maddə 2241; 2018, № 7 (I kitab), maddə 1433; 2019, № 8, maddə 1385) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci maddə ləğv edilsin;

3.2. 2-ci maddədə "1.1-ci maddəsi 2022-ci il yanvarın 1-dən, 1.2-ci maddəsi isə" sözləri "1.2-ci maddəsi" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** "Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli 1317-IVQD nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1083; 2019, № 8, maddə 1385) ləğv edilsin.

**Maddə 5.** "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1468-VQD nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 371, № 8, maddə 1385) ləğv edilsin.

**Maddə 6.** "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1469-VQD nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 372, № 8, maddə 1385) ləğv edilsin.

**Maddə 7.** "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartının tətbiqi müddətləri ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1666-VQD nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1385) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2021-ci il*

---

## "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə", "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında", "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə", "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında", "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartının tətbiqi müddətləri ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası qanunlarının ləğv edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 20 dekabr tarixli 432-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 fevral tarixli 586 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə", "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında", "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə", "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında", "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartının tətbiqi müddətləri ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası qanunlarının ləğv edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 20 dekabr tarixli 432-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

2. "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 fevral tarixli 586 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 75; 2013, № 12, maddə 1542; 2014, № 5, maddə 477; 2015, № 10, maddə 1141; 2016, № 8, maddə 1384; 2017, № 12 (I kitab), maddə 2285; 2018, № 8, maddə 1706) 5.2-ci bəndində "dördüncü" sözü "yeddinci" sözü ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə", "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında", "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə", "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında", "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartının tətbiqi müddətləri ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası qanunlarının ləğv edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 20 dekabr tarixli 432-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2021-ci il*

---

## "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 58; 2010, № 3, maddə 178, № 4, maddə 276; 2011, № 12, maddə 1104; 2013, № 11, maddə 1274; 2014, № 2, maddə 81, № 10, maddə 1159, № 11, maddə 1361; 2015, № 11, maddə 1294; 2016, № 3, maddə 413; 2017, № 5, maddələr 696, 711, № 7, maddə 1295, № 11, maddə 1959; 2018, № 7 (I kitab), maddə 1407, № 10, maddə 1973, № 11, maddə 2233; 2019, № 1, maddə 24, № 6, maddə 1002) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.0.8-ci və 5.1.1-ci maddələrdə "lotereya və idman mərc oyunları təşkilatçıları" sözləri "lotereya təşkilatçıları və idman mərc oyunlarının operatorları" sözləri ilə əvəz edilsin;

1.2. 6.1.1-ci maddədən "lotereya və idman mərc oyunları təşkilatçıları," sözləri çıxarılsın və həmin maddədə "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri "Azərbaycan Respublikasının Mərkəzi Bankı" sözləri ilə əvəz edilsin;

1.3. aşağıdakı məzmunda 6.1.1-2-ci maddə əlavə edilsin:

"6.1.1-2. lotereya təşkilatçıları və idman mərc oyunlarının operatorları üçün - müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum);".

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2021-ci il*

---

## "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 461-VIQD nömrəli Qanununun tətbiqi və "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 23 fevral tarixli 66 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 461-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 6.1.1-2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 6.1.1-2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.

2. "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 23 fevral tarixli 66 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 79; 2010, № 2, maddə 80, № 3, maddə 192, № 8, maddə 725; 2014, № 7, maddə 813, № 9, maddə 1027, № 10, maddə 1195; 2015, № 2, maddə 123; 2016, № 3, maddə 443, № 9, maddə 1480; 2018, № 5, maddə 913, № 7 (I kitab), maddə 1500, № 10, maddə 2005, № 11, maddə 2291) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4.1-ci bəndə "6.1.1-ci," sözlərindən sonra "6.1.1-2-ci," sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 4.3-2-ci bənd əlavə edilsin:

"4.3-2. həmin Qanunun 6.1.1-2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;".

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 461-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

4. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2021-ci il*

---

## "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq qərara alır:

**Maddə 1.** "Dövlzt satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 1, maddə 11, № 12, maddə 706; 2005, № 12, maddə 1083; 2006, № 12, maddə 1005; 2010, № 3, maddə 173, № 4, maddə 276; 2016, № 2 (I kitab), maddə 205, № 4, maddə 628; 2017, № 5, maddə 699; 2018, № 12 (I kitab), maddə 2523; 2019, № 7, maddə 1208, № 8, maddə 1372; 2020, № 5, maddə 525; 2021, № 6 (I kitab), maddə 559, № 7, maddə 719) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1-ci maddədə "1.2-1.4-cü" sözləri "1.2-1.6-cı" sözləri ilə əvəz edilsin;

1.2. aşağıdakı məzmunda 1.6-cı maddə əlavə edilsin:

"1.6. Lotereya təşkilatçısı və (və ya) idman mərc oyunları operatoru olan müqavilə əsasında idarəetməyə verilən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən malların (işlərin, xidmətlərin) satın alınması idarəetmə müqaviləsi qüvvədə olduğu müddət ərzində idarəetmə müqaviləsində müəyyən olunan qaydada həyata keçirilir.".

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2021-ci il*

---

## "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 459-VIQD nömrəli Qanununun tətbiqi və "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 29 yanvar tarixli 668 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 459-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 1.6-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 1.6-cı maddəsində "orqan (qurum)" dedikdə "Azərlotereya" Açıq Səhmdar Cəmiyyəti nəzərdə tutulur.

2. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 29 yanvar tarixli 668 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 1, maddə 51; 2014, № 5, maddə 477; 2016, № 5, maddə 861; 2018, № 12 (I kitab), maddə 2611; 2019, № 7, maddə 1245; 2020, № 1, maddə 17, № 5, maddə 565; 2021, № 6 (I kitab), maddə 591; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 24 iyul tarixli 797 nömrəli və 2021-ci il 4 noyabr tarixli 1475 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.2-ci bəndə "2-ci maddəsinin" sözlərindən əvvəl "1.6-cı maddəsində," sözləri əlavə edilsin;

2.2. 2.11-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.12-ci bənd əlavə edilsin:

"2.12. həmin Qanunun 1.6-cı maddəsində orqan "(qurum)" dedikdə "Azərlotereya" Açıq Səhmdar Cəmiyyəti nəzərdə tutulur.".

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 459-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

4. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2021-ci il*

# “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 8; 2005, № 1, maddə 1, № 8, maddə 700; 2006, № 2, maddə 70; 2008, № 2, maddə 49; 2010, № 4, maddə 265; 2012, № 1, maddə 2, № 7, maddə 651; 2013, № 12, maddə 1479; 2014, № 2, maddə 78, № 7, maddə 769, № 11, maddə 1356, № 12, maddə 1526; 2015, № 11, maddə 1259; 2016, № 4, maddə 644, № 10, maddə 1606; 2017, № 5, maddələr 709, 724, № 10, maddə 1775; 2018, № 12 (I kitab), maddələr 2471, 2531; 2019, № 1, maddələr 16, 21, № 2, maddə 176, № 6, maddə 999, № 7, maddə 1203; 2020, № 6, maddə 675; № 8, maddə 1017, № 11, maddələr 1323, 1335) aşağıdakı məzmunda 13.3-1-ci maddə əlavə edilsin:

“13.3-1. Kommersiya qurumları və publik hüquqi şəxslər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) dövlət qeydiyyatına alındıqda və ya təsis sənədlərində edilmiş dəyişikliklərin və qeydə alınmış faktların sonrakı dəyişikliyi dövlət qeydiyyatına alındığı gün qeydiyyat sənədləri (dövlət qeydiyyatı haqqında şəhadətnamə, dövlət reyestrindən çıxarış, nizamnamə və ya nizamnaməyə dəyişiklik) hüquqi şəxsin elektron kabinetinə göndərilir.”.

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2021-ci il*

# “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 413-VIQD nömrəli Qanununun tətbiqi və “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 413-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun 13.3-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 13.3-1-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.

2. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 4, maddə 228; 2005, № 8, maddə 708, № 9, maddə 801, № 12, maddə 1103; 2006, № 12, maddə 1034; 2008, № 2, maddə 54; 2012, № 1, maddə 6; 2013, № 12, maddə 1529; 2014, № 2, maddə 103; 2016, № 3, maddə 465, № 9, maddə 1464, № 10, maddə 1637; 2017, № 5, maddə 846, № 9, maddə 1653, № 10, maddə 1803, № 12 (I kitab), maddə 2319; 2018, № 12 (I kitab), maddə 2614; 2019, № 2, maddə 211; 2020, № 8, maddə 1029, № 11, maddələr 1360, 1362) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bəndə “8-1.2-ci” sözlərindən sonra “, 13.3-1-ci” sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 2.9-1-ci bənd əlavə edilsin:

“2.9-1. həmin Qanunun 13.3-1-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;”.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 413-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2021-ci il*

# “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 364; 2005, № 6, maddə 466; 2006, № 12, maddə 1005; 2007, № 10, maddə 938; 2011, № 3, maddə 162; 2012, № 11, maddə 1051; 2017, № 3, maddə 345; 2019, № 12, maddə 1881; 2020, № 3, maddə 225, № 6, maddə 671) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 13-2.3.7-ci maddədən “və digər qanunsuz mərc” sözləri çıxarılsın;

1.2. 13-2.4-cü maddəyə “ehtiyatında” sözündən sonra “və ya onun müvafiq hissəsində” sözləri, “götürülməsini” sözündən sonra “və ya həmin informasiya ehtiyatına və ya onun müvafiq hissəsinə müraciətin məhdudlaşdırılmasını” sözləri əlavə edilsin;

1.3. 13-2.5-ci maddəyə “ehtiyatlarında” sözündən sonra “və ya onların müvafiq hissələrində” sözləri, “götürülməsi” sözündən sonra “və ya həmin informasiya ehtiyatına və ya onun müvafiq hissəsinə müraciətin məhdudlaşdırılması” sözləri əlavə edilsin;

1.4. 13-3.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Xəbərdarlığın məzmununda yayılması qanunla qadağan edilən informasiya barədə məlumat, müvafiq informasiyanın internet informasiya ehtiyatından götürülməsinə və ya internet informasiya ehtiyatına və ya onun müvafiq hissəsinə müraciətin məhdudlaşdırılmasına dair tələb, belə tələb üçün qanunda nəzərdə tutulmuş əsaslar, habelə müvafiq tələbə vaxtında riayət edilməyəcəyi təqdirdə görüləcək tədbirlər barədə məlumat göstərilməlidir.”;

1.5. 13-3.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

“13-3.2. Xəbərdarlıq edildiyi vaxtdan 8 saat ərzində yayılması qanunla qadağan edilən informasiya internet informasiya ehtiyatından götürülmədikdə və ya internet informasiya ehtiyatına və ya onun müvafiq hissəsinə müraciət məhdudlaşdırılmadıqda, müvafiq icra hakimiyyəti orqanı informasiyanın internet informasiya ehtiyatından götürülməsi və ya internet informasiya ehtiyatına və ya onun müvafiq hissəsinə müraciətin məhdudlaşdırılması barədə ərizə ilə rayon (şəhər) məhkəməsinə müraciət edir.”;

1.6. 13-3.3-cü, 13-3.4-cü (hər üç halda) və 13-3.5-ci maddələrə “ehtiyatına” sözündən sonra “və ya onun müvafiq hissəsinə” sözləri əlavə edilsin;

1.7. 13-3.6-cı maddəyə hər iki halda “ehtiyatına” sözündən sonra “və ya onun müvafiq hissəsinə” sözləri, “ehtiyatını” sözündən sonra “və ya onun müvafiq hissəsini” sözləri əlavə edilsin;

1.8. 13-3.7-ci maddəyə “ehtiyatına” sözündən sonra “və ya onun müvafiq hissəsinə” sözləri əlavə edilsin;

1.9. 13-3.8-ci maddə aşağıdakı redaksiyada verilsin:

“13-3.8. İnternet informasiya ehtiyatının sahibi məlumatın götürülməsini bu Qanunun 13-2.4-cü maddəsində nəzərdə tutulmuş qaydada təmin etmədikdə və informasiyanın internet informasiya ehtiyatında və ya onun müvafiq hissəsində yayılmasının qanunla qadağan edilməsi ilə əlaqədar qüvvəyə minmiş məhkəmə qərarı olduqda, müvafiq icra hakimiyyəti orqanı həmin informasiya ehtiyatını və ya onun müvafiq hissəsini şəxsin müraciəti əsasında “Yayılması qadağan edilən informasiyanın yerləşdirildiyi informasiya ehtiyatlarının Siyahısı”na daxil edir. Həmin internet informasiya ehtiyatına və ya onun müvafiq hissəsinə müraciətin məhdudlaşdırılması üçün bu Qanunun 13-3.7-ci maddəsində nəzərdə tutulmuş tədbirlər həyata keçirilir.”.

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2021-ci il*

# “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 462-VIQD nömrəli Qanununun tətbiqi və “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 iyun tarixli 729 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 462-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanununun 13-3.2-ci və 13-3.8-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi həyata keçirir.

2. “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 iyun tarixli 729 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 390, 2017; № 3, maddə 373; 2018, № 10, maddə 1984) 2.3-cü bəndində “Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar” sözləri “Rəqəmsal İnkişaf və Nəqliyyat” sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 462-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

4. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2021-ci il*

# Azərbaycan Respublikasını təmsil edən Maliyyə Nazirliyi və KfW arasında Cənubi Qafqaz üçün Ekoregional Təbiəti Mühafizə Proqramı çərçivəsində “Samur-Yalama Milli Parkının yaradılması” layihəsi üzrə Maliyyələşdirmə Müqaviləsinə düzəlişin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasını təmsil edən Maliyyə Nazirliyi və KfW arasında Cənubi Qafqaz üçün Ekoregional Təbiəti Mühafizə Proqramı çərçivəsində “Samur-Yalama Milli Parkının yaradılması” layihəsi üzrə Maliyyələşdirmə Müqaviləsinə 2021-ci il martın 22-də və iyulun 7-də məktublar mübadiləsi formasında imzalanmış düzəliş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2021-ci il*

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 9, maddə 1138, № 11, maddələr 1332, 1333, 1336, № 12 (I kitab), maddələr 1432, 1440; 2021, № 4, maddə 306, № 5, maddə 428, № 6 (I kitab), maddələr 535, 541, 546, 560, № 7, maddələr 701, 705, 711, № 8, maddə 894; Azərbaycan Respublikasının 2021-ci il 5 noyabr tarixli 397-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 43.1-ci maddəyə “479 - 481” rəqəmlərindən əvvəl “477-2.2,” rəqəmləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 449-1-ci maddə əlavə edilsin:

**“Maddə 449-1. Aksiz markası ilə markalanmalı olan və ya məcburi nişanlanma ilə nişanlanmalı olan malların nağd qaydada satılması və nağd qaydada alınması**

Pərakəndə satış istisna olmaqla, aksiz markası ilə markalanmalı olan və ya məcburi nişanlanma ilə nişanlanmalı olan malların nağd qaydada satılması, belə malların satış məqsədləri üçün nağd qaydada alınması az miqdarda törədildikdə -

vəzifəli şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə, hüquqi şəxslər min manatdan min beş yüz manatadək məbləğdə cərimə edilir.

**Qeyd:** Bu maddədə “az miqdar” dedikdə beş yüz manatadək olan məbləğ başa düşülür.”;

1.3. aşağıdakı məzmunda 477-2-ci maddə əlavə edilsin:

**“Maddə 477-2. Dövlət icbari şəxsi sığorta haqqında qanunvericiliyin pozulması**

477-2.1. Sığortalı tərəfindən dövlət icbari şəxsi sığorta haqqında qanunvericiliyin pozulmasına, yəni:

477-2.1.1. üzrlü səbəblər olmadan sığortaolunanı dövlət icbari şəxsi sığorta etdirməməsinə və qanunla müəyyən edilmiş qaydada və müddətdə dövlət icbari şəxsi sığorta haqqını sığortaçıya ödəməməsinə;

477-2.1.2. hər rüb üzrə rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq ödənilmiş sığorta haqları və sığortaolunanlar barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada və formada sığortaçıya hesabat verilməməsinə görə -

vəzifəli şəxslər iki yüz manat məbləğində cərimə edilir.

477-2.2. Sığortaçı tərəfindən sığorta ödənişi almaq hüququ olan şəxsə üzrlü səbəblər olmadan qanunla müəyyən edilmiş qaydada və müddətdə sığorta ödənişinin verilməməsinə görə -

vəzifəli şəxslər yüz manat məbləğində cərimə edilir.”.

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2021-ci il*

# “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 407-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2016-cı il 15 fevral tarixli 795 nömrəli, “İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi barədə” 2017-ci il 23 fevral tarixli 1256 nömrəli və “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi barədə” 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 407-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 477-2.1.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 477-2.1.2-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

2. Azərbaycan Respublikası Nazirlər Kabineti “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası 2021-ci il 3 dekabr tarixli 407-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884, № 8, maddələr 1027, 1032, № 9, maddə 1155, № 11, maddə 1359, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 36, № 4, maddə 317, № 5, maddə 444, № 6 (I kitab), maddələr 565, 575, № 7, maddələr 724, 728, 741, № 10, maddə 1101) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4.1-ci bəndə “478-ci” sözlərindən əvvəl “477-2.1.2-ci,” sözləri əlavə edilsin;

3.2. 4.3-1-ci bənddə “540.2-ci maddəsində” sözləri “477-2.1.2-ci və 540.2-ci maddələrində” sözləri ilə əvəz edilsin;

3.3. 5.4-cü bəndə “477-1.2-ci,” sözlərindən sonra “477-2.1-ci,” sözləri əlavə edilsin;

3.4. 5.46-cı bəndə “430.2,” rəqəmlərindən sonra “449-1,” rəqəmləri əlavə olunsun və həmin bənddə “Vergilər” sözü “İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat” sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200, № 6, maddə 1105, № 9, maddə 1638, № 11, maddə 1984; 2018, № 2, maddə 199, № 3, maddələr 415, 419, 429, № 5, maddələr 915, 927, № 7 (I kitab), maddə 1481, № 8, maddə 1698, № 11, maddələr 2242, 2289, № 12 (I kitab), maddələr 2566, 2597; 2019, № 1, maddə 82, № 2, maddə 213, № 3, maddə 426, № 4, maddələr 620, 630, 649, № 5, maddələr 819, 862; 2020, № 3, maddələr 238, 240, № 4, maddə 404, № 7, maddələr 864, 885, № 8, maddə 1041, № 9, maddə 1153; 2021, № 6 (I kitab), maddə 566, № 7, maddələr 724, 728) ilə təsdiq edilmiş “İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın 6.0-cı bəndinə “430.2,” rəqəmlərindən sonra “449-1,” rəqəmləri əlavə edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252, № 5, maddələr 538, 564, № 6, maddələr 710, 714, № 7, maddələr 865, 880, № 8, maddə 1032, № 11, maddə 1345, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 33, № 6 (I kitab), maddə 566, № 8, maddə 921) ilə təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın 2-ci hissəsində “və 183-cü” sözləri “,183-cü və 477-2.2-ci” sözləri ilə əvəz edilsin.

6. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2021-ci il*

# “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 415-VIQD nömrəli Qanununun tətbiqi və “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 415-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun 18.76-cı, 33-5.1.3-cü, 33-5.2-ci və 33-5.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 18.76-cı maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 33-5.1.3-cü, 33-5.2-ci və 33-5.3-cü maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur.

2. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 767; 2006, № 12, maddə 1057; 2008, № 9, maddə 798; 2012, № 6, maddə 547, № 12, maddə 1271; 2013, № 11, maddə 1327, № 12, maddə 1510; 2014, № 4, maddə 360; 2016, № 1, maddə 43, № 5, maddə 883, № 9, maddə 1463, № 11, maddə 1807; 2017, № 3, maddə 370, № 5, maddə 757, № 7, maddə 1377, № 10, maddə 1804, № 12 (I kitab), maddə 2293; 2018, № 6, maddələr 1231, 1239, № 7 (I kitab), maddə 1489, № 12 (I kitab), maddə 2552; 2019, № 1, maddə 95, № 6, maddə 1044, № 7, maddə 1248, № 11, maddə 1699; 2020, № 5, maddə 561, № 7, maddə 735) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bənddə “4.1-ci, 4.1-1-ci (hər dörd halda), 4.1-2-ci (hər üç halda), 4.1-3-cü (hər üç halda), 4.1-4-cü (hər üç halda), 4.1-5-ci, 4.1-6-cı, 6.2-ci, 18.65.6.1-ci (hər iki halda), 23-2-ci və 33-2.2-ci” sözləri “6.2-ci, 18.76-cı, 33-5.1.3-cü, 33-5.2-ci və 33-5.3-cü” sözləri ilə əvəz edilsin;

2.2. 2.1-1-2.1-4-cü, 2.1-7-ci, 2.1-8-ci, 2.1-13-cü və 2.1-16-cı bəndlər ləğv edilsin;

2.3. 2.1-10-cu bənd aşağıdakı redaksiyada verilsin:

“2.1-10. həmin Qanunun 33-5.1.3-cü, 33-5.2-ci və 33-5.3-cü maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;”;

2.4. 2.2-ci bənddən “18.65.3-1-ci (ikinci halda)” sözləri çıxarılsın və həmin bənddə “, 25.2.2-ci və 33-5-ci” sözləri “və 25.2.2-ci” sözləri ilə əvəz edilsin;

2.5. aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

“2.2-1. həmin Qanunun 18.76-cı maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;”;

2.6. 2.3-cü bənddən “və 7-ci maddəsində (2-ci maddə üzrə)” sözləri çıxarılsın və həmin bənddə “Vergilər” sözü “İqtisadiyyat” sözü ilə əvəz edilsin;

2.7. aşağıdakı məzmunda 2.3-1-ci bənd əlavə edilsin:

“2.3-1. həmin Qanunun 7-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həyata keçirirlər;”;

2.8. 2.9-cu bənddə “Əmlak Məsələləri Dövlət Komitəsi” sözləri “İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi” sözləri ilə əvəz edilsin;

2.9. 2.11-ci bənddən “(birinci halda)” sözləri çıxarılsın.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 415-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

4. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2021-ci il*

# "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 399; 2001, № 12, maddə 736; 2005, № 8, maddə 692, № 10, maddə 872; 2006, № 12, maddə 1007; 2008, № 6, maddə 462, № 11, maddə 960; 2011, № 2, maddə 71; 2013, № 12, maddə 1491; 2015, № 2, maddə 73; 2016, № 3, maddə 415; 2017, № 5, maddə 686; 2019, № 1, maddə 33; № 11, maddə 1691; 2020, № 7, maddə 826; 2021, № 8, maddə 897) aşağıdakı dəyişikliklər edilsin:

1.1. preambulada "səhhətinin dövlət icbari şəxsi sığortası qaydalarını və şərtlərini müəyyən edir" sözləri "həyat və sağlamlığının dövlət icbari şəxsi sığortası sahəsində münasibətləri tənzimləyir" sözləri ilə əvəz edilsin;

1.2. 1.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"1.1. Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, bu Qanun, habelə Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə tənzimlənir.";

1.3. 2 - 4-cü maddələr aşağıdakı redaksiyada verilsin:

**"Maddə 2. Əsas anlayışlar**

2.1. Bu Qanunda istifadə edilən əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. dövlət icbari şəxsi sığorta - sığortaolunanların həyat və sağlamlığının bu Qanunda nəzərdə tutulmuş qaydada icbari formada sığorta olunmasına yönəldilmiş münasibətlər sistemi;

2.1.2. sığortaçı - bu Qanunla müəyyən edilmiş qaydada dövlət icbari şəxsi sığorta üzrə fəaliyyəti həyata keçirən və sığorta vəsaitlərini idarə edən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum);

2.1.3. sığortaolunan - barəsində sığorta fəaliyyəti həyata keçirilən Azərbaycan Respublikası Silahlı Qüvvələrində, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat orqanlarında, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərində, habelə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda) hərbi xidmətdə olan şəxslər və toplanışlarda olan hərbi vəzifəlilər;

2.1.4. sığortalı - sığortaolunan üçün sığorta haqqı ödəyən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) və Azərbaycan Respublikasının Hərbi Prokurorluğu;

2.1.5. sığorta ödənişi almaq hüququ olan şəxs - bu Qanunla müəyyən edilmiş qaydada sığorta ödənişini almaq hüququ olan sığortaolunan və ya onun vərəsəsi;

2.1.6. sığorta hadisəsi - sığorta ödənişi almaq hüququ olan şəxsə sığorta ödənişinin ödənilməsi üçün əsas olan bu Qanunun 5-ci maddəsi ilə müəyyən edilən hal;

2.1.7. sığorta haqqı - bu Qanunla nəzərdə tutulmuş qaydada və məbləğdə sığortalılar tərəfindən hər bir sığortaolunan üzrə hər il üçün sığortaçıya ödənilməli olan pul məbləği;

2.1.8. sığorta vəsaiti - bu Qanunun 8-1.1-ci maddəsində nəzərdə tutulan mənbələr hesabına formalaşan vəsait;

2.1.9. sığorta ödənişi - sığorta hadisəsi baş verdikdə sığorta ödənişi almaq hüququ olan şəxsə sığortaçı tərəfindən ödənilən birdəfəlik pul vəsaiti;

2.1.10. sığorta ehtiyatı - sığorta ödənişlərinin davamlılığının təmin edilməsi məqsədilə sığorta haqları üzrə illik daxilolmaların proqnozunun 5 faizədək hissəsində hesablanan vəsaitdir.

**Maddə 3. Dövlət icbari şəxsi sığortanın prinsipləri**

3.1. Dövlət icbari şəxsi sığortanın əsas prinsipləri aşağıdakılardır:

3.1.1.dövlət icbari şəxsi sığortanın məcburiliyi;

3.1.2. dövlət icbari şəxsi sığortanın subyektlərinin (sığortaçının, sığortalının, sığortaolunanın) hüquq bərabərliyi.

**Maddə 4. Sığorta məbləğinin və sığorta haqqının miqdarı**

4.1. Sığortaolunan on bir min manat məbləğində sığorta edilir.

4.2. Sığorta haqqı bu Qanunun 4.1-ci maddəsində nəzərdə tutulan sığorta məbləğinin 1 faizi miqdarında müəyyən edilir.";

1.4. aşağıdakı məzmunda 4-1 - 4-4-cü maddələr əlavə edilsin:

**"Maddə 4-1. Sığortaolunanın hüquq və vəzifələri**

4-1.1. Sığortaolunanın aşağıdakı hüquqları vardır:

4-1.1.1. dövlət icbari şəxsi sığorta etdirməyi sığortalıdan tələb etmək;

4-1.1.2. sığortaçıdan və sığortalıdan dövlət icbari şəxsi sığorta ilə bağlı hüquq və vəzifələrinin izah edilməsini tələb etmək;

4-1.1.3. sığorta ödənişinin bu Qanunla müəyyən olunmuş qaydada və müddətdə verilməsini sığortaçıdan tələb etmək;

4-1.1.4. yazılı müraciət əsasında hesablanmış və ödənilmiş sığorta haqqının məbləği barədə sığortaçıdan və ya sığortalıdan məlumat almaq.

4-1.2. Sığortaolunanın aşağıdakı vəzifələri vardır:

4-1.2.1. sığortaçı tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə məlumatların əldə edilməsi mümkün olmadığı hallarda sığorta hadisəsinin baş verdiyini təsdiq edən sənədləri və məlumatları sığortaçıya bu Qanunla müəyyən olunmuş qaydada tam və düzgün təqdim etmək;

4-1.2.2. fərdi məlumatları dəyişildikdə həmin dəyişikliklərə dair məlumatların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda bu barədə 5 iş günü müddətində sığortalıya yazılı məlumat vermək.

4-1.3. Bu Qanunun 4-1.1.2-ci, 4-1.1.3-cü və 4-1.2.1-ci maddələri sığortaolunanın sığorta ödənişi almaq hüququ olan vərəsələrinə də şamil edilir.

**Maddə 4-2. Sığortaçının hüquq və vəzifələri**

4-2.1. Sığortaçının aşağıdakı hüquqları vardır:

4-2.1.1. sığortalıdan sığorta haqqını və rüblük hesabatları almaq;

4-2.1.2. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə məlumatların əldə edilməsi mümkün olmadığı hallarda sığorta ödənişi almaq hüququ olan şəxsdən sığorta ödənişinin ödənilməsi, habelə uçot məlumatlarında dəyişikliklərin edilməsi üçün tələb olunan sənədləri və məlumatları tələb etmək;

4-2.1.3. sığorta hadisəsinin müəyyən edilməsi ilə bağlı, sığortalıdan və aidiyyəti dövlət orqanlarından (qurumlarından) məlumat və ya sığortaolunanın həmin sığortalı üzrə sığortaolunan hesab olunmasına dair arayış almaq (o cümlədən elektron qaydada);

4-2.1.4. sığortalı tərəfindən bu Qanunun tələblərinə əməl edilməsinin təhlilini aparmaq və nəticəsi barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat vermək;

4-2.1.5. bu Qanunla müəyyən olunmuş digər hüquqları həyata keçirmək.

4-2.2. Sığortaçının aşağıdakı vəzifələri vardır:

4-2.2.1. sığorta ödənişi almaq hüququ olan şəxsə və sığortalıya dövlət icbari şəxsi sığorta ilə bağlı hüquq və vəzifələrini izah etmək;

4-2.2.2. sığorta ödənişinin bu Qanunla müəyyən olunmuş qaydada və müddətdə ödənilməsini təmin etmək;

4-2.2.3. hər bir sığortalıya və bu Qanunun 9.1-ci maddəsinə əsasən dövlət icbari şəxsi sığortaya nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) sığorta ödənişlərinin icrasına dair məlumat təqdim etmək;

4-2.2.4. sığortalının təqdim etdiyi məlumatlar əsasında sığortalıların və sığortaolunanların uçotunu aparmaq;

4-2.2.5. sığortaolunanın yazılı müraciətinə əsasən hesablanmış və ödənilmiş sığorta haqqının məbləği barədə uçot məlumatlarını təqdim etmək;

4-2.2.6. bu Qanunun 8-1-ci maddəsinə uyğun olaraq sığorta vəsaitlərini idarə etmək;

4-2.2.7. sığortalı tərəfindən sığorta haqlarının sığortaçıya ödənilməsinə nəzarət etmək;

4-2.2.8. bu Qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**Maddə 4-3. Sığortalının hüquq və vəzifələri**

4-3.1. Sığortalının aşağıdakı hüquqları vardır:

4-3.1.1. özünün və sığortaolunanın qanuni mənafelərini müdafiə etmək;

4-3.1.2. sığortaçı və sığortaolunandan bu Qanunla müəyyən edilmiş vəzifələrinə əməl edilməsini tələb etmək;

4-3.1.3. sığortaçıdan dövlət icbari şəxsi sığorta ilə bağlı hüquq və vəzifələrinin izah edilməsini tələb etmək;

4-3.1.4. sığorta ödənişlərinə dair sığortaçıdan məlumat almaq;

4-3.1.5. bu Qanunla müəyyən olunmuş digər hüquqları həyata keçirmək.

4-3.2. Sığortalının aşağıdakı vəzifələri vardır:

4-3.2.1. Sığortaolunanları dövlət icbari şəxsi sığorta etdirmək;

4-3.2.2. bu Qanunla müəyyən edilmiş qaydada, məbləğdə və müddətdə sığorta haqqını tam həcmdə sığortaçıya ödəmək;

4-3.2.3. sığortaolunanlar və özü barədə məlumatları bu Qanunun 4-4-cü maddəsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq sığortaçıya təqdim etmək;

4-3.2.4. sığorta ödənişinin alınması üçün sənədlərin rəsmiləşdirilməsində və sığorta ödənişlərinin alınmasında sığorta ödənişi almaq hüququ olan şəxsə kömək etmək;

4-3.2.5. sığorta haqlarının uçotunu aparmaq və hər rüb üzrə, rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq, ödənilmiş sığorta haqları və sığortaolunanlar barədə sığortaçıya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada və formada hesabat vermək;

4-3.2.6. bu Qanunla müəyyən olunmuş digər vəzifələri yerinə yetirmək.

**Maddə 4-4. Sığortaolunanların və sığortalıların uçotu və sığorta haqlarının hesablanması, ödənilməsi, ödənilməsinə nəzarət, artıq ödənilmiş sığorta haqlarının qaytarılması qaydası**

Dövlət icbari şəxsi sığortası məqsədilə sığortalıların təqdim etdiyi məlumatlar əsasında sığortaolunanların və sığortalıların sığortaçıda uçotu, habelə sığortalılar tərəfindən sığorta haqlarının hesablanması, sığortaçıya ödənilməsi, ödənilməsinə nəzarət və artıq ödənilmiş sığorta haqlarının qaytarılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.";

1.5. 5-ci maddənin birinci hissəsi üzrə:

1.5.1. birinci abzasda "4-cü" sözləri "4.1-ci" sözləri ilə, "məbləğinin" sözü "məbləğlərinin" sözü ilə əvəz edilsin;

1.5.2. beşinci abzasda ismin müvafiq hallarında "həqiqi hərbi xidmət" sözlərindən sonra ismin müvafiq hallarında "(toplanış)" sözü əlavə olunsun, "d" bəndində üçüncü abzas dördüncü abzas hesab olunsun və aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

"- az ağır xəsarət (yaralanma, travma, kontuziya) - 15 faiz;";

1.6. 5-ci maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Ağır, az ağır və yüngül xəsarət növləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş siyahıya uyğun olaraq müəyyən edilir.".

1.7. 6 - 8-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**"Maddə 6. Dövlət icbari şəxsi sığortanın aparılması qaydası**

6.1. Sığortaolunanların dövlət icbari şəxsi sığortası hər il dövlət büdcəsinin vəsaiti hesabına aparılır.

6.2. Sığortalılar sığortaolunanların dövlət icbari şəxsi sığortasını təmin etmək üçün sığorta haqlarının məbləğini hər il rüblər üzrə bu Qanunun 4-4-cü maddəsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq sığortaçıya ödəyir.

6.3. Sığorta haqqı sığortalı tərəfindən hər il üçün hər bir sığortaolunana görə ödənilir.

6.4. Sığortaolunanlar hərbi qulluqçu statusu əldə etdikləri gündən bu Qanunla müəyyən edilmiş qaydada sığortalı tərəfindən sığorta olunurlar.

**Maddə 7. Sığorta ödənişinin verilməsi**

7.1. Sığortaçı sığorta ödənişi almaq hüququ olan şəxsə sığorta ödənişini sığorta hadisəsi ilə bağlı məlumatın müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sisteminə daxil olduğu, bu mümkün olmadıqda isə sığorta ödənişi almaq hüququ olan şəxs müraciətinin daxil olduğu gündən 10 iş günü müddətində verir. Sığorta ödənişinin verilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

7.2. Sığortalı və digər aidiyyəti dövlət orqanları (qurumları) sığorta ödənişlərinin alınması üçün sığorta ödənişi almaq hüququ olan şəxsə kömək etməlidirlər.

7.3. Bu Qanunun 4-3.2.5-ci maddəsinə uyğun olaraq sığortalı tərəfindən sığortaçıya hesabat təqdim olunmadığı hallarda sığorta ödənişi sığortalının sığortaolunanın həmin sığortalı üzrə sığortaolunan hesab olunmasına dair arayışına əsasən ödənilir və bu barədə məlumatlar sığortalının növbəti rübdə təqdim etdiyi hesabatda əks olunur.

7.4. Sığorta ödənişi verilmiş sığorta hadisəsi ilə bağlı yeni sığorta hadisəsi baş verdikdə müvafiq sığorta ödənişi əvvəl ödənilmiş məbləğ nəzərə alınmaqla ödənilir.

**Maddə 8. Sığorta ödənişinin verilməsindən imtina**

8.1. Sığorta ödənişi almaq hüququ olan şəxsə sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edilir:

8.1.1. sığortaolunanın sığorta hadisəsi ilə birbaşa bağlı olan qəsdən cinayət törətdiyi barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü və ya cinayət təqibini həyata keçirən orqanın müvafiq prosessual qərarı olduqda;

8.1.2. sığortaolunan bu Qanunun 7.1-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq sığorta ödənişinin alınması üçün tələb olunan sənədləri və məlumatları təqdim etmədikdə, yaxud təqdim edilmiş sənədlərin və məlumatların tam və ya düzgün olmadığı müəyyən edildikdə;

8.1.3. baş vermiş hadisə bu Qanunla müəyyən edilmiş sığorta hadisəsi hesab edilmədikdə;

8.1.4. sığorta hadisəsi sığortaolunanın bilavasitə alkoqoldan, narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir göstərən digər maddələrdən istifadə etməsi nəticəsində baş verdikdə;

8.1.5. sığortaolunan özünə qəsd etdikdə və həmin hal məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə təsdiq olunduqda.

8.2. Sığorta ödənişinin verilməsindən bu Qanunun 8.1.2-ci maddəsində nəzərdə tutulmuş hala görə imtina edildikdə sığorta ödənişi almaq hüququ olan şəxs imtinaya səbəb olan hal aradan qaldırıldıqdan sonra sığorta ödənişinin alınması üçün təkrar müraciət etmək hüququna malikdir.";

1.8. aşağıdakı məzmunda 8-1-ci və 8-2-ci maddələr əlavə edilsin:

**"Maddə 8-1. Sığorta vəsaitləri**

8-1.1. Sığorta vəsaitləri aşağıdakı mənbələr hesabına formalaşır:

8-1.1.1. bu Qanunla müəyyən olunmuş qaydada və məbləğdə ödənilən sığorta haqları;

8-1.1.2. kreditlər;

8-1.1.3. sığorta ehtiyatının təhlükəsizlik göstəriciləri üzrə meyarları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən banklarda depozitə yerləşdirilməsindən əldə edilən gəlirlər;

8-1.1.4. qanunla qadağan edilməyən digər mənbələr.

8-1.2. Sığorta vəsaitləri aşağıdakı istiqamətlərdə istifadə olunur:

8-1.2.1. dövlət icbari şəxsi sığorta ödənişlərinin verilməsinə;

8-1.2.2. sığorta ehtiyatının yaradılmasına;

8-1.2.3. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən hallarda müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı tədbirlərin maliyyələşdirilməsinə;

8-1.2.4. idarəetmə xərclərinə;

8-1.2.5. qanunla müəyyən edilən digər istiqamətlərə.

8-1.3. İdarəetmə xərcləri sığorta haqqının 5 faizədək miqdarında müəyyən edilir və bu vəsaitin xərclənməsi müvafiq qaydada təsdiq olunmuş xərclər smetasına uyğun olaraq həyata keçirilir.

8-1.4. Sığorta vəsaitindən, o cümlədən sığorta ehtiyatından istifadə qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir.

8-1.5. Sığorta ehtiyatı sığorta haqlarının illik proqnoz həcminə bərabər olduqda, sığorta ehtiyatının artırılması dayandırılır, onun depozitə yerləşdirilməsindən əldə edilən gəlir isə müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı tədbirlərin maliyyələşdirilməsinə yönəldilir.

8-1.6. Sığorta ödənişi almaq hüququ olan şəxslərin sayında kəskin artım nəticəsində sığorta ödənişləri üzrə illik gözlənilən xərclər sığorta haqları üzrə illik gözlənilən daxilolmadan artıq olduqda, gözlənilən sığorta ödənişləri üzrə xərclər və sığorta haqları üzrə daxilolmalar arasındakı kəsir sığorta ehtiyatı hesabına maliyyələşdirilir.

8-1.7. Cari ilin sonunda sığorta vəsaitinin istifadə olunmamış qalığı, sığorta ehtiyatı və onun depozitə yerləşdirilməsindən əldə edilmiş gəlir növbəti il üçün xərclərin maliyyələşdirilməsinə yönəldilir.

**Maddə 8-2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tətbiq edilən cərimələrdən ayırmalar**

Bu Qanunun tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən toplanan vəsaitin 43 faizi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hesabına köçürülür.;

1.9. 9-cu maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 9. Nəzarət və bu Qanunun pozulmasına görə məsuliyyət**

9.1. Dövlət icbari şəxsi sığortanın həyata keçirilməsinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) nəzarət edir.

9.2. Sığortaçı dövlət icbari şəxsi sığorta sahəsində görülmüş işlərə dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) hesabat verir.

9.3. Bu Qanunun tələblərini pozan şəxslər Azərbaycan Respublikasının Mülki, İnzibati Xətalar və Cinayət məcəllələrində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.".

**Maddə 2. Keçid müddəaları**

2.1. Bu Qanun 2022-ci il yanvarın 1-dən (bu Qanunun 2.2-ci maddəsi nəzərə alınmaqla) qüvvəyə minir.

2.2. Sığortaolunanların "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun 4-4-cü maddəsində müəyyən edilən qaydada sığortaçıda uçotu müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) sığortaolunanlarına münasibətdə 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

2.3. 2022-ci il yanvarın 1-dən 2024-cü il yanvarın 1-dək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) sığorta haqqını "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun 4-4-cü maddəsində nəzərdə tutulmuş qaydada ümumi say tərkibinə uyğun olaraq sığortaçıya ödəyir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2021-ci il*

# "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 418-VIQD nömrəli Qanununun tətbiqi və "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli 620 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 418-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun 2.1.2-ci, 2.1.4-cü, 4-1.2.1-ci, 4-1.2.2-ci, 4-2.1.2-ci, 4-2.1.4-cü, 4-2.2.3-cü, 4-3.2.5-ci, 4-4-cü maddələrində, 5-ci maddəsinin ikinci hissəsində, 7.1-ci maddəsinin birinci və ikinci cümlələrində, 8-1.1.3-cü, 8-1.2.3-cü, 8-1.4-cü maddələrində, 8-2-ci maddəsinin adında və mətnində (hər iki halda), 9.1-ci və 9.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 8-1.2.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 4-3.2.5-ci, 4-4-cü maddələrində, 5-ci maddəsinin ikinci hissəsində, 7.1-ci maddəsinin ikinci cümləsində, 8-1.1.3-cü və 8-1.4-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Qanunun 2.1.4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi (Naxçıvan Muxtar Respublikası ərazisində Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi), Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi nəzərdə tutulur;

1.5. həmin Qanunun 4-1.2.1-ci, 4-1.2.2-ci, 4-2.1.2-ci, 4-2.1.4-cü, 4-2.2.3-cü maddələrində, 7.1-ci maddəsinin birinci cümləsində, 8-2-ci maddəsinin adında və mətnində (hər iki halda), 9.1-ci və 9.2-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Qanunun 2.1.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.7. "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 418-VIQD nömrəli Qanununun 2.2-ci və 2.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.8. həmin Qanunun 2.2-ci və 2.3-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin dövlət icbari şəxsi sığortası haqqında" və "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq, üç ay müddətində:

2.1.1. sığortalıların təqdim etdiyi məlumatlar əsasında sığortaolunanların və sığortalıların sığortaçıda uçotu, habelə sığortalılar tərəfindən dövlət icbari şəxsi sığorta haqlarının hesablanması, sığortaçıya ödənilməsi, ödənilməsinə nəzarət və artıq ödənilmiş dövlət icbari şəxsi sığorta haqlarının qaytarılması qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.1.2. dövlət icbari şəxsi sığorta ödənişinin verilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.1.3. sığorta vəsaitindən, o cümlədən sığorta ehtiyatından istifadə qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.1.4. sığortalı tərəfindən ödənilmiş dövlət icbari şəxsi sığorta haqları və sığortaolunanlar barədə sığortaçıya verilən hesabatın formasını və onun verilməsi qaydasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 418-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli 620 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 400; 2002, № 8, maddə 478; 2004, № 1, maddə 19; 2005, № 12, maddə 1105; 2006, № 12, maddə 1034; 2008, № 8, maddə 719; 2013, № 12, maddə 1526; 2016, № 7, maddə 1259; 2017, № 5, maddə 799) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"2. Müəyyən edilsin ki:

2.1. "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun 2.1.2-ci, 2.1.4-cü, 4-1.2.1-ci, 4-1.2.2-ci, 4-2.1.2-ci, 4-2.1.4-cü, 4-2.2.3-cü, 4-3.2.5-ci, 4 4-cü maddələrində, 5-ci maddəsinin ikinci hissəsində, 7.1-ci maddəsinin birinci və ikinci cümlələrində, 8 1.1.3-cü, 8-1.2.3-cü, 8-1.4-cü maddələrində, 8-2-ci maddəsinin adında və mətnində (hər iki halda), 9.1-ci və 9.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 8-1.2.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

2.3. həmin Qanunun 4-3.2.5-ci və 4-4-cü maddələrində, 5-ci maddəsinin ikinci hissəsində, 7.1-ci maddəsinin ikinci cümləsində, 8-1.1.3-cü və 8 1.4 cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.4. həmin Qanunun 2.1.4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi (Naxçıvan Muxtar Respublikası ərazisində Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi), Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi nəzərdə tutulur;

2.5. həmin Qanunun 4-1.2.1-ci, 4-1.2.2-ci, 4-2.1.2-ci, 4-2.1.4-cü, 4-2.2.3-cü maddələrində, 7.1-ci maddəsinin birinci cümləsində, 8-2-ci maddəsinin adında və mətnində (hər iki halda), 9.1-ci və 9.2-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

2.6. həmin Qanunun 2.1.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.".

4. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2021-ci il*

# "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94 cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 106; 2001, № 12, maddə 731; 2002, № 1, maddə 4; 2004, № 8, maddə 606, № 9, maddə 666; 2007, № 3, maddə 206, № 6, maddələr 560, 598, № 11, maddə 1078; 2008, № 8, maddə 699, № 11, maddə 960; 2009, № 6, maddə 395; 2010, № 4, maddə 276; 2013, № 12, maddə 1497; 2018, № 3, maddə 399, № 5, maddə 886, № 12 (I kitab), maddə 2481; 2019, № 7, maddə 1194; 2020, № 4, maddə 394, № 7, maddə 826; 2021, № 8, maddə 897) aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 2-1-ci maddə əlavə edilsin:

**Maddə 2-1. Əsas anlayışlar**

Bu Qanunda istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

dövlət icbari şəxsi sığorta - sığortaolunanın həyat və sağlamlığının bu Qanunda nəzərdə tutulmuş qaydada icbari formada sığorta olunmasına yönəldilmiş münasibətlər sistemi;

sığortaçı - bu Qanunla müəyyən edilmiş qaydada dövlət icbari şəxsi sığorta üzrə fəaliyyəti həyata keçirən və sığorta vəsaitlərini idarə edən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum);

sığortaolunan - deputat;

sığortalı - Azərbaycan Respublikasının Milli Məclisi;

sığorta ödənişi almaq hüququ olan şəxs - bu Qanunla müəyyən edilmiş qaydada sığorta ödənişini almaq hüququ olan sığortaolunan və ya onun vərəsəsi;

sığorta hadisəsi - sığorta ödənişi almaq hüququ olan şəxsə sığorta ödənişinin ödənilməsi üçün əsas olan bu Qanunun 30-4-cü maddəsi ilə müəyyən edilən hal;

sığorta haqqı - bu Qanunla nəzərdə tutulmuş qaydada və məbləğdə sığortalılar tərəfindən hər bir sığortaolunan üzrə hər il üçün sığortaçıya ödənilməli olan pul məbləği;

sığorta vəsaiti - bu Qanunun 30-9-cu maddəsində nəzərdə tutulan mənbələr hesabına formalaşan vəsait;

sığorta ödənişi - sığorta hadisəsi baş verdikdə sığorta ödənişi almaq hüququ olan şəxsə sığortaçı tərəfindən ödənilən birdəfəlik pul vəsaiti;

sığorta ehtiyatı - sığorta ödənişlərinin davamlılığının təmin edilməsi məqsədilə sığorta haqları üzrə illik daxilolmaların proqnozunun 5 faizədək hissəsində hesablanan vəsait.";

1.1. 3-cü maddəyə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Deputatın dövlət icbari şəxsi sığortası bu Qanunun IV-I fəslinə uyğun olaraq həyata keçirilir.";

1.2. IV-I fəslin adından "həyat və sağlamlığının" sözləri çıxarılsın və "icbari" sözündən sonra "şəxsi" sözü əlavə olunsun;

1.3. 30-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 30-1. Dövlət icbari şəxsi sığortanın prinsipləri**

Dövlət icbari şəxsi sığortanın əsas prinsipləri aşağıdakılardır:

dövlət icbari şəxsi sığortanın məcburiliyi;

dövlət icbari şəxsi sığortanın subyektlərinin (sığortaçının, sığortalının, sığortaolunanın) hüquq bərabərliyi.";

1.4. 30-2-ci maddə ləğv edilsin;

1.5. 30-3-cü maddə üzrə:

1.5.1. birinci hissədə "Bu qanuna uyğun olaraq hər bir deputat onun" sözləri "Sığortaolunan" sözü ilə əvəz edilsin;

1.5.2. ikinci hissədən ", sığorta işinin aparılması üçün sığortaçının xərcləri də nəzərə alınmaqla," sözləri "bu Qanunun 30-3-cü maddəsinin birinci hissəsində nəzərdə tutulan" sözləri ilə əvəz edilsin;

1.6. 30-4-cü maddə üzrə:

1.7.1. birinci hissədə "sığorta olunanın" sözləri "sığortaolunanın" sözü ilə əvəz edilsin;

1.7.2. ikinci hissədə "sığortalıya" sözü "sığortaolunana bu Qanunun 30-3-cü maddəsinin birinci hissəsində müəyyən edilmiş" sözləri ilə əvəz olunsun və həmin hissəyə aşağıdakı məzmunda 3-1 bənd əlavə edilsin:

"3-1) az ağır xəsarət aldıqda - 10 %;";

1.7.3. üçüncü hissədə "sığorta olunan" sözləri "sığortaolunan" sözü ilə əvəz edilsin;

1.7.4. aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

"Ağır, az ağır və yüngül xəsarət növləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş siyahıya uyğun olaraq müəyyən edilir.";

1.7. 30-5 - 30-7-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**"Maddə 30-5. Dövlət icbari şəxsi sığortanın aparılması qaydası**

Sığortaolunanların dövlət icbari şəxsi sığortası hər il dövlət büdcəsinin vəsaiti hesabına aparılır.

Sığortalılar sığortaolunanların dövlət icbari şəxsi sığortasını təmin etmək üçün sığorta haqlarının məbləğini hər il rüblər üzrə bu Qanunun 30-7-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş qaydada sığortaçıya ödəyir.

Sığorta haqqı sığortalı tərəfindən hər il üçün hər bir sığortaolunana görə ödənilir.

Sığortaolunanlar fəaliyyətə başladığı tarixdən bu Qanunla müəyyən edilmiş qaydada sığortalı tərəfindən sığorta olunurlar.

**Maddə 30-6. Sığortaolunanın, sığortaçının və sığortalının hüquq və vəzifələri**

Sığortaolunanın aşağıdakı hüquqları vardır:

1) dövlət icbari şəxsi sığorta etdirməyi sığortalıdan tələb etmək;

2) sığortaçıdan və sığortalıdan dövlət icbari şəxsi sığorta ilə bağlı hüquq və vəzifələrinin izah edilməsini tələb etmək;

3) sığorta ödənişinin bu Qanunla müəyyən olunmuş qaydada və müddətdə verilməsini sığortaçıdan tələb etmək;

4) yazılı müraciət əsasında hesablanmış və ödənilmiş sığorta haqqının məbləği barədə sığortaçıdan və ya sığortalıdan məlumat almaq.

Sığortaolunanın aşağıdakı vəzifələri vardır:

1) sığortaçı tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə məlumatların əldə edilməsi mümkün olmadığı hallarda sığorta hadisəsinin baş verdiyini təsdiq edən sənədləri və məlumatları sığortaçıya bu Qanunla müəyyən olunmuş qaydada tam və düzgün təqdim etmək;

2) fərdi məlumatları dəyişildikdə həmin dəyişikliklərə dair məlumatların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda bu barədə 5 iş günü müddətində sığortalıya yazılı məlumat vermək.

Bu Qanunun 30-6-cı maddəsinin birinci hissəsinin 2-ci və 3-cü bəndləri və ikinci hissəsinin 1-ci bəndi sığortaolunanın sığorta ödənişi almaq hüququ olan vərəsələrinə də şamil edilir.

Sığortaçının aşağıdakı hüquqları vardır:

1) sığortalıdan sığorta haqqını və rüblük hesabatları almaq;

2) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə məlumatların əldə edilməsi mümkün olmadığı hallarda sığorta ödənişi almaq hüququ olan şəxsdən sığorta ödənişinin ödənilməsi, habelə uçot məlumatlarında dəyişikliklərin edilməsi üçün tələb olunan sənədləri və məlumatları tələb etmək;

3) sığorta hadisəsinin müəyyən edilməsi ilə bağlı sığortalıdan və aidiyyəti dövlət orqanlarından (qurumlarından) məlumat və ya sığortaolunanın həmin sığortalı üzrə sığortaolunan hesab olunmasına dair arayış almaq (o cümlədən elektron qaydada);

4) sığortalı tərəfindən bu Qanunun tələblərinə əməl edilməsinin təhlilini aparmaq və nəticəsi barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat vermək;

5) bu Qanunla müəyyən olunmuş digər hüquqları həyata keçirmək.

Sığortaçının aşağıdakı vəzifələri vardır:

1) sığorta ödənişi almaq hüququ olan şəxsə və sığortalıya dövlət icbari şəxsi sığorta ilə bağlı hüquq və vəzifələrini izah etmək;

2) sığorta ödənişinin bu Qanunla müəyyən olunmuş qaydada və müddətdə ödənilməsini təmin etmək;

3) hər bir sığortalıya və bu Qanunun 30-10-cu maddəsinə əsasən dövlət icbari şəxsi sığortaya nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) sığorta ödənişlərinin icrasına dair məlumat təqdim etmək;

4) sığortalının təqdim etdiyi məlumatlar əsasında sığortalıların və sığortaolunanların uçotunu aparmaq;

5) sığortaolunanın yazılı müraciətinə əsasən hesablanmış və ödənilmiş sığorta haqqının məbləği barədə uçot məlumatlarını təqdim etmək;

6) bu Qanunun 30-9-cu maddəsinə uyğun olaraq sığorta vəsaitlərini idarə etmək;

7) sığortalı tərəfindən sığorta haqlarının sığortaçıya ödənilməsinə nəzarət etmək;

8) bu Qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

Sığortalının aşağıdakı hüquqları vardır:

1) özünün və sığortaolunanın qanuni mənafelərini müdafiə etmək;

2) sığortaçı və sığortaolunandan bu Qanunla müəyyən edilmiş vəzifələrinə əməl edilməsini tələb etmək;

3) sığortaçıdan dövlət icbari şəxsi sığorta ilə bağlı hüquq və vəzifələrinin izah edilməsini tələb etmək;

4) sığorta ödənişlərinə dair sığortaçıdan məlumat almaq;

5) bu Qanunla müəyyən olunmuş digər hüquqları həyata keçirmək.

Sığortalının aşağıdakı vəzifələri vardır:

1) sığortaolunanları dövlət icbari şəxsi sığorta etdirmək;

2) bu Qanunla müəyyən edilmiş qaydada, məbləğdə və müddətdə sığorta haqqını tam həcmdə sığortaçıya ödəmək;

3) sığortaolunanlar və özü barədə məlumatları bu Qanunun 30-7-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq sığortaçıya təqdim etmək;

4) sığorta ödənişinin alınması üçün sənədlərin rəsmiləşdirilməsində və sığorta ödənişlərinin alınmasında sığorta ödənişi almaq hüququ olan şəxsə kömək etmək;

5) sığorta haqlarının uçotunu aparmaq və hər rüb üzrə, rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq, ödənilmiş sığorta haqları və sığortaolunanlar barədə sığortaçıya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada və formada hesabat vermək;

6) bu Qanunla müəyyən olunmuş digər vəzifələri həyata keçirmək.

**Maddə 30-7. Sığortaolunanların və sığortalıların uçotu, sığorta haqlarının hesablanması, ödənilməsi, ödənilməsinə nəzarət və artıq ödənilmiş sığorta haqlarının qaytarılması və sığorta ödənişinin verilməsi**

Dövlət icbari şəxsi sığortası məqsədilə sığortalıların təqdim etdiyi məlumatlar əsasında sığortaolunanların və sığortalıların sığortaçıda uçotu, habelə sığortalılar tərəfindən sığorta haqlarının hesablanması, sığortaçıya ödənilməsi, ödənilməsinə nəzarət və artıq ödənilmiş sığorta haqlarının qaytarılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

Sığortaçı sığorta ödənişi almaq hüququ olan şəxsə sığorta ödənişini sığorta hadisəsi ilə bağlı məlumatın müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sisteminə daxil olduğu, bu mümkün olmadıqda isə sığorta ödənişi almaq hüququ olan şəxs müraciətinin daxil olduğu gündən 10 iş günü müddətində verir. Sığorta ödənişinin verilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

Sığortalı və digər aidiyyəti dövlət orqanları (qurumları) sığorta ödənişlərinin alınması üçün sığorta ödənişi almaq hüququ olan şəxsə kömək etməlidirlər.

Sığorta ödənişi bu Qanunun 30-6-cı maddəsinin yeddinci hissəsinin 5-ci bəndinə uyğun olaraq sığortalı tərəfindən sığortaçıya hesabat təqdim olunmadığı hallarda sığortalının sığortaolunanın həmin sığortalı üzrə sığortaolunan hesab olunmasına dair arayışına əsasən ödənilir və bu barədə məlumatlar sığortalının növbəti rübdə təqdim etdiyi hesabatda əks olunur.

Sığortalı və digər aidiyyəti dövlət orqanları (qurumları) sığorta ödənişlərinin alınması üçün sığorta ödənişi almaq hüququ olan şəxsə kömək etməlidirlər. Sığorta ödənişi verilmiş sığorta hadisəsi ilə bağlı yeni sığorta hadisəsi baş verdikdə müvafiq sığorta ödənişi əvvəl ödənilmiş məbləğ nəzərə alınmaqla ödənilir.";

1.8. 30-8-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Sığorta ödənişi almaq hüququ olan şəxsə sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edilir:

sığorta olunanın sığorta hadisəsi ilə birbaşa bağlı olan qəsdən cinayət törətdiyi barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olduqda;

sığortaolunan bu Qanunun 30-7-ci maddəsinin ikinci hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq sığorta ödənişinin alınması üçün tələb olunan sənədləri və məlumatları təqdim etmədikdə, yaxud təqdim edilmiş sənədlərin və məlumatların tam və ya düzgün olmadığı müəyyən edildikdə;

baş vermiş hadisə bu Qanunla müəyyən edilmiş sığorta hadisəsi hesab edilmədikdə;

sığorta hadisəsi sığortaolunanın bilavasitə alkoqoldan, narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir göstərən digər maddələrdən istifadə etməsi nəticəsində baş verdikdə;

sığortaolunan özünə qəsd etdikdə və həmin hal məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə təsdiq olunduqda.

Sığorta ödənişinin verilməsindən bu Qanunun 30-8-ci maddəsinin birinci hissəsinin üçüncü abzasında nəzərdə tutulmuş hala görə imtina edildikdə sığorta ödənişi almaq hüququ olan şəxs imtinaya səbəb olan hal aradan qaldırıldıqdan sonra sığorta ödənişinin alınması üçün təkrar müraciət etmək hüququna malikdir.".

1.10. 30-9 - 30-12-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**"Maddə 30-9. Sığorta vəsaitləri**

Sığorta vəsaitləri aşağıdakı mənbələr hesabına formalaşır:

bu Qanunla müəyyən olunmuş qaydada və məbləğdə ödənilən sığorta haqları;

kreditlər;

sığorta ehtiyatının təhlükəsizlik göstəriciləri üzrə meyarları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən banklarda depozitə yerləşdirilməsindən əldə edilən gəlirlər;

qanunla qadağan edilməyən digər mənbələr.

Sığorta vəsaitləri aşağıdakı istiqamətlərdə istifadə olunur:

dövlət icbari şəxsi sığorta ödənişlərinin verilməsinə;

sığorta ehtiyatının yaradılmasına;

müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən hallarda müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı tədbirlərin maliyyələşdirilməsinə;

idarəetmə xərclərinə;

qanunla müəyyən edilən digər istiqamətlərə.

İdarəetmə xərcləri sığorta haqqının 5 faizədək miqdarında müəyyən edilir və bu vəsaitin xərclənməsi müvafiq qaydada təsdiq olunmuş xərclər smetasına uyğun olaraq həyata keçirilir.

Sığorta vəsaitindən, o cümlədən sığorta ehtiyatından istifadə qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir.

Sığorta ehtiyatı sığorta haqlarının illik proqnoz həcminə bərabər olduqda, sığorta ehtiyatının artırılması dayandırılır, onun depozitə yerləşdirilməsindən əldə edilən gəlir isə müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı tədbirlərin maliyyələşdirilməsinə yönəldilir.

Sığorta ödənişi almaq hüququ olan şəxslərin sayında kəskin artım nəticəsində sığorta ödənişləri üzrə illik gözlənilən xərclər sığorta haqları üzrə illik gözlənilən daxilolmadan artıq olduqda, gözlənilən sığorta ödənişləri üzrə xərclər və sığorta haqları üzrə daxilolmalar arasındakı kəsir sığorta ehtiyatı hesabına maliyyələşdirilir.

Cari ilin sonunda sığorta vəsaitinin istifadə olunmamış qalığı, sığorta ehtiyatı və onun depozitə yerləşdirilməsindən əldə edilmiş gəlir növbəti il üçün xərclərin maliyyələşdirilməsinə yönəldilir.

**Maddə 30-10. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tətbiq edilən cərimələrdən ayırmalar**

Bu Qanunun tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən toplanan vəsaitin 43 faizi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hesabına köçürülür.

**Maddə 30-11. Deputatın dövlət icbari şəxsi sığortasının aparılmasına nəzarət və deputatın dövlət icbari şəxsi sığortası qaydalarının pozulmasına görə məsuliyyət**

Dövlət icbari şəxsi sığortanın həyata keçirilməsinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) nəzarət edir.

Bu Qanunun deputatın dövlət icbari şəxsi sığortası ilə bağlı tələblərini pozan şəxslər Azərbaycan Respublikasının Mülki, İnzibati Xətalar və Cinayət məcəllələrində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.

**Maddə 30-12. Deputatın icbari sığortası ilə əlaqədar mübahisələrə baxılması qaydası**

Dövlət icbari şəxsi sığorta ilə əlaqədar mübahisələr inzibati və məhkəmə qaydasında həll edilir.".

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2021-ci il*

# "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 417-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 31 avqust tarixli 116 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 417-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikası Qanununun 2-1-ci maddəsinin birinci hissəsinin üçüncü abzasında, 30-4-cü maddəsinin dördüncü hissəsində, 30-6-cı maddəsinin ikinci hissəsinin 1-ci və 2-ci bəndlərində, dördüncü hissəsinin 2-ci və 4-cü bəndlərində, beşinci hissəsinin 3-cü bəndində və yeddinci hissəsinin 5-ci bəndində, 30 7-ci maddəsinin birinci hissəsində, ikinci hissəsinin birinci və ikinci cümlələrində, 30-9-cu maddəsinin birinci və ikinci hissələrinin dördüncü abzaslarında və dördüncü hissəsində, 30-10-cu maddəsinin adında və mətnində (hər iki halda) və 30-11-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 30-9-cu maddəsinin ikinci hissəsinin dördüncü abzasında "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 30-4-cü maddəsinin dördüncü hissəsində, 30-6-cı maddəsinin yeddinci hissəsinin 5-ci bəndində, 30-7-ci maddəsinin birinci hissəsində, ikinci hissəsinin ikinci cümləsində, 30-9-cu maddəsinin birinci hissəsinin dördüncü abzasında və dördüncü hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Qanunun 30-6-cı maddəsinin ikinci hissəsinin 1-ci və 2-ci bəndlərində, dördüncü hissəsinin 2-ci və 4-cü bəndlərində, beşinci hissəsinin 3-cü bəndində, 30-7-ci maddəsinin ikinci hissəsinin birinci cümləsində, 30-10-cu maddəsinin adında və mətnində (hər iki halda) və 30-11-ci maddəsinin birinci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Qanunun 2-1-ci maddəsinin birinci hissəsinin üçüncü abzasında "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 417-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 31 avqust tarixli 116 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 624) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"2. Müəyyən edilsin ki:

2.1. "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikası Qanununun 2-1-ci maddəsinin birinci hissəsinin üçüncü abzasında, 30-4-cü maddəsinin dördüncü hissəsində, 30-6-cı maddəsinin ikinci hissəsinin 1-ci və 2-ci bəndlərində, dördüncü hissəsinin 2-ci və 4-cü bəndlərində, beşinci hissəsinin 3-cü bəndində və yeddinci hissəsinin 5-ci bəndində, 30 7-ci maddəsinin birinci hissəsində, ikinci hissəsinin birinci və ikinci cümlələrində, 30-9-cu maddəsinin birinci və ikinci hissələrinin dördüncü abzaslarında və dördüncü hissəsində, 30-10-cu maddəsinin adında və mətnində (hər iki halda) və 30-11-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 30-9-cu maddəsinin ikinci hissəsinin dördüncü abzasında "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

2.3. həmin Qanunun 30-4-cü maddəsinin dördüncü hissəsində, 30-6-cı maddəsinin yeddinci hissəsinin 5-ci bəndində, 30-7-ci maddəsinin birinci hissəsində, ikinci hissəsinin ikinci cümləsində, 30-9-cu maddəsinin birinci hissəsinin dördüncü abzasında və dördüncü hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.4. həmin Qanunun 30-6-cı maddəsinin ikinci hissəsinin 1-ci və 2-ci bəndlərində, dördüncü hissəsinin 2-ci və 4-cü bəndlərində, beşinci hissəsinin 3-cü bəndində, 30-7-ci maddəsinin ikinci hissəsinin birinci cümləsində, 30-10-cu maddəsinin adında və mətnində (hər iki halda) və 30-11-ci maddəsinin birinci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

2.5. həmin Qanunun 2-1-ci maddəsinin birinci hissəsinin üçüncü abzasında "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.".

4. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2021-ci il*

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590, № 5, maddələr 796, 801, 804, 812, 814, № 8, maddələr 1364, 1373, 1378, № 12, maddə 1894; 2020, № 5, maddə 522, № 6, maddələr 668, 678, № 7, maddə 832, № 8, maddə 1013, № 11, maddələr 1328, 1334, № 12 (I kitab), maddələr 1439, 1441, 1454, 1455; 2021, № 3, maddə 211; № 6 (I kitab), maddələr 541, 551, 555, № 7, maddələr 698, 711, № 8, maddə 894; Azərbaycan Respublikasının 2021-ci il 30 sentyabr tarixli 378-VIQD və 380-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 6.1.5-ci maddəyə "hüquqi şəxslərin" sözlərindən sonra "və bu Məcəllənin 198.1-ci maddəsində nəzərdə tutulan hal istisna olmaqla, fiziki şəxslərin" sözləri əlavə edilsin;

1.2. 8.1-ci maddə üzrə:

1.2.1. 8.1.2-ci maddəyə "fiziki şəxslərin" sözlərindən əvvəl "bu Məcəllənin 198.1-ci maddəsində nəzərdə tutulmuş halda" sözləri əlavə edilsin;

1.2.2. 8.1.3-cü maddə ləğv edilsin;

1.3. 13-cü maddə üzrə:

1.3.1. 13.2.16.14-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"13.2.16.14-1. bu Məcəllənin 128-ci maddəsində nəzərdə tutulan güzəştli vergi tutulan ölkələrdə və ya ərazilərdə təsis edilmiş (qeydiyyatdan keçmiş) şəxslərə, o cümlədən onların digər ölkələrdə olan filial və ya nümayəndəliklərinə, habelə güzəştli vergi tutulan ölkələrdə və ya ərazilərdə olan bank hesablarına rezidentlər və qeyri-rezidentlərin Azərbaycan Respublikasındakı daimi nümayəndəlikləri, habelə vergi orqanında uçotda olmayan rezident fiziki şəxslər tərəfindən birbaşa və ya dolayısılə edilən ödənişlər.

Aşağıdakı hallarda güzəştli vergi tutulan ölkələrə və ya ərazilərə edilən ödənişlər bu maddənin məqsədləri üçün Azərbaycan mənbəyindən gəlirlərə aid edilmir:

1. alınmış borclar üzrə borcun əsas məbləği qaytarıldıqda (faizlər istisna olmaqla);

2. rezident banklar tərəfindən açılan müxbir hesablara ödənişlər aparıldıqda;

3. bu Məcəllənin 13.2.16.14-1-ci maddəsinə uyğun olaraq ödənilən vəsaitlər ödəniş tarixindən hesaba qaytarıldığı gün daxil olmaqla 1 il müddətində güzəştli vergi tutulan ölkədəki hesabdan ödəyən şəxsin bank hesabına qaytarıldıqda;

4. vergi orqanında uçotda olmayan fiziki şəxslər tərəfindən elektron ticarət qaydasında xidmətlər alındıqda;

5. vergi orqanında uçotda olmayan fiziki şəxslər tərəfindən güzəştli vergi tutulan ölkələrdə və ya ərazilərdə şəxsi istehlak məqsədilə mallar (işlər, xidmətlər), o cümlədən daşınar və ya daşınmaz əmlakların alışı ilə bağlı Azərbaycan Respublikasının hüdudlarından kənarda güzəştli vergi tutulan ölkələrdə və ya ərazilərdə ödənişlər edildikdə;

6. borc qiymətli kağızlarının əldə edilməsi ilə bağlı ödənişlər edildikdə;

7. Azərbaycan Respublikasına qoyulmuş investisiyalar və Azərbaycan Respublikasındakı maliyyə institutlarına yerləşdirilmiş depozitlər üzrə faiz və dividend gəlirləri ödənildikdə;

8. güzəştli vergi tutulan ölkələrin və ərazilərin rezidentlərinin əməkhaqqı və pensiyaları ödənildikdə;

9. səlahiyyətli dövlət orqanlarına rüsumlar və digər ödənişlər ödənildikdə, icazələrin və sertifikatların alınması ilə bağlı ödənişlər edildikdə.";

1.3.2. 13.2.62-ci maddədən "(sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərin tələbi ilə elektron-qaimə faktura)" sözləri çıxarılsın;

1.3.3. 13.2.64-cü maddədən "pərakəndə" sözü çıxarılsın;

1.3.4. 13.2.72-ci maddədə "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş formada vergi orqanı ilə vergi ödəyicisi arasında bağlanmış müqaviləyə əsasən" sözləri "vergi ödəyicisi kimi uçota alınma zamanı təqdim edilən ərizəyə əsasən" sözləri ilə əvəz olunsun və həmin maddəyə "sistemində yaradılan," sözlərindən sonra "gücləndirilmiş elektron imza və (və ya)" sözləri əlavə edilsin;

1.3.5. 13.2.84-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 13.2.85-ci maddə əlavə edilsin:

"13.2.85. nəzarət olunan xarici müəssisə - bu Məcəllənin 14-2.1-ci maddəsinin tələblərinə uyğun olan və vergitutma məqsədləri üçün qeyri-rezident müəssisə.";

1.4. 14-cü maddə üzrə:

1.4.1. 14.3.3-cü maddəyə "tələbləri" sözündən sonra ", o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş təbii itki normaları daxilində zayolmadan əmələgələn itkilər" sözləri, "səviyyəsindən" sözündən sonra "topdansatış ticarət fəaliyyəti sahəsində 10 faizdən, tikinti və istehsal fəaliyyəti sahəsində 20 faizdən, digər fəaliyyət sahələrində" sözləri əlavə edilsin;

1.4.2. 14.6.5-ci və 14.6.6-cı maddələrə "qiymətlərindən" sözündən sonra "topdansatış ticarət fəaliyyəti sahəsində 10 faizdən, tikinti və istehsal fəaliyyəti sahəsində 20 faizdən, digər fəaliyyət sahələrində" sözləri əlavə edilsin;

1.5. 14-1.2-ci maddə üzrə:

1.5.1. 14-1.2.1-ci maddəyə "şəxslər" sözündən sonra ", habelə həmin rezidentin başqa dövlətlərdə (ərazilərdə) yerləşən hər hansı nümayəndəliyi, filialı və digər bölməsi" sözləri əlavə edilsin;

1.5.2. 14-1.2.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 14-1.2.4-cü maddə əlavə edilsin:

"14-1.2.4. bu Məcəllənin 14-1.2.1-14-1.2.3-cü maddələrində göstərilən hallar istisna olmaqla, Azərbaycan Respublikasının rezidenti və ya qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyi ilə qeyri-rezident şəxslər arasında, bu şərtlə ki:

14-1.2.4.1. şəxslər beynəlxalq əmtəə birjalarında ticarət olunan məhsullar üzrə əməliyyat aparmış olsunlar və (və ya);

14-1.2.4.2. Azərbaycan Respublikasının rezidenti və ya qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinin vergi ili ərzində ümumi gəlirləri 30 milyon manatdan çox və hər bir qeyri-rezident şəxslə apardığı əməliyyatların həcminin ümumi gəlirlərdə (xərclərdə) xüsusi çəkisi 30 faizdən artıq olsun.";

1.6. aşağıdakı məzmunda 14-2-ci maddə əlavə edilsin:

"Maddə 14-2. Nəzarət olunan xarici müəssisə və onun vergiyə cəlb edilməsi

14-2.1. Vergitutma məqsədləri üçün Azərbaycan Respublikasının rezidenti hesab olunmayan, güzəştli vergi tutulan ölkələrdə (ərazilərdə) qeydiyyatdan keçən müəssisənin mənfəəti aşağıdakı hallarda Azərbaycan Respublikasında vergiyə cəlb olunur:

14-2.1.1. Azərbaycan Respublikasının rezidenti hesab edilən şəxs özü və ya qarşılıqlı surətdə asılı olduğu rezident və ya qeyri-rezident şəxslə birlikdə birbaşa və ya dolayısılə xarici müəssisədə 50 faizdən çox səsvermə hüququna və ya onun nizamnamə kapitalının 50 faizindən çoxuna və ya həmin xarici müəssisənin mənfəətinin 50 faizindən çox hissəsini əldə etmək hüququna sahibdirsə;

14-2.1.2. nəzarət olunan xarici müəssisənin mənfəətindən faktiki ödənilən vergi, bu Məcəlləyə uyğun olaraq həmin mənfəətdən ödənilməli mənfəət vergisindən 2 dəfə və ya daha çox aşağı olarsa;

14-2.1.3. xarici müəssisənin illik gəlirlərinin 30 faizindən çox olan hissəsi aşağıdakı gəlirlərdən ibarət olarsa:

14-2.1.3.1. maliyyə aktivlərindən əldə edilən faiz;

14-2.1.3.2. əqli mülkiyyətdən əldə edilən royalti;

14-2.1.3.3. səhmlərin və iştirak paylarının satışından əldə edilən gəlir;

14-2.1.3.4. maliyyə lizinqindən əldə edilən gəlirlər;

14-2.1.3.5. sığorta, bankçılıq və digər maliyyə əməliyyatlarından əldə edilən gəlirlər;

14-2.1.3.6. heç bir iqtisadi dəyər yaratmayan mal və xidmətlərdən gəlir əldə edən müəssisələr üzrə gəlir.

14-2.2. Nəzarət olunan xarici müəssisə haqqında arayışın rezident fiziki və hüquqi şəxslər tərəfindən vergi orqanına təqdim edilmə forması və qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.

14-2.3. Bu maddəyə uyğun olaraq nəzarət olunan xarici müəssisənin mənfəəti Azərbaycan Respublikasında vergiyə cəlb edilərkən eyni vergitutma obyektindən iki dəfə vergilərin hesablanmasına yol verilmir və həmin mənfəətdən ödənilən (tutulan) vergi məbləği nəzərə alınır.

14-2.4. Nəzarət olunan xarici müəssisədən əldə edilən aşağıdakı gəlirlər nəzarət olunan xarici müəssisənin vergitutulan gəlirlərinə aid edilmir:

14-2.4.1. nəzarət olunan xarici müəssisədən əldə edilən dividendlər;

14-2.4.2. rezident müəssisə nəzarət olunan xarici müəssisənin törəmə müəssisəsi olduqda, nəzarət olunan xarici müəssisənin ümumiləşdirilmiş (konsolidə edilmiş) mənfəətindən rezident müəssisəyə aid olan vergiyə cəlb olunan mənfəət;

14-2.4.3. nəzarət olunan xarici müəssisənin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyi vasitəsilə əldə edilən, habelə Azərbaycan Respublikasında təsis etdiyi müəssisədən əldə olunan və Azərbaycan Respublikasında vergiyə cəlb olunmuş gəlirlər.";

1.7. 15.1.15-ci maddə aşağıdakı redaksiyada verilsin:

"15.1.15. bu Məcəllənin 16.1.8-ci maddəsinin müddəaları nəzərə alınmaqla pul hesablaşmalarını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən meyarlara cavab verən və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) elektron informasiya sisteminə real vaxt rejimində qoşulmuş nəzarət-kassa aparatları vasitəsilə həyata keçirmək;";

1.8. 16.1-ci maddə üzrə:

1.8.1. 16.1.4-cü və 16.1.4-1-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"16.1.4. vergi orqanlarına bu Məcəllə ilə müəyyən edilmiş hallarda və qaydada, auditor tərəfindən yoxlanılması nəzərdə tutulduğu hallarda isə auditor rəyi əlavə edilməklə, vergi hesabatını, habelə bu Məcəllənin 14-1.2.1-14-1.2.3-cü maddələrində göstərilən şəxslər üzrə transfer qiymətləri əsas götürülməklə apardığı əməliyyatların ümumi dəyəri 500.000 manatdan artıq olduqda və 14-1.2.4-cü maddədə göstərilən şəxslər üzrə həmin maddədə nəzərdə tutulan hallarda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi formada mənfəət (gəlir) vergisi bəyannaməsi üçün nəzərdə tutulan müddətlərdə arayışı təqdim etmək;

16.1.4-1. bu Məcəllənin 14-1.9-cu maddəsində nəzərdə tutulan müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən qaydalarda nəzərdə tutulmuş sənədləri vergi orqanının tələbi ilə təqdim etmək;";

1.8.2. aşağıdakı məzmunda 16.1.4-2-ci və 16.1.4-3-cü maddələr əlavə edilsin:

"16.1.4-2. mikro və kiçik sahibkarlıq subyektləri istisna olmaqla, istehsal fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən istehsal olunan məhsulun vahidinə tələb olunan xammal və material sərfi normaları barədə forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən məlumatı hər il yanvar ayının 31-dək elektron qaydada vergi orqanına təqdim etmək. İstehsal prosesi ilə, o cümlədən yeni məhsul növünün istehsalına başlanılması ilə bağlı olaraq təqdim edilmiş məlumatda il ərzində dəyişiklik olarsa, dəyişikliklə bağlı dəqiqləşdirilmiş məlumatı təqvim ili ərzində vergi orqanına təqdim etmək;

16.1.4-3. bu Məcəllənin 14-2.2-ci maddəsində nəzərdə tutulan arayışı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi formada mənfəət (gəlir) vergisi bəyannaməsi üçün nəzərdə tutulan müddətdə vergi orqanına təqdim etmək;";

1.8.3. 16.1.6-cı və 16.1.8-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"16.1.6. bu Məcəllə ilə müəyyən edilmiş hallarda və qaydada vergi orqanlarına və onların vəzifəli şəxslərinə zəruri olan kağız və elektron daşıyıcılarda olan məlumatları və sənədləri (orta və iri sahibkarlıq subyektləri eləcə də maliyyə hesabatlarını), habelə mühasibat uçotu elektron formatda aparıldığı halda, özünün, filiallarının və digər struktur bölmələrinin elektron daşıyıcılarında olan məlumatlara və uçot bazalarına birbaşa və ya məsafədən çıxış imkanı yaratmaqla, həmin məlumatları vergi orqanının tələbi ilə təqdim etmək;";

"16.1.8. aşağıdakı fəaliyyət növləri istisna olmaqla, pərakəndə ticarət, ictimai iaşə fəaliyyəti, yerləşmə vasitələri hesab edilən mehmanxana (hotel) və mehmanxana tipli digər obyektlər, tibb müəssisələri, bərbərxanalar, gözəllik salonları və kosmetoloji mərkəzlər tərəfindən göstərilən xidmətlər üzrə pul hesablaşmalarını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən meyarlara cavab verən və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) elektron informasiya sisteminə real vaxt rejimində qoşulmuş nəzarət-kassa aparatı vasitəsi ilə həyata keçirmək:";

1.8.4. 16.1.7-1-ci, 16.1.7-2-ci, 24.0.6-1-ci, 50.1.10-cu, 58.10-cu, 221.8.5-ci (hər iki halda), 221.8.9-cu və 221.8.10-cu maddələrdə ismin müvafiq hallarında "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi haqqında qəbz" sözləri ismin müvafiq hallarında "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz" sözləri ilə əvəz edilsin;

1.8.5. aşağıdakı məzmunda 16.1.8.6-cı maddə əlavə edilsin:

"16.1.8.6. bu Məcəllənin 220.10-cu maddəsinə əsasən fərdi qaydada göstərilən bərbər fəaliyyəti;";

1.8.6.16.1.11-7-ci maddə ləğv edilsin;

1.8.7. 16.1.11-10-cu maddəyə "alış aktını" sözlərindən sonra "və "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq avtomobil nəqliyyatı vasitəsilə əmtəə təyinatlı yüklərin daşınmasına görə elektron əmtəə-nəqliyyat qaiməsini və yük avtonəqliyyatı üçün elektron yol vərəqini" sözləri əlavə edilsin;

1.8.8. aşağıdakı məzmunda 16.1.11-11-ci, 16.10-cu və 16.11-ci maddələr əlavə edilsin:

"16.1.11-11. neft-qaz sahəsində fəaliyyəti olan və ya dövlət sektoruna aid edilən vergi ödəyiciləri istisna olmaqla, digər vergi ödəyiciləri tərəfindən idxal ediləcək mallar barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən formada aşağıdakı məlumatları malların idxal olunacağı tarixədək qeydiyyatda olduğu vergi orqanına vermək:

16.1.11-11.1. mülkiyyət, icarə və ya digər əşya hüquqları əsasında istifadə edilən və (və ya) vergi orqanlarında təsərrüfat subyekti (obyekti) kimi uçota alınmış malların saxlanılacağı (boşaldılacağı) yer barədə;

16.1.11-11.2. mallar digər şəxslərə məxsus yerlərdə məsuliyyətli mühafizəyə və ya saxlanca verildiyi halda tərəflər arasında bağlanmış müqavilə və malların saxlanma yeri barədə;

16.1.11-11.3. mallar sifariş əsasında gətirildiyi halda sifariş verən şəxslər barədə (sifarişçi vergi ödəyicisi olduqda VÖEN-i, fiziki şəxs olduqda adı, soyadı, atasının adı və FİN-i) və hər bir sifarişçi üzrə sifarişin məbləği barədə;";

"16.10. ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri bu Məcəllənin 149-cu maddəsində nəzərdə tutulan müddətlərdə təqdim etdikləri bəyannamələrlə eyni gündə vergi ili üzrə kreditor və debitor borcları barədə forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən məlumatı elektron qaydada vergi orqanına təqdim edir.

16.11. Vergi ödəyicisi olan şəxslər arasında ödəniş əməliyyatı aparılarkən əməliyyatı həyata keçirən banka və ya bank əməliyyatlarını həyata keçirən digər şəxslərə təqdim edilən ödəniş tapşırığında aşağıdakı məlumatlar göstərilir:

16.11.1. bu Məcəllənin 71-1.5-ci maddəsində göstərilən əməliyyatlar üzrə - elektron qaimə-fakturanın seriya və nömrəsi. Təqvim ayı ərzində eyni vergi ödəyicisindən müntəzəm və daimi əsaslarda alınan və elektron qaimə-fakturalar ilə rəsmiləşdirilən mallara (işlərə, xidmətlərə) görə ödəniş aparılarkən belə əməliyyatlar üzrə - tərəflər arasında bağlanmış müqavilə və ya həmin müqaviləyə əlavənin tarixi və nömrəsi;

16.11.2. xarici ticarət fəaliyyəti üzrə - yük gömrük bəyannaməsinin seriya və nömrəsi, işlərin və xidmətlərin alışı ilə bağlı hesab-faktura (invoys) sənədinin tarixi və nömrəsi;

16.11.3. borc ödənişləri üzrə - təyinatında borc ödənişi olduğu göstərilməklə tərəflər arasında bağlanmış borc müqaviləsinin və ya borcun ödənilməsinə dair tələbnamənin tarixi və nömrəsi;

16.11.4. avans ödənişləri üzrə - təyinatında avans ödənişi olduğu göstərilməklə tələbnamənin, yaxud tərəflər arasında bağlanmış müqavilə və ya həmin müqaviləyə əlavənin tarixi və nömrəsi.";

1.9.19.2-ci maddə üzrə:

1.9.1. 19.2.5-ci maddəyə "quraşdırma" sözündən sonra ", montaj" sözü əlavə edilsin;

1.9.2. 19.2.10-cu maddəyə "fəaliyyət göstərən," sözlərindən sonra "onlar üçün müştəri bazasının toplanması və müştərilərlə işin təşkilini həyata keçirən," sözləri əlavə edilsin;

1.9.3. aşağıdakı məzmunda 19.2-1-ci və 19.3-1-ci maddələr əlavə edilsin:

"19.2-1. Bu Məcəllənin 19.2.5-ci maddəsində nəzərdə tutulan fəaliyyəti baş podratçı kimi qeyri-rezident şəxs həyata keçirdiyi halda, onun bu fəaliyyəti həyata keçirmək üçün cəlb etdiyi və qarşılıqlı surətdə asılı olduğu və (və ya) fəaliyyətinə nəzarəti həyata keçirdiyi digər subpodratçı şəxslərin bu işlər üçün göstərdiyi fəaliyyətin müddəti baş podratçının fəaliyyət müddətinə əlavə edilir. Bu maddənin müddəaları subpodratçı şəxslərin fəaliyyət müddəti 30 gündən artıq olduğu halda tətbiq edilir;";

"19.3-1. Qeyri-rezident şəxs və onunla qarşılıqlı surətdə asılı olan şəxslər tərəfindən Azərbaycan Respublikasında bu Məcəllənin 19.3-cü maddəsində sadalanan fəaliyyət növlərinin hər hansı birinin birgə şəkildə həyata keçirilməsi sahibkarlıq məqsədləri daşıdığı və ya bu fəaliyyət növlərinin hər hansı biri üzrə əlaqəli şəkildə həyata keçirilməsinin nəticələri hazırlıq və ya yardımçı xarakter daşımadığı və (və ya) belə şəxslər tərəfindən həyata keçirilən fəaliyyətlər onların vahid biznes prosesinin tərkib hissəsi olaraq bir-birinə münasibətdə qarşılıqlı tamamlanma funksiyasını daşıdığı halda bu Məcəllənin 19.3-cü maddəsinin müddəaları tətbiq edilmir və həmin şəxslərin fəaliyyətinə daimi nümayəndəlik kimi baxılır.";

1.10. 23-cü maddə üzrə:

1.10.1. 23.1.2-ci maddədə "digər sənədləri" sözləri ", o cümlədən bu Məcəllənin 16.1.6-cı maddəsində nəzərdə tutulmuş məlumat və sənədləri" sözləri ilə, "elektron auditin məqsədləri üçün vergi ödəyicisinin və onun filiallarının" sözləri "vergi ödəyicisinin özünün, filiallarının və digər struktur bölmələrinin" sözləri ilə əvəz edilsin;

1.10.2. aşağıdakı məzmunda 23.1.3-1-ci və 23.1.3-2-ci maddələr əlavə edilsin:

"23.1.3-1. malların, o cümlədən kənd təsərrüfatı məhsullarının topdan satışı ilə məşğul olan ticarət obyektlərində, bazarlarda nəzarət postlarının qurulmasını və bu obyektlərə bu Məcəllə ilə müəyyən edilmiş qaydada sənədləşdirilməyən, habelə əmtəə-nəqliyyat qaiməsi olmayan malların gətirilməsinin qarşısının alınması səlahiyyətlərini həyata keçirmək;

23.1.3-2. bu Məcəllənin 16.1.11-11-ci maddəsində nəzərdə tutulan məlumatları təqdim edən vergi ödəyicisinin mallarının saxlanıldığı (boşaldıldığı) yerə həmin mallar idxal edildiyi vaxtdan 3 iş günü müddətində baxış keçirmək və baxışın nəticəsini forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən protokolla rəsmiləşdirmək;".

1.10.3. 23.1.6-1-ci maddədən "səyyar" sözü çıxarılsın və həmin maddəyə "təmin etmək" sözlərindən sonra "və aşkar edilmiş vergidən yayınma sxemlərini dərc etmək" sözləri əlavə edilsin;";

1.10.4. 23.1.15-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"23.1.15-1. hesablanmış vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması (əmlak satışı ilə bağlı olmayan ümumi qaydada iddia), yaxud hesablanmış vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsinin təmin olunması məqsədi ilə vergi ödəyicisinin siyahıya alınmış dövlət əmlakının, habelə digər daşınmaz əmlakının və dəyəri 5000 manatdan artıq olan daşınar əmlakının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) vasitəsilə, habelə dəyəri 5000 manatdan artıq olmayan daşınar əmlakının isə ticarət şəbəkələrində satılması barədə məhkəmədə iddia qaldırmaq və məhkəmə qərarları üzrə həmin əmlakların satışını qanunvericiliyə uyğun olaraq təşkil etmək;";

1.11. 24.0.7-2-ci maddə ləğv edilsin;

1.12. 26.2-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"26.2-1. Vergi orqanlarının vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar dövlət orqanlarının (qurumlarının) informasiya sistemlərində (ehtiyatlarında) olan məlumatlar normativ hüquqi aktlarla müəyyən edilmiş müddətlərdə və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən əldə edilir.";

1.13. 30.6.8-ci maddəyə "qanunvericiliyin" sözündən sonra "və "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun 12.6-cı maddəsinin" sözləri əlavə edilsin;

1.14. 30.6.13-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 30.6.14-cü maddə əlavə edilsin:

"30.6.14. sahibkarlığın inkişafı üçün təqdim olunan investisiya layihələrinin ekspertizasının həyata keçirilməsi, həmin layihələrin güzəştli kredit vəsaiti hesabına maliyyələşdirilməsi, habelə sahibkarlıq subyektlərinin manatla aldıqları kreditlərə zəmanət və faiz subsidiyasının verilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma).";

1.15. 33.2-ci maddədən "onun" sözü çıxarılsın və həmin maddədə "bu Məcəllə ilə" sözləri "yenidən uçota alınması və uçotdan çıxarılması bu Məcəllənin müddəaları nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən" sözləri ilə əvəz edilsin;

1.16. 35-ci maddə üzrə:

1.16.1. adına "Bankların" sözündən sonra ", digər kredit təşkilatlarının və poçt rabitəsinin milli operatorunun" sözləri əlavə edilsin;

1.16.2. 35.1-ci maddənin birinci cümləsində "bank idarəsində" sözləri "banklarda, digər kredit təşkilatlarında və poçt rabitəsinin milli operatorunda" sözləri ilə, dördüncü cümləsində "Bank hesabının" sözləri "Hesabın" sözü ilə əvəz edilsin;

1.16.3.35.2-ci maddəyə "Banklar" sözündən sonra ", digər kredit təşkilatları və poçt rabitəsinin milli operatoru" sözləri əlavə edilsin və həmin maddədə "dublikatını" sözü "dublikatı" sözü ilə, "bank hesabları" sözləri "hesablar" sözü ilə əvəz edilsin;

1.16.4. 35.4-cü maddənin ikinci cümləsində "bankda" sözü və "bank idarəsi" sözləri ismin müvafiq hallarında "banklar, digər kredit təşkilatları və poçt rabitəsinin milli operatoru" sözləri ilə əvəz edilsin;

1.16.5. 35.5-ci maddədə "bankda (bankın filialında)" sözləri "banklarda, digər kredit təşkilatlarında və poçt rabitəsinin milli operatorunda (onların filiallarında)" sözləri ilə əvəz edilsin;

1.16.6. 35.6-cı maddədə "bank idarəsi" (hər iki halda) sözləri və "bankdan" sözü ismin müvafiq hallarında "banklar, digər kredit təşkilatları və poçt rabitəsinin milli operatoru" sözləri ilə əvəz edilsin;

1.17. aşağıdakı məzmunda 36.3-1-ci maddə əlavə edilsin:

"36.3-1. Vergi ödəyicisində keçirilən səyyar vergi yoxlaması zamanı bu maddə ilə müəyyən olunmuş müddətlər nəzərə alınmaqla yoxlamanın əhatə etdiyi dövr və (və ya) vergi növləri aşağıdakı hallarda artırıla bilər:

36.3-1.1. vergi ödəyicisinin müraciəti əsasında;

36.3-1.2. keçirilən səyyar vergi yoxlamasının əhatə etdiyi dövrdən sonrakı dövrdə vergidən yayınma hallarının olması barədə vergi orqanında mənbəyi bəlli məlumatlar olduqda;

36.3-1.3. cinayət prosessual qanunvericiliyinə uyğun olaraq məhkəmənin və ya hüquq mühafizə orqanlarının vergi yoxlamalarının keçirilməsi barədə müvafiq qərarı olduqda.";

1.18.37-ci maddə üzrə:

1.18.1.37.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"37.2. Kameral vergi yoxlaması vergi ödəyicisi tərəfindən bu Məcəllənin 72-ci maddəsində nəzərdə tutulmuş vergi bəyannaməsinin, habelə cari vergi ödəmələrinin hesablanması haqqında arayışın təqdim edildiyi tarixdən mənfəət və gəlir vergisi bəyannaməsinə (ödəmə mənbəyində tutulan gəlirlər üzrə və xüsusi notariusun gəlir vergisi bəyannaməsi istisna olmaqla) münasibətdə 60 iş günü müddətində, digər bəyannamələrə, habelə cari vergi ödəmələrinin hesablanması haqqında arayışlara münasibətdə isə 30 iş günü müddətində keçirilir. Xaricdən əldə olunan gəlirlər üzrə xarici dövlətlərin səlahiyyətli orqanlarından müvafiq məlumatlar daxil olduğu halda kameral vergi yoxlaması bu Məcəllənin 85.4-cü maddəsində göstərilən dövr üzrə məlumatlar daxil olduğu tarixdən 30 iş günü müddətində keçirilir. Bu müddət başa çatdıqdan sonra bu maddənin birinci və ikinci cümləsində nəzərdə tutulmuş bəyannamə, cari vergi ödəmələrinin hesablanması haqqında arayış və ya xaricdən əldə olunan məlumatlar, habelə bu Məcəllənin 37.2-1-ci maddəsində göstərilən bildiriş üzrə verilmiş dəqiqləşdirilmiş bəyannamə üzrə yenidən kameral vergi yoxlaması keçirilə bilməz.";

1.18.2. 37.3-cü maddədə "ödəyicisindən" sözü "ödəyicisi tərəfindən" sözləri ilə, "ilə" sözü "və cari vergi ödəmələrinin hesablanması haqqında arayışla" sözləri ilə əvəz edilsin;

1.18.3. 37.4-cü maddəyə "vergi bəyannaməsində" sözlərindən sonra "və ya cari vergi ödəmələrinin hesablanması haqqında arayışda" sözləri əlavə edilsin;

1.19. 38-ci maddə üzrə:

1.19.1.38.2-ci maddənin ikinci hissəsinin ikinci və üçüncü cümlələrində və üçüncü hissəsində ismin müvafiq hallarında "gün" sözü ismin müvafiq hallarında "iş günü" sözləri ilə əvəz edilsin;

1.19.2. 38.3.9-cu maddə aşağıdakı redaksiyada verilsin:

"38.3.9. aşağıdakı hallarda bu Məcəllənin 85-ci maddəsində göstərilən müddətlərdən asılı olmayaraq, əvvəlki səyyar vergi yoxlaması ilə yoxlanılan dövr əhatə edilməklə yuxarı vergi orqanının qərarı əsasında:

38.3.9.1. vergi yoxlamasının nəticələri ilə razılaşmayan vergi ödəyiciləri növbədənkənar səyyar vergi yoxlamasının keçirilməsini yazılı şəkildə tələb etdikdə;

38.3.9.2. vergi ödəyicisi tərəfindən səyyar vergi yoxlaması zamanı sənədlər təqdim edilmədikdə və vergi yoxlamasının nəticələrinə görə vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi haqqında vergi orqanının qərarından vergi ödəyicisi tərəfindən sənədlər təqdim edilməklə yuxarı vergi orqanına şikayət verildikdə;

38.3.9.3. vergi yoxlamasının nəticələrinə görə vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi haqqında vergi orqanının qərarından vergi ödəyicisi tərəfindən səyyar vergi yoxlamasının keçirilməsi zamanı təqdim edilən sənədlərdən fərqli sənədlər təqdim edilməklə yuxarı vergi orqanına şikayət verildikdə.

Vergi yoxlamasının nəticələri ilə razılaşmayan vergi ödəyiciləri növbədənkənar səyyar vergi yoxlamasının keçirilməsini yazılı şəkildə tələb etdikdə, vergi yoxlaması vergi orqanlarının əvvəlki yoxlamanı keçirmiş vəzifəli şəxsləri tərəfindən keçirilə bilməz.";

1.20.42-ci maddə üzrə:

1.20.1. 42.1-ci maddənin üçüncü və dördüncü hissələri müvafiq olaraq dördüncü və beşinci hissələr hesab edilsin və həmin maddəyə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Vergi ödəyicisi tərəfindən vergilərin hesablanmasına təsir edən və yoxlama dövründə təqdim edilən sənədlərdən fərqli sənədlər əlavə vergi yoxlamasının təyin edildiyi tarixdən 30 iş günü müddətində təqdim edilməlidir.";

1.20.2.42.2-ci maddədə "abzasında" sözü "və üçüncü hissəsində" sözləri ilə əvəz edilsin;

1.21. 47.4-cü maddənin beşinci hissəsinə "tərəfindən" sözündən sonra "eyni vergi ödəyicisi üzrə" sözləri əlavə edilsin;

1.22. aşağıdakı məzmunda 49.1-2-ci maddə əlavə edilsin:

"49.1-2. Bu Məcəllənin 49.1.3-cü maddəsinə müvafiq olaraq təyin edilən yoxlama əvvəlki səyyar vergi yoxlamasının davamı hesab edilir və yalnız 1 dəfə 60 iş günündən artıq olmamaqla keçirilə bilər. Əlavə vergi yoxlamasının keçirilməsinin nəticəsi üzrə yenidən əlavə vergi yoxlamasının keçirilməsi barədə qərar qəbul edilə bilməz.";

1.23. 50.1-ci maddə üzrə:

1.23.1. 50.1.1-ci maddəyə "durmayan" sözündən sonra ", bu Məcəllənin 33.2-ci maddəsinə uyğun olaraq təsərrüfat subyekti (obyekti) vergi orqanlarında uçotda olmayan" sözləri əlavə edilsin;

1.23.2.50.1.13-cü maddə aşağıdakı redaksiyada verilsin:

"50.1.13. malların bu Məcəllənin 58.8-ci maddəsində göstərilən sənədlər əsasında alınmasına, malların elektron qaimə-faktura əsasında təqdim edilməsinə, topdansatış ticarət və istehsal obyektlərindən, habelə anbarlardan malların pərakəndə satış qaydasında rəsmiləşdirməklə təqdim edilməsinə, habelə malların vergi ödəyicisinin bir təsərrüfat subyektindən (obyektindən) digər təsərrüfat subyektinə (obyektinə) göndərilməsi zamanı bu Məcəllənin 71-1.5.10-cu maddəsində nəzərdə tutulan növdə elektron qaimə-fakturanın tərtib edilməsinə nəzarət edilməsi;"

1.23.3. aşağıdakı məzmunda 50.1.13-1-ci maddə əlavə edilsin:

"50.1.13-1. bu Məcəllənin 16.1.11-11-ci maddəsinə əsasən vergi ödəyicisinin idxal olunmuş mallarının saxlanıldığı (boşaldıldığı) yerə baxış keçirilməsi;";

1.24. 57-ci maddə üzrə:

1.24.1. 57.1-ci maddədə "Bu Məcəllənin 57.1-1-ci maddəsində nəzərdə tutulan şəxslər istisna olmaqla, vergi" sözləri "Vergi" sözü ilə əvəz edilsin;

1.24.2.57.1-1-ci maddə ləğv edilsin;

1.24.3. 57.3-cü maddəyə ikinci halda "o cümlədən" sözlərindən əvvəl "habelə bu Məcəllənin 16.1.4-2-ci maddəsində göstərilən məlumat formasının müəyyən edilmiş müddətdə təqdim edilməməsinə və ya təqdim edilmiş məlumat formasında təhrif olunmuş məlumatların göstərilməsinə, bu Məcəllənin 16.1.6-cı maddəsində nəzərdə tutulan halda vergi hesabatı təqdim edilərkən vergi orqanının tələbi ilə maliyyə hesabatlarının təqdim edilməməsinə," sözləri əlavə edilsin;

1.24.4.57.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"57.4. Bu Məcəllənin 16.1.4-cü və 16.1.4-3-cü maddələrində göstərilən arayışları müəyyən edilən müddətlərdə təqdim etməyən və ya arayışlarda düzgün olmayan məlumatlar göstərən vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən 2000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.";

1.24.5. aşağıdakı məzmunda 57.5 - 57.7-ci maddələr əlavə edilsin:

"57.5. İdxal edilmiş mallar barədə bu Məcəllənin 16.1.11-11-ci maddəsində göstərilən məlumatları təqdim etməyən və ya təhrif olunmuş formada təqdim edən vergi ödəyicisinə müvafiq olaraq idxal edilmiş malların hesab-faktura (invoys) dəyərinin və ya onun təhrif olunmaqla təqdim edilmiş hissəsinin mikro sahibkarlıq subyektlərinə münasibətdə 2 faizi miqdarında, digər şəxslərə münasibətdə 5 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

57.6. Bu Məcəllənin 16.10-cu maddəsində nəzərdə tutulan kreditor və debitor borclar barədə məlumat formasının təqdim edilməməsinə görə vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən 100 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

57.7. Bu Məcəllənin 16.11-ci maddəsində nəzərdə tutulan məlumatları ödəmə tapşırığında göstərməyən və ya təhrif edilməklə göstərən vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən hər belə ödəmə tapşırığına görə 100 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.";

1.25.58-ci maddə üzrə:

1.25.1. aşağıdakı məzmunda 58.2-1-ci maddə əlavə edilsin:

"58.2-1. Vergi ödəyicisinin bu Məcəllənin 33.2-ci maddəsinə uyğun olaraq təsərrüfat subyektinin (obyektinin) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunmuş qaydada vergi orqanlarında uçota alınmamasına və (və ya) təsərrüfat subyektinin (obyektinin) sahəsi barədə təhrif olunmuş məlumatın verilməsinə görə mikro sahibkarlıq subyektlərinə, qeyri-kommersiya təşkilatlarına və qeyri-sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərə münasibətdə 40 manat məbləğində, digər şəxslərə münasibətdə 400 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.";

1.25.2.58.7-ci maddəyə "cavab verməyən" sözlərindən sonra ", o cümlədən bu Məcəllənin 50.8-ci maddəsində sadalanan tələblərə cavab verməyən çek təqdim edən" sözləri əlavə edilsin;

*Ardı 13-cü səh.*

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 12-ci səh.*

1.25.3. 58.7-1.8-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 58.7-1.9-58.7-1.11-ci maddələr əlavə edilsin:

"58.7-1.9. həmin Qanunun 3.4.10-cu və 3.4.11-ci maddələrinin tələblərini pozmaqla, ödənişi nağd qaydada qəbul edən şəxsə;

58.7-1.10. həmin Qanunun 3.4.12-ci maddəsinin tələblərini pozmaqla, tibbi xidmətlərin dəyərini nağd qaydada qəbul edən tibb müəssisəsinə;

58.7-1.11. həmin Qanunun 3.4.13-cü maddəsinin tələblərini pozmaqla, uduşları (mükafatları) nağd qaydada verən və ya oyunlarda iştirakla bağlı pul ödənişlərini (pul qoyuluşlarını) nağd qaydada qəbul edən şəxsə.";

1.25.4. 58.8-ci maddənin birinci hissəsindən "alış aktları və ya" sözləri çıxarılsın;

1.25.5. 58.8.3-cü maddədə "10" rəqəmləri "20" rəqəmləri ilə əvəz edilsin;

1.25.6. 58.9-cu maddədən "aksiz markası ilə markalanmamasına və ya məcburi nişanlama ilə nişanlanmamasına," sözləri çıxarılsın;

1.25.7. 58.12-ci maddədə "və məcburi dövlət sosial sığorta" sözləri ", məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta" sözləri ilə, "görə vergi ödəyicisinə" sözləri isə ", habelə "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 14.6-1-ci maddəsinə əsasən həmin Qanunun 14.5.1-1.9-cu maddəsində göstərilən şəxslər tərəfindən "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz" alınmamasına görə vergi ödəyicisinə" sözləri ilə əvəz edilsin;

1.25.8. 58.12.1-ci və 58.12.2-ci maddələrdə "məbləğinin" sözü ", məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqı məbləğlərinin" sözləri ilə əvəz edilsin;

1.25.9. 58.13-cü maddəyə "təqdim edilməsinə," sözlərindən sonra "topdansatış ticarət və istehsal obyektlərindən, habelə anbarlardan malların pərakəndə satış qaydasında rəsmiləşdirməklə təqdim edilməsinə," sözləri əlavə edilsin;

1.25.10. aşağıdakı məzmunda 58.13-1-ci maddə əlavə edilsin:

"58.13-1. Bu Məcəllənin 71-1.5.10-cu maddəsində nəzərdə tutulan növdə elektron qaimə-faktura tərtib edilmədən malların bir təsərrüfat subyektindən (obyektindən) digər təsərrüfat subyektinə (obyektinə) göndərilməsinə görə vergi ödəyicisinə elektron qaimə-faktura ilə rəsmiləşdirilməyən hər bir belə əməliyyat üçün 100 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.";

1.25.11. 58.16-cı maddədə "58.8.2-ci" sözləri "58.8-ci" sözləri ilə əvəz olunsun və həmin maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Alışı bu Məcəllə ilə müəyyən edilmiş qaydada rəsmiləşdirilməyən malların təqdim edilməsinə dair tərtib edilmiş elektron qaimə-fakturalarda mallar barədə məlumatlar, o cümlədən malın adı dəqiq göstərilmədikdə, həmin malların alışı ilə bağlı çəkilən xərclərin dəyəri təqdim edilən malların dəyərinin 1,2-yə bölünməsi yolu ilə alınan dəyər kimi müəyyən edilir.";

1.25.12. aşağıdakı məzmunda 58.17-ci maddə əlavə edilsin;

"58.17. Bu Məcəllənin 58.8.2-ci, 58.13-cü və 58.13-1-ci maddələrində sadalanan və bu Məcəllənin 71-1-ci və 71-2-ci maddələrində göstərilən sənədlər həmin maddədə nəzərdə tutulan müddətlər nəzərə alınmaqla, vergi nəzarəti tədbiri başlandıqdan sonra təqdim (tərtib) edildiyi halda həmin sənədlər nəzərə alınmır və bu Məcəllənin 58.8.2-ci, 58.13-cü və 58.13-1-ci maddələrində nəzərdə tutulan maliyyə sanksiyaları tətbiq edilir.";

1.26. 60.1.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"60.1.2. sahibkarlıq fəaliyyətini göstərən hüquqi və fiziki şəxslərin milli və ya xarici valyutada cari və ya digər hesablarında vəsait olduqda, onların vergilərin ödənilməsinə dair ödəmə tapşırıqlarının və vergi orqanının sərəncamlarının icra edilməməsinə görə:

60.1.2.1. vergi ödəyicisinin vergilərin ödənilməsinə dair tapşırıqlarının vaxtında icra edilməməsinə, habelə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş ödənişlərin növbəliyi pozulmaqla icra edilməsinə görə - vaxtında icra edilməyən ödəmə tapşırıqlarında göstərilən məbləğlərin və ya növbəliyi pozulmaqla aparılan əməliyyatların məbləğlərinin 50 faizi;

60.1.2.2. vergilər üzrə borcların, faizlərin və maliyyə sanksiyalarının vergi ödəyicisinin hesabından tutulması haqqında vergi orqanının sərəncamlarının daxil olduğu gündən 3 iş günü müddətində icra edilməməsinə, habelə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş ödənişlərin növbəliyi pozulmaqla icra edilməsinə görə - vergi orqanının icra edilməyən sərəncamlarında göstərilən məbləğlərin və ya növbəliyi pozulmaqla aparılan əməliyyatların məbləğlərinin 50 faizi;

60.1.2.3. bu Məcəllənin 65.2-ci maddəsi ilə müəyyən edilən həcmdə pul vəsaitinin məxaric əməliyyatları üzrə dondurulması haqqında vergi orqanlarının sərəncamlarının daxil olduğu vaxt icra edilməməsinə görə - vergi orqanının icra edilməyən sərəncamında göstərilən məbləğlərin 50 faizi;

60.1.2.4. bu Məcəllənin 65.7-1-ci maddəsinin tələblərinin pozulmasına görə - vergi orqanının sərəncamında göstərilən məbləğlərin 50 faizi.

Bu Məcəllənin 60.1.2.1-ci və 60.1.2.2-ci maddələrində növbəliyi pozulmaqla aparılan əməliyyatların məbləğlərinə əsasən tətbiq edilən maliyyə sanksiyasının məbləği həmin ödəmə tapşırıqlarında və ya vergi orqanının sərəncamlarında göstərilən məbləğin 50 faizindən çox olmamalıdır.";

1.27.65-ci maddə üzrə:

1.27.1.65.7-ci maddənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Vergi orqanlarının vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması haqqında sərəncamı vergi ödəyicisinin xarici valyutada olan hesabına yönəldildikdə, bank, digər kredit təşkilatı və ya poçt rabitəsinin milli operatoru həmin gün Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi rəsmi məzənnə ilə sərəncamda göstərilən məbləğin 105 faizinədək hesabdakı valyuta vəsaitini dondurur və dərhal bu barədə vergi ödəyicisinə məlumat göndərir.";

1.27.2. 65.7-1-ci maddənin ikinci cümləsi dördüncü cümlə hesab olunsun və aşağıdakı məzmunda ikinci - üçüncü cümlələr əlavə edilsin:

"Bu maddə ilə müəyyən edilmiş 10 bank günü müddətində vergi orqanı tərəfindən yeni sərəncam göndərildiyi halda həmin sərəncamda göstərilən vergi borcunun məbləği vergi orqanının əvvəlki sərəncamına münasibətdə azalmışdırsa, 10 bank günü müddəti əvvəlki sərəncamın tarixindən hesablanır. Bu maddə ilə müəyyən edilmiş 10 bank günü müddətində vergi orqanı tərəfindən yeni sərəncam göndərildiyi halda həmin sərəncamda göstərilən vergi borcunun məbləği vergi orqanının əvvəlki sərəncamına münasibətdə artmışdırsa, 10 bank günü müddəti əvvəlki sərəncamda göstərilən vergi borcu üzrə həmin sərəncamın tarixindən, artan vergi borcu məbləğinə münasibətdə isə yeni sərəncamın daxil olduğu tarixdən hesablanır.";

1.28. 67-ci maddə üzrə:

1.28.1.67.1.9-cu maddəyə "məlumatlar" sözündən sonra ", o cümlədən vergi orqanı tərəfindən həyata keçirilən vergi nəzarəti tədbirləri zamanı əldə edilmiş vergi ödəyicisinin sahibkarlıq fəaliyyəti ilə bağlı qanunla nəzərdə tutulmuş qaydada rəsmiləşdirilməyən əməliyyatlar üzrə məlumatlar" sözləri əlavə edilsin;

1.28.2. 67.15-ci maddəyə "məlumatlarında" sözündən sonra "(mühasibat uçotu və ilkin uçot sənədlərində)" sözləri və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu maddənin məqsədləri üçün təqdim edilən mallar bir əqd və ya müqavilə üzrə təqdim edilmiş hesab edilir.";

1.28.3. aşağıdakı məzmunda 67.17-ci maddə əlavə edilsin;

"67.17. Bu Məcəllənin 67-ci maddəsində sadalanan vergitutma obyektinin müəyyən edilməsi ilə bağlı ayrı-ayrı halları tənzimləyən maddələr bu maddədə sıra üzrə ardıcıllıq gözlənilmədən tətbiq edilir.";

1.29.71-1-ci maddə üzrə:

1.29.1.71-1.1-ci maddənin birinci hissəsi aşağıdakı redaksiyada verilsin:

"71-1.1. Bu Məcəllə ilə müəyyən edilən hallarda malları təqdim edən (göndərən), işləri görən və xidmətləri göstərən, habelə malların təsərrüfatdaxili yerdəyişməsini həyata keçirən vergi orqanında uçotda olan şəxs elektron qaimə-fakturanı aşağıdakı müddətlərdə təqdim (tərtib) etməlidir:";

1.29.2. aşağıdakı məzmunda 71-1.3-1-ci maddə əlavə edilsin:

"71-1.3-1. Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin qaytarılması üçün elektron qaimə-fakturanın vahid forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.";

1.29.3.71-1.4-cü maddə ləğv edilsin;

1.29.4.71-1.5.4-cü və 71-1.5.6-cı maddələrə "malların" sözündən sonra "(işlərin, xidmətlərin)" sözləri əlavə edilsin;

1.29.5.71-1.5.5-ci maddəyə "malların" sözündən sonra "(işlərin, xidmətlərin)" sözləri, "alıcısına" sözündən sonra "(subagentə)" sözü əlavə edilsin;

1.29.6. 71-1.5.3-cü və 71-1.5.9-cu maddələrə "əsasən" sözündən sonra "verilən" sözü əlavə edilsin;

1.29.7. 71-1.5.7-ci maddəyə "emala" sözündən sonra ", yaxud saxlamaya" sözləri əlavə edilsin;

1.29.8. 71-1.5.8-ci maddəyə "keçmiş" sözündən sonra ", yaxud saxlamaya verilmiş" sözləri əlavə edilsin;

1.29.9. 71-1.5.9-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 71-1.5.10-cu və 71-1.5.11-ci maddələr əlavə edilsin:

"71-1.5.10. aksizli malların (neft məhsulları istisna olmaqla) təsərrüfatdaxili yerdəyişməsi barədə;

71-1.5.11. ixrac qeydi ilə satış barədə.";

1.29.10. aşağıdakı məzmunda 71-1.6 -71-1.8-ci maddələr əlavə edilsin:

"71-1.6. Bu Məcəllənin 71-1.5.10-cu maddəsində nəzərdə tutulan növdə elektron qaimə-faktura aksizli malların istehsalçıları və ya idxalçıları tərəfindən tərtib edilir.

71-1.7. Agent (komisyonçu) tərəfindən malların (işlərin, xidmətlərin) subagentə verilməsi, habelə subagent tərəfindən malların (işlərin, xidmətlərin) alıcıya təqdim edilməsi zamanı bu Məcəllənin 71-1.5.5-ci maddəsinə uyğun olaraq elektron qaimə-faktura tərtib edilir və müvafiq olaraq əməliyyatın subagentə ötürülməsi və subagent tərəfindən aparılması ilə bağlı qeyd aparılır.

71-1.8. Aksizli malların istehsalçısı tərəfindən aksizli malların istehsal binasının hüdudlarından ona məxsus digər təsərrüfat subyektlərinə (obyektlərinə), yaxud əvvəlcədən sifariş edilməyən əməliyyatlar üzrə nəqliyyat vasitələrinə buraxılışı bu Məcəllənin 71-1.5.10-cu maddəsində nəzərdə tutulmuş növdə elektron qaimə-faktura ilə rəsmiləşdirilir.";

1.30. aşağıdakı məzmunda 71-3-cü maddə əlavə edilsin:

**"Maddə 71-3. Elektron əmtəə-nəqliyyat qaiməsi və yük avtonəqliyyatı üçün elektron yol vərəqi**

71-3.1. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq əmtəə təyinatlı yüklərin daşınmasına görə elektron əmtəə-nəqliyyat qaiməsi və yük avtonəqliyyatı üçün elektron yol vərəqi tərtib edilir.

71-3.2. Elektron əmtəə-nəqliyyat qaiməsinin və yük avtonəqliyyatı üçün elektron yol vərəqinin forması, tətbiqi, uçotu və istifadəsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.";

1.31. aşağıdakı məzmunda 72.4-1-ci maddə əlavə edilsin:

"72.4-1. Bu Məcəllənin 163-cü maddəsində nəzərdə tutulan hallarda vergilərin dəqiqləşdirilməsi qiymətləndirmə bazasında dəyişikliyin baş verdiyi hesabat dövründə aparılır və hesabat dövrü üzrə vergi ödəyicisi tərəfindən təqdim edilmiş bəyannamədə dəqiqləşdirilir.";

1.32. 76.1-1-ci maddədən "ƏDV qeydiyyatında olan" sözləri çıxarılsın və həmin maddədə "banklar" sözü "bank əməliyyatları aparan şəxslər" sözləri ilə əvəz edilsin;

1.33. 78-ci maddə üzrə:

1.33.1. 78.1-ci maddədə "vergi məbləğinin" sözləri "vergilərin (o cümlədən cari vergi ödəmələrinin), hesablanmış faizlərin və tətbiq edilmiş maliyyə sanksiyalarının" sözləri ilə əvəz edilsin;

1.33.2. 78.4-cü maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Bu Məcəllənin 85.9-1.2-ci maddəsinə uyğun olaraq zamin duran vergi ödəyicisi tərəfindən vergi borcunun ödənilməsinə möhlət verilmiş vergi ödəyicisinin vergi öhdəliyinin yerinə yetirilməsi vergi öhdəliyinin digər şəxsin üzərinə qoyulması hesab edilmir və zamin tərəfindən vergi borcu olan şəxsin vergi öhdəliyinin yerinə yetirilməsi zamin vergi ödəyicisinin vergi öhdəlikləri ilə bağlı ödəmələrinə aid edilmir.";

1.34.81.1-ci maddəyə "vəfat etmiş" sözlərindən sonra "və ya Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə müəyyən edilmiş qaydada ölmüş hesab edilmiş" sözləri, "fiziki şəxsin" sözlərindən sonra "əmlak vergiləri üzrə" sözləri əlavə edilsin;

1.35. 83.1-ci maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Bu Məcəllənin 85.4-cü maddəsində göstərilən müddətlər nəzərə alınmaqla, vergi ödəyicisinin vergi orqanında uçota alındığı tarixədək əldə etdiyi gəlirləri, o cümlədən xaricdən əldə etdiyi gəlirləri üzrə vergilər həmin gəlirlərin aid olduğu hesabat dövrləri üzrə ayrılıqda hesablanaraq vergi orqanı tərəfindən vergi orqanının uçot sənədlərində qeyd edilir. Vergi ödəyicisinin xaricdən əldə etdiyi gəlirləri üzrə vergilər hesablanarkən bu Məcəllənin 127-ci maddəsinin müddəaları nəzərə alınır.";

1.36. 85-ci maddə üzrə:

1.36.1.85.2-ci maddəyə "Vergilərin" sözündən sonra "(o cümlədən cari vergi ödəmələrinin)" sözləri əlavə olunsun və həmin maddədə "müddətləri pozulmaqla ödənilməsinə" sözləri "müddətlərinin pozulmasına" sözləri ilə əvəz edilsin;

1.36.2. 85.5-1-ci maddədən birinci və ikinci halda "haqqına" sözü çıxarılsın və həmin maddədə üçüncü halda "haqqına" sözü "haqlarına, habelə bu Məcəllənin 38.3.9-cu maddəsində nəzərdə tutulan hallara" sözləri ilə əvəz edilsin;

1.36.3.85.6-cı maddədə "Vergi" sözü "Bu Məcəllənin 85.8-ci maddəsinin müddəaları nəzərə alınmaqla vergi" sözləri ilə əvəz edilsin;

1.36.4. 85.6.1-ci maddənin birinci cümləsində "və" sözü ", təhlükə potensiallı obyektlərdə baş verən qəzalar və ya" sözləri ilə əvəz olunsun və ikinci cümləsi ləğv edilsin;

1.36.5. 85.6.2-ci maddənin birinci cümləsində "vergini" sözü "vergi borcunu" sözləri ilə əvəz edilsin və ikinci cümləsi ləğv edilsin;

1.36.6. 85.6.2-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 85.6.3-cü və 85.6.4-cü maddələr əlavə edilsin:

"85.6.3. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət sifarişlərinin yerinə yetirilməsi ilə əlaqədar olaraq vergi ödəyicisi tərəfindən yerinə yetirilmiş dövlət sifarişi üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilmiş sifarişçinin borclu olduğunu təsdiq edən arayış təqdim edildikdə;

85.6.4. vergi ödəyicisi tərəfindən yalnız mövsümi xarakterli malların təqdim edilməsi, işlər görülməsi və ya xidmətlər göstərilməsi həyata keçirildikdə.";

1.36.7. aşağıdakı məzmunda 85.6-1-ci maddə əlavə edilsin:

"85.6-1. Bu Məcəllənin 85.6.2 - 85.6.4-cü maddələri məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqlarına münasibətdə tətbiq edilmir.";

1.36.8.85.8-ci maddə aşağıdakı redaksiyada verilsin:

"85.8. Aşağıdakı hallarda vergi öhdəliyinin yerinə yetirilməsi müddəti uzadıla bilməz:

85.8.1. vergi ödəyicisinə münasibətdə vergi qanunvericiliyinin pozulması ilə bağlı cinayət işi qaldırıldıqda;

85.8.2. vergi ödəyicisi riskli vergi ödəyicisi olduqda;

85.8.3. vergi öhdəliyinin məbləği vergi ödəyicisi tərəfindən məhkəmə və ya inzibati qaydada mübahisələndirildikdə;

85.8.4. vergi öhdəliyinin məbləği sahibkarlıq subyektlərinin kateqoriyası üzrə müvafiq olaraq bu Məcəllənin 85.9-cu maddəsində müəyyən edilmiş məbləğlərin aşağı həddindən az olduqda;

85.8.5. bu Məcəllənin 85.6.3-cü və 85.6.4-cü maddələrinə münasibətdə müraciət edən vergi ödəyicisinin vergi orqanında uçotda olduğu müddət 3 ildən az olduqda.";

1.36.9.85.9-cu maddə aşağıdakı redaksiyada verilsin:

"85.9. Vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması üçün vergi ödəyicisi tərəfindən vergi növü (növləri) üzrə vergi orqanına yazılı müraciət təqdim edilməlidir. Mikro və kiçik sahibkarlıq subyekti olan vergi ödəyicisinin borcu 2 000 manatdan 20 000 manatadək, orta sahibkarlıq subyekti olan vergi ödəyicisinin borcu 20 000 min manatdan 100 000 manatadək və iri sahibkarlıq subyektinin borcu 100 000 manatdan 300 000 manatadək olduqda, vergi ödəyicisi tərəfindən müraciətə aşağıda göstərilən məlumatları əks etdirən sənədlər əlavə edilir:

85.9.1. bu Məcəllənin 85.6-cı maddəsində nəzərdə tutulan hər bir hala münasibətdə müraciət edilmə tarixinə vergi ödəyicisinin kassasında, milli və ya xarici valyutada cari və ya digər hesablarında vəsaitlərin qalığı, debitorların və kreditorların VÖEN-i göstərilməklə adı və borcun məbləği, habelə son bir il ərzində bank hesabları üzrə aparılmış əməliyyatlar barədə arayışlar;

85.9.2. bu Məcəllənin 85.6.1-ci maddəsində nəzərdə tutulan hala münasibətdə hadisənin baş verməsi barədə və onun nəticəsində dəymiş zərərin məbləği barədə müvafiq dövlət orqanlarının arayışları.";

1.36.10. aşağıdakı məzmunda 85.9-1-ci və 85.9-2-ci maddələr əlavə edilsin:

"85.9-1. Vergi öhdəliyinin məbləği sahibkarlıq subyektlərinin kateqoriyası üzrə müvafiq olaraq bu Məcəllənin 85.9-cu maddəsində müəyyən edilmiş məbləğlərin yuxarı həddindən çox olduqda - bu Məcəllənin 85.6.3-cü maddəsində nəzərdə tutulan hal istisna olmaqla, digər hallarda vergi ödəyiciləri tərəfindən müraciətə 85.9-cu maddədə göstərilən sənədlərlə yanaşı, aşağıdakı sənədlərdən hər hansı biri əlavə edilir:

85.9-1.1. bank zəmanəti;

85.9-1.2. zaminlik müqaviləsi. Həmin müqaviləyə əsasən zamin duran şəxs ən azı bir il müddətinə vergi orqanında qeydiyyata alınmış, dövlət büdcəsinə borcu olmayan, riskli vergi ödəyicisi olmayan şəxs olmalıdır və həmin şəxsin müraciət edən vergi ödəyicisinin vergi öhdəliyini yerinə yetirmək imkanına malik olması ilə bağlı qanunla nəzərdə tutulmuş qaydada yüklü edilməmiş aktivləri barədə məlumat vergi orqanına təqdim edilməlidir;

85.9-1.3. girov müqaviləsi. Müqavilədə qanunla nəzərdə tutulmuş qaydada vergi öhdəliyinin təminatı kimi girov qoyulacaq əmlak barədə zəruri məlumatlar qeyd edilməlidir. Girov qoyulacaq əmlakın ümumi bazar dəyərinin 50 faizi borcun məbləğindən çox olmalıdır.

Girov müqaviləsinin qanunla nəzərdə tutulmuş qaydada etibarsız hesab edilməsi vergi ödəyicisinin vergi öhdəliyini ləğv etmir. Girov müqaviləsinin qeydiyyatı ilə bağlı xərclər vergi ödəyicisi tərəfindən ödənilir.

85.9-1.4. vergi ödəyicisinin mülkiyyətində olan və satış üçün yararlı daşınar və daşınmaz əmlakının siyahıya alınmasına dair yazılı razılıq. Razılıq sənədində həmin əmlak barədə zəruri məlumatlar qeyd edilməli, əmlakın ümumi bazar dəyərinin 50 faizi borcun məbləğindən çox olmalıdır.

Vergi ödəyicisinin müraciəti təmin edildiyi halda, vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadıldığı dövr ərzində razılıq sənədində qeyd edilən əmlaklar vergi ödəyicisinin istifadə hüququ saxlanılmaqla vergi orqanı tərəfindən siyahıya alınır. Vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadıldığı dövr ərzində həmin əmlakların hərrac vasitəsilə satışı ilə bağlı vergi orqanı tərəfindən məhkəməyə müraciət edilmir və vergi ödəyicisi tərəfindən həmin əmlakların təqdim edilməsi vergi orqanının razılığı ilə həyata keçirilir.

85.9-2. Vergi ödəyicisi tərəfindən bu Məcəllənin 85.6.3-cü maddəsində nəzərdə tutulan halla əlaqədar müraciət edildikdə, borcun məbləğindən asılı olmayaraq, yalnız bu Məcəllənin 85.9.1-ci maddəsində nəzərdə tutulan sənədlər əlavə olunur.";

1.36.11. 85.10-cu maddənin birinci cümləsində "vergi ili ərzində 1 aydan 9 ayadək uzadıla bilər." sözləri "vergi orqanının qərarı ilə vergi ödəyicisinin seçimindən asılı olaraq aşağıdakı qaydada uzadıla bilər:" sözləri ilə əvəz olunsun və ikinci cümlə ləğv edilsin;

1.36.12. aşağıdakı məzmunda 85.10.1 - 85.10.3-cü və 85.10-1 - 85.10-3-cü maddələr əlavə edilsin:

"85.10.1. borcun ödənilməsinə 6 aydan çox olmayan müddətə möhlət verilməsi;

85.10.2. cari vergi ödəmələri üzrə borcun ödənilməsinə təqvim ili ərzində 6 aydan çox olmayan müddətə möhlət verilməsi;

85.10.3. vergi öhdəliyinin razılaşdırılmış qrafik əsasında hissə-hissə icrası şərtilə borcun ödənilməsinə 1 ildən çox olmayan müddətə möhlət verilməsi. Bu zaman ödəniş qrafiki vergi orqanı ilə vergi ödəyicisi arasında imzalanmış müvafiq aktla rəsmiləşdirilir.";

"85.10-1. Vergi ödəyicisi tərəfindən möhlət verilən dövr ərzində möhlət verilmiş borcun 75 faizi ödənildiyi halda vergi ödəyicisinin müraciəti əsasında bu Məcəllənin 85.10.1-ci maddəsində müəyyən edilən müddət 1 ildən, 85.10.3-cü maddəsində müəyyən edilən müddət isə 2 ildən çox olmayan müddətə yuxarı vergi orqanının qərarı ilə artırıla bilər.

85.10-2. Vergi orqanının qərarı ilə vergi öhdəliyinin yerinə yetirilməsi müddəti uzadıldığı halda həmin borca müraciət edilmə tarixindən və müddətin uzadıldığı dövr ərzində faizlər hesablanmır.

85.10-3. Vergi orqanının qərarı ilə vergi borcunun ödənilməsinə möhlət verilən dövr ərzində vergi ödəyicisinin yeni vergi borcu yarandığı halda həmin vergi borcu bu Məcəllə ilə müəyyən edilmiş ümumi qaydada dövlət büdcəsinə ödənilir.";

1.36.13. 85.11-ci maddə aşağıdakı redaksiyada verilsin:

"85.11. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müraciətin və digər sənədlərin daxil olduğu tarixdən 30 gün müddətində vergi ödəyicisinin müraciətinə baxır və bu Məcəllənin 85.6-cı maddəsində nəzərdə tutulmuş əsaslar olduğu halda vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması və ya vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılmasından imtina edilməsi barədə qərar qəbul edir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması haqqında qərarında müddətin uzadılmasının səbəbi, vergi üzrə borcun məbləği, ödənilməsi müddəti uzadılan verginin növü (növləri), ödənilmənin müddəti və qaydası, habelə girov, bank zəmanəti, vergi ödəyicisinin mülkiyyətində olan siyahıya alınmış daşınar və daşınmaz əmlaklar və zamin haqqında qeydlər göstərilməlidir.";

1.36.14. 85.12-ci maddədə "müddətdən" sözü "tarixdən" sözü ilə əvəz olunsun və həmin maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Vergi orqanının qərarı əsasında vergi öhdəliyinin yerinə yetirilməsinin uzadıldığı müddət bu Məcəllənin 85.4-cü maddəsində nəzərdə tutulan vergi borcunun tələb edilməsi ilə bağlı 5 illik müddətə daxil edilmir.";

1.36.15.85.13-cü maddə ləğv edilsin;

1.36.16.85.14.2-ci maddədə "85.8-ci maddəsində" sözləri "85.8.1-85.8.3-cü maddələrində" sözləri ilə, "halda" sözü "hallarda" sözü ilə əvəz edilsin;

1.36.17.85.15-ci maddə aşağıdakı redaksiyada verilsin:

"85.15. Bu Məcəllənin 85.14.2-ci və 85.14.3-cü maddələrində nəzərdə tutulmuş hallarda vergi öhdəliyinin yerinə yetirilməsinin uzadılmış müddətinə vaxtından əvvəl xitam verilməsi haqqında vergi orqanı tərəfindən qərar verilməklə, bu Məcəllənin 85.9-1-ci maddəsində nəzərdə tutulan təminatlar hesabına vergi borcunun alınması təmin edilir və 5 gün müddətində vergi ödəyicisinə bu barədə məlumat verilir.";

1.37.87.3-cü maddədən "yazılı" sözü çıxarılsın;

1.38. 90-cı maddə üzrə:

1.38.1.90.1-ci maddədə "ixtisaslaşdırılmış açıq hərracda" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) vasitəsilə, habelə dəyəri 5000 manatdan artıq olmayan daşınar əmlakların isə ticarət şəbəkələrində" sözləri ilə əvəz edilsin;

1.38.2.90.3-cü maddənin birinci hissəsində "əmtəə birjalarının nəzdində yaradılmış ixtisaslaşdırılmış təşkilat (bundan sonra - hərracın təşkilatçısı) tərəfindən ixtisaslaşdırılmış açıq hərraclarda (bundan sonra - hərrac)" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) vasitəsilə, habelə dəyəri 5000 manatdan artıq olmayan daşınar əmlakların isə ticarət şəbəkələrində satılması" sözləri ilə, "icra məmuru" sözləri "vergi orqanı" sözləri ilə, ikinci və beşinci hissələrində ismin müvafiq hallarında "icra məmuru" sözləri ismin müvafiq hallarında "vergi orqanı" sözləri ilə əvəz olunsun və həmin maddənin üçüncü hissəsi ləğv edilsin;

1.38.3. 90.3.2-ci maddənin birinci cümləsində "ixtisaslaşdırılmış təşkilat" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz olunsun, ikinci cümləsində "İxtisaslaşdırılmış təşkilat" sözləri "Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə, "icra məmurunun" sözləri "vergi orqanının" sözləri ilə əvəz edilsin;

1.38.4. 90.3.3-cü maddənin birinci hissəsində "İcra məmurunun" sözləri "Vergi orqanının" sözləri ilə əvəz edilsin;

1.38.5. 90.3.3.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"90.3.3.5. əmlakın siyahıya alınması barədə vergi orqanının aktı və tərtib edilmiş siyahı;";

1.38.6. 90.3-1-ci maddə aşağıdakı redaksiyada verilsin;

"90.3-1. Dövlət əmlakı istisna olmaqla, vergi ödəyicisinin siyahıya alınmış dəyəri 5000 manatadək olan daşınar əmlakları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanının (qurumun) müəyyən etdiyi qaydada vergi orqanının müəyyən etdiyi ticarət şəbəkələrində (o cümlədən satışını elektron şəkildə həyata keçirən ticarət şəbəkələrində) satıla bilər.";

1.38.7. 90.4-cü maddədə "icra məmuru" sözləri "vergi orqanı" sözləri ilə əvəz edilsin;

1.39. 101-ci maddə üzrə:

1.39.1. 101.1-3-cü maddəyə "150.1.7-ci" sözlərindən sonra "(vergi orqanlarında uçota alınmayan fiziki şəxslərin göstərdiyi xidmətlərə (işlərə) münasibətdə)" sözləri əlavə edilsin;

1.39.2. 101.2-ci maddəyəaşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Muzdlu işçi kimi cəlb etmədiyi fiziki şəxslərə hüquqi şəxslər və ya fərdi sahibkarlar tərəfindən ödənilən maddi yardım, mükafat və təqaüdlərdən, habelə vəkil qurumlarının tərkibində fəaliyyət göstərən vəkillərin həmin qurum tərəfindən ödənilən gəlirlərindən vergi bu Məcəllənin 150.1.7-ci və 150.1.17-ci maddələrinə uyğun olaraq bu maddədə göstərilən dərəcə ilə tutulur.";

1.39.3. 101.6-cı maddədə "2" rəqəmi "5" rəqəmi ilə əvəz edilsin;

1.40. 102.1-ci maddə üzrə:

1.40.1.102.1.3.1-ci maddənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"hədiyyələrin və təhsil haqlarını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin 1000 manatadək olan hissəsi, mirasların dəyərinin 20000 manatadək olan hissəsi;";

1.40.2.102.1.3.1-ci maddənin ikinci hissəsində "haqları" sözü "(o cümlədən cərrahiyyə əməliyyatı üçün) haqlarını ödəmək üçün maddi yardım, birdəfəlik müavinət" sözləri ilə əvəz edilsin;

1.40.3. 102.1.3.1-ci maddənin ikinci hissəsi müvafiq olaraq üçüncü hissə hesab olunsun və həmin maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Ölkə daxilində müalicə haqlarını, o cümlədən cərrahiyyə əməliyyatının haqqını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin 10000 manatadək olan hissəsi, xaricdə müalicə haqlarını, o cümlədən cərrahiyyə əməliyyatının haqqını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin 50000 manatadək olan hissəsi;";

1.40.4. aşağıdakı məzmunda 102.1.3.3-cü və 102.1.3.4-cü maddələr əlavə edilsin:

"102.1.3.3. şəhid olmuş şəxslərin ailə üzvlərinin əldə etdiyi maddi yardımın 20000 manatadək olan hissəsi;

102.1.3.4. Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçuların və mülki şəxslərin əldə etdiyi maddi yardımın 20000 manatadək olan hissəsi.

Maddi yardım almış mülki şəxslərə bu güzəşt o halda verilir ki, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən şəxsin hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən edildiyini təsdiq edən arayış təqdim edilmiş olsun.";

1.40.5. 102.1.4-cü maddəyə "dövlət təqaüdləri," sözlərindən sonra "hüquqi şəxsin, onun filialı və ya nümayəndəliyinin, habelə fərdi sahibkarın fəaliyyətinin ləğvi və" sözləri, "işçilərə" sözündən sonra ", habelə işçinin vəfatı ilə əlaqədar əmək müqaviləsinə xitam verildikdə isə vəfat edənin vərəsələrinə" sözləri əlavə edilsin;

1.40.6. aşağıdakı məzmunda 102.1.25-1-ci maddə əlavə edilsin;

"102.1.25-1. Vətən müharibəsi iştirakçılarının və Vətən müharibəsində, habelə Vətən müharibəsindən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatları və hərbi təxribatlar nəticəsində şəhid ailəsi statusu almış və əlilliyi müəyyən edilmiş şəxslərin banklara və digər kredit təşkilatlarına olan borclarının silinməsindən əldə olunan gəlir;";

1.40.7. 102.1.30-cu maddəyə "mikro" sözündən əvvəl "bu Məcəllə ilə müəyyən olunmuş qaydada gəlirlərin və xərclərin uçotunu aparan" sözləri əlavə edilsin;

1.41.102.8-ci maddədə "yaranır" sözü "tətbiq edilir" sözləri ilə əvəz olunsun və həmin maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Fiziki şəxsin bu maddədə sadalanan vergi güzəştlərini əldə etməyə əsas verən statusu olduğu, lakin güzəşt hüququnu təsdiq edən müvafiq sənədləri əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə mindikdən sonra təqdim etdiyi halda vergi güzəşti həmin fiziki şəxsin əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə mindiyi tarixdən hesablanır.";

1.42. aşağıdakı məzmunda 104.7-ci maddə əlavə edilsin:

"104.7. Vəkil qurumunun tərkibində fəaliyyət göstərən vəkillər tərəfindən göstərilən, yaxud göstərilməsi nəzərdə tutulan vəkillik fəaliyyəti ilə bağlı vəkil quruмuna daxil olan ödənişlərin vəkillərə ödənilən, yaxud ödənilməsi nəzərdə tutulan hissəsi qurumun vergi tutulan gəlirlərinə aid edilmir.";

1.43. 106.1-ci maddə üzrə:

1.43.1. 106.1.4-cü maddəyə "gəlir" sözündən sonra ", o cümlədən publik hüquqi şəxslərin bu Məcəllənin 164.1.48-ci maddəsində göstərilmiş işlərin görülməsi və xidmətlərin göstərilməsindən (həmin maddədə nəzərdə tutulan müddətdə) başqa digər ödənişli işlər görməsindən və xidmətlər göstərməsindən əldə olunan gəlirləri və faiz gəlirləri" sözləri əlavə edilsin;

1.43.2.106.1.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"106.1.5. Azərbaycan Respublikası Mərkəzi Bankının və onun qurumlarının, ipoteka kreditləşməsi və sahibkarların aldıqları kreditlərə təminat verilməsi sahəsində fəaliyyət göstərən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun), Azərbaycan Respublikası Dövlət Neft Fondunun, Əmanətlərin Sığortalanması Fondunun gəlirləri, habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) nizamnaməsinə (əsasnaməsinə) uyğun olaraq ayrılmış güzəştli kreditlər üzrə müvəkkil kredit təşkilatları tərəfindən həmin orqanlara (qurumlara) ödənilən faiz gəlirləri;";

1.43.3. 106.1.18-ci maddənin birinci cümləsində "müddətinə." sözü " müddətinə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara köçürülən hissəsi üzrə isə - 2021-ci il 1 yanvar tarixdən 8 il müddətinə." sözləri ilə əvəz edilsin;

1.43.4. 106.1.20-ci maddəyə "mikro" sözündən əvvəl "bu Məcəllə ilə müəyyən olunmuş qaydada gəlirlərin və xərclərin uçotunu aparan" sözləri əlavə edilsin;

1.44.108-ci maddə üzrə:

1.44.1. birinci, ikinci və üçüncü hissələr müvafiq olaraq 108.1-ci, 108.2-ci və 108.3-cü maddələr hesab edilsin;

1.44.2. aşağıdakı məzmunda 108.4-cü və 108.5-ci maddələr əlavə edilsin:

"108.4. Azərbaycan Respublikasının ərazisində ezamiyyələr üzrə ezamiyyə xərcləri müvafiq təsdiqedici sənədlər əsasında (gündəlik xərclər istisna olmaqla) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyənləşdirdiyi norma daxilində gəlirdən çıxılan xərclərə aid edilir. Azərbaycan Respublikasının ərazisində ezamiyyə zamanı mehmanxana xərcləri barədə müvafiq təsdiqedici sənədlər təqdim edilmədiyi hallarda ezamiyyə xərclərinin 1 günlük normasının mehmanxana xərcləri üçün müəyyən edilmiş hissəsinin 50 faizi gəlirdən çıxılır.

108.5. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş təbii itki normaları daxilində zayolmadan əmələgələn itkilər, təbii itki normaları daxilində xarabolmalar və bu kimi əskikgəlmələr vergitutma məqsədləri üçün gəlirdən çıxılır.";

1.45. 109.9-cu maddəyə "14-cü" sözlərindən sonra ", 14-1-ci" sözləri əlavə edilsin;

1.46.115-ci maddə üzrə:

1.46.1. 115.1-ci maddəyə "114.3.2-ci" sözlərindən sonra ", 114.3.2-1-ci" sözləri əlavə edilsin;

1.46.2. 115.3-cü maddədə "115.4 - 115.8-ci" sözləri "115.4 - 115.6-1-ci" sözləri ilə əvəz edilsin;

1.46.3.115.6-cı maddədə "Təmir" sözü "İcarəyə götürülmüş əsas vəsaitlər icarəçinin balansında uçota alınmadıqda və ya təmir" sözləri ilə, "115-ci" sözləri "115.4-cü" sözləri ilə əvəz edilsin ;

1.46.4. aşağıdakı məzmunda 115.6-1-ci maddə əlavə edilsin:

"115.6-1. İcarəçinin balansında uçota alınmayan əsas vəsaitlərin təmirinə çəkilən və icarə haqqı ilə əvəzləşdirilməyən, yaxud icarəyə verən tərəfindən əvəzi ödənilməyən xərclər icarəçi tərəfindən kapitallaşdırılaraq təmir edilən əsas vəsaitin aid olduğu kateqoriya üzrə bu Məcəllənin 114.3-cü maddəsində müəyyən edilmiş amortizasiya dərəcəsi ilə amortizasiya olunur.";

1.47.125-ci maddə üzrə:

1.47.1. 125.1.4-cü maddədə "müəssisəsinin" sözü "müəssisənin" sözü ilə əvəz olunsun və həmin maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Azərbaycan Respublikasının hüdudlarından kənarda digər dövlətlərdəki təyinat (göndərilmə) məntəqələri arasında, habelə Azərbaycan Respublikasının ərazisindən tranzit qaydada həyata keçirilən daşımalara görə rezident müəssisənin və ya sahibkarın ödəmələri bu maddə üzrə vergitutuma obyekti deyildir.";

1.47.2. 125.1.8-ci maddənin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz olunsun və 125.1.9-cu maddə ləğv edilsin;

1.48. aşağıdakı məzmunda 125-1-ci maddə əlavə edilsin:

**"Maddə 125-1. Güzəştli vergi tutulan ölkələrdə və ya ərazilərdə təsis edilmiş (qeydiyyatdan keçmiş) şəxslərə və güzəştli vergi tutulan ölkələrə və ya ərazilərə aparılan ödənişlərin ödəmə mənbəyində vergiyə cəlb edilməsi**

Bu Məcəllənin digər müddəalarından asılı olmayaraq, bu Məcəllənin 13.2.16.14-1-ci maddəsində göstərilən ödəmələrdən ödəmə mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur.";

1.49. 128-ci maddə üzrə:

*Ardı 14-cü səh.*

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 13-cü səh.*

1.49.1. adında və mətnində ismin müvafiq hallarında "ölkə" sözündən sonra ismin müvafiq hallarında "və ya ərazi" sözləri əlavə edilsin;

1.49.2. 128.3-cü maddədə "Hər il üçün güzəştli" sözləri "Güzəştli" sözü ilə əvəz edilsin;

1.50. 130-cu maddə üzrə:

1.50.1.130.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"130.4. Mikro sahibkarlıq subyektləri öz seçimlərindən asılı olaraq, gəlirlərin və xərclərin uçotunu kassa metodu və ya hesablama metodu ilə, kiçik, orta və iri sahibkarlıq subyektləri isə hesablama metodu ilə aparırlar.";

1.50.2. aşağıdakı məzmunda 130.7-ci maddə əlavə edilsin:

"130.7. Banklar və kredit təşkilatları tərəfindən Vətən müharibəsi iştirakçılarının və Vətən müharibəsində şəhid olmuş şəxslərin, habelə Vətən müharibəsi nəticəsində şəhid ailəsi statusu almış şəxslərin 2021-ci il 1 yanvar tarixinədək alınmış kreditlər üzrə həmin tarixədək ödənilməyən borclarına görə hesablanmış faizlərin silinməsi bankların və digər kredit təşkilatlarının vergi tutulan gəlirlərinə aid edilmir. Bu maddə ilə müəyyən edilmiş silinən borcların əsas məbləği üzrə yaradılmış ehtiyatlar gəlirdən çıxılan xərclərə aid edilir.";

1.51. 144.1.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 144.1.4-cü maddə əlavə edilsin:

"144.1.4. hüquqi və fiziki şəxslər tərəfindən daşınmaz əmlak, habelə əmlak kompleksi şəklində müəssisələr dövlət orqanlarına (qurumlarına) əvəzsiz olaraq verildikdə.";

1.52. 150-ci maddə üzrə:

1.52.1. adına "tutulması" sözündən sonra "vaxtı və" sözləri əlavə edilsin;

1.52.2. 150.1.7-ci maddəyə "haqq ödəyən" sözlərindən sonra ", habelə muzdlu işçi kimi cəlb etmədiyi fiziki şəxslərə maddi yardım, mükafat, təqaüd verən" sözləri əlavə edilsin;

1.52.3. 150.1.9-cu maddədə "və 144.1.2-ci" sözləri ", 144.1.2-ci və 144.1.4-cü" sözləri ilə əvəz edilsin;

1.52.4. 150.1.13-cü maddəyə "yaşayış" sözündən əvvəl "fiziki şəxslər tərəfindən" sözləri əlavə edilsin;

1.52.5. 150.1.13.2-150.1.13.4-cü maddələr ləğv edilsin;

1.52.6. aşağıdakı məzmunda 150.1.15 - 150.1.17-ci maddələr əlavə edilsin:

"150.1.15. vergi orqanında uçotda olmayan fiziki şəxslər istisna olmaqla, bu Məcəllənin 13.2.16.14-1-ci maddəsində göstərilən ödənişləri həyata keçirən şəxslər;

150.1.16. vergi orqanında uçotda olmayan fiziki şəxslərin bu Məcəllənin 13.2.16.14-1-ci maddəsində göstərilən ödənişlərini həyata keçirən yerli bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru;

150.1.17. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq vəkil qurumlarının tərkibində fəaliyyət göstərən vəkillər tərəfindən göstərilən vəkillik fəaliyyəti ilə bağlı vəkillərə ödənişi həyata keçirən vəkil qurumu.";

1.52.7. 150.3.1-ci maddədə "və 150.1.8-ci" sözləri ", 150.1.8 və 150.1.17-ci" sözləri ilə əvəz edilsin;

1.52.8.150.3.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"150.3.3. bu Məcəllənin 150.1.1 - 150.1.8-ci və 150.1.17-ci maddələrinə uyğun olaraq ödəmə mənbəyində vergini tutan şəxslər ödəmə mənbəyində tutulan vergilər barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi formada bəyannaməni rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına verməyə borcludurlar.";

1.52.9. aşağıdakı məzmunda 150.3-6-cı, 150.5-ci və 150.6-cı maddələr əlavə edilsin;

"150.3-6. Bu Məcəllənin 150.1.15-ci və 150.1.16-cı maddələrində göstərilən şəxslər bu Məcəllənin 125-1-ci maddəsinə uyğun olaraq vergini hesablamağa, hesablanmış vergini ödəniş həyata keçirilənədək büdcəyə köçürməyə və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi forma üzrə bəyannaməni rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına verməyə borcludurlar.";

"150.5. Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi istisna olmaqla, digər gəlirlərdən ödəmə mənbəyində verginin tutulması öhdəliyinin yaranma vaxtı aşağıdakı qaydada müəyyən edilir:

150.5.1. vergi ödəyicisi pul vəsaitini nağd qaydada ödəyirsə, nağd pul vəsaitinin ödənildiyi, nağdsız ödəmə zamanı pul vəsaitinin köçürülməsinə dair ödəmə tapşırığının bank tərəfindən icraya qəbul edildiyi vaxt;

150.5.2. vergi ödəyicisinin kreditoru qarşısında maliyyə öhdəlikləri ləğv edildiyi və ya ödənildiyi halda (qarşılıqlı hesablaşmalar aparıldıqda və digər bu kimi hallarda), öhdəliyin ləğv edildiyi və ya ödənildiyi (əvəzləşdirildiyi) vaxt;

150.5.3. vergi orqanında uçotda olmayan fiziki şəxslərin bu Məcəllənin 13.2.16.14-1-ci maddəsində göstərilən ödəmələrindən pul vəsaitinin köçürülməsinə dair ödəmə tapşırığının bank tərəfindən icra edildiyi vaxt.

150.6. Bu Məcəllənin 150.3.3-cü və 150.3-1 - 150.3-6-cı maddələrində göstərilən vergi ödəyiciləri Azərbaycan Respublikasında fəaliyyətini dayandırdıqda, habelə hüquqi şəxs və ya qeyri-rezidentin daimi nümayəndəliyi ləğv edildikdə,yaxud vergi ödəyicisi olan fiziki şəxsin fəaliyyətinə xitam verildikdə bu Məcəllənin 150.3.3-cü və 150.3-1 - 150.3-6-cı maddələrində göstərilən müddətlərdən gec olmamaq şərtilə 30 gün müddətində ödəmə mənbəyində tutulan vergilər barədə vergi orqanına bəyannamə verməyə borcludurlar.";

1.53.151.5-ci maddə üzrə:

1.53.1.151.5-ci maddəyə (hər iki halda), 151.5.3-cü, 151.5.4-cü və 151.5.6-cı maddələrə "fəaliyyəti" sözündən sonra "və ya vergi tutulan mənfəəti (gəliri)" sözləri əlavə edilsin;

1.53.2.151.5.1-ci maddəyə "fəaliyyəti" sözündən sonra "və ya vergi tutulan mənfəəti (gəliri)" sözləri əlavə edilsin və həmin maddədən birinci halda "vergisi" sözü çıxarılsın;

1.53.3.151.5.8-ci maddəyə "fəaliyyəti" sözündən sonra "və ya vergi tutulan mənfəəti (gəliri)" sözləri əlavə edilsin və həmin maddədən "vergini" sözü çıxarılsın;

1.54.153-cü maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"153.1. Əlavə dəyər vergisi (bundan sonra - ƏDV) vergi tutulan dövriyyədən hesablanan verginin məbləği ilə bu Məcəllənin müddəalarına uyğun olaraq verilən elektron qaimə-fakturalara və ya idxalda ƏDV-nin ödənildiyini göstərən sənədlərə müvafiq surətdə əvəzləşdirilməli olan verginin məbləği arasındakı fərqdir.

153.2. Azərbaycan Respublikası ərazisində istehsal olunan kənd təsərrüfatı məhsullarının pərakəndə satışı zamanı ƏDV ticarət əlavəsindən hesablanan verginin məbləğidir.

153.3. 2022-ci il yanvarın 1-dən 3 il müddətində kənd təsərrüfatı məhsullarının (yerli və xarici mənşəli) topdan və pərakəndə satışı zamanı ƏDV ticarət əlavəsindən hesablanan verginin məbləği hesab edilir.";

1.55. 155.1-ci maddəyə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Bu Məcəllənin 154.6-cı maddəsində nəzərdə tutulan fəaliyyətlə məşğul olan şəxslər dövlət qeydiyyatına və ya vergi orqanında uçota alınmaq üçün ərizə ilə birlikdə, bu fəaliyyətlə sonradan məşğul olduqları halda isə həmin fəaliyyəti həyata keçirməyə başladığı günədək ƏDV məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludurlar.";

1.56. 157.3.1-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

"- bu Məcəllənin 154.6-cı maddəsində nəzərdə tutulan fəaliyyətlə məşğul olan şəxslərin dövlət qeydiyyatına və ya vergi orqanında uçota alındığı gündə, bu fəaliyyətlə sonradan məşğul olduqları halda isə həmin fəaliyyəti həyata keçirməyə başladığı gündə.";

1.57.159-cu maddə üzrə:

1.57.1. 159.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"2022-ci il yanvarın 1-dən 3 il müddətində kənd təsərrüfatı məhsullarının (yerli və xarici mənşəli) topdan və pərakəndə satışı zamanı tətbiq edilən ticarət əlavəsi vergitutma obyektidir.";

1.57.2. 159.5-ci maddəyə "fövqəladə hallardan" sözlərindən sonra ", qanunvericiliklə müəyyən edilmiş təbii itki normaları daxilində zayolmadan əmələ gələn itkilərdən, təbii itki normaları daxilində xarabolmalar və bu kimi əskikgəlmələrdən" sözləri əlavə edilsin;

1.58. aşağıdakı məzmunda 160.4-cü maddə əlavə edilsin:

"160.4. Hüquqi və fiziki şəxslər tərəfindən daşınmaz əmlakların, habelə əmlak kompleksi şəklində müəssisələrin dövlət orqanlarına (qurumlarına) əvəzsiz olaraq verilməsi vergi tutulan əməliyyat sayılmır.";

1.59. 164.1-ci maddə üzrə:

1.59.1. 164.1.7-ci və 164.1.8-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"164.1.7. siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən kütləvi informasiya vasitələri məhsullarının və kitabların (elektron kitablar istisna olmaqla), habelə dərslik komplektlərinin idxalı və satışı, həmin malların (məhsulların) istehsalı (nəşri) ilə bağlı rulon və ya vərəqə şəklində kağızın idxalı və satışı;

164.1.8. mətbu kütləvi informasiya vasitələri məhsullarının və kitabların (o cümlədən elektron kitabların), habelə dərslik komplektlərinin istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti (reklam xidmətləri istisna olmaqla);";

1.59.2.164.1.19-cu maddəyə "ehtiyat hissələri" sözlərindən sonra "və xüsusi proqram təminatları" sözləri əlavə edilsin;

1.59.3. 164.1.34-cü maddədə "bilavasitə kənd təsərrüfatı təyinatlı suvarma və digər qurğuların, maşınların, avadanlıqların və texnikaların, habelə siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq olunmuş" sözləri "siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq olunmuş bilavasitə kənd təsərrüfatı təyinatlı suvarma və digər qurğuların, maşınların, avadanlıqların və texnikaların, habelə" sözləri ilə əvəz edilsin;

1.59.4. aşağıdakı məzmunda 164.1.34-1-ci və 164.1.34-2-ci maddələr əlavə edilsin:

"164.1.34-1. kənd təsərrüfatı texnikalarının mülkiyyət hüququnun keçməməsişərtilə kənd təsərrüfatı istehsalçılarına lizinqə (icarəyə) verilməsi;

164.1.34-2. kənd təsərrüfatı məhsullarının istehsalçılarına aqrotexniki xidmətlərin göstərilməsi;";

1.59.5. 164.1.41-ci maddəyə "idxalı" sözündən sonra "və satışı" sözləri əlavə edilsin;

1.59.6. aşağıdakı məzmunda 164.1.41-1-ci və 164.1.41-2-ci maddələr əlavə edilsin:

"164.1.41-1. istehsal tarixi 3 ildən və mühərrikinin həcmi 2500 kubsantimetrdən çox olmayan hibrid avtomobillərin idxalı və satışı - 2022-ci il yanvarın 1-dən 3 il müddətinə;

164.1.41-2. elektrik mühərriki ilə işləyən avtomobillər üçün ikinci və üçüncü səviyyə elektrik enerji doldurucularının idxalı və satışı - 2022-ci il yanvarın 1-dən 3 il müddətinə;";

1.59.7. 164.1.46-cı maddəyə "edilən" sözündən sonra "siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən" sözləri əlavə edilsin;

1.59.8. 164.1.48-ci maddədə "2" rəqəmi "4" rəqəmi ilə əvəz edilsin;

1.60. 165-ci maddə üzrə:

1.61.1. 165.1.4-cü maddəyə "göstərilməsi" sözündən sonra ", habelə beynəlxalq və tranzit yük daşınması ilə bağlı ekspeditor xidmətlərinin göstərilməsi" sözləri əlavə edilsin;

1.60.2. 165.4-cü maddə ləğv edilsin;

1.60.3. 165.5-ci maddəyə "məhsulları" sözündən sonra ", avtomobillər, alkoqollu içkilər və tütün məmulatları" sözləri, "görə" sözündən əvvəl ", habelə tibb müəssisələri tərəfindən göstərilən tibbi xidmətlərə" sözləri əlavə edilsin;

1.60.4. 165.6-cı maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Fiziki şəxs olan istehlakçılar eyni binadan bir və ya bir neçə yaşayış və (və ya) qeyri-yaşayış sahələrini aldıqda, ƏDV-nin qaytarılması alınmış yaşayış sahəsinin 500 kvadratmetr və qeyri-yaşayış sahəsinin 500 kvadratmetrdən çox olmayan hissəsinə mütənasib ödənilmiş ƏDV-yə tətbiq edilir.";

1.61. 168.1.5-ci maddə üzrə:

1.61.1. ikinci hissəyə "güzəşt edilməsi" sözlərindən sonra ", o cümlədən istifadəyə verilməsi" sözləri əlavə edilsin;

1.61.2. dördüncü hissədə "verilməsi" sözü "təchiz edilməsi" sözləri ilə əvəz edilsin və həmin hissəyə "göstərilməsi" sözündən sonra "(işçilər bu xidmətlərin alıcısının fəaliyyət göstərdiyi yerdə işlədikləri halda)" sözləri əlavə edilsin;

1.62. aşağıdakı məzmunda 174.4-cü maddə əlavə edilsin:

"174.4. 2022-ci ilin yanvarın 1-dən əldə edilmiş kənd təsərrüfatı məhsullarının (yerli və xarici mənşəli) alışı elektron qaimə-faktura, idxal gömrük bəyannaməsi və bu bəyannamə ilə bağlı hesab-faktura (invoys), habelə elektron alış aktı ilə, topdan və pərakəndə satışı müvafiq olaraq elektron qaimə-faktura və nəzarət kassa-aparatının çeki ilə rəsmiləşdirildiyi halda bu maddədə göstərilən tarixdən 3 il müddətində ƏDV ticarət əlavəsindən hesablanır. Kənd təsərrüfatı məhsullarının alışı elektron qaimə-faktura, idxal gömrük bəyannaməsi və bu bəyannamə ilə bağlı hesab-faktura (invoys), habelə elektron alış aktı ilə, topdan və pərakəndə satışı müvafiq olaraq elektron qaimə-faktura və nəzarət kassa-aparatının çeki ilə rəsmiləşdirilmədikdə ƏDV ümumi dövriyyədən hesablanır.";

1.63. 175-ci maddə üzrə:

1.63.1. 175.1-ci maddəyə "əməliyyatın dəyəri" sözlərindən sonra "alıcının bank hesabından həmin malları (işləri, xidmətləri) təqdim edən şəxsin" sözləri əlavə edilsin;

1.63.2.175.10-cu maddəyəaşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Müvəqqəti idxal şəklində Azərbaycan Respublikasının ərazisinə buraxılan və müvəqqəti idxal xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallar sonradan sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirildiyi halda idxal əməliyyatı üzrə ödənilmiş ƏDV məbləğləri malların sərbəst dövriyyəyə buraxıldığı hesabat ayında əvəzləşdirilir.";

1.63.3. aşağıdakı məzmunda 175.12-ci maddə əlavə edilsin:

"175.12. Kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satışı ilə məşğul olan vergi ödəyiciləri tərəfindən 2022-ci il yanvarın 1-dən əldə edilmiş kənd təsərrüfatı məhsullarına görə 3 il müddətində ödənilmiş ƏDV məbləğləri əvəzləşdirilmir.";

1.64. 179.2-ci maddədən "elektron formada" sözləri çıxarılsın;

1.65. aşağıdakı məzmunda 186-1-ci maddə əlavə edilsin:

**"Maddə 186-1. Aksiz hesablanan dövriyyənin dəqiqləşdirilməsi**

186-1.1. Aksizli malların istehsalçısı tərəfindən malların istehsal binasının hüdudlarından kənara buraxılmasına görə vergi hesablanmışdırsa, həmin malların xarab olması, yaxud istifadə müddətinin bitməsi və ya digər səbəblərdən geri qaytarılması zamanı hesablanmış aksiz malların qaytarıldığı hesabat dövründə azaldılır.

186-1.2. Aksizli malların istehsalçısı tərəfindən malların istehsal binasının hüdudlarından kənara özünə məxsus obyektlərə buraxılmasından sonra həmin malların xarab olması, yaxud istifadə müddətinin bitməsi səbəbindən geri qaytarılması zamanı vergi ödəyicisi həmin malların aktlaşdırılması və hesablanmış verginin azaldılması üçün vergi orqanına müraciət edir. Müraciət edilmə tarixindən 5 iş günü müddətində vergi orqanının məsul şəxslərinin iştirakı ilə həmin mallar aktlaşdırılır.

186-1.3. Xarab olmuş, yaxud istifadə müddəti bitmiş məhsullara görə aksizin azaldılması müvafiq aktın tərtib edildiyi hesabat dövründə həyata keçirilir və vergi hesabatı təqdim edilərkən tərtib edilən akt vergi orqanına təqdim edilir. Xarab olmuş, yaxud istifadə müddəti bitmiş məhsullar məhv edildikdə, həmin məhsulların istehsalı zamanı əvəzləşdirilmişaksizin büdcəyə hesablanması həyata keçirilir.";

1.66.190-cı maddə üzrə:

1.66.1. 190.1-ci maddənin birinci hissəsinin 12-ci abzasına "qəlyan üçün tütünlər" sözlərindən sonra "və tütün əvəzləyiciləri" sözləri əlavə olunsun, həmin maddənin 13-cü abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 14-cü abzas əlavə edilsin:

"- birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzediciləri";

1.66.2. 190.3-cü maddəyə "qəlyan üçün tütünlərə" sözlərindən sonra "və tütün əvəzləyiciləri" sözləri, "tütün məhsullarına" sözlərindən sonra ", birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzedicilərinə" sözləri əlavə edilsin;

1.66.3. 190.3.1-190.3.3-cü maddələrdə "3,2" rəqəmləri "4,0" rəqəmləri ilə əvəz edilsin;

1.66.4. 190.3.8-ci maddədə "35,0" rəqəmləri "38,5" rəqəmləri ilə əvəz edilsin;

1.66.5. 190.3.14-cü maddə aşağıdakı redaksiyada verilsin:

"190.3.14. qəlyan üçün tütünlər və tütün əvəzləyiciləri, istehsal məqsədli tütünlər istisna olmaqla digər çəkməli tütünlər, "homogenləşdirilmiş" və ya "bərpa edilmiş" tütünlər, çeynənilən və ya buruna çəkilən tütünlər - hər kiloqramına 30,0 manat;";

1.66.6. 190.3.15-ci maddədə "12,9" rəqəmləri "14,0" rəqəmləri ilə əvəz edilsin və həmin maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 190.3.16-cı maddə əlavə edilsin:

"190.3.16. birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzediciləri -hər bir ədədinə 0,25 manat.";

1.66.7. 190.4.1-ci maddəyə "minik avtomobillərinə" sözlərindən sonra "(bu Məcəllənin 190.4.1-3-cü maddəsinin müddəaları nəzərə alınmaqla)" sözləri əlavə edilsin;

1.66.8. 190.4.1-2-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 190.4.1-3-cü və 190.4.1-4-cü maddələr əlavə edilsin:

"190.4.1-3. mühərrikin həcmi 3000 kubsantimetrdən çox və istehsal tarixi 3 ildən artıq olan minik avtomobillərinə görə:

| Vergitutma obyektinin adı | Aksizin dərəcəsi |
|---|---|
| - mühərrikin həcmi 4000 kubsantimetrədək olduqda | 5600 manat + mühərrikin həcminin 3001-4000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə - 15 manat |
| - mühərrikin həcmi 5000 kubsantimetrədək olduqda | 20600 manat + mühərrikin həcminin 4001-5000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə - 40 manat |
| - mühərrikin həcmi 5000 kubsantimetrdən çox olduqda | 60600 manat + mühərrikin həcminin 5000 kubsantimetrdən çox hissəsi üçün hər kubsantimetrə görə - 80 manat |

190.4.1-4. Azərbaycan Respublikasına idxal olunan minik avtomobillərinin istehsal tarixi 7 ildən artıq olduqda, aksiz bu Məcəllənin 190.4.1-ci və 190.4.1-3-cü maddələrinə əsasən hesablanmış məbləğə benzin mühərrikli minik avtomobillərinə 1,2, dizel mühərrikli minik avtomobillərinə isə 1,5 yüksəldici əmsal tətbiq edilməklə hesablanır;";

1.67. 194.2-ci maddəyə "markalanmadan," sözündən sonra "elektron qaimə-faktura təqdim edilmədən" sözləri əlavə edilsin;

1.68. 195-ci maddə ləğv edilsin;

1.69. 197-ci maddə üzrə:

1.69.1.197.1.3-cü maddəyə "müəssisələrin" sözündən sonra ", habelə fərdi sahibkarların" sözləri əlavə edilsin və həmin maddədə "vəsaitlərin orta illik dəyəri" sözləri "vəsaitlər (bu Məcəllənin 197.1.1-ci maddəsində göstərilən aktivlər istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

1.69.2. 197.1.4-cü maddədə "qeyri-rezident müəssisələr" sözləri "şəxslər" sözü ilə, "vəsaitlərin orta illik dəyəri" sözləri "vəsaitlər (bu Məcəllənin 197.1.1-ci maddəsində göstərilən aktivlər istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

1.69.3. 197.2-ci maddədə "və müəssisələr" sözləri ", müəssisələr və fərdi sahibkarlar" sözləri ilə əvəz olunsun və həmin maddəyə hər iki halda "əsas vəsaitlərin dəyəri" sözlərindən sonra "(bu Məcəllənin 197.1.1-ci maddəsində göstərilən aktivlər istisna olmaqla)" sözləri əlavə edilsin;

1.70. 198-ci maddə üzrə:

1.70.1. 198.1-ci maddəyə "Fiziki şəxslər" sözlərindən sonra "binalara, su və hava nəqliyyatı vasitələrinə görə" sözləri əlavə edilsin;

1.70.2. 198.2-ci maddəyə "Müəssisələr" sözündən sonra "və fərdi sahibkarlar" sözləri əlavə edilsin;

1.71. 199-cu maddə üzrə:

1.71.1. 199.4-cü maddənin birinci hissəsinə "müəssisənin" sözündən sonra "və fərdi sahibkarın" sözləri əlavə edilsin;

1.71.2. 199.4.1-ci maddədə "obyektlərin" sözü "əsas vəsaitlər" sözləri ilə əvəz edilsin;

1.71.3. 199.4.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"199.4.2. məhsul ötürən kəmərlər, dəmir və avtomobil yolları, rabitə və enerji ötürücü xətləri, meliorasiya və suvarma sistemi obyektləri, peyklər və digər kosmik obyektlər;";

1.71.4. 199.4.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"199.4.3. fiziki şəxslərə məxsus sahibkarlıq fəaliyyətində istifadə olunmayan minik avtomobilləri;";

1.71.5. 199.4.4-cü maddədə "müəssisələrinin" sözü "sahəsində fəaliyyət göstərən vergi ödəyicilərinin" sözləri ilə, "obyektlərinin" sözü "əsas vəsaitlər" sözləri ilə əvəz edilsin;

1.71.6. 199.10-cu maddə ləğv edilsin;

1.72. 200-cü maddənin adında və 200.6-cı maddədə "Fiziki şəxslərdən" sözləri "Binalara, su və hava nəqliyyatı vasitələrinə görə fiziki şəxslərin" sözləri ilə əvəz edilsin;

1.73.201-ci maddə üzrə:

1.73.1. adına və 201.2-ci maddəyə "Müəssisənin" sözündən sonra "və fərdi sahibkarın" sözləri əlavə edilsin;

1.73.2. 201.1-ci maddəyə "müəssisənin" sözündən sonra "və fərdi sahibkarın" sözləri əlavə olunsun və həmin maddədə "əmlakının" sözü "əsas vəsaitlərinin" sözləri ilə əvəz edilsin;

1.73.3.201.1.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"201.1.1. Müəssisənin və fərdi sahibkarın əsas vəsaitləri qalıq dəyərindən artıq qiymətə sığortalandığı halda əmlak vergisi bu Məcəllənin 14-cü maddəsinə əsasən müəyyən edilmiş dəyərə əmlak vergisinin dərəcəsi tətbiq edilməklə hesablanır. Sığortalanan əsas vəsaitlərin dəyəri bazar qiyməti nəzərə alınmaqla müəyyən edildiyi halda bu Məcəllənin 202-ci maddəsinin müddəaları tətbiq edilmir.";

1.73.4. 201.3-cü maddənin birinci hissəsində "Əmlak vergisi ödəyiciləri" sözləri "Müəssisələr və fərdi sahibkarlar" sözləri ilə, ikinci hissəsində "əmlakın" sözü "və fərdi sahibkarlar əsas vəsaitlərin" sözləri ilə əvəz edilsin;

1.73.5. 201.5-ci maddəyə "Müəssisə" sözündən sonra "və fərdi sahibkar" sözləri və aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin;

"Fərdi sahibkar fəaliyyətinin ləğvi hallarında vergi uçotundan çıxarılma barədə ərizənin verildiyi tarixdən 30 gün müddətində əmlak vergisi bəyannaməsini vergi orqanına təqdim etməyə borcludur.";

1.73.6. 201.7-ci maddəyə "Müəssisələrin" sözündən sonra "və fərdi sahibkarların" sözləri əlavə edilsin;

1.74.202-ci maddə üzrə:

1.74.1. adına "Müəssisənin" sözündən sonra "və fərdi sahibkarın" sözləri əlavə edilsin;

1.74.2.202.0-cı maddənin birinci hissəsinin birinci cümləsində "əmlakının" sözü "və fərdi sahibkarın əsas vəsaitlərinin" sözləri ilə, ikinci cümləsində "əmlakının (avtonəqliyyat vasitələri istisna olmaqla)" sözləri "və fərdi sahibkarın əsas vəsaitlərinin" sözləri ilə əvəz edilsin;

1.74.3.202.0.1-ci maddənin birinci cümləsində "əmlakının (avtonəqliyyat vasitələri istisna olmaqla)" sözləri "və fərdi sahibkarın əsas vəsaitlərinin" sözləri ilə əvəz edilsin və həmin cümlədən "(əvvəlki vergi ilinin sonuna müəyyən edilən qalıq dəyərindən həmin il üçün hesablanmış amortizasiya məbləği çıxıldıqdan sonra qalan dəyər)" sözləri çıxarılsın;

1.74.4.202.0.1-ci maddənin ikinci cümləsində "əmlakının" sözü "və fərdi sahibkarın əsas vəsaitlərinin" sözləri ilə əvəz edilsin;

1.74.5. 202.0.2-ci və 202.0.3-cü maddələr aşağıdakı redaksiyada verilsin:

"202.0.2. müəssisə və ya fərdi sahibkar hesabat ili ərzində yaradıldıqda (uçota alındıqda) və ya əmlak vergisi ödəyicisi olduqda, onun əsas vəsaitlərinin yaradıldığı (uçota alındığı) və ya əmlak vergisi ödəyicisi olduğu tarixə və ilin sonuna qalıq dəyəri toplanaraq 24-ə bölünür və müəssisənin və ya fərdi sahibkarın yaradıldığı (uçota alındığı) və ya əmlak vergisi ödəyicisi olduğu aydan sonra, ilin sonuna qədər olan ayların sayına vurulur.

202.0.3. müəssisə və ya fərdi sahibkar hesabat ili ərzində ləğv edildikdə və ya uçotdan çıxarıldıqda, onun əsas vəsaitlərinin ilin əvvəlinə və ləğv edildiyi və ya uçotdan çıxarıldığı tarixə qalıq dəyəri toplanaraq 24-ə bölünür və ilin əvvəlindən müəssisənin ləğv edildiyi və ya fərdi sahibkarın uçotdan çıxarıldığı aya qədər olan ayların sayına vurulur.";

1.74.6. 202.0-cı maddə 202.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 202.2-ci maddə əlavə edilsin:

"202.2. Bu maddədə fərdi sahibkarın əsas vəsaitlərinin orta illik qalıq dəyəri müəyyən edilərkən bu Məcəllənin 197.1.1-ci maddəsində göstərilən əsas vəsaitlər nəzərə alınmır.";

1.75. 203.1-ci maddədə "istifadəçilərinin" sözü "torpaqdan icarə və ya digər əsaslarla istifadə edən şəxslərin" sözləri ilə əvəz edilsin;

1.76. 204-cü maddəyə "istifadəsində" sözündən əvvəl "icarə və ya digər əsaslarla" sözləri və "fiziki şəxslər" sözlərindən əvvəl ", o cümlədən dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələrini icarə və digər əsaslarla istifadə edən" sözləri əlavə edilsin;

1.77. 205-ci maddəyə "istifadəsində" sözündən əvvəl "icarə və ya digər əsaslarla" sözləri əlavə edilsin;

1.78. aşağıdakı məzmunda 207.8-ci maddə əlavə edilsin:

"207.8. Geoloji ayırma sənədi əsasında faydalı qazıntı yataqlarının (neft və qaz yataqları istisna olmaqla) axtarışı, qiymətləndirilməsi və kəşfiyyatı işlərinə cəlb edilən torpaq sahələrinə görə torpaq vergisi müvafiq təsdiqedici sənədlər (geoloji-kəşfiyyat işlərini həyata keçirən şəxsin podrat müqaviləsi, geoloji-kəşfiyyat planı, geoloji-kəşfiyyatla bağlı təqdim edilən hesabat) əsasında faydalı qazıntı yataqlarının axtarışı, qiymətləndirilməsi və kəşfiyyatı işlərinə başlanıldığı təqvim ili üzrə 75 faiz azaldılır. Bu maddənin müddəaları eyni vergi ilində geoloji ayırma sənədi əsasında faydalı qazıntı yataqlarının (neft və qaz yataqları istisna olmaqla) axtarışı, qiymətləndirilməsi və kəşfiyyatı işlərinə cəlb edilən və istismar edilərək faydalı qazıntılar çıxarılan torpaq sahələrinə münasibətdə tətbiq edilmir.";

1.79. 216.2-ci maddənin cədvəl hissəsində on üç - on yeddinci sətirlər müvafiq olaraq on dörd - on səkkizinci sətirlər hesab olunsun və aşağıdakı məzmunda on üçüncü sətir əlavə edilsin:

"- gips, gəc - 1,0";

1.80.217-ci maddə üzrə:

1.80.1.217.3-cü maddədən ", yerli büdcələrə daxil olan mədən vergisi üzrə isə bələdiyyələrə" sözləri çıxarılsın;

1.80.2. 217.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"217.5. Mədən vergisi dövlət büdcəsinə ödənilir.";

1.81. aşağıdakı məzmunda 217-1-ci maddə əlavə edilsin:

**"Maddə 217-1. Vergi güzəştləri**

Neft və qaz istisna olmaqla, digər faydalı qazıntılara görə vergi ödəyicisi tərəfindən təqvim ili üzrə hesablanmış mədən vergisinin məbləği həmin faydalı qazıntıların çıxarıldığı torpaq sahələrinə görə onun tərəfindən həmin təqvim ili üzrə hesablanmış və ödənilmiş torpaq vergisinin məbləğindən çox olmamaqla təqvim ilinin sonuncu hesabat ayında azaldılır.

1.82.218.5.8-ci maddədə "işçi" sözü "rüb ərzində işçilərinin (faktiki işə cəlb edilən) orta" sözləri ilə əvəz edilsin;

1.83.218-1.1.5-ci maddə üzrə:

1.83.1.218-1.1.5.1-ci maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Fiziki şəxs sökülmüş binada yerləşən yaşayış sahəsində azı 3 təqvim ili ərzində (sökülmüş və sökülmüş binanın yerində tikilən yeni binada yaşayış yeri üzrə qeydiyyatda olduğu müddətlər cəmlənməklə) yaşayış yeri üzrə qeydiyyatda olduğu halda, sökülmüş binanın yerində tikilən yeni binadan həmin fiziki şəxsə verilən yaşayış sahəsinin təqdim edilməsinə də bu maddənin müddəaları tətbiq edilir. Bu zaman sadələşdirilmiş vergidən azadolma yerli icra hakimiyyəti orqanı tərəfindən verilmiş və özündə yaşayış sahələrinin sökülməsini və sökülmüş yaşayış sahəsinin müqabilində yeni yaşayış sahəsinin verilməsini təsdiq edən arayış əsasında fiziki şəxsin sökülmüş yaşayış sahəsinin sahəsi həddində (artıq sahə verildiyi halda isə sökülmüş yaşayış sahəsinin 20 faizi həddində artıq sahə üzrə) tətbiq edilir.";

1.83.2. 218-1.1.5.2-ci maddədə "və 144.1.2-ci" sözləri ", 144.1.2-ci və 144.1.4-cü" sözləri ilə əvəz edilsin;

1.83.3. aşağıdakı məzmunda 218-1.1.5.1-1-ci maddə əlavə edilsin:

"218-1.1.5.1-1. fiziki şəxsin mülkiyyətində (o cümlədən ər və arvadın ümumi birgə mülkiyyətində) yalnız bir yaşayış sahəsi olduğu halda şəxsin həmin yaşayış sahəsi üzrə qeydiyyatının olub-olmamasından asılı olmayaraq, azı 3 təqvim ili ərzində həmin yaşayış sahəsində yaşamasını təsdiq edən sənədlər (kommunal xidmətləri göstərən təşkilatlar tərəfindən şəxsin həmin ünvanda abonent kimi qeydiyyatda olmasını təsdiq edən arayışlar) olduğu halda həmin yaşayış sahələrinin təqdim edilməsi.";

1.84.220-ci maddə üzrə:

1.84.1. 220.1-1-ci maddədən "(qiymətləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən tənzimlənən malların satış dövriyyəsi istisna edilməklə)" sözləri çıxarılsın;

1.84.2. 220.8.4-cü maddədə "0,5" rəqəmləri "0,3" rəqəmləri ilə əvəz edilsin;

1.85.221-ci maddə üzrə:

1.85.1. 221.4.7-ci maddənin ikinci hissənin birinci cümləsində, üçüncü hissənin birinci və ikinci cümlələrində və dördüncü hissədə (hər iki halda) "və məcburi dövlət sosial sığorta" sözləri ", məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta" sözləri ilə əvəz edilsin;

1.85.2. 221.4.8.7-ci maddəyə "verginin" sözündən sonra ", məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqlarının" sözləri əlavə edilsin;

1.85.3. 221.8.6-cı maddədə (bütün hallarda) "və məcburi dövlət sosial sığorta" sözləri ", məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta" sözləri ilə əvəz edilsin və üçüncü cümləsindən "dövlət büdcəsinə" sözləri çıxarılsın;

1.85.4. 221.8.6.5-ci maddəyə "verginin" sözündən sonra ",məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqlarının" sözləri əlavə edilsin;

1.85.5. 221.8.7-ci maddədə (bütün hallarda) "və məcburi dövlət sosial sığorta" sözləri ", məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta" sözləri ilə əvəz edilsin.

**Maddə 2. Keçid müddəaları**

2.1. Bu Qanunun 1.29.9-cu maddəsi (aksizli malların (neft məhsulları istisna olmaqla) təsərrüfatdaxili yerdəyişməsi barədə elektron qaimə-fakturaya münasibətdə) 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

2.2. Bu Qanunun 1.30-cu maddəsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq ediləcək elektron əmtəə-nəqliyyat qaiməsinin və yük avtonəqliyyatı üçün elektron yol vərəqinin forması, tətbiqi, uçotu və istifadəsi qaydası ilə eyni gündə qüvvəyə minir.

2.3. Bu Qanunun 1.50.1-ci maddəsi orta və iri sahibkarlıq subyektlərinə münasibətdə 2022-ci il yanvarın 1-dən, kiçik sahibkarlıq subyektlərinə münasibətdə isə 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.

Orta və iri sahibkarlıq subyektləri 2022-ci il yanvarın 1-dək, kiçik sahibkarlıq subyektləri isə 2023-cü il yanvarın 1-dək yaranan debitor və kreditor borcları barədə forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən məlumatı müvafiq olaraq 2022-ci il martın 31-dək və 2023-cü il martın 31-dək vergi orqanına təqdim edirlər.

2.4. Bu Qanunun 1.60.3-cü maddəsi (alkoqollu içkilər və tütün məmulatlarına münasibətdə) 2022-ci il oktyabrın 1-dən tətbiq edilir.

2.5. ƏDV-nin məqsədləri üçün qeydiyyatda olan, kənd təsərrüfatı məhsullarının (yerli və xarici mənşəli) topdan və pərakəndə satışını həyata keçirən şəxslər tərəfindən 2022-ci il yanvarın 1-dək ƏDV ödənilməklə əldə edilmiş və müvafiq əvəzləşdirmə alınmış sahibliklərində qalan kənd təsərrüfatı məhsullarının sonradan satışı zamanı ƏDV həmin malların tam satış dəyərindən hesablanır. Digər hallarda isə kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satışı zamanı 2022-ci il yanvarın 1-dən etibarən ƏDV ticarət əlavəsindən hesablanır. Kənd təsərrüfatı məhsullarını ƏDV ödəməklə əldə etmiş və müvafiq əvəzləşmə almış şəxslər sahibliklərində qalan həmin kənd təsərrüfatı məhsulları barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş formada məlumatı 2022-ci il yanvarın 31-dək qeydiyyatda olduqları vergi orqanına təqdim etməlidirlər.

2.6. Vergi ödəyiciləri vergi orqanı tərəfindən verilən kod-paroldan istifadə etməklə elektron kabinetə daxil olmaq imkanı 2024-cü il yanvarın 1-dək qüvvədədir.

2.7. Bu Qanunun 2.1-2.6-cı maddələri nəzərə alınmaqla, bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2021-ci il*

# “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 19; 2001, № 12, maddə 736; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 8, maddə 599, № 10, maddə 787; 2005, № 8, maddə 686; 2006, № 12, maddə 1005; 2007, № 4, maddə 322; 2009, № 7, maddə 517, № 11, maddə 878; 2010, № 5, maddə 375; 2011, № 2, maddə 71, № 6, maddə 478; 2013, № 11, maddə 1272; 2017, № 11, maddə 1977; 2018, № 2, maddə 148, № 11, maddə 2194, № 12 (I kitab), maddə 2487; 2019, № 4, maddə 580, № 12, maddə 1884; 2020, № 7, maddə 856) 5-ci maddəsinin 5-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. birinci cümlədən “vəkil (vəkillər) tərəfindən” sözləri çıxarılsın;

1.2. aşağıdakı məzmunda 2-ci abzas əlavə edilsin:

“Vəkil qurumu vergi ödəyicisi kimi vergi orqanlarında uçota alınmayan vəkil (vəkillər) tərəfindən yaradılmış, bu qurumda fəaliyyət göstərən vəkillə hüquqi yardım göstərilən şəxs arasında müqavilə münasibətlərini əlaqələndirən hüquqi şəxsdir.”.

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2021-ci il*

# “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 3, maddə 144, № 7, maddə 602; 2009, № 7, maddə 517; 2011, № 1, maddə 11; 2013, № 12, maddə 1470; 2014, № 7, maddələr 771, 779; 2015, № 11, maddə 1263; 2016, № 3, maddə 410, № 6, maddə 976; 2017, № 7, maddələr 1286, 1294, № 12 (I kitab), maddə 2221; 2018, № 7 (I kitab), maddə 1392; 2019, № 1, maddələr 19, 33, 50, № 5, maddələr 793, 815, № 6, maddə 999, № 8, maddə 1362; 2020, № 7, maddələr 822, 830; 2021, № 6 (I kitab), maddə 558) aşağıdakı dəyişikliklər edilsin:

1.1. preambulanın ikinci hissəsi ləğv edilsin;

1.2. 2.3-cü maddəyə “nəzərdə tutulduğu hallar” sözlərindən sonra “və bu Qanunun 2.6-cı maddəsi” sözləri əlavə edilsin;

1.3. aşağıdakı məzmunda 2.6-cı maddə əlavə edilsin:

“2.6. Bu Qanun sosial sığorta və dövlət icbari şəxsi sığorta münasibətlərinə şamil edilmir.”.

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2021-ci il*

# “Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 4 (I kitab), maddə 155; 2008, № 6, maddə 462; 2014, № 8, maddə 955; 2016, № 11, maddə 1778; 2017, № 7, maddə 1265; 2018, № 11, maddələr 2197, 2224; 2020, № 11, maddə 1333) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5.1-ci maddədən “yerli əhəmiyyətli tikinti materialları,” sözləri çıxarılsın;

1.2. 8-ci maddə üzrə:

1.2.1. 8.0.2-ci maddədə “fiziki şəxslərdən” sözləri “Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 198.1-ci maddəsində nəzərdə tutulan halda fiziki şəxslərin” sözləri ilə əvəz edilsin;

1.2.2. 8.0.3-cü maddə ləğv edilsin.

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2021-ci il*

# “İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “İcra haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 114; 2003, № 6, maddə 277; 2004, № 8, maddə 598, № 11, maddə 901, № 12, maddə 973; 2007, № 1, maddə 3, № 6, maddə 562, № 11, maddə 1053; 2008, № 6, maddə 462, № 7, maddə 602; 2009, № 12, maddə 952; 2010, № 2, maddə 75, № 7, maddə 591; 2011, № 6, maddə 482, № 7, maddə 618; 2012, № 11, maddə 1052; 2013, № 6, maddə 613, № 7, maddə 787, № 12, maddə 1494; 2015, № 12, maddə 1434; 2016, № 12, maddə 2050; 2017, № 2, maddə 156, № 6, maddə 1056, № 8, maddə 1511; 2018, № 2, maddə 151, № 5, maddələr 853, 867, № 7 (I kitab), maddə 1424, № 8, maddə 1674, № 12 (I kitab), maddə 2528; 2019, № 1, maddə 21, № 2, maddə 203, № 6, maddə 999; 2020, № 7, maddələr 828, 856; 2021, № 4, maddə 312, № 8, maddə 898) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 53.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

“53.2. Vergi ödəyicisinin vergi borcuna görə siyahıya alınmış əmlakı istisna olmaqla, borclunun əmlakı qanunla nəzərdə tutulmuş qaydada əmtəə birjaları nəzdində yaradılan və bu cür əməliyyatlar aparmaq hüququna malik olan ixtisaslaşdırılmış müəssisələr tərəfindən hərrac yolu ilə satılır.

Vergi ödəyicisinin vergi borcuna görə siyahıya alınmış əmlakının hərrac yolu ilə satılması vergi orqanının sifarişi əsasında Azərbaycan Respublikasının Vergi Məcəlləsində nəzərdə tutulmuş qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) vasitəsilə həyata keçirilir.

Dəyəri 5000 manatdan artıq olmayan daşınar əmlak icra xidmətinin (vergi borcuna görə siyahıya alınmış daşınar əmlaka münasibətdə vergi orqanının) müəyyən etdiyi ticarət şəbəkələrində müvafiq müqavilə əsasında satıla bilər. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 90-cı maddəsinə əsasən vergi ödəyicisinin siyahıya alınmış əmlakının vergi orqanının müəyyən etdiyi ticarət şəbəkələrində (o cümlədən, satışını elektron şəkildə həyata keçirən ticarət şəbəkələrində) satışının təşkili qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.”;

1.2. 61-ci maddə üzrə:

1.2.1. 61.1-ci maddədə “Borclunun” sözü “Vergi borcuna görə siyahıya alınmış əmlak istisna olmaqla, borclunun” sözləri ilə əvəz edilsin;

1.2.2. 61.6-cı maddə ləğv edilsin.

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2021-ci il*

# “İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 412-VIQD nömrəli Qanununun tətbiqi və “İcra haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 5 mart tarixli 672 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 412-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. “İcra haqqında” Azərbaycan Respublikası Qanununun 53.2-ci maddəsinin ikinci və üçüncü hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 53.2-ci maddəsinin üçüncü hissəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 53.2-ci maddəsinin ikinci hissəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

2. “İcra haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 5 mart tarixli 672 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 122; 2006, № 5, maddə 409, № 7, maddə 590; 2007, № 6, maddə 606; 2010, № 7, maddə 610; 2011, № 4, maddə 280; 2018, № 12 (I kitab), maddə 2613) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“2.1. “İcra haqqında” Azərbaycan Respublikası Qanununun 53.2-ci maddəsinin ikinci və üçüncü hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;”;

2.2. aşağıdakı məzmunda 2.1-1-ci və 2.1-2-ci bəndlər əlavə edilsin:

“2.1-1. həmin Qanunun 49.2-ci maddəsində, 50.7-ci maddəsinin birinci abzasında, 50.10-cu və 52.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.1-2. həmin Qanunun 53.2-ci maddəsinin üçüncü hissəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;”;

2.3. aşağıdakı məzmunda 2.6-1-ci bənd əlavə edilsin:

“2.6-1. həmin Qanunun 53.2-ci maddəsinin ikinci hissəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.”.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti “İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 412-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2021-ci il*

# “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 406-VIQD nömrəli Qanununun tətbiqi və həmin Qanunun tətbiqi ilə əlaqədar bir sıra məsələlərin tənzimlənməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 406-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 14.3.3-cü, 14-2.2-ci, 15.1.15-ci (hər iki halda), 16.1.4-cü, 16.1.4-1-ci, 16.1.4-2-ci, 16.1.4-3-cü, 16.1.8-ci (hər iki halda), 16.1.11-11-ci, 16.10-cu, 23.1.3-2-ci, 23.1.15-1-ci, 26.2-1-ci (hər iki halda), 30.6.14-cü, 33.2-ci, 58.2-1-ci, 71-1.3-1-ci, 71-3.2-ci, 85.6.3-cü, 85.11-ci (hər iki halda), 90.1-ci maddələrində, 90.3-cü maddəsinin birinci hissəsində, 90.3.2-ci maddəsinin birinci və ikinci cümlələrində, 90.3-1-ci maddəsində, 102.1.3.4-cü maddəsinin ikinci hissəsində, 106.1.5-ci (hər iki halda), 106.1.18-ci (ikinci halda), 108.4-cü, 108.5-ci, 150.3.3-cü, 150.3-6-cı, 164.1.7-ci, 164.1.34-cü və 164.1.46-cı maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 26.2-1-ci (birinci halda), 71-1.3-1-ci və 106.1.18-ci (ikinci halda) maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 14.3.3-cü, 15.1.15-ci (birinci halda), 71-3.2-ci, 90.3-1-ci, 108.4-cü, 108.5-ci, 164.1.7-ci və 164.1.46-cı maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 14-2.2-ci, 16.1.4-1-ci, 16.1.4-2-ci, 16.1.4-3-cü, 16.1.11-11-ci, 16.10-cu, 23.1.3-2-ci, 33.2-ci, 58.2-1-ci, 150.3.3-cü və 150.3-6-cı maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Məcəllənin 15.1.15-ci (ikinci halda), 26.2-1-ci (ikinci halda) və 85.11-ci (hər iki halda) maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Məcəllənin 23.1.15-1-ci, 90.1-ci, 90.3-cü maddəsinin birinci hissəsində və 90.3.2-ci maddəsinin birinci və ikinci cümlələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.7. həmin Məcəllənin 30.6.14-cü maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.8. həmin Məcəllənin 85.6.3-cü maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur;

1.9. həmin Məcəllənin 102.1.3.4-cü maddəsinin ikinci hissəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.10. həmin Məcəllənin 106.1.5-ci maddəsində ikinci halda “orqan (qurum)” dedikdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi qismində Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.11. “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 406-VIQD nömrəli Qanununun 2.2-ci maddəsində, 2.3-cü maddəsinin ikinci hissəsində və 2.5-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.12. həmin Qanunun 2.2-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.13. həmin Qanunun 2.3-cü maddəsinin ikinci hissəsində və 2.5-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. üç ay müddətində:

2.1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 71-3.2-ci maddəsinə uyğun olaraq, elektron əmtəə-nəqliyyat qaiməsinin və yük avtonəqliyyatı üçün elektron yol vərəqinin formasını, tətbiqi, uçotu və istifadəsi qaydasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.1.2. həmin Məcəllənin 164.1.7-ci maddəsinə uyğun olaraq, kütləvi informasiya vasitələri məhsullarının və kitabların (elektron kitablar istisna olmaqla), habelə dərslik komplektlərinin siyahısını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.1.3. həmin Məcəllənin 164.1.34-cü maddəsinə uyğun olaraq, bilavasitə kənd təsərrüfatı təyinatlı suvarma və digər qurğuların, maşınların, avadanlıqların və texnikaların siyahısını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.1.4. həmin Məcəllənin 164.1.46-cı maddəsinə uyğun olaraq, heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə edilən yem və yem əlavələrinin siyahısını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 406-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

3.1. aşağıdakı normativ hüquqi aktları üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

3.1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 14-2.2-ci maddəsinə uyğun olaraq, nəzarət olunan xarici müəssisə haqqında arayışın təqdim edilmə forması və qaydasını;

3.1.2. həmin Məcəllənin 16.1.4-2-ci maddəsinə uyğun olaraq, istehsal edilən məhsulun vahidinə tələb olunan xammal və material sərfi normaları barədə məlumat formasını;

3.1.3. həmin Məcəllənin 16.1.11-11-ci maddəsinə uyğun olaraq, idxal ediləcək mallar barədə məlumat formasını.

3.2. “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 406-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

4. “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616; 2005, № 12, maddə 1099; 2006, № 5, maddə 400, № 12, maddə 1034; 2007, № 4, maddə 323, № 12, maddə 1225; 2008, № 11, maddə 972; 2009, № 3, maddə 163, № 4, maddə 226, № 10, maddə 780; 2010, № 7, maddə 610; 2011, № 7, maddə 631; 2013, № 7, maddə 805, № 11, maddə 1324; 2014, № 4, maddə 359, № 5, maddə 477, № 9, maddə 1027, № 10, maddə 1198, № 11, maddələr 1390, 1420; 2015, № 1, maddə 12, № 12, maddə 1454; 2016, № 2 (II kitab), maddələr 261, 265, № 3, maddə 450, № 5, maddə 882, № 6, maddələr 1023, 1024, 1042, 1065, № 7, maddə 1257, № 9, maddə 1464, № 11, maddə 1838, № 12, maddə 2089; 2017, № 5, maddələr 760, 811, 845, № 7, maddə 1344, № 8, maddə 1521, № 9, maddələr 1830, 1843, № 12 (I kitab), maddələr 2571, 2599; 2019, № 8, maddələr 1396, 1407; 2020, № 5, maddə 560, № 11, maddə 1356, № 12 (I kitab), maddə 1504; 2021, № 1, maddə 35, № 3, maddə 220, № 4, maddə 323, № 6 (I kitab), maddə 585) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 2.8-ci (hər iki halda), 13.2.52-ci, 13.2.53-cü, 13.2.58-ci, 13.2.59-cu, 13.2.72-ci, 13.2.75-ci, 13.2.78-ci (hər üç halda), 13.2.79-cu, 13.2.80-ci (hər iki halda) maddələrində, 13.2.82-ci maddəsinin birinci və ikinci cümlələrində, 13.2.84-cü, 14.3.3-cü, 14-2.2-ci, 15.1.15-ci (hər iki halda), 16.1.3-1-ci (hər iki halda), 16.1.4-cü, 16.1.4-1-ci, 16.1.4-2-ci, 16.1.4-3-cü, 16.1.8-ci (hər iki halda), 16.1.11-9-cu, 16.1.11-11-ci, 16.6-cı (hər iki halda), 16.7-ci (hər iki halda), 16.8-ci maddələrində, 16.9-cu maddəsinin birinci cümləsində, 16.10-cu, 22-1.1-ci maddələrinin birinci (hər üç halda) və ikinci cümlələrində, 22-1.2-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 22-1.3-cü (hər üç halda) maddəsində, 22-1.4-cü maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 23.1.3-2-ci, 23.1.15-1-ci, 23.1.15-4-cü (aksiz markaları ilə markalanmalı mallara münasibətdə), 24.0.4-1-ci maddələrində, 24.0.6-cı maddəsinin ikinci cümləsində, 24.0.7-1-ci, 26.2-1-ci (hər iki halda), 27.2-ci, 28.3-cü, 30.6.8-ci, 30.6.9-cu (hər iki halda), 30.6.14-cü, 33.2-ci, 33.7-ci, 33.7.7-ci, 33.7.9-cu (hər üç halda), 33.10-cu maddələrində, 34.3-1-ci maddəsinin ikinci abzasının birinci cümləsində, 50.1.9-cu (aksiz markaları ilə markalanmalı mallara münasibətdə), 50-2.1-ci, 50-2.2-ci, 58.2-1-ci, 65.2.1.2-ci, 65.2.1.3-cü, 65.2.2-ci (hər iki halda), 65.2.3-2-ci, 65.2.3-3-cü (hər iki halda), 67-1.3-cü, 67-2.4-cü, 71-1.3-cü, 71-1.3-1-ci, 71-2.2-ci, 71-3.2-ci, 76.1-1-ci (hər iki halda), 77.5-ci (hər üç halda), 77.6-cı (hər üç halda), 77.7.2-ci, 77.7.3-cü, 85.6.3-cü maddələrində, 85.11-ci (hər iki halda), 90.1-ci, 90.3-cü maddəsinin birinci hissəsində, 90.3.2-ci maddəsinin birinci və ikinci cümlələrində, 90.3-1-ci, 98.2.7-ci, 101.1-4-cü, 102.1.3.4-cü maddəsinin ikinci hissəsində, 102.1.4-cü, 102.1.17-ci, 102.1.21-ci, 102.1.28-ci, 102.1.29-cu (hər iki halda), 102.1.33-cü, 102.1.35-ci, 106.1.5-ci (hər iki halda), 106.1.9-cu, 106.1.10-cu, 106.1.12-ci, 106.1.13-cü, 106.1.18-ci (hər iki halda), 106.1.24-cü, 106.1.27-ci, 106.1.28-ci, 108.4-cü, 108.5-ci, 122.3-cü, 128.3-cü, 130.1-1-ci, 150.3.3-cü, 150.3-1-ci maddəsinin ikinci hissəsində, 150.3-4-cü, 150.3-5-ci, 150.3-6-cı, 164.1.7-ci, 164.1.15-ci (birinci halda), 164.1.16-cı (birinci halda), 164.1.20-ci, 164.1.28-ci (birinci və ikinci hallarda), 164.1.34-cü, 164.1.35-ci, 164.1.36-cı, 164.1.40-cı, 164.1.42-ci, 164.1.46-cı, 164.1.48-ci (hər iki halda), 164.1.49-cu, 164.1.52-ci, 164.1.53-cü, 164.1.54-cü, 165.1.7-ci (hər iki halda), 165.1.9-cu, 165.3-cü maddələrində, 165.5-ci və 165.6-cı maddələrinin birinci cümlələrində, 175.9-cu maddəsində, 194.1-ci maddəsinin birinci və ikinci (hər iki halda) cümlələrində, 194.1-1-ci, 199.7-ci, 199.8-ci, 199.16-cı (hər üç halda), 207.3-cü, 207.4-cü, 207.7-ci (hər üç halda), 218-1.1.3-cü maddələrində, 221.4.7-ci maddəsinin birinci cümləsində, 221.4.13-cü maddəsinin birinci və ikinci abzaslarında (birinci halda), 222.3-cü maddəsinin ikinci cümləsində, 222.5.9-cu, 222.7-ci, 224.4-cü, 224.11-ci maddələrində və 225.3-cü maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;”;

4.2. 1.2-ci bənddə “67-2.4-cü,” sözləri “26.2-1-ci (birinci halda), 67-2.4-cü, 71-1.3-1-ci,” sözləri ilə, “150.1.13.3-cü” sözləri “106.1.18-ci (ikinci halda)” sözləri ilə əvəz edilsin;

4.3. 1.7-ci bəndə “13.2.84-cü,” sözlərindən sonra “14.3.3-cü, 15.1.15-ci (birinci halda),” sözləri, “71-2.2-ci,” sözlərindən sonra “71-3.2-ci,” sözləri, “77.7.3-cü,” sözlərindən sonra “90.3-1-ci,” sözləri, “106.1.18-ci” sözlərindən sonra “(birinci halda)” sözləri, “106.1.27-ci,” sözlərindən sonra “108.4-cü, 108.5-ci, 164.1.7-ci,” sözləri, “164.1.34-cü,” sözlərindən sonra “164.1.46-cı,” sözləri əlavə edilsin və həmin bənddən “26.2-1-ci (ikinci halda),” və “71-1.4-cü,” sözləri çıxarılsın;

4.4. 1.8-ci bənddə “ikinci abzasda” sözləri “ikinci hissədə” sözləri ilə əvəz edilsin;

4.5. 1.9-cu bənddən “24.0.7-2-ci,”, “90.3-cü maddəsinin üçüncü abzasında (ikinci halda),” və “150.3.3-cü,” sözləri çıxarılsın;

4.6. 1.10-cu bənd aşağıdakı redaksiyada verilsin:

“1.10. həmin Məcəllənin 13.2.78-ci (birinci və ikinci hallarda), 14-2.2-ci, 16.1.3-1-ci (birinci halda), 16.1.4-cü, 16.1.4-1-ci, 16.1.4-2-ci, 16.1.4-3-cü, 16.1.11-11-ci, 16.6-cı (birinci halda), 16.7-ci (birinci halda), 16.8-ci maddələrində, 16.9-cu maddəsinin birinci cümləsində, 16.10-cu, 22-1.1-ci maddələrinin birinci cümlələrində (birinci və üçüncü hallarda), 22-1.3-cü (birinci və üçüncü hallarda), 23.1.3-2-ci, 24.0.4-1-ci maddələrində, 24.0.6-cı maddəsinin ikinci cümləsində, 33.2-ci, 34.3-1-ci maddələrinin ikinci abzasının birinci cümlələrində, 58.2-1-ci, 76.1-1-ci (birinci halda), 150.3.3-cü, 150.3-1-ci maddələrinin ikinci hissəsində,150.3-4-cü, 150.3-5-ci, 150.3-6-cı, 164.1.54-cü, 199.16-cı (üçüncü halda), 207.7-ci (üçüncü halda) maddələrində və 225.3-cü maddəsinin birinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;”;

4.7. 1.11-ci bənddən “85.9-cu, 85.11-ci,” və “90.3-cü maddəsinin üçüncü abzasında (üçüncü halda),” sözləri çıxarılsın;

4.8. 1.12-ci bənddə “13.2.72-ci (ikinci halda)” sözləri “13.2.72-ci” sözləri ilə, “26.2-1-ci (üçüncü halda)” sözləri “26.2-1-ci (ikinci halda)” sözləri ilə əvəz edilsin və həmin maddəyə “13.2.82-ci maddəsinin ikinci cümləsində,” sözlərindən sonra “15.1.15-ci (ikinci halda),” sözləri və “194.1-ci” sözlərindən əvvəl “85.11-ci (hər iki halda),” sözləri əlavə olunsun;

4.9. 1.15-ci bənddə “və 33.7.9-cu (ikinci və üçüncü hallarda)” sözləri “, 33.7.9-cu (ikinci və üçüncü hallarda) və 85.6.3-cü” sözləri ilə əvəz edilsin;

4.10. 1.16-cı bənddə “, 158.2-ci və 195.2-ci” sözləri “və 158.2-ci” sözləri ilə əvəz edilsin;

4.11. 1.17-ci bəndə “maddəsində” sözündən sonra “və 102.1.3.4-cü maddəsinin ikinci hissəsində” sözləri əlavə edilsin;

4.12. 1.20-ci və 1.42-ci bəndlər ləğv edilsin;

4.13. 1.29-cu bənddə “və 220.1-1-ci maddələrində” sözləri “maddəsində” sözü ilə əvəz edilsin;

4.14. aşağıdakı məzmunda 1.40-1-ci və 1.40-2-ci bəndlər əlavə edilsin:

“1.40-1. həmin Məcəllənin 23.1.15-1-ci, 90.1-ci maddələrində, 90.3-cü maddəsinin birinci hissəsində və 90.3.2-ci maddəsinin birinci və ikinci cümlələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.40-2. həmin Məcəllənin 30.6.14-cü maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;”;

4.15. 1.43-cü bəndə “maddələrində” sözündən əvvəl “(birinci halda)” sözləri əlavə edilsin;

4.16. aşağıdakı məzmunda 1.43-1-ci bənd əlavə edilsin:

“1.43-1. həmin Məcəllənin 106.1.5-ci maddəsində (ikinci halda) “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi qismində Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;”.

5. “Ticarət festivalları dövründə fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 20 fevral tarixli 1252 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 196, № 4, maddə 549, № 6, maddə 1074; 2019, № 12, maddə 1945; 2021, № 1, maddə 43) ləğv edilsin.

6. “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1356-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 414 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12, maddə 2571) 1.1.8-ci yarımbəndi ləğv edilsin.

7. “Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları istisna olmaqla) görə ödənilmiş ƏDV-nin qaytarılması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 21 mart tarixli 969 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 245) aşağıdakı dəyişikliklər edilsin:

7.1. adında, 1-ci hissədə və 2.3-cü bənddə “və ya ictimai iaşə” sözləri “, ictimai iaşə və tibb” sözləri ilə, “(neft və qaz məhsulları istisna olmaqla)” sözləri “(neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla) və göstərilən xidmətlərə” sözləri ilə əvəz edilsin;

7.2. həmin Fərmanla təsdiq edilmiş “Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları istisna olmaqla) görə ödənilmiş ƏDV-nin qaytarılması” Qaydası üzrə:

7.2.1. adında və 1.1-ci bənddə “və ya ictimai iaşə” sözləri “, ictimai iaşə və tibb” sözləri ilə, “(neft və qaz məhsulları istisna olmaqla)” sözləri “(neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla) və göstərilən xidmətlərə” sözləri ilə əvəz edilsin;

7.2.2. 1.4-cü bənddən “və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 20 fevral tarixli 1252 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Ticarət festivalları dövründə fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası”nın” sözləri çıxarılsın;

7.2.3. 1.5-ci bəndə “mallara” sözündən sonra “və göstərilmiş xidmətlərə” sözləri əlavə edilsin;

7.2.4. 2.0.1-ci yarımbənddə “və ya ictimai iaşə” sözləri “, ictimai iaşə və ya tibb” sözləri ilə əvəz edilsin;

7.2.5. 2.0.2-ci yarımbəndə “malı” sözündən sonra “və ya xidməti” sözləri əlavə edilsin;

7.2.6. 2.0.3-cü və 2.0.6-cı yarımbəndlərdə “alınmış mallara” sözləri “aldıqları mallara və onlara göstərilən xidmətlərə” sözləri ilə əvəz edilsin;

7.2.7. 2.0.7-ci və 4.2.2-ci yarımbəndlərdə “və ya ictimai iaşə” sözləri “, ictimai iaşə və tibb” sözləri ilə əvəz edilsin və həmin yarımbəndlərə “mallara” sözündən sonra “və göstərilmiş xidmətlərə” sözləri əlavə olunsun;

7.2.8. 5.1-ci bəndin birinci və üçüncü cümlələrinə “malların” sözündən sonra “və ona göstərilmiş xidmətlərin” sözləri, ikinci cümləsinə “mal alışına” sözlərindən sonra “və xidmətlərin göstərilməsinə” sözləri əlavə edilsin.

8. “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə”nin təsdiqi və “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və “Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 542, № 7, maddə 862, № 9, maddə 1151) aşağıdakı dəyişikliklər edilsin:

8.1. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Əsasnaməsi”nin 4.0.25-ci yarımbəndinə birinci halda “barədə” sözündən sonra “(əmlak satışı ilə bağlı olmayan iddia)” sözləri əlavə edilsin və həmin yarımbənddə “əmlakının ixtisaslaşdırılmış açıq hərraclarda satılması barədə məhkəmədə iddia qaldırmaq” sözləri “dövlət əmlakının, habelə digər daşınmaz əmlakının, eləcə də dəyəri 5000 manatdan artıq olan daşınar əmlakının Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyindəki qurum vasitəsilə, habelə dəyəri 5000 manatdan artıq olmayan daşınar əmlakın isə ticarət şəbəkələrində satılması barədə məhkəmədə iddia qaldırmaq və məhkəmə qərarları üzrə həmin əmlakın satışını qanunvericiliyə uyğun olaraq təşkil etmək” sözləri ilə əvəz edilsin;

8.2. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Əsasnaməsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

8.2.1. 3.0.17-ci yarımbəndə “müsadirə olunmuş əmlakın,” sözlərindən sonra “vergi ödəyicisinin vergi borcuna görə siyahıya alınmış daşınmaz əmlakının, habelə dəyəri 5000 manatdan artıq olan daşınar əmlakının və” sözləri əlavə edilsin;

8.2.2. 3.0.51-ci yarımbəndə “hərraclarının” sözündən sonra “, eləcə də vergi ödəyicisinin vergi borcuna görə siyahıya alınmış dövlət əmlakının, habelə digər daşınmaz əmlakının, habelə dəyəri 5000 manatdan artıq olan daşınar əmlakın satılması ilə bağlı hərracların” sözləri əlavə edilsin.

9. Bu Fərmanın 7-ci hissəsi alkoqollu içkilərə və tütün məmulatlarına münasibətdə 2022-ci il oktyabrın 1-dən qüvvəyə minir.

10. Bu Fərmanın 9-cu hissəsi nəzərə alınmaqla, bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2021-ci il*

# "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 506; 2006, № 3, maddə 223; 2007, № 6, maddə 560; 2008, № 6, maddə 462, № 11, maddə 960; 2014, № 4, maddə 336; 2015, № 4, maddə 351; 2019, № 1, maddə 36; 2020, № 7, maddə 828) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında "xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari" sözləri "diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin dövlət icbari şəxsi" sözləri ilə əvəz edilsin;

1.2. 1-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Bu Qanun Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında (bundan sonra - Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri) xidmət keçən diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin (bundan sonra - əməkdaşlar) həyatının və sağlamlığının dövlət icbari şəxsi sığortası sahəsində münasibətləri tənzimləyir.";

1.3. 2 - 6-cı maddələr aşağıdakı redaksiyada verilsin:

**"Maddə 2. Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin əməkdaşlarının dövlət icbari şəxsi sığortası haqqında qanunvericilik**

Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin əməkdaşlarının dövlət icbari şəxsi sığortasının hüquqi əsaslarını Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, bu Qanun, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu, habelə Azərbaycan Respublikasının digər normativ hüquqi aktları təşkil edir.

**Maddə 3. Əsas anlayışlar**

3.1. Bu Qanunda istifadə edilən əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

3.1.1. dövlət icbari şəxsi sığorta - sığortaolunanların həyat və sağlamlığının bu Qanunda nəzərdə tutulmuş qaydada icbari formada sığorta olunmasına yönəldilmiş münasibətlər sistemi;

3.1.2. sığortaçı - bu Qanunla müəyyən edilmiş qaydada dövlət icbari şəxsi sığorta üzrə fəaliyyəti həyata keçirən və sığorta vəsaitlərini idarə edən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum);

3.1.3. sığortaolunan - barəsində sığorta fəaliyyəti həyata keçirilən Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin əməkdaşları;

3.1.4. sığortalı - sığortaolunan üçün sığorta haqqı ödəyən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum);

3.1.5. sığorta ödənişi almaq hüququ olan şəxs - bu Qanunla müəyyən edilmiş qaydada sığorta ödənişini almaq hüququ olan sığortaolunan və ya onun vərəsəsi;

3.1.6. sığorta hadisəsi - sığorta ödənişi almaq hüququ olan şəxsə sığorta ödənişinin ödənilməsi üçün əsas olan bu Qanunun 8-ci maddəsi ilə müəyyən edilən hal;

3.1.7. sığorta haqqı - bu Qanunla nəzərdə tutulmuş qaydada və məbləğdə sığortalılar tərəfindən hər bir sığortaolunan üzrə hər il üçün sığortaçıya ödənilməli olan pul məbləği;

3.1.8. sığorta vəsaiti - bu Qanunun 11-1-ci maddəsində nəzərdə tutulan mənbələr hesabına formalaşan vəsait;

3.1.9. sığorta ödənişi - sığorta hadisəsi baş verdikdə sığorta ödənişi almaq hüququ olan şəxsə sığortaçı tərəfindən ödənilən birdəfəlik pul vəsaiti;

3.1.10. sığorta ehtiyatı - sığorta ödənişlərinin davamlılığının təmin edilməsi məqsədilə sığorta haqları üzrə illik daxilolmaların proqnozunun 5 faizədək hissəsində hesablanan vəsait.

**Maddə 4. Dövlət icbari şəxsi sığortanın prinsipləri**

4.1.Dövlət icbari şəxsi sığortanın əsas prinsipləri aşağıdakılardır:

4.1.1.dövlət icbari şəxsi sığortanın məcburiliyi;

4.1.2. dövlət icbari şəxsi sığortanın subyektlərinin (sığortaçının, sığortalının, sığortaolunanın) hüquq bərabərliyi.

**Maddə 5. Sığortaolunanın hüquq və vəzifələri**

5.1. Sığortaolunanın aşağıdakı hüquqları vardır:

5.1.1. dövlət icbari şəxsi sığorta etdirməyi sığortalıdan tələb etmək;

5.1.2. sığortaçıdan və sığortalıdan dövlət icbari şəxsi sığorta ilə bağlı hüquq və vəzifələrinin izah edilməsini tələb etmək;

5.1.3. sığorta ödənişinin bu Qanunla müəyyən olunmuş qaydada və müddətdə verilməsini sığortaçıdan tələb etmək;

5.1.4. yazılı müraciət əsasında hesablanmış və ödənilmiş sığorta haqqının məbləği barədə sığortaçıdan və ya sığortalıdan məlumat almaq.

5.2. Sığortaolunanın aşağıdakı vəzifələri vardır:

5.2.1. sığortaçı tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə məlumatların əldə edilməsi mümkün olmadığı hallarda sığorta hadisəsinin baş verdiyini təsdiq edən sənədləri və məlumatları sığortaçıya bu Qanunla müəyyən olunmuş qaydada tam və düzgün təqdim etmək;

5.2.2. fərdi məlumatları dəyişildikdə həmin dəyişikliklərə dair məlumatların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda bu barədə 5 iş günü müddətində sığortalıya yazılı məlumat vermək.

5.3. Bu Qanunun 5.1.2-ci, 5.1.3-cü və 5.2.1-ci maddələri sığortaolunanın sığorta ödənişi almaq hüququ olan vərəsələrinə də şamil edilir.

**Maddə 6. Sığortaçının hüquq və vəzifələri**

6.1. Sığortaçının aşağıdakı hüquqları vardır:

6.1.1. sığortalıdan sığorta haqqını və rüblük hesabatları almaq;

6.1.2. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə məlumatların əldə edilməsi mümkün olmadığı hallarda sığorta ödənişi almaq hüququ olan şəxsdən sığorta ödənişinin ödənilməsi, habelə uçot məlumatlarında dəyişikliklərin edilməsi üçün tələb olunan sənədləri və məlumatları tələb etmək;

6.1.3. sığorta hadisəsinin müəyyən edilməsi ilə bağlı, sığortalıdan və aidiyyəti dövlət orqanlarından (qurumlarından) məlumat və ya sığortaolunanın həmin sığortalı üzrə sığortaolunan hesab olunmasına dair arayış almaq (o cümlədən elektron qaydada);

6.1.4. sığortalı tərəfindən bu Qanunun tələblərinə əməl edilməsinin təhlilini aparmaq və nəticəsi barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat vermək;

6.1.5. bu Qanunla müəyyən olunmuş digər hüquqları həyata keçirmək.

6.2. Sığortaçının aşağıdakı vəzifələri vardır:

6.2.1. sığorta ödənişi almaq hüququ olan şəxsə və sığortalıya dövlət icbari şəxsi sığorta ilə bağlı hüquq və vəzifələrini izah etmək;

6.2.2. sığorta ödənişinin bu Qanunla müəyyən olunmuş qaydada və müddətdə ödənilməsini təmin etmək;

6.2.3. hər bir sığortalıya və bu Qanunun 12.1-ci maddəsinə əsasən dövlət icbari şəxsi sığortaya nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) sığorta ödənişlərinin icrasına dair məlumat təqdim etmək;

6.2.4. sığortalının təqdim etdiyi məlumatlar əsasında sığortalıların və sığortaolunanların uçotunu aparmaq;

6.2.5. sığortaolunanın yazılı müraciətinə əsasən hesablanmış və ödənilmiş sığorta haqqının məbləği barədə uçot məlumatlarını təqdim etmək;

6.2.6. bu Qanunun 11-1-ci maddəsinə uyğun olaraq sığorta vəsaitlərini idarə etmək;

6.2.7. sığortalı tərəfindən sığorta haqlarının sığortaçıya ödənilməsinə nəzarət etmək;

6.2.8. bu Qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.";

1.4. aşağıdakı məzmunda 6-1-ci maddə əlavə edilsin:

**"Maddə 6-1. Sığortalının hüquq və vəzifələri**

6-1.1. Sığortalının aşağıdakı hüquqları vardır:

6-1.1.1. özünün və sığortaolunanın qanuni mənafelərini müdafiə etmək;

6-1.1.2. sığortaçı və sığortaolunandan bu Qanunla müəyyən edilmiş vəzifələrinə əməl edilməsini tələb etmək;

6-1.1.3. sığortaçıdan dövlət icbari şəxsi sığorta ilə bağlı hüquq və vəzifələrinin izah edilməsini tələb etmək;

6-1.1.4. sığorta ödənişlərinə dair sığortaçıdan məlumat almaq;

6-1.1.5. bu Qanunla müəyyən olunmuş digər hüquqları həyata keçirmək.

6-1.2. Sığortalının aşağıdakı vəzifələri vardır:

6-1.2.1. sığortaolunanları dövlət icbari şəxsi sığorta etdirmək;

6-1.2.2. bu Qanunla müəyyən edilmiş qaydada, məbləğdə və müddətdə sığorta haqqını tam həcmdə sığortaçıya ödəmək;

6-1.2.3. sığortaolunanlar və özü barədə məlumatları bu Qanunun 7-1-ci maddəsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq sığortaçıya təqdim etmək;

6-1.2.4. sığorta ödənişinin alınması üçün sənədlərin rəsmiləşdirilməsində və sığorta ödənişlərinin alınmasında sığorta ödənişi almaq hüququ olan şəxsə kömək etmək;

6-1.2.5. sığorta haqlarının uçotunu aparmaq və hər rüb üzrə rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq ödənilmiş sığorta haqları və sığortaolunanlar barədə sığortaçıya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada və formada hesabat vermək;

6-1.2.6. bu Qanunla müəyyən olunmuş digər vəzifələri yerinə yetirmək.";

1.5. 7.2-ci maddədə "sığorta haqqı" sözlərindən sonra "bu Qanunun 7.1-ci maddəsində nəzərdə tutulan" sözləri əlavə edilsin;

1.6. aşağıdakı məzmunda 7-1-ci maddə əlavə edilsin:

**"Maddə 7-1. Sığortaolunanların və sığortalıların uçotu və sığorta haqlarının hesablanması, ödənilməsi, ödənilməsinə nəzarət və artıq ödənilmiş sığorta haqlarının qaytarılması qaydası**

Dövlət icbari şəxsi sığortası məqsədilə sığortalıların təqdim etdiyi məlumatlar əsasında sığortaolunanların və sığortalıların sığortaçıda uçotu, habelə sığortalılar tərəfindən sığorta haqlarının hesablanması, sığortaçıya ödənilməsi, ödənilməsinə nəzarət və artıq ödənilmiş sığorta haqlarının qaytarılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.";

1.7. 8-ci maddə üzrə:

1.7.1. 8.1-ci və 8.2-ci maddələr müvafiq olaraq 8.2-ci və 8.3-cü maddələr hesab olunsun və aşağıdakı məzmunda 8.1-ci maddə əlavə edilsin:

"8.1. Sığortaolunanın fərdi qəza nəticəsində həlak olması və ya sağlamlığına zərər dəyməsi (əlilliyinin müəyyən edilməsi və (və ya) xəsarət alması) sığorta hadisəsi hesab edilir.";

1.7.2.8.2-ci maddədə "Sığorta olunan" sözləri "Sığortaolunan" sözü ilə əvəz edilsin və aşağıdakı məzmunda 8.2.5-1-ci maddə əlavə edilsin:

"8.2.5-1. az ağır xəsarət alması - 15 faiz;";

1.7.3.8.3-cü maddədə "Sığorta olunan" sözləri "Sığortaolunan" sözü ilə, hər iki halda "sığorta olunanın" sözləri "sığortaolunanın" sözü ilə əvəz edilsin;

1.7.4.aşağıdakı məzmunda 8.4-cü maddə əlavə edilsin:

"8.4. Ağır, az ağır və yüngül xəsarət növləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş siyahıya uyğun olaraq müəyyən edilir.";

1.8. 9 - 11-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**"Maddə 9. Dövlət icbari şəxsi sığortanın aparılması qaydası**

9.1. Sığortaolunanların dövlət icbari şəxsi sığortası hər il dövlət büdcəsinin vəsaiti hesabına aparılır.

9.2. Sığortalılar sığortaolunanların dövlət icbari şəxsi sığortasını təmin etmək üçün sığorta haqlarının məbləğini hər il rüblər üzrə bu Qanunun 7-1-ci maddəsində nəzərdə tutulmuş qaydada sığortaçıya ödəyir.

9.3. Sığorta haqqı sığortalı tərəfindən hər il üçün hər bir sığortaolunana görə ödənilir.

9.4. Sığortaolunanlar işə təyin olunduqları tarixdən bu Qanunla müəyyən olunmuş qaydada sığorta olunurlar.

**Maddə 10. Sığorta ödənişinin verilməsi**

10.1. Sığortaçı sığorta ödənişi almaq hüququ olan şəxsə sığorta ödənişini sığorta hadisəsi ilə bağlı məlumatın müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sisteminə daxil olduğu, bu mümkün olmadığı hallarda isə sığorta ödənişi almaq hüququ olan şəxsin müraciətinin daxil olduğu gündən 10 iş günü müddətində verir. Sığorta ödənişinin verilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

10.2. Sığortalı və digər aidiyyəti dövlət orqanları (qurumları) sığorta ödənişlərinin alınması üçün sığorta ödənişi almaq hüququ olan şəxsə kömək etməlidirlər.

10.3. Bu Qanunun 6-1.2.5-ci maddəsinə uyğun olaraq sığortalı tərəfindən sığortaçıya hesabat təqdim olunmadığı hallarda sığorta ödənişi sığortalının sığortaolunanın həmin sığortalı üzrə sığortaolunan hesab olunmasına dair arayışına əsasən ödənilir və bu barədə məlumatlar sığortalının növbəti rübdə təqdim etdiyi hesabatda əks olunur.

10.4. Sığorta ödənişi verilmiş sığorta hadisəsi ilə bağlı yeni sığorta hadisəsi baş verdikdə müvafiq sığorta ödənişi əvvəl ödənilmiş məbləğ nəzərə alınmaqla ödənilir.

**Maddə 11. Sığorta ödənişinin verilməsindən imtina**

11.1. Sığorta ödənişi almaq hüququ olan şəxsə sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edilir:

11.1.1. sığortaolunanın sığorta hadisəsi ilə birbaşa bağlı olan qəsdən cinayət törətdiyi barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olduqda;

11.1.2. sığortaolunan bu Qanunun 10.1-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq sığorta ödənişinin alınması üçün tələb olunan sənədləri və məlumatları təqdim etmədikdə, yaxud təqdim edilmiş sənədlərin və məlumatların tam və ya düzgün olmadığı müəyyən edildikdə;

11.1.3. baş vermiş hadisə bu Qanunla müəyyən edilmiş sığorta hadisəsi hesab edilmədikdə;

11.1.4. hadisə sığortaolunanın bilavasitə alkoqoldan, narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir göstərən digər maddələrdən istifadə etməsi nəticəsində baş verdikdə;

11.1.5. sığortaolunan özünə qəsd etdikdə və həmin hal məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə təsdiq olunduqda.

11.2. Sığorta ödənişinin verilməsindən bu Qanunun 11.1.2-ci maddəsində göstərilən hala görə imtina edildikdə sığorta ödənişi almaq hüququ olan şəxs imtinaya səbəb olan hal aradan qaldırıldıqdan sonra sığorta ödənişinin alınması üçün təkrar müraciət etmək hüququna malikdir.".

1.9. aşağıdakı məzmunda 11-1-ci və 11-2-ci maddələr əlavə edilsin:

**"Maddə 11-1. Sığorta vəsaitləri**

11-1.1. Sığorta vəsaitləri aşağıdakı mənbələr hesabına formalaşır:

11-1.1.1. bu Qanunla müəyyən olunmuş qaydada və məbləğdə ödənilən sığorta haqları;

11-1.1.2. kreditlər;

11-1.1.3. sığorta ehtiyatının təhlükəsizlik göstəriciləri üzrə meyarları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən banklarda depozitə yerləşdirilməsindən əldə edilən gəlirlər;

11-1.1.4. qanunla qadağan edilməyən digər mənbələr.

11-1.2. Sığorta vəsaitləri aşağıdakı istiqamətlərdə istifadə olunur:

11-1.2.1. dövlət icbari şəxsi sığorta ödənişlərinin verilməsinə;

11-1.2.2. sığorta ehtiyatının yaradılmasına;

11-1.2.3. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən hallarda müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı tədbirlərin maliyyələşdirilməsinə;

11-1.2.4. idarəetmə xərclərinə;

11-1.2.5. qanunla müəyyən edilən digər istiqamətlərə.

11-1.3. İdarəetmə xərcləri sığorta haqqının 5 faizədək miqdarında müəyyən edilir və bu vəsaitin xərclənməsi müvafiq qaydada təsdiq olunmuş xərclər smetasına uyğun olaraq həyata keçirilir.

11-1.4. Sığorta vəsaitindən, o cümlədən sığorta ehtiyatından istifadə qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir.

11-1.5. Sığorta ehtiyatı sığorta haqlarının illik proqnoz həcminə bərabər olduqda, sığorta ehtiyatının artırılması dayandırılır, onun depozitə yerləşdirilməsindən əldə edilən gəlir isə müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı tədbirlərin maliyyələşdirilməsinə yönəldilir.

11-1.6. Sığorta ödənişi almaq hüququ olan şəxslərin sayında kəskin artım nəticəsində sığorta ödənişləri üzrə illik gözlənilən xərclər sığorta haqları üzrə illik gözlənilən daxilolmadan artıq olduqda, gözlənilən sığorta ödənişləri üzrə xərclər və sığorta haqları üzrə daxilolmalar arasındakı kəsir sığorta ehtiyatı hesabına maliyyələşdirilir.

11-1.7. Cari ilin sonunda sığorta vəsaitinin istifadə olunmamış qalığı, sığorta ehtiyatı və onun depozitə yerləşdirilməsindən əldə edilmiş gəlir növbəti il üçün xərclərin maliyyələşdirilməsinə yönəldilir.

**Maddə 11-2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tətbiq edilən cərimələrdən ayırmalar**

Bu Qanunun tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən toplanan vəsaitin 43 faizi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hesabına köçürülür.";

1.10. 12-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 12. Nəzarət və bu Qanunun pozulmasına görə məsuliyyət**

12.1. Dövlət icbari şəxsi sığortanın həyata keçirilməsinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) nəzarət edir.

12.2. Sığortaçı dövlət icbari şəxsi sığorta sahəsində görülmüş işlərə dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) hesabat verir.

12.3. Bu Qanunun tələblərini pozan şəxslər Azərbaycan Respublikasının Mülki, İnzibati Xətalar və Cinayət məcəllələrində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.".

**Maddə 2. Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2021-ci il*

---

# "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 420-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 19 iyul tarixli 88 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 420-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun 3.1.2-ci, 3.1.4-cü, 5.2.1-ci, 5.2.2-ci, 6.1.2-ci, 6.1.4-cü, 6.2.3-cü, 6-1.2.5-ci, 7-1-ci, 8.4-cü maddələrində, 10.1-ci maddəsinin birinci və ikinci cümlələrində, 11-1.1.3-cü, 11-1.2.3-cü, 11-1.4-cü maddələrində, 11-2-ci maddəsinin adında və mətnində (hər iki halda), 12.1-ci və 12.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 11-1.2.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 6-1.2.5-ci, 7-1-ci, 8.4-cü maddələrində, 10.1-ci maddəsinin ikinci cümləsində, 11-1.1.3-cü və 11-1.4-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Qanunun 3.1.4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Qanunun 5.2.1-ci, 5.2.2-ci, 6.1.2-ci, 6.1.4-cü, 6.2.3-cü maddələrində, 10.1-ci maddəsinin birinci cümləsində, 11-2-ci maddəsinin adında və mətnində (hər iki halda), 12.1-ci və 12.2-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Qanunun 3.1.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 420-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 19 iyul tarixli 88 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 527; 2020, № 7, maddə 876) aşağıdakı dəyişikliklər edilsin:

3.1. adında "xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari" sözləri "diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin dövlət icbari şəxsi" sözləri ilə əvəz edilsin;

3.2. həmin Fərmanın 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"2. Müəyyən edilsin ki:

2.1. "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun 3.1.2-ci, 3.1.4-cü, 5.2.1-ci, 5.2.2-ci, 6.1.2-ci, 6.1.4-cü, 6.2.3 cü, 6-1.2.5-ci, 7-1-ci, 8.4-cü maddələrində, 10.1-ci maddəsinin birinci və ikinci cümlələrində, 11-1.1.3-cü, 11-1.2.3-cü, 11-1.4-cü maddələrində, 11-2-ci maddəsinin adında və mətnində (hər iki halda), 12.1-ci və 12.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 11-1.2.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

2.3. həmin Qanunun 6-1.2.5-ci, 7-1-ci, 8.4-cü maddələrində, 10.1-ci maddəsinin ikinci cümləsində, 11-1.1.3-cü və 11-1.4 cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.4. həmin Qanunun 3.1.4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi nəzərdə tutulur;

2.5. həmin Qanunun 5.2.1-ci, 5.2.2-ci, 6.1.2-ci, 6.1.4-cü, 6.2.3-cü maddələrində, 10.1-ci maddəsinin birinci cümləsində, 11-2-ci maddəsinin adında və mətnində (hər iki halda), 12.1-ci və 12.2-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

2.6. həmin Qanunun 3.1.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.".

4. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2021-ci il*

---

# "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikası Qanununun ləğv edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 83, № 11, maddə 1364; 2015, № 6, maddə 682; 2018, № 10, maddə 1982; 2019, № 3, maddə 370, № 8, maddə 1385) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2021-ci il*

---

# Azərbaycan Respublikası Prezidentinin "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikasının 2013-cü il 17 dekabr tarixli 853-IVQ nömrəli Qanununun tətbiqi barədə" 2014-cü il 10 fevral tarixli 108 nömrəli, "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə"nin təsdiq edilməsi haqqında" 2014-cü il 9 sentyabr tarixli 248 nömrəli, "Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" 2014-cü il 9 sentyabr tarixli 249 nömrəli fərmanlarının ləğv edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikası Qanununun ləğv edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 426-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikasının 2013-cü il 17 dekabr tarixli 853-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 10 fevral tarixli 108 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 115, № 11, maddə 1424) ləğv edilsin.

2. "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 9 sentyabr tarixli 248 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 9, maddə 1028; 2015, № 10, maddə 1141; 2016, № 8, maddə 1384; 2017, № 3, maddə 376; 2018, № 9, maddə 1834; 2019, № 3, maddə 421, № 12, maddə 1947) ləğv edilsin.

3. "Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 9 sentyabr tarixli 249 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 9, maddə 1029; 2015, № 10, maddə 1141; 2019, № 12, maddə 1948) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2021-ci il*

Azərbaycan Respublikasının Su Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Yerin təki haqqında", "Balıqçılıq haqqında", "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Ovçuluq haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Baytarlıq haqqında", "Dərman vasitələri haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Mədəniyyət haqqında", "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu, 11-ci, 13-cü və 15-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Su Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 135; 1999, № 8, maddə 476; 2002, № 5, maddə 237; 2003, № 1, maddə 10; 2004, № 2, maddə 57; 2006, № 11, maddə 923; 2007, № 5, maddə 436, № 10, maddə 938; 2008, № 2, maddə 47; 2015, № 2, maddə 72, № 4, maddə 357; 2017, № 9, maddə 1631; 2019, № 1, maddə 20, № 6, maddə 987, № 9, maddə 1485) 38-ci maddəsinə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Su obyektlərindən xüsusi məqsədlər üçün istifadəyə icazənin verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.".

**Maddə 2.** Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 787; 2014, № 10, maddə 1155, № 11, maddə 1368; 2016, № 11, maddə 1791; 2017, № 3, maddə 339, № 7, maddə 1303, № 8, maddə 1510; 2018, № 1, maddə 30, № 11, maddə 2211, № 12 (I kitab), maddə 2521; 2019, № 1, maddə 30, № 5, maddə 814, № 8, maddə 1383; 2020, № 5, maddə 522, № 7, maddə 832, № 12 (I kitab), maddə 1438; Azərbaycan Respublikasının 2021-ci il 29 oktyabr tarixli 390-VIQD nömrəli Qanunu) aşağıdakı məzmunda 32-1-ci maddə əlavə edilsin:

**"Maddə 32-1. Səlahiyyətli iqtisadi operator statusunun verilməsi haqqında qərarın qəbul edilməsinə görə dövlət rüsumu**

Səlahiyyətli iqtisadi operator statusunun verilməsi haqqında qərarın qəbul edilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.".

**Maddə 3.** Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 838; 2014, № 7, maddələr 766, 787, № 10, maddə 1165; 2015, № 5, maddə 503; 2016, № 2 (II kitab), maddə 215, № 11, maddə 1773, № 12, maddə 2010; 2017, № 2, maddə 154, № 5, maddə 755, № 6, maddələr 1019, 1043; 2018, № 3, maddə 373, № 5, maddələr 837, 850, № 12 (I kitab), maddə 2535; 2019, № 1, maddə 23, № 3, maddələr 375, 391, № 6, maddə 987; 2020, № 4, maddə 391, № 5, maddə 522, № 7, maddələr 832, 843, № 11, maddə 1326) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 102.4-cü maddədə "verir və ya icazə verməkdən imtina" sözləri "verilməsi və ya verilməsindən imtina haqqında qərar qəbul" sözləri ilə əvəz edilsin;

3.2. aşağıdakı məzmunda 102.4-1-ci və 102.4-2-ci maddələr əlavə edilsin:

"102.4-1. Müvafiq icra hakimiyyəti orqanı və ya müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum tikinti obyektinin istismarına icazənin verilməsi haqqında qərarı 2 iş günü müddətində sifarişçiyə göndərir. Bu qərar sifarişçiyə daxil olduqdan sonra icazənin verilməsi üçün dövlət rüsumu 5 iş günü müddətində sifarişçi tərəfindən ödənilir və ödənişi təsdiq edən sənəd müvafiq icra hakimiyyəti orqanına və ya müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma təqdim edilir.

102.4-2. Sifarişçi tərəfindən dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd təqdim edildikdən sonra tikinti obyektinin istismarına icazə 2 iş günündən gec olmayaraq sifarişçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir. Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd təqdim edilmədikdə, müvafiq icra hakimiyyəti orqanı və ya müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum tərəfindən icazə ləğv edilir və bu barədə məlumat 2 iş günü müddətində sifarişçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.";

3.3. 102.7-ci maddədə "verilməsi barədə qərar qəbul edildiyi" sözləri "verildiyi" sözü ilə əvəz edilsin;

3.4. aşağıdakı məzmunda 102.7-1-ci maddə əlavə edilsin:

"102.7-1.Tikinti obyektinin istismarına icazənin verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.".

**Maddə 4.** "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 224; 1999, № 8, maddə 476; 2001, № 11, maddələr 673, 696, № 12, maddə 736; 2004, № 7, maddə 505; 2007, № 8, maddə 745, № 10, maddə 938; 2008, № 2, maddə 47; 2016, № 1, maddə 22; 2018, № 5, maddə 849; 2019, № 1, maddə 20, № 11, maddə 1689; 2020, № 7, maddə 842; 2021, № 7, maddə 701) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 10-cu maddəyə aşağıdakı məzmunda altıncı hissə əlavə edilsin:

"Dağ-mədən ayırması statusunun və geoloji ayırma statusunun verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.";

4.2. 39-cu maddənin ikinci hissəsinin dördüncü abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda beşinci abzas əlavə edilsin:

"dağ-mədən ayırması və geoloji ayırma statusunun verilməsinə görə dövlət rüsumu.".

**Maddə 5.** "Balıqçılıq haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 362; 2002, № 5, maddə 241; 2004, № 2, maddə 57; 2007, № 10, maddə 938; 2014, № 8, maddə 959, № 11, maddə 1366; 2019, № 6, maddə 988, № 8, maddə 1383) 9-cu maddəsinin dördüncü hissəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Balıqovlama biletinin verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.".

**Maddə 6.** "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 470; 2004, № 2, maddə 57, № 7, maddə 505, № 11, maddə 902; 2007, № 10, maddə 938; 2008, № 6, maddə 460; 2012, № 11, maddə 1045; 2015, № 4, maddə 363; 2017, № 12 (I kitab), maddə 2195; 2018, № 1, maddə 14; 2020, № 7, maddə 823) 15-ci maddəsinin ikinci hissəsinin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Ovçuluq biletinin verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.".

**Maddə 7.** "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 472; 2001, № 3, maddə 148; 2002, № 5, maddə 238; 2003, № 4, maddə 178; 2004, № 2, maddə 57, № 4, maddə 201; 2008, № 2, maddə 47; 2009, № 10, maddə 769; 2013, № 3, maddə 209; 2014, № 4, maddə 338, № 10, maddə 1152; 2016, № 12, maddə 2011; 2017, № 2, maddə 142, № 6, maddə 1013; 2018, № 7 (I kitab), maddə 1398; 2019, № 1, maddə 20; 2020, № 5, maddələr 511, 512, 521, № 7, maddə 842, № 12 (I kitab), maddə 1431) 57-ci maddəsinə aşağıdakı məzmunda 6-cı hissə əlavə edilsin:

"6. Dövlət ekoloji ekspertizasının obyektləri barədə ekspert rəyinin verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.".

**Maddə 8.** "Ovçuluq haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 316; 2005, № 4, maddə 272; 2008, № 6, maddə 460; 2014, № 11, maddə 1355; 2015, № 4, maddə 362; 2020, № 5, maddə 512) 13.1-ci maddəsinə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Ovçuluq biletinin verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.".

**Maddə 9.** "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 603; 2006, № 6, maddə 482; 2007, № 8, maddə 745; 2008, № 3, maddə 154; 2009, № 12, maddə 948; 2011, № 11, maddə 983; 2012, № 6, maddə 509, № 7, maddə 668, № 11, maddə 1053; 2013, № 6, maddələr 607, 623, № 7, maddə 791, № 12, maddə 1484; 2014, № 1, maddə 7, № 2, maddə 97, № 6, maddələr 597, 604; 2015, № 3, maddə 255; 2016, № 4, maddə 645, № 6, maddə 990, № 7, maddə 1244, № 11, maddələr 1770, 1775; 2017, № 5, maddə 738, № 6, maddə 1037, № 10, maddə 1772, № 11, maddə 1954, № 12 (I kitab), maddə 2235; 2018, № 2, maddə 167, № 3, maddə 382, № 5, maddə 852; 2019, № 1, maddə 25, № 4, maddə 593; 2020, № 7, maddə 843, № 12 (I kitab), maddə 1423; 2021, № 6 (I kitab), maddə 556) 6-cı maddəsində aşağıdakı dəyişikliklər edilsin:

9.1. adında və 6.1-ci maddədə "dövlət qeydiyyatına alınması ilə bağlı sənədlərin verilməsi, habelə girovun dövlət qeydiyyatına alınması" sözləri ", o cümlədən ipotekanın dövlət qeydiyyatına alınması ilə bağlı sənədlərin verilməsi üçün" sözləri ilə əvəz edilsin;

9.2. 6.1.1.1-ci maddəyə "hüquqlarının" sözündən sonra "(o cümlədən vərəsəlik nəticəsində əldə edilmiş hüquqların)" sözləri əlavə edilsin;

9.3. 6.1.2-ci maddədə "Vərəsəlik nəticəsində əldə edilmiş hüquqların, bölünmə" sözləri "Bölünmə" sözü ilə əvəz olunsun, həmin maddədən "girov" sözü çıxarılsın və "aparılması" sözündən sonra "ilə bağlı çıxarışın verilməsi" sözləri əlavə edilsin;

9.4. 6.1.3-cü maddədə "çatdırılmamış daşınmaz əmlak üzərində hüquqların qabaqcadan dövlət qeydiyyatı" sözləri "çatmayan binanın yerləşdiyi torpaq sahəsində tərkib hissələrin bağlı olduğu paylarla əlaqədar təminat qeydinin aparılması" sözləri ilə əvəz edilsin;

9.5. 6.1.4-cü maddədən ", girovun əlavə dövlət qeydiyyatına" sözləri çıxarılsın.

**Maddə 10.** "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 682; 2007, № 12, maddə 1218; 2008, № 2, maddə 49, № 5, maddə 344; 2009, № 12, maddələr 948, 968; 2014, № 10, maddə 1151; 2018, № 4, maddə 640, № 12 (I kitab), maddə 2490, № 6, maddə 995, № 8, maddə 1630; 2020, № 5, maddə 521; 2021, № 6 (I kitab), maddə 557) 39.3-cü maddəsinə "sertifikatının" sözündən sonra ", arayışının, pasportunun" sözləri əlavə edilsin.

**Maddə 11.** "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 70, № 11, maddə 1046; 2009, № 6, maddə 397, № 12, maddələr 948, 949; 2010, № 7, maddə 600; 2011, № 4, maddə 259; 2013, № 4, maddə 356; 2015, № 2, maddə 84, № 4, maddə 365; 2016, № 11, maddə 1787; 2017, № 1, maddə 10, № 5, maddə 746, № 6, maddələr 1023, 1038; 2018, № 3, maddə 374, № 6, maddə 1181, № 12 (I kitab), maddə 2508) 6.10-cu maddəsində "qeydiyyatı və" sözləri "qeydiyyatı, o cümlədən yenidən dövlət qeydiyyatı və onların qeydiyyat sənədlərində dəyişikliklərin dövlət qeydiyyatı," sözləri ilə əvəz olunsun və həmin maddəyə "üçün" sözündən sonra "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə" sözləri əlavə edilsin.

**Maddə 12.** "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 613; 2010, № 6, maddə 489; 2011, № 2, maddə 71; 2013, № 11, maddə 1281; 2014, № 4, maddə 340; 2015, № 5, maddə 507; 2016, № 3, maddə 420, № 12, maddə 2021; 2017, № 1, maddə 11, № 7, maddə 1272; 2018, № 7 (I kitab), maddələr 1393, 1412, № 10, maddə 1966; 2019, № 5, maddə 797; 2020, № 6, maddə 670, № 7, maddə 830; 2021, № 2, maddə 109, № 6 (I kitab), maddə 547, № 8, maddə 898) 53-1.2-ci maddəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İdman mərc oyunlarının həyata keçirilməsi məqsədilə hüquqi şəxsin akkreditasiyası haqqında qərarın verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.".

**Maddə 13.** "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 78; 2015, № 11, maddə 1282; 2016, № 11, maddə 1751; 2017, № 11, maddə 1967; 2018, № 6, maddə 1175, № 11, maddə 2193; 2019, № 7, maddə 1183; 2020, № 7, maddə 831; 2021, № 8, maddə 895) aşağıdakı məzmunda 42.1-2-ci maddə əlavə edilsin:

"42.1-2. Mədəni sərvətlərin ixracına mədəni sərvətin mühafizə şəhadətnaməsinin verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.".

**Maddə 14.** "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 778; 2014, № 10, maddə 1163; 2017, № 6, maddə 1027, № 7, maddə 1257; 2017, № 12 (I kitab), maddə 2198; 2018, № 4, maddə 638; 2021, № 7, maddə 719) aşağıdakı məzmunda 11.3-1-ci maddə əlavə edilsin:

"11.3-1. Standart nümunələrin və ya ölçmə vasitələrinin tipinin təsdiqi barədə sertifikatın verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.".

**Maddə 15.** "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 632, № 12, maddələr 2017, 2036; 2017, № 4, maddə 520, № 5, maddə 743; 2018, № 6, maddə 1187; 2019, № 1, maddə 28, № 5, maddə 797, № 6, maddə 986, № 8, maddə 1360, № 11, maddə 1692, № 12, maddə 1903; 2020, № 6, maddə 662; 2021, № 6 (I kitab), maddə 551, № 7, maddə 701) 3 nömrəli əlavə - "Sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı"nın 27-ci maddəsinə "baytarlıq şəhadətnaməsi," sözlərindən sonra "arayışı," sözü əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2021-ci il*

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 584; 2003, № 6, maddə 267; 2004, № 12, maddə 979; 2005, № 5, maddə 393, № 12, maddə 1083; 2006, № 2, maddə 67, № 3, maddə 225, № 12, maddə 1012; 2007, № 12, maddə 1202; 2008, № 12, maddə 1049; 2009, № 6, maddə 395, № 7, maddə 505; 2012, № 6, maddə 528; 2014, № 8, maddə 958; 2016, № 11, maddə 1777; 2017, № 1, maddələr 18, 32; 2018, № 8, maddə 1671, № 12 (I kitab), maddə 2500; 2019, № 8, maddə 1365, № 11, maddə 1688; 2020, № 12 (I kitab), maddə 1449) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.1.5-ci maddəyə "qismində" sözündən sonra "və (və ya) hüquqi şəxs yaratmadan" sözləri, "müstəqil büdcəyə" sözlərindən sonra isə " və ya pul vəsaitlərinə" sözləri əlavə edilsin.

2. 1.1.7-ci maddəyə "xərclərini" sözündən sonra "(Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondunun gəlir və xərcləri istisna olmaqla)" sözləri əlavə edilsin.

3. 1.1.13-cü maddə aşağıdakı redaksiyada verilsin:

"1.1.13. büdcə ssudaları - dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə, yerli büdcələrə, büdcə təşkilatlarına, dövlət adından yaradılan publik hüquqi şəxslərə, dövlət büdcəsindən maliyyə yardımı alan digər hüquqi şəxslərə, yerli büdcələrdən bələdiyyə təşkilatlarına büdcə ili ərzində verilən və ən geci verildiyi büdcə ilinin sonunadək qaytarılmalı olan maliyyə vəsaiti;".

4. Aşağıdakı məzmunda 1.1.17-1-ci, 1.1.31-1-ci və 1.1.31-2-ci maddələr əlavə edilsin:

"1.1.17-1. transfert - dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə, yerli büdcələrə, büdcədənkənar dövlət fondlarına, məqsədli büdcə fondlarına, büdcədənkənar dövlət fondlarından və məqsədli büdcə fondlarından dövlət büdcəsinə, Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə əvəzsiz verilən (köçürülən) maliyyə vəsaiti;";

"1.1.31-1. icmal büdcənin gəlirləri - dövlət büdcəsinin gəlirləri (Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə transfert istisna olmaqla), Azərbaycan Respublikasının Dövlət Neft Fondunun gəlirləri, Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlirləri (dövlət büdcəsindən verilən dotasiya istisna olmaqla), dövlət sosial müdafiə fondunun gəlirləri (dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait və dövlət büdcəsindən maliyyələşən təşkilatların məcburi sosial sığorta üzrə ödədikləri sığorta haqlarının məbləği istisna olmaqla), işsizlikdən sığorta fondunun gəlirləri (dövlət büdcəsindən maliyyələşən təşkilatların işsizlikdən sığorta üzrə ödədikləri sığorta haqlarının məbləği istisna olmaqla);

1.1.31-2. icmal büdcənin xərcləri - dövlət büdcəsinin xərcləri (Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin məbləği çıxılmaqla), Azərbaycan Respublikası Dövlət Neft Fondunun xərcləri, Naxçıvan Muxtar Respublikasının büdcəsinin xərcləri (dövlət büdcəsindən verilən dotasiyanın məbləği çıxılmaqla), dövlət sosial müdafiə fondunun xərcləri (dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait və dövlət büdcəsindən maliyyələşən təşkilatların məcburi sosial sığorta üzrə ödədikləri sığorta haqlarının məbləği çıxılmaqla), işsizlikdən sığorta fondunun xərcləri (dövlət büdcəsindən maliyyələşən təşkilatların işsizlikdən sığorta üzrə ödədikləri sığorta haqlarının məbləği çıxılmaqla);".

5. 1.1.29-cu maddədə "orta və uzunmüddətli" sözləri "bu Qanunun 11-1-ci maddəsinə əsasən müəyyən edilən" sözləri ilə əvəz edilsin.

6. 1.1.32-1-ci maddədən "ümumi" sözü çıxarılsın.

7. 1.1.33-cü maddə ləğv edilsin.

8. 1.1.34-cü maddə aşağıdakı redaksiyada verilsin:

"1.1.34. icmal büdcə xərclərinin yuxarı həddi - bu Qanunun 11-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla hesablanmış göstərici;".

9. 1.1.35-ci maddədən "digər" sözü çıxarılsın.

10. 1.1.36-cı və 1.1.37-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"1.1.36. icmal büdcənin qeyri-neft baza kəsiri - icmal büdcənin qeyri-neft gəlirləri ilə icmal büdcənin baza xərclərinin fərqi;

1.1.37. ortamüddətli dövr - növbəti büdcə ili və sonrakı üç ili əhatə edən dövr.".

11. 11.5-ci, 11.15-ci (hər iki halda) və 11.16-cı (hər iki halda) maddələrdən "büdcə qaydasına uyğun hesablanmış" sözləri çıxarılsın.

12. 11-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 11-1. Büdcə qaydası**

11-1.1. Ortamüddətli dövr üzrə icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisi və dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisi bu Qanunun 11-1.2-ci maddəsinə uyğun olaraq müəyyən edilən yuxarı hədlərdən çox ola bilməz.

11-1.2. İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin və dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisinin ortamüddətli dövr üzrə hədəflənən yuxarı hədləri, habelə ortamüddətli dövr ərzində hər büdcə ilinin sonuna hədəflənən icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin yuxarı həddi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

11-1.3. Ortamüddətli dövr üzrə icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin və dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisinin yuxarı hədləri həmin dövr üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən xam neftin ixrac qiyməti əsasında hesablanır.

11-1.4. Bu Qanunun 23.4-cü maddəsinə əsasən büdcə qaydasının dayandırılması barədə qərar qəbul edildikdə, bu Qanunun 11-1.3-cü maddəsinə uyğun olaraq icmal büdcənin qeyri-neft baza kəsrinin qeyri-neft ümumi daxili məhsula nisbətinin yuxarı həddi, habelə dövlət borcunun ümumi daxili məhsula nisbətinin yuxarı həddi yenidən hesablanır və bu Qanunun 11-1.2-ci maddəsinə müvafiq olaraq bu qərarların tətbiq olunduğu ildən başlayan ortamüddətli dövr üçün yenidən müəyyən edilir.

11-1.5. İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin və dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisinin hesablanması qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.".

13. 12-ci maddə üzrə:

13.1. 12.1.8-ci maddədə "mühüm investisiya layihələrini" sözləri "investisiya layihələrinin sahələr və istiqamətlər üzrə ümumi məbləğlərini" sözləri ilə əvəz edilsin;

13.2. 12.1.9-cu və 12.1.12-ci maddələr ləğv edilsin.

13.3. 12.1.14-cü maddə aşağıdakı redaksiyada verilsin:

"12.1.14. cari ilin ötən dövrü üçün xalis maliyyə aktivləri barədə arayış;".

14. 18-ci maddə üzrə:

14.1. 18.3-1-ci maddədən "aylıq," sözü çıxarılsın;

14.2. 18.7-ci maddəyə "tərəfindən" sözündən sonra "yarımillik və illik dövriliklə" sözləri əlavə edilsin.

15. 19.6-cı maddədən "birdəfəlik təyinatlı" sözləri çıxarılsın.

16. 20.2-ci maddənin dördüncü cümləsi ləğv edilsin.

17. 25.3-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"25.3-1. Dövlət borcunun əsas məbləğinin qaytarılması üzrə ödənişlər cari büdcə ili ərzində cəlb edilən dövlət borcalması hesabına təmin edildikdə, bu ödənişlərin həmin ilin dövlət büdcəsində dövlət borcuna xidmət edilməsi ilə bağlı nəzərdə tutulan xərclərdən artıq olan hissəsi dövlət büdcəsinin xərclərinə aid edilmir.".

18. 27-ci maddə üzrə:

18.1. 27.1-ci maddənin birinci cümləsində (birinci halda) "büdcədənkənar dövlət fondları" sözləri "bu Qanunun 1.1.31-1-ci maddəsində nəzərdə tutulan büdcədənkənar dövlət fondlarının" sözləri ilə əvəz olunsun və həmin cümləyə (ikinci halda) "büdcədənkənar" sözündən əvvəl "həmin" sözü əlavə edilsin;

18.2. aşağıdakı məzmunda 27.1-1-ci maddə əlavə edilsin:

"27.1-1. Büdcədənkənar dövlət fondlarının idarə olunması, onların vəsaitlərinin istifadəsi və uçotu bu Qanunun müddəaları nəzərə alınmaqla, həmin büdcədənkənar dövlət fondlarının fəaliyyətini tənzimləyən qanunlara və digər normativ-hüquqi aktlara uyğun həyata keçirilir.";

18.3. 27.2-ci maddənin birinci cümləsinə "xərclər" sözündən sonra ", habelə Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondunun xərcləri" sözləri əlavə olunsun və həmin maddənin ikinci cümləsi ləğv edilsin;

18.4. 27.4-cü maddənin ikinci cümləsi ləğv edilsin;

18.5. 27.5-ci maddənin birinci cümləsində "Büdcədənkənar" sözü "Bu Qanunun 1.1.31-1-ci maddəsində nəzərdə tutulan büdcədənkənar" sözləri ilə, həmin maddənin ikinci cümləsində isə "Büdcədənkənar" sözü "Həmin büdcədənkənar" sözləri ilə əvəz edilsin;

18.6. 27.7-ci maddədə "büdcədənkənar dövlət fondlarının büdcələrinin layihələrinə və" sözləri "bu Qanunun 1.1.31-1-ci maddəsində nəzərdə tutulan büdcədənkənar dövlət fondlarının büdcələrinin layihələrinə və həmin" sözləri ilə əvəz edilsin;

18.7. aşağıdakı məzmunda 27.8-ci və 27.9-cu maddələr əlavə edilsin:

"27.8. Hüquqi şəxs yaratmadan təsis edilmiş büdcədənkənar dövlət fondlarının xərclərinin yuxarı həddi həmin fondların büdcə ilinin əvvəlinə olan qalığından və il ərzində mədaxil olunacaq vəsaitin cəmindən yuxarı ola bilməz.

27.9. Hüquqi şəxs yaratmadan təsis edilmiş büdcədənkənar dövlət fondlarının maliyyə əməliyyatları barədə illik hesabatları dövlət büdcəsinin icrası barədə hesabatla birgə təqdim olunur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 dekabr 2021-ci il*

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 24 dekabr tarixli 440-VIQD nömrəli Qanununun tətbiqi, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 31 oktyabr tarixli 809 nömrəli Fərmanında dəyişiklik edilməsi və "İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin və dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisinin hesablanması Qaydası"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 24 dekabr tarixli 440-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 11-1.2-ci, 11-1.3-cü və 11-1.5-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 11-1.2-ci və 11-1.5-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 11-1.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

2. "İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin və dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisinin hesablanması Qaydası" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 11-1.2-ci maddəsinə uyğun olaraq, icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin və dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisinin ortamüddətli dövr üzrə hədəflənən yuxarı hədləri, habelə 2022-ci ilin sonuna hədəflənən icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin yuxarı həddi barədə təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 24 dekabr tarixli 440-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

4. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 31 oktyabr tarixli 809 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 605; 2004, № 12, maddə 1014; 2009, № 7, maddə 527; 2010, № 2, maddə 77; 2014, № 5, maddə 477, № 10, maddə 1187; 2016, № 8, maddə 1384; 2017, № 1, maddə 36, № 11, maddə 2025, № 12 (I kitab), maddə 2327; 2018, № 8, maddə 1684, № 12 (I kitab), maddə 2576) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bənddə "11-1.4-cü, 11-1.6-cı (hər iki halda), 11-1.7-ci," sözləri "11-1.2-ci, 11-1.3-cü, 11-1.5-ci," sözləri ilə əvəz edilsin;

4.2. 2.12-ci bənddə "11-1.4-cü, 11-1.7-ci" sözləri "11-1.2-ci, 11-1.5-ci" sözləri ilə əvəz olunsun və həmin bəndə "orqan" sözündən sonra "(qurum)" sözü əlavə edilsin;

4.3. 2.13-cü bənddə "11-1.6-cı (ikinci halda)" sözləri "11-1.3-cü" sözləri ilə əvəz olunsun və həmin bəndə "orqan" sözündən sonra "(qurum)" sözü əlavə edilsin;

4.4. 2.14-cü bənddən ",11-1.6-cı (birinci halda)" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2021-ci il*

"Azərbaycan Respublikasının Su Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Yerin təki haqqında", "Balıqçılıq haqqında", "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Ovçuluq haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Baytarlıq haqqında", "Dərman vasitələri haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Mədəniyyət haqqında", "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 416-VIQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Su Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Yerin təki haqqında", "Balıqçılıq haqqında", "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Ovçuluq haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Baytarlıq haqqında", "Dərman vasitələri haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Mədəniyyət haqqında", "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 416-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 102.4-1-ci maddəsinin birinci (ikinci halda) və ikinci (ikinci halda) cümlələrində və 102.4-2-ci maddəsinin ikinci (ikinci halda) cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 102.4-1-ci maddəsinin birinci (birinci halda) və ikinci (birinci halda) cümlələrində, 102.4-2-ci maddəsinin ikinci (birinci halda) cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini aşağıdakı orqanlar həyata keçirirlər:

1.2.1. həmin Məcəllənin 78.2-ci maddəsində nəzərdə tutulmuş dövlət əhəmiyyətli tikinti obyektləri, habelə bir neçə şəhər və (və ya) rayon (şəhər rayonu istisna olmaqla) inzibati ərazi vahidi ərazisində yerləşən tikinti obyektlərinə münasibətdə - Azərbaycan Respublikasının Nazirlər Kabineti;

1.2.2. digər tikinti obyektlərinə münasibətdə (dövlət mühafizəsində olan daşınmaz tarix və mədəniyyət abidələrinin mühafizə zonalarına münasibətdə - həmin Məcəllənin 75.1-ci maddəsinin birinci cümləsinə əsasən, tikintiyə icazə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin, tabeliyindəki dövlət qoruqlarının ərazilərində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin razılığı ilə verilməklə):

1. Bakı şəhərinin inzibati ərazisində və "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının 1.6-cı və 1.13-cü bəndləri ilə müəyyən edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əhatə etdiyi şəhər və rayonların inzibati ərazilərində tikinti obyektlərinə münasibətdə - Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi;

2. digər inzibati ərazi vahidlərində tikinti obyektlərinə münasibətdə - yerli icra hakimiyyəti orqanları;

1.3. həmin Məcəllənin 102.4-1-ci maddəsinin birinci və ikinci cümlələrində, 102.4-2-ci maddəsinin ikinci cümləsində "qurum" dedikdə Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamına verilmiş torpaq sahəsində bu qurumun sərəncamında olduğu müddətdə həyata keçirilən tikinti niyyətlərinə münasibətdə həmin Agentlik, reklam qurğularına münasibətdə isə Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazisində "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Bakı şəhərində yerləşən Dənizkənarı Milli Parkın ərazisinə münasibətdə Dənizkənarı Bulvar İdarəsi nəzərdə tutulur.

2. "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 847; 2014, № 10, maddə 1196; 2015, № 3, maddə 270, № 5, maddə 531, № 9, maddə 1006; 2016, № 6, maddə 1059, № 11, maddə 1824; 2017, № 1, maddə 40, № 5, maddə 825, № 11, maddə 2012; 2018, № 3, maddə 417, № 5, maddə 910, № 8, maddə 1676, № 11, maddə 2289, № 12 (I kitab), maddə 2616; 2019, № 3, maddə 434, № 5, maddə 826, № 10, maddə 1581; 2020, № 5, maddə 559, № 6, maddə 684, № 7, maddə 891; 2020, № 11, maddə 1341, № 8, maddə 915) 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4.1-ci bəndə "102.4-cü maddəsində (ikinci və üçüncü hallarda)" sözlərindən sonra ", 102.4-1-ci maddəsinin birinci (ikinci halda) və ikinci (ikinci halda) cümlələrində və 102.4-2-ci maddəsinin ikinci (ikinci halda) cümləsində" sözləri əlavə edilsin;

2.2. 4.7-1-ci bəndə "102.4-cü (birinci halda)" sözlərindən sonra ", 102.4-1-ci maddəsinin birinci (birinci halda) və ikinci (birinci halda) cümlələrində və 102.4-2-ci maddəsinin ikinci (birinci halda) cümləsində" sözləri əlavə edilsin;

2.3. 4.7-2-ci bəndə "102.4-cü (ikinci halda)" sözlərindən sonra ", 102.4-1-ci maddəsinin birinci və ikinci cümlələrində, 102.4-2-ci maddəsinin ikinci cümləsində," sözləri əlavə edilsin;

2.4. 4.7-3-cü bəndə "102.4-cü (birinci halda)" sözlərindən sonra ", 102.4-1-ci maddəsinin birinci və ikinci cümlələrində, 102.4-2-ci maddəsinin ikinci cümləsində," sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Su Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Yerin təki haqqında", "Balıqçılıq haqqında", "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Ovçuluq haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Baytarlıq haqqında", "Dərman vasitələri haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Mədəniyyət haqqında", "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 416-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

4. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2021-ci il*

# "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7 (I kitab), maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45, № 4, maddələr 571, 596, № 5, maddə 797, № 7, maddələr 1176, 1181, № 8, maddələr 1360, 1363, № 7, maddələr 1190, 1192, № 8, maddə 1371, № 11, maddələr 1681, 1694; 2020, № 5, maddələr 521, 524, № 6, maddə 665, № 7, maddələr 824, 828, 837, 851, 853, № 11, maddə 1327, № 12 (I kitab), maddə 1423; 2021, № 2, maddə 117, № 6 (I kitab), maddə 554, № 7, maddələr 711, 714, 718; Azərbaycan Respublikasının 2021-ci il 30 sentyabr tarixli 383-VIQD nömrəli və 5 noyabr tarixli 396-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.3-cü maddədə "qanunda müəyyən edilmiş" sözləri "Qanunun 17.6-1-ci maddəsində nəzərdə tutulan" sözləri ilə, "qanunlarında" sözü "normativ hüquqi aktlarında" sözləri ilə əvəz olunsun və həmin maddəyə "ödənilməsi" sözündən sonra "qaydası" sözü əlavə edilsin;

1.2. 2-ci maddə üzrə:

1.2.1. 2.0.8-2-ci maddəyə "markasının" sözündən sonra "və məcburi nişanlamanın" sözləri əlavə edilsin;

1.2.2. 2.0.11-ci maddədə "girovun" sözü "ipotekanın" sözü ilə əvəz edilsin;

1.2.3. 2.0.13-cü, 2.0.13-1 - 2.0.13-3-cü və 2.0.14-cü maddələr ləğv edilsin;

1.2.4. 2.0.19-cu maddədə "qeydiyyatı və" sözləri "qeydiyyatı, o cümlədən yenidən dövlət qeydiyyatı və onların qeydiyyat sənədlərində dəyişikliklərin dövlət qeydiyyatı," sözləri ilə əvəz edilsin;

1.3. 4-cü maddə üzrə:

1.3.1. 4.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"4.1. Bu Qanunda nəzərdə tutulan xidmətlərə və hüquqi hərəkətlərə görə ödənilən dövlət rüsumu tam məbləğdə dövlət büdcəsinə köçürülür.";

1.3.2. 4.1-1 - 4.1-6-cı maddələr ləğv edilsin;

1.4. 5.3-cü maddədə "45" rəqəmləri "20" rəqəmləri ilə əvəz edilsin;

1.5. 6.1-ci maddədə "rüsumun" sözü "dövlət rüsumunun" sözləri ilə əvəz edilsin;

1.6. 10.1.1-ci, 10.4.2-ci, 10.9.1-ci və 10.19-cu maddələrdə "20" rəqəmləri "25" rəqəmləri ilə, 10.1.2-ci maddədə "250" rəqəmləri "280" rəqəmləri ilə, 10.1.3-cü maddədə "20" rəqəmləri "35" rəqəmləri ilə, 10.2.1-ci maddədə "25" rəqəmləri "35" rəqəmləri ilə, 10.2.2-ci maddədə "50" rəqəmləri "70" rəqəmləri ilə, 10.3.1-ci, 10.7.1-ci, 10.7.2-ci, 10.8.1-ci, 10.10-cu, 10.11.1-ci, 10.12.2-ci və 10.15-ci maddələrdə "10" rəqəmləri "15" rəqəmləri ilə, 10.3.2-ci maddədə "15" rəqəmləri "20" rəqəmləri ilə, 10.4.1-ci və 10.16-cı maddələrdə "5" rəqəmi "6" rəqəmi ilə, 10.4.3-cü maddədə "30" rəqəmləri "40" rəqəmləri ilə, 10.5.1-ci maddədə "110" rəqəmləri "150" rəqəmləri ilə, 10.5.2-ci maddədə "44" rəqəmləri "50" rəqəmləri ilə, 10.6.1-ci maddədə "55" rəqəmləri "60" rəqəmləri ilə, 10.6.2-ci maddədə "22" rəqəmləri "25" rəqəmləri ilə, 10.7.3-cü maddədə "80" rəqəmləri "100" rəqəmləri ilə, 10.8.2-ci, 10.11.2-ci, 10.13-cü və 10.14-cü maddələrdə "20" rəqəmləri "30" rəqəmləri ilə, 10.9.2-ci maddədə "40" rəqəmləri "50" rəqəmləri ilə, 10.12.1-ci və 10.20-ci maddələrdə "5" rəqəmi "10" rəqəmləri ilə, 10.17-ci maddədə "2" rəqəmi "3" rəqəmi ilə, 10.21-ci və 10.23-cü maddələrdə "5" rəqəmi "7,5" rəqəmləri ilə, 10.24-cü maddədə "100" rəqəmləri "150" rəqəmləri ilə, 10.25-ci maddədə "50" rəqəmləri "75" rəqəmləri ilə əvəz edilsin;

1.7. 11.2-ci maddədə "iki" sözü "bir" sözü ilə əvəz edilsin;

1.8. 12.1-ci maddədə "5" rəqəmi "10" rəqəmləri ilə, 12.2.1-ci və 12.2.2-ci maddələrdə "15" rəqəmləri "20" rəqəmləri ilə, 12.3-cü maddədə "10" rəqəmləri "15" rəqəmləri ilə, 12.4-cü və 12.5-ci maddələrdə "2" rəqəmi "3" rəqəmi ilə əvəz edilsin;

1.9. 14.1.1.1-ci maddədə "10" rəqəmləri "15" rəqəmləri ilə, 14.1.1.2-ci, 14.1.2.1-ci, 14.1-1.1.1-ci və 14.3-2.2-ci maddələrdə "20" rəqəmləri "25" rəqəmləri ilə, 14.1.1.3-cü maddədə "30" rəqəmləri "35" rəqəmləri ilə, 14.1.1.4-cü maddədə "40" rəqəmləri "60" rəqəmləri ilə, 14.1.2.2-ci, 14.1.3.1-ci və 14.1-1.1.3-cü maddələrdə "40" rəqəmləri "55" rəqəmləri ilə, 14.1.2.3-cü maddədə "60" rəqəmləri "75" rəqəmləri ilə, 14.1.2.4-cü maddədə "80" rəqəmləri "120" rəqəmləri ilə, 14.1.3.2-ci maddədə "80" rəqəmləri "115" rəqəmləri ilə, 14.1.3.3-cü maddədə "120" rəqəmləri "155" rəqəmləri ilə, 14.1.3.4-cü maddədə "160" rəqəmləri "210" rəqəmləri ilə, 14.1-1.1.2-ci və 14.1-1.2.1-ci maddələrdə "30" rəqəmləri "40" rəqəmləri ilə, 14.1-1.1.4-cü maddədə "50" rəqəmləri "75" rəqəmləri ilə, 14.1-1.2.2-ci maddədə "50" rəqəmləri "70" rəqəmləri ilə, 14.1-1.2.3-cü maddədə "70" rəqəmləri "100" rəqəmləri ilə, 14.1-1.2.4-cü maddədə "90" rəqəmləri "135" rəqəmləri ilə, 14.1-1.3.1-ci maddədə "50" rəqəmləri "65" rəqəmləri ilə, 14.1-1.3.2-ci maddədə "90" rəqəmləri "125" rəqəmləri ilə, 14.1-1.3.3-cü maddədə "130" rəqəmləri "165" rəqəmləri ilə, 14.1-1.3.4-cü maddədə "170" rəqəmləri "220" rəqəmləri ilə, 14.2-ci maddədə "11" rəqəmləri "14" rəqəmləri ilə, 14.3.2-ci maddədə "25" rəqəmləri "50" rəqəmləri ilə, 14.3.3-cü və 14.3-1.2-ci maddələrdə "35" rəqəmləri "70" rəqəmləri ilə, 14.3-1.1-ci maddədə "15" rəqəmləri "30" rəqəmləri ilə, 14.3-1.3-cü maddədə "45" rəqəmləri "90" rəqəmləri ilə, 14.3-2.1-ci maddədə "4" rəqəmi "5" rəqəmi ilə, 14.3-2.3-cü maddədə "25" rəqəmləri "30" rəqəmləri ilə, 14.4-cü maddədə "3" rəqəmi "5" rəqəmi ilə, 14.9-cu maddədə "10" rəqəmləri "20" rəqəmləri ilə, 14.11-ci və 14.13-cü maddələrdə "6" rəqəmi "10" rəqəmləri ilə, 14.14-cü maddədə "110" rəqəmləri "200" rəqəmləri ilə, 14.16-cı maddədə "5" rəqəmi "10" rəqəmləri ilə əvəz edilsin;

1.10. 18-ci maddə üzrə:

1.10.1. 18.12.1-ci, 18.33-cü, 18.34.1-ci və 18.34.2-ci maddələrdə "20" rəqəmləri "30" rəqəmləri ilə, 18.12.2-ci maddədə "25" rəqəmləri "40" rəqəmləri ilə, 18.34.3-cü maddədə "60" rəqəmləri "80" rəqəmləri ilə, 18.34.4-cü maddədə "35" rəqəmləri "50" rəqəmləri ilə, 18.34.5-ci maddədə "80" rəqəmləri "100" rəqəmləri ilə, 18.34.6-cı maddədə "45" rəqəmləri "70" rəqəmləri ilə, 18.34-1-ci maddədə "150" rəqəmləri "200" rəqəmləri ilə, 18.34-2-ci maddədə "120" rəqəmləri "160" rəqəmləri ilə, 18.34-3-cü maddədə "40" rəqəmləri "80" rəqəmləri ilə, 18.48-ci maddədə "30" rəqəmləri "35" rəqəmləri ilə, 18.55.1-ci, 18.56.1-ci, 18.59-cu, 18.60.1-ci, 18.60.5-ci, 18.60.6-cı və 18.65.3.1-ci maddələrdə "10" rəqəmləri "20" rəqəmləri ilə, 18.55.2-ci, 18.56.2-ci, 18.60.2-ci, 18.65.3.2-ci, 18.65.4.2-ci, 18.65.5.2-ci və 18.65.7.2-ci maddələrdə "5" rəqəmi "10" rəqəmləri ilə, 18.60.3-cü, 18.60.4-cü, 18.60.10-18.60.16-cı və 18.62.1-ci maddələrdə "25" rəqəmləri "50" rəqəmləri ilə, 18.60.8-ci və 18.60.9-cu maddələrdə "35" rəqəmləri "70" rəqəmləri ilə, 18.61.1-ci maddədə "10" rəqəmləri "20" rəqəmləri və "7" rəqəmi "10" rəqəmləri ilə, 18.61.2-ci maddədə "7" rəqəmi "15" rəqəmləri və "6" rəqəmi "10" rəqəmləri ilə, 18.61.3-cü maddədə isə "9" rəqəmi "20" rəqəmləri və "6" rəqəmi "10" rəqəmləri ilə, 18.65.1.2-ci, 18.65.2.2-ci və 18.65.8-18.65.10-cu maddələrdə "10" rəqəmləri "15" rəqəmləri ilə, 18.65.5.1-ci və 18.65.7.1-ci maddələrdə "25" rəqəmləri "30" rəqəmləri ilə, 18.65.6.2-ci maddədə "22" rəqəmləri "30" rəqəmləri ilə, 18.65.6.3-cü maddədə "11" rəqəmləri "15" rəqəmləri ilə, 18.66-1-ci maddədə isə "20" rəqəmləri "25" rəqəmləri ilə əvəz edilsin;

1.10.2. aşağıdakı məzmunda 18.55-1-ci və 18.55-2-ci maddələr əlavə edilsin:

"18.55-1. Ovçuluq biletinin verilməsinə görə - 25 manat.

18.55-2. Balıqovlama biletinin verilməsinə görə - 25 manat.";

1.10.3. 18.60.7-ci maddədə "yekcinsliyinin," sözü "fərqliliyinin, oxşarlığının və" sözləri ilə və "60" rəqəmləri "120" rəqəmləri ilə əvəz edilsin;

1.10.4. 18.62-1.1-ci maddədə "hüquqi şəxslər 20 manat, fiziki şəxslər 5" sözləri, 18.62-1.2-ci maddədə isə "hüquqi şəxslər 20 manat, fiziki şəxslər 10" sözləri "30" rəqəmləri ilə əvəz edilsin;

1.10.5. 18.63.1 - 18.63.3-cü maddələrdə "hüquqi şəxslər 20 manat, fiziki şəxslər 5" sözləri "30" rəqəmləri ilə əvəz edilsin;

1.10.6. 18.64.1-ci və 18.64.2-ci maddələrdə "hüquqi şəxslər 30 manat, fiziki şəxslər 10" sözləri "40" rəqəmləri ilə əvəz edilsin;

1.10.7. 18.65.3-1-ci maddədə "görə dövlət rüsumunun məbləği müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir." sözləri "görə:" sözü ilə əvəz edilsin və aşağıdakı məzmunda 18.65.3-1.1 - 18.65.3-1.5-ci maddələr əlavə edilsin:

| Minik avtomobilinin mühərrikinin həcmi | Dövlət rüsumunun məbləği |
|---|---|
| 18.65.3-1.1. 2000 kubsantimetrədək olduqda | mühərrikin həcminin hər kubsantimetrinə görə - 0,05 manat |
| 18.65.3-1.2. 3000 kubsantimetrədək olduqda | 100 manat + mühərrikin həcminin 2001-3000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə - 0,1 manat |
| 18.65.3-1.3. 4000 kubsantimetrədək olduqda | 200 manat + mühərrikin həcminin 3001-4000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə - 0,2 manat |
| 18.65.3-1.4. 5000 kubsantimetrədək olduqda | 400 manat + mühərrikin həcminin 4001-5000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə - 0,3 manat |
| 18.65.3-1.5. 5000 kubsantimetrdən çox olduqda | 1500 manat |

1.10.8. 18.65.4.1-ci maddədən "milli və beynəlxalq" sözləri çıxarılsın və həmin maddədə "20" rəqəmləri "40" rəqəmləri ilə əvəz edilsin;

1.10.9. 18.65.4.1-1-ci maddədən "milli və beynəlxalq" sözləri çıxarılsın və həmin maddədə "10" rəqəmləri "20" rəqəmləri ilə əvəz edilsin;

1.10.10. aşağıdakı məzmunda 18.65.5.1-1-ci maddə əlavə edilsin:

"18.65.5.1-1. beynəlxalq sürücülük vəsiqəsinin verilməsi və dəyişdirilməsi üçün - 12 manat;";

1.10.11. 18.65.6.1-ci maddənin cədvəl hissəsi aşağıdakı redaksiyada verilsin:

| Dövlət qeydiyyat nişanında əks olunmuş rəqəmlərin kombinasiyası | Dövlət rüsumunun məbləği | |
|---|---|---|
| | seriyası müxtəlif hərflərdən ibarət olduqda | seriyası eyni hərflərdən ibarət olduqda |
| 001, 002, 003, 004, 005, 006, 007, 008, 009 | 2000 | 3000 |
| 100, 200, 300, 400, 500, 600, 700, 800, 900 | 1500 | 2000 |
| 111, 222, 333, 444, 555, 666, 777, 888, 999 | 1000 | 1500 |

1.10.12. 18.66-cı maddə aşağıdakı redaksiyada verilsin:

"18.66. baytarlıq şəhadətnaməsinin, sertifikatının, arayışının, pasportunun və baytarlıq preparatlarının qeydiyyat şəhadətnaməsinin verilməsi üçün:

18.66.1. baytarlıq şəhadətnaməsinin verilməsi (bir sənəd) - 10 manat;

18.66.2. baytarlıq sertifikatının verilməsi (bir sənəd) - 25 manat;

18.66.3. baytarlıq arayışının verilməsi (bir sənəd) - 5 manat;

18.66.4. baytarlıq pasportunun verilməsi (bir sənəd) - 20 manat;

18.66.5. baytarlıq preparatlarının qeydiyyat şəhadətnaməsinin verilməsi (bir preparat) - 120 manat.";

1.10.13. aşağıdakı məzmunda 18.66-2-ci və 18.70-18.78-ci maddələr əlavə edilsin:

"18.66-2. Heyvanların, heyvan mənşəli məhsulların və xammalın baytarlıq normalarına cavab verməsini təsdiq edən ekspertiza aktının verilməsi və ya ətin, heyvan və quş cəmdəklərinin və digər məhsulların üzərinə nişanın qoyulması (1 müayinə üçün):

18.66-2.1. qaramal və ya digər iri heyvanların əti (1 cəmdək) - 5 manat;

18.66-2.2. qoyun və donuz əti (1 cəmdək), donuz piyi (1 partiya) - 4 manat;

18.66-2.3. diri quş və quş əti (1 baş və ya 1 cəmdək) - 0,02 manat;

18.66-2.4. hazır ət məhsulları (hər biri 1 partiya) - 5 manat;

18.66-2.5. içalat, dil, baş, dırnaq (1 partiya) - 3 manat;

18.66-2.6. balıq (diri, dondurulmuş və ya hisə verilmiş) - 1 partiya - 3,50 manat;

18.66-2.7. yumurta (topdansatış - 1 partiya (1000 ədəddən artıq) - 2,50 manat;

18.66-2.8. yumurta (pərakəndə satış - 1 partiya (1000 ədədə qədər) - 1,30 manat;

18.66-2.9. süd və süd məhsulları, mum, vərəmum (hər biri 1 partiya) - 2,60 manat;

18.66-2.10. arı balı (1 partiya) - 4,50 manat.";

"18.70. Su obyektlərindən xüsusi məqsədlər üçün istifadəyə icazənin verilməsi - 50 manat.

18.71. Dövlət ekoloji ekspertizasına aid edilən obyektlər barədə ekspert rəyinin verilməsi - 50 manat.

18.72. Yerin təki sahəsində faydalı qazıntıların çıxarılması, faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların tikmək və istismar etmək məqsədilə dağ-mədən ayırması statusunun verilməsi - 50 manat.

18.73. Geoloji öyrənilmə məqsədilə ayrılan yerin təki sahələrinə geoloji ayırma statusunun verilməsi - 50 manat.

18.74. Səlahiyyətli iqtisadi operator statusunun verilməsi haqqında qərarın qəbul edilməsi - 100 manat.

18.75. İdman mərc oyunlarının həyata keçirilməsi məqsədilə hüquqi şəxsin akkreditasiyası haqqında qərarın verilməsi - 2000 manat.

18.76. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən güc həddindən yuxarı elektrik qurğularının istismara buraxılış aktının verilməsi - 50 manat.

18.77. İnvestisiya təşviqi sənədinin verilməsi - 70 manat.

18.78. Mədəni sərvətlərin ixracına mədəni sərvətin mühafizə şəhadətnaməsinin verilməsi - 20 manat.";

1.11. aşağıdakı məzmunda 19.5-ci maddə əlavə edilsin:

"19.5. Bu Qanunun 18.65.3-1-ci maddəsi ilə müəyyən olunan dövlət rüsumunun məbləğlərinə minik avtomobillərinin istehsal tarixindən asılı olaraq aşağıdakı əmsallar tətbiq edilir:

19.5.1. istehsal tarixi 4 ilədək olan minik avtomobillərinə - 1,0;

19.5.2. istehsal tarixi 4 ildən 10 ilədək olan minik avtomobillərinə - 0,8;

19.5.3. istehsal tarixi 10 ildən çox olan minik avtomobillərinə - 0,3." ;

1.12. 19-1-ci maddədə "50" rəqəmləri "65" rəqəmləri ilə əvəz edilsin;

1.13. 20.1-ci maddədə "220" rəqəmləri "300" rəqəmləri ilə, 20.2-ci maddədə "3" rəqəmi "5" rəqəmi ilə, 20.3-cü maddədə "11" rəqəmləri "15" rəqəmləri ilə, 20.5-ci maddədə "2" rəqəmi "3" rəqəmi ilə və 20.6-cı maddədə "1" rəqəmi "2" rəqəmi ilə əvəz edilsin;

1.14. 20-3-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 20-3. Aksiz markasının və məcburi nişanlamanın verilməsinə görə tutulan dövlət rüsumunun dərəcələri**

| Dövlət rüsumu tutulmalı olan hərəkətlər | Dövlət rüsumunun məbləği |
|---|---|
| 20-3.1. Aksiz markasının verilməsinə görə | 0,07 |
| 20-3.2. Məcburi nişanlamanın verilməsinə görə: | |
| 20-3.2.1. aksizli mallara məcburi nişanlamanın verilməsinə görə | 0,07 |
| 20-3.2.2. məcburi nişanlanmalı olan digər mallara məcburi nişanlamanın verilməsinə görə | 0,03 |

1.15. aşağıdakı məzmunda 20-4-cü maddə əlavə edilsin:

**"Maddə 20-4. Aksiz markasının və məcburi nişanlamanın verilməsinə görə dövlət rüsumunun ödənilməsinin xüsusiyyətləri**

Həm aksiz markası, həm də məcburi nişanlama tətbiq edilməli olan mallara yalnız bu Qanunun 20-3.2.1-ci maddəsində nəzərdə tutulan dövlət rüsumu tutulur.";

1.16. 21.1.1-ci maddədə "220" rəqəmləri "300" rəqəmləri ilə, 21.1.2-ci maddədə "440" rəqəmləri "600" rəqəmləri ilə, 21.1.3-cü maddədə "880" rəqəmləri "1200" rəqəmləri ilə, 21.2-ci maddədə "1100" rəqəmləri "1500" rəqəmləri ilə, 21.3-cü maddədə "3" rəqəmi "5" rəqəmi ilə, 21.4-cü maddədə "1" rəqəmi "2" rəqəmi ilə, 21.5-ci maddədə "5" rəqəmi "10" rəqəmləri ilə və 21.6-cı maddədə "2" rəqəmi "4" rəqəmi ilə əvəz edilsin;

1.17. 23-1-ci və 23-2-ci maddələr ləğv edilsin;

1.18. 26-cı maddə üzrə:

1.18.1. adında "girovun" sözü "ipotekanın" sözü ilə əvəz edilsin;

1.18.2. 26.1.1-ci maddəyə "hüquqlarının" sözündən sonra "(o cümlədən vərəsəlik nəticəsində əldə edilmiş hüquqların)" sözləri əlavə edilsin və həmin maddədə "30" rəqəmləri "50" rəqəmləri ilə əvəz edilsin;

1.18.3. 26.1.2-ci maddədə "50" rəqəmləri "75" rəqəmləri ilə, 26.5-ci maddədə "20" rəqəmləri "30" rəqəmləri ilə əvəz edilsin;

1.18.4. 26.2-ci maddədə "Vərəsəlik nəticəsində əldə edilmiş hüquqların, bölünmə" sözləri "Bölünmə" sözü ilə, "20" rəqəmləri "30" rəqəmləri əvəz olunsun, həmin maddədən "girov" sözü çıxarılsın və həmin maddəyə "aparılması" sözündən sonra "ilə bağlı çıxarışın verilməsi" sözləri əlavə edilsin;

1.18.5. 26.3-cü maddədə "çatdırılmamış daşınmaz əmlak üzərində hüquqların qabaqcadan dövlət qeydiyyatı" sözləri "çatmayan binanın yerləşdiyi torpaq sahəsində tərkib hissələrin bağlı olduğu paylarla əlaqədar təminat qeydinin aparılması" sözləri ilə və "20" rəqəmləri "30" rəqəmləri ilə əvəz edilsin;

1.18.6. 26.4-cü maddədən ", girovun əlavə qeydiyyatına" sözləri və "daşınmaz əmlak üzərində mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması barədə çıxarışın dublikatının verilməsi" sözləri çıxarılsın və həmin maddədə "10" rəqəmləri "15" rəqəmləri ilə əvəz edilsin;

1.19. 27-1.1-ci və 27-1.2-ci maddələrdə "2" rəqəmi "3" rəqəmi ilə, 27-1.3-cü maddədə "20 qəpik" sözləri "0,5 manat" sözləri ilə, 27-1.4-cü maddədə "6" rəqəmi "10" rəqəmləri ilə, 27-1.5.1-ci maddədə "4" rəqəmi "10" rəqəmləri ilə və 27-1.5.2-ci maddədə "2" rəqəmi "5" rəqəmi ilə əvəz edilsin;

1.20. 28.1-28.3-cü, 28.7-28.10-cu, 28.21-ci və 28.22-ci maddələrdə "50" rəqəmləri "65" rəqəmləri ilə, 28.4-cü maddədə "40" rəqəmləri "60" rəqəmləri ilə, 28.5-ci maddədə "50" rəqəmləri "75" rəqəmləri ilə, 28.6-cı və 28.13-cü maddələrdə "25" rəqəmləri "40" rəqəmləri ilə, 28.11-ci maddədə "30" rəqəmləri "40" rəqəmləri ilə, 28.12-ci, 28.15-ci və 28.19-cu maddələrdə "10" rəqəmləri "15" rəqəmləri ilə, 28.16-cı, 28.17.1-28.17.3-cü, 28.18.1-28.18.3-cü və 28.18.5-ci maddələrdə "5" rəqəmi "10" rəqəmləri ilə, 28.18.4-cü maddədə "10" rəqəmləri "20" rəqəmləri ilə və 28.20-ci maddədə "15" rəqəmləri "25" rəqəmləri ilə əvəz edilsin;

1.21. 29.1 - 29.3-cü maddələrdə "100" rəqəmləri "150" rəqəmləri ilə, 29.4-29.7-ci maddələrdə "50" rəqəmləri "75" rəqəmləri ilə, 29.8-29.11-ci və 29.13-cü maddələrdə "30" rəqəmləri "45" rəqəmləri ilə və 29.12-ci maddədə "20" rəqəmləri "30" rəqəmləri ilə əvəz edilsin;

1.22. 30-cu maddə üzrə:

1.22.1. 30.1-ci maddədə "20" rəqəmləri "30" rəqəmləri ilə əvəz edilsin;

1.22.2. 30.3-cü maddə ləğv edilsin;

1.22.3. 30.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

| | |
|---|---|
| 30.4. Standart nümunələrin və ya ölçmə vasitələrinin tipinin təsdiqi barədə sertifikatın verilməsi | 30 manat |

1.23. 30-1-ci maddədə "20" rəqəmləri "30" rəqəmləri ilə əvəz edilsin;

1.24. 31-ci maddə üzrə:

1.24.1. 31.1.1-ci, 31.1.2-ci, 31.1.4-cü və 31.1.5-ci maddələr ləğv edilsin;

1.24.2. 31.2.1-ci maddədə "60" rəqəmləri "90" rəqəmləri ilə, 31.1.3-cü maddədə "50" rəqəmləri "75" rəqəmləri ilə, 31.2.3-cü maddədə "10" rəqəmləri "15" rəqəmləri ilə və 31.2.2-ci maddədə "20" rəqəmləri "30" rəqəmləri ilə əvəz edilsin;

1.24.3. aşağıdakı məzmunda 31.1.6-cı maddə əlavə edilsin:

| | |
|---|---|
| 31.1.6. tikinti obyektinin istismarına icazənin verilməsi | 60 manat |

1.25. 33-cü maddə üzrə:

1.25.1. adında "qeydiyyatı və" sözləri ", o cümlədən yenidən dövlət qeydiyyatı və onların qeydiyyat sənədlərində dəyişikliklərin dövlət qeydiyyatına," sözləri ilə əvəz edilsin;

1.25.2. 33.1-ci maddədə "100" rəqəmləri "150" rəqəmləri ilə və 33.2-ci maddədə "15" rəqəmləri "25" rəqəmləri ilə əvəz edilsin;

1.25.3. aşağıdakı məzmunda 33.1-1-ci və 33.1-2-ci maddələr əlavə edilsin:

"33.1-1. dərman vasitələrinin və maddələrinin yenidən dövlət qeydiyyatı - 100 manat;

33.1-2. dərman vasitələrinin və maddələrinin qeydiyyat sənədlərində dəyişikliklərin dövlət qeydiyyatı - 50 manat;";

1.26. 33-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 33-1. Açıq məkanda reklam yerləşdirilməsinə icazə verilməsi üçün tutulan dövlət rüsumunun dərəcələri**

| Dövlət rüsumu tutulmalı olan hərəkətlər | Dövlət rüsumunun məbləği |
|---|---|
| 33-1.1. Fərdi layihələr əsasında hazırlanmış reklam qurğuları (hava şarları, dirijabllar, aerostatlar və s.) - 1 kvadratmetr üçün | 100 manat |
| 33-1.2. Elektron (rəqəmsal) daşıyıcılar (monitor, ekran, tablo və s.) : | |
| 33-1.2.1. 20 kvadratmetrədək olduqda | hər kvadratmetrinə görə 50 manat |
| 33-1.2.2. 50 kvadratmetrədək olduqda | 1000 manat + 21-50 kvadratmetrlik hissəsinin hər kvadratmetrinə görə 15 manat |
| 33-1.2.3. 100 kvadratmetrədək olduqda | 1450 manat + 51-100 kvadratmetrlik hissəsinin hər kvadratmetrinə görə 10 manat |
| 33-1.2.4. 100 kvadratmetrdən artıq olduqda | 1950 manat + 100 kvadratmetrdən artıq olan hissəsinin hər kvadratmetrinə görə 5 manat |
| 33-1.3. Təsvirin dinamik dəyişdiyi daşıyıcılar (1 kvadratmetr üçün): | |
| 33-1.3.1. roller | 40 manat |
| 33-1.3.2. prizmatron və s. | 17 manat |
| 33-1.4. Hərəkətsiz daşıyıcılar (1 kvadratmetr üçün): | |
| 33-1.4.1. transparant, körpüüstü reklam | 20 manat |
| 33-1.4.2. ayrıca dayaqlı lövhə və qutu (o cümlədən ictimai nəqliyyat dayanacaqlarına inteqrasiya olunmuşlar), tumba, ödəniş terminalları və avtomatlaşdırılmış satış köşkləri (vending) | 17 manat |
| 33-1.4.3. bilbord, meqabord | 15 manat |
| 33-1.4.4. kronşteyn panel, divar panosu (brandmauer), binaların damında hərflər və loqotiplər şəklində yerləşdirilən reklam qurğuları, çətir, tent, bayraq, afişa stendi və "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun 26.1-ci maddəsində nəzərdə tutulmuş digər reklam daşıyıcıları (bu Qanunun 33-1.4.1-33-1.4.3-cü maddələrində nəzərdə tutulmuş reklam daşıyıcıları istisna olmaqla) | 10 manat |

1.27. 33-2-ci maddə üzrə:

1.27.1. 33-2.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"33-2.2. Bu Qanunun 33-1-ci maddəsində nəzərdə tutulmuş dövlət rüsumunun məbləğləri 1 il müddətinə açıq məkanda reklam yerləşdirilməsinə icazə verilməsinə görə müəyyən edilir.";

1.27.2. aşağıdakı məzmunda 33-2.3 - 33-2.7-ci maddələr əlavə edilsin:

"33-2.3. Reklam daşıyıcısının quraşdırıldığı zonadan asılı olaraq bu Qanunun 33-1-ci maddəsində nəzərdə tutulmuş dövlət rüsumunun məbləğlərinə aşağıdakı əmsallar tətbiq edilir:

33-2.3.1. Bakı şəhəri üzrə - 1;

33-2.3.2. Gəncə, Sumqayıt və Xırdalan şəhərləri üzrə - 0,8;

33-2.3.3. Abşeron rayonunun qəsəbə və kəndləri (Xırdalan şəhəri istisna olmaqla), Mingəçevir, Şirvan, Lənkəran, Yevlax, Şəki, Qəbələ, Quba, Naftalan şəhərləri və Xaçmaz rayonunun Nabran qəsəbəsi üzrə - 0,7;

33-2.3.4. digər şəhər (rayon), qəsəbə və kənd üzrə - 0,5.

33-2.4. Həcmli fəza konstruksiyaları və mürəkkəb formalı qurğular üçün reklam sahəsi kimi reklamın konturu ilə əhatə olunmuş sahə qəbul edilir.

33-2.5. Birbaşa aid olduğu xidmət, ticarət və ya digər obyektlərin giriş hissəsində, fasadında (divarında, hasarında) yerləşdirilən və həmin obyektlərin adını, mənsubiyyətini, fəaliyyət növünü, ünvanını və iş rejimini istehlakçıya çatdıran, ölçüsü 1 kvadratmetrdən artıq olan lövhəyə (yazıya) görə dövlət rüsumu onun ümumi ölçüsünə uyğun ödənilir.

33-2.6. Müvəqqəti xarakter daşıyan reklama verilmiş icazənin müddəti bir ildən az olduqda, dövlət rüsumunun məbləği on ikiyə bölünərək icazə istənilən ayların sayına vurulur və alınan nəticəyə bu Qanunun 33-2.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq əmsal tətbiq olunur.

33-2.7. Açıq məkanda reklam yerləşdirilməsinə verilən icazə müddətinin uzadılması, həmçinin istehsalı (satışı) lisenziyalaşdırılan və ya sertifikatlaşdırılan yeni əmtəələrin reklamının yerləşdirilməsi hallarında mövcud icazənin yenidən rəsmiləşdirilməsi üçün dövlət rüsumu ödənilir.";

1.28. 33-5-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 33-5. Satış və digər sahibkarlıq fəaliyyəti məqsədilə hüquqi və fiziki şəxslər tərəfindən idxal olunarkən gömrük rüsumu və əlavə dəyər vergisi tutulmaqla rəsmiləşdirilmiş mobil cihazlar istisna olmaqla, fiziki şəxs tərəfindən şəxsi istehlakı üçün ölkəyə gətirilən mobil cihazların qeydiyyata alınmasına görə tutulan dövlət rüsumunun dərəcələri və ödənilməsinin xüsusiyyətləri**

33-5.1. Satış və digər sahibkarlıq fəaliyyəti məqsədilə hüquqi və fiziki şəxslər tərəfindən idxal olunarkən gömrük rüsumu və əlavə dəyər vergisi tutulmaqla rəsmiləşdirilmiş mobil cihazlar istisna olmaqla, fiziki şəxs tərəfindən şəxsi istehlakı üçün ölkəyə gətirilən mobil cihazların qeydiyyata alınmasına aşağıdakı dövlət rüsumu dərəcələri tətbiq edilir:

33-5.1.1. Bazar qiyməti 100 ABŞ dollarından çox olmayan və foto, videoçəkiliş və internetə çıxış funksiyaları olmayan mobil cihazlar - 20 manat.

33-5.1.2. Bu Qanunun 33-5.1.1-ci maddəsində nəzərdə tutulan cihazlar istisna olmaqla, digər mobil cihazlara görə dövlət rüsumunun dərəcələri:

33-5.1.2.1. bazar qiyməti 100 ABŞ dollarına qədər olduqda - 30 manat;

33-5.1.2.2. bazar qiyməti 101 ABŞ dollarından 200 ABŞ dollarına qədər olduqda - 50 manat;

33-5.1.2.3. bazar qiyməti 201 ABŞ dollarından 400 ABŞ dollarına qədər olduqda - 60 manat;

33-5.1.2.4. bazar qiyməti 401 ABŞ dollarından 700 ABŞ dollarına qədər olduqda - 70 manat;

33-5.1.2.5. bazar qiyməti 701 ABŞ dollarından 1000 ABŞ dollarına qədər olduqda - 100 manat;

33-5.1.2.6. bazar qiyməti 1001 ABŞ dollarından yuxarı olduqda - 150 manat.

33-5.1.3. Qeydiyyat üçün müraciət olunan tarixə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəsmi internet saytında marka və modeli, habelə bazar qiyməti yerləşdirilməyən mobil cihazlar - 20 manat.

33-5.2. Bu Qanunun 33-5.1-ci maddəsində nəzərdə tutulan bazar qiyməti mobil cihazların qeydiyyatına görə dövlət rüsumunun ödənilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən yeni (istifadə olunmamış) mobil cihazların (yararlılıq vəziyyətindən asılı olmayaraq) marka və modelinə uyğun müəyyən edilən, onun beynəlxalq elektron informasiya sistemində nəzərdə tutulan dəyəridir.

33-5.3. Bu Qanunun 33-5.1-ci maddəsində nəzərdə tutulan bazar qiymətləri və həmin qiymətlər müəyyən edilərkən istinad olunan onlayn beynəlxalq elektron informasiya sistemi barədə məlumatlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəsmi internet saytında yerləşdirilir.".

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2021-ci il*

# "Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 10, maddə 569; 2001, № 12, maddə 736; 2005, № 8, maddə 692; 2006, № 11, maddə 928; 2007, № 6, maddə 560; 2008, № 8, maddə 695, № 11, maddə 960; 2009, № 12, maddə 966; 2013, № 4, maddə 357; 2014, № 1, maddə 8, № 4, maddə 337; 2015, № 2, maddə 75, № 3, maddə 251; 2020, № 7, maddə 827; 2021, № 8, maddə 897) aşağıdakı dəyişikliklər edilsin:

1.1. preambulada "qaydalarını və şərtlərini müəyyən edir" sözləri "sahəsində münasibətləri tənzimləyir" sözləri ilə əvəz edilsin;

1.2. 1-ci maddədən "Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Sığorta fəaliyyəti haqqında," sözləri çıxarılsın və həmin maddədə "Qanunları və digər qanunları ilə, müvafiq icra hakimiyyəti orqanlarının bu Qanuna uyğun olaraq qəbul etdikləri" sözləri "Azərbaycan Respublikasının Qanunu, habelə digər" sözləri ilə əvəz edilsin;

1.3. 2 - 4-cü maddələr aşağıdakı redaksiyada verilsin:

**"Maddə 2. Əsas anlayışlar**

2.1. Bu Qanunda istifadə edilən əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. dövlət icbari şəxsi sığorta - sığortaolunanların həyat və sağlamlığının bu Qanunda nəzərdə tutulmuş qaydada icbari formada sığorta olunmasına yönəldilmiş münasibətlər sistemi;

2.1.2. sığortaçı - bu Qanunla müəyyən edilmiş qaydada dövlət icbari şəxsi sığorta üzrə fəaliyyəti həyata keçirən və sığorta vəsaitlərini idarə edən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum);

2.1.3. sığortaolunan - barəsində sığorta fəaliyyəti həyata keçirilən hakimlər, prokurorluq işçiləri (hərbi prokurorluq orqanlarının işçiləri istisna olmaqla), müstəntiqlər, ədliyyə, miqrasiya orqanlarında qulluq keçən, təhqiqat aparan, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən şəxslər, habelə fövqəladə halların nəticələrinin aradan qaldırılmasını, ictimai qaydanın mühafizəsini təmin edən, gömrük işini təşkil edən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) işçiləri;

2.1.4. sığortalı - sığortaolunan üçün sığorta haqqı ödəyən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum), Azərbaycan Respublikasının Baş Prokurorluğu və Azərbaycan Respublikasının məhkəmələri;

2.1.5. sığorta ödənişi almaq hüququ olan şəxs - bu Qanunla müəyyən edilmiş qaydada sığorta ödənişini almaq hüququ olan sığortaolunan və ya onun vərəsəsi;

2.1.6. sığorta hadisəsi - sığorta ödənişi almaq hüququ olan şəxsə sığorta ödənişinin ödənilməsi üçün əsas olan bu Qanunun 5-ci maddəsi ilə müəyyən edilən hal;

2.1.7. sığorta haqqı - bu Qanunla nəzərdə tutulmuş qaydada və məbləğdə sığortalı tərəfindən hər bir sığortaolunan üzrə hər il üçün sığortaçıya ödənilməli olan pul məbləği;

2.1.8. sığorta vəsaiti - bu Qanunun 8-1.1-ci maddəsində nəzərdə tutulan mənbələr hesabına formalaşan vəsait;

2.1.9. sığorta ödənişi - sığorta hadisəsi baş verdikdə sığorta ödənişi almaq hüququ olan şəxsə sığortaçı tərəfindən ödənilən birdəfəlik pul vəsaiti;

2.1.10. sığorta ehtiyatı - sığorta ödənişlərinin davamlılığının təmin edilməsi məqsədilə sığorta haqları üzrə illik daxilolmaların proqnozunun 5 faizədək hissəsində hesablanan vəsaitdir.

**Maddə 3. Dövlət icbari şəxsi sığortanın prinsipləri**

3.1. Dövlət icbari şəxsi sığortanın əsas prinsipləri aşağıdakılardır:

3.1.1. dövlət icbari şəxsi sığortanın məcburiliyi;

3.1.2. dövlət icbari şəxsi sığortanın subyektlərinin (sığortaçının, sığortalının, sığortaolunanın) hüquq bərabərliyi.

**Maddə 4. Sığorta məbləğinin və sığorta haqqının miqdarı**

4.1. Sığortaolunan 5 illik əməkhaqqı məbləğində sığorta edilir.

4.2. Sığorta haqqı bu Qanunun 4.1-ci maddəsində nəzərdə tutulan sığorta məbləğinin 1 faizi miqdarında müəyyən edilir.

4.3. Sığortalının qərarı ilə sığorta haqqının miqdarı artırıla bilər.";

1.4. Aşağıdakı məzmunda 4-1 - 4-4-cü maddələr əlavə edilsin:

**"Maddə 4-1. Sığortaolunanın hüquq və vəzifələri**

4-1.1. Sığortaolunanın aşağıdakı hüquqları vardır:

4-1.1.1. dövlət icbari şəxsi sığorta etdirməyi sığortalıdan tələb etmək;

4-1.1.2. sığortaçıdan və sığortalıdan dövlət icbari şəxsi sığorta ilə bağlı hüquq və vəzifələrinin izah edilməsini tələb etmək;

4-1.1.3. sığorta ödənişinin bu Qanunla müəyyən olunmuş qaydada və müddətdə verilməsini sığortaçıdan tələb etmək;

4-1.1.4. yazılı müraciət əsasında hesablanmış və ödənilmiş sığorta haqqının məbləği barədə sığortaçıdan və ya sığortalıdan məlumat almaq.

4-1.2. Sığortaolunanın aşağıdakı vəzifələri vardır:

4-1.2.1. sığortaçı tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə məlumatların əldə edilməsi mümkün olmadığı hallarda sığorta hadisəsinin baş verdiyini təsdiq edən sənədləri və məlumatları sığortaçıya bu Qanunla müəyyən olunmuş qaydada tam və düzgün təqdim etmək;

4-1.2.2. fərdi məlumatları dəyişildikdə həmin dəyişikliklər barədə məlumatların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda bu barədə 5 iş günü müddətində sığortalıya yazılı məlumat vermək.

4-1.3. Bu Qanunun 4-1.1.2-ci, 4-1.1.3-cü və 4-1.2.1-ci maddələri sığortaolunanın sığorta ödənişi almaq hüququ olan vərəsələrinə də şamil edilir.

**Maddə 4-2. Sığortaçının hüquq və vəzifələri**

4-2.1. Sığortaçının aşağıdakı hüquqları vardır:

4-2.1.1. sığortalıdan sığorta haqqını və rüblük hesabatları almaq;

4-2.1.2. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə məlumatların əldə edilməsi mümkün olmadığı hallarda sığorta ödənişi almaq hüququ olan şəxsdən sığorta ödənişinin ödənilməsi, habelə uçot məlumatlarında dəyişikliklərin edilməsi üçün tələb olunan sənədləri və məlumatları tələb etmək;

4-2.1.3. sığorta hadisəsinin müəyyən edilməsi ilə bağlı, sığortalıdan və aidiyyəti dövlət orqanlarından (qurumlarından) məlumat və ya sığortaolunanın həmin sığortalı üzrə sığortaolunan hesab olunmasına dair arayış almaq (o cümlədən elektron qaydada);

4-2.1.4. sığortalı tərəfindən bu Qanunun tələblərinə əməl edilməsinin təhlilini aparmaq və nəticəsi barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat vermək;

4-2.1.5. bu Qanunla müəyyən olunmuş digər hüquqları həyata keçirmək.

4-2.2. Sığortaçının aşağıdakı vəzifələri vardır:

4-2.2.1. sığorta ödənişi almaq hüququ olan şəxsə və sığortalıya dövlət icbari şəxsi sığorta ilə bağlı hüquq və vəzifələrini izah etmək;

4-2.2.2. sığorta ödənişinin bu Qanunla müəyyən olunmuş qaydada və müddətdə ödənilməsini təmin etmək;

4-2.2.3. hər bir sığortalıya və bu Qanunun 9.1-ci maddəsinə əsasən dövlət icbari şəxsi sığortaya nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) sığorta ödənişlərinin icrasına dair məlumat təqdim etmək;

4-2.2.4. sığortalının təqdim etdiyi məlumatlar əsasında sığortalıların və sığortaolunanların uçotunu aparmaq;

4-2.2.5. sığortaolunanın yazılı müraciətinə əsasən hesablanmış və ödənilmiş sığorta haqqının məbləği barədə uçot məlumatlarını təqdim etmək;

4-2.2.6. bu Qanunun 8-1-ci maddəsinə uyğun olaraq sığorta vəsaitlərini idarə etmək;

4-2.2.7. sığortalı tərəfindən sığorta haqlarının sığortaçıya ödənilməsinə nəzarət etmək;

4-2.2.8. bu Qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**Maddə 4-3. Sığortalının hüquq və vəzifələri**

4-3.1. Sığortalının aşağıdakı hüquqları vardır:

4-3.1.1. özünün və sığortaolunanın qanuni mənafelərini müdafiə etmək;

4-3.1.2. sığortaçı və sığortaolunandan bu Qanunla müəyyən edilmiş vəzifələrinə əməl edilməsini tələb etmək;

4-3.1.3. sığortaçıdan dövlət icbari şəxsi sığorta ilə bağlı hüquq və vəzifələrinin izah edilməsini tələb etmək;

4-3.1.4. sığorta ödənişlərinə dair sığortaçıdan məlumat almaq;

4-3.1.5. bu Qanunla müəyyən olunmuş digər hüquqları həyata keçirmək.

4-3.2. Sığortalının aşağıdakı vəzifələri vardır:

4-3.2.1. sığortaolunanları dövlət icbari şəxsi sığorta etdirmək;

4-3.2.2. bu Qanunla müəyyən edilmiş qaydada, məbləğdə və müddətdə sığorta haqqını tam həcmdə sığortaçıya ödəmək;

4-3.2.3. sığortaolunanlar və özü barədə məlumatları bu Qanunun 4-4-cü maddəsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq sığortaçıya təqdim etmək;

4-3.2.4. sığorta ödənişinin alınması üçün sənədlərin rəsmiləşdirilməsində və sığorta ödənişlərinin alınmasında sığorta ödənişi almaq hüququ olan şəxsə kömək etmək;

4-3.2.5. sığorta haqlarının uçotunu aparmaq və hər rüb üzrə rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq ödənilmiş sığorta haqları və sığortaolunanlar barədə sığortaçıya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada və formada hesabat vermək;

4-3.2.6. bu Qanunla müəyyən olunmuş digər vəzifələri yerinə yetirmək.

**Maddə 4-4. Sığortaolunanların və sığortalıların uçotu və sığorta haqlarının hesablanması, ödənilməsi, ödənilməsinə nəzarət və artıq ödənilmiş sığorta haqlarının qaytarılması qaydası**

Dövlət icbari şəxsi sığortası məqsədilə sığortalıların təqdim etdiyi məlumatlar əsasında sığortaolunanların və sığortalıların sığortaçıda uçotu, habelə sığortalılar tərəfindən sığorta haqlarının hesablanması, sığortaçıya ödənilməsi, ödənilməsinə nəzarət və artıq ödənilmiş sığorta haqlarının qaytarılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.";

1.5. 5-ci maddə üzrə:

1.5.1. birinci hissədə "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin xidmət" sözləri "Sığortaolunanların xidməti" sözləri ilə əvəz edilsin və həmin hissəyə "alması" sözündən sonra "və (və ya) əlilliyin müəyyən edilməsi" sözləri əlavə edilsin;

1.5.2. ikinci hissəyə "baş verdikdə" sözlərindən sonra "bu Qanunun 4.1-ci maddəsində nəzərdə tutulan" sözləri əlavə edilsin, həmin hissənin "a" və "b" bəndlərində "sığorta olunan" sözləri "sığortaolunan" sözü ilə əvəz edilsin, "ç" bəndində "sığorta olunan" sözləri "sığortaolunan" sözü ilə əvəz olunsun, üçüncü abzas dördüncü abzas hesab edilsin və aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

"az ağır xəsarət (yaralanma, travma, kontuziya) - 15 faiz;";

1.5.3. aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Ağır, az ağır və yüngül xəsarət növləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş siyahıya uyğun olaraq müəyyən edilir.".

1.6. 6 - 8-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**"Maddə 6. Dövlət icbari şəxsi sığortanın aparılması qaydası**

6.1. Sığortaolunanların dövlət icbari şəxsi sığortası hər il dövlət büdcəsinin vəsaiti hesabına aparılır.

6.2. Sığortalılar sığortaolunanların dövlət icbari şəxsi sığortasını təmin etmək üçün sığorta haqlarının məbləğini hər il rüblər üzrə bu Qanunun 4-4-cü maddəsində nəzərdə tutulmuş qaydada sığortaçıya ödəyir.

6.3. Sığorta haqqı sığortalı tərəfindən hər il üçün hər bir sığortaolunana görə ödənilir.

6.4. Sığortaolunanlar müvafiq olaraq qulluğa qəbul və ya vəzifəyə təyin olunduqları tarixdən bu Qanunla müəyyən edilmiş qaydada sığortalı tərəfindən sığorta olunurlar.

**Maddə 7. Sığorta ödənişinin verilməsi**

7.1. Sığortaçı sığorta ödənişi almaq hüququ olan şəxsə sığorta ödənişini sığorta hadisəsi ilə bağlı məlumatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sisteminə daxil olduğu, bu mümkün olmadıqda isə sığorta ödənişi almaq hüququ olan şəxsin müraciətinin daxil olduğu gündən 10 iş günü müddətində verir. Sığorta ödənişinin verilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

7.2. Sığortalı və digər aidiyyəti dövlət orqanları (qurumları) sığorta ödənişlərinin alınması üçün sığorta ödənişi almaq hüququ olan şəxsə kömək etməlidirlər.

7.3. Bu Qanunun 4-3.2.5-ci maddəsinə uyğun olaraq sığortalı tərəfindən sığortaçıya hesabat təqdim olunmadığı hallarda sığorta ödənişi sığortalının sığortaolunanın həmin sığortalı üzrə sığortaolunan hesab olunmasına dair arayışına əsasən ödənilir və bu barədə məlumatlar sığortalının növbəti rübdə təqdim etdiyi hesabatda əks olunur.

7.4. Sığorta ödənişi verilmiş sığorta hadisəsi ilə bağlı yeni sığorta hadisəsi baş verdikdə müvafiq sığorta ödənişi əvvəl ödənilmiş məbləğ nəzərə alınmaqla ödənilir.

**Maddə 8. Sığorta ödənişinin verilməsindən imtina**

8.1. Sığorta ödənişi almaq hüququ olan şəxsə sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edilir:

8.1.1. sığortaolunanın sığorta hadisəsi ilə birbaşa bağlı olan qəsdən cinayət törətdiyi barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olduqda;

8.1.2. sığortaolunan bu Qanunun 7.1-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq sığorta ödənişinin alınması üçün tələb olunan sənədləri və məlumatları təqdim etmədikdə, yaxud təqdim edilmiş sənədlərin və məlumatların tam və ya düzgün olmadığı müəyyən edildikdə;

8.1.3. baş vermiş hadisə bu Qanunla müəyyən edilmiş sığorta hadisəsi hesab edilmədikdə;

8.1.4. sığorta hadisəsi sığortaolunanın bilavasitə alkoqoldan, narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir göstərən digər maddələrdən istifadə etməsi nəticəsində baş verdikdə;

8.1.5. sığortaolunan özünə qəsd etdikdə və həmin hal məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə təsdiq olunduqda.

8.2. Sığorta ödənişinin verilməsindən bu Qanunun 8.1.2-ci maddəsində nəzərdə tutulmuş hala görə imtina edildikdə sığorta ödənişi almaq hüququ olan şəxs imtinaya səbəb olan hal aradan qaldırıldıqdan sonra sığorta ödənişinin alınması üçün təkrar müraciət etmək hüququna malikdir.";

1.7. aşağıdakı məzmunda 8-1 və 8-2-ci maddələr əlavə edilsin:

**"Maddə 8-1. Sığorta vəsaitləri**

8-1.1. Sığorta vəsaitləri aşağıdakı mənbələr hesabına formalaşır:

8-1.1.1. bu Qanunla müəyyən olunmuş qaydada və məbləğdə ödənilən sığorta haqları;

8-1.1.2. kreditlər;

8-1.1.3. sığorta ehtiyatının təhlükəsizlik göstəriciləri üzrə meyarları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən banklarda depozitə yerləşdirilməsindən əldə edilən gəlirlər;

8-1.1.4. qanunla qadağan edilməyən digər mənbələr.

8-1.2. Sığorta vəsaitləri aşağıdakı istiqamətlərdə istifadə olunur:

8-1.2.1. dövlət icbari şəxsi sığorta ödənişlərinin verilməsinə;

8-1.2.2. sığorta ehtiyatının yaradılmasına;

8-1.2.3. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən hallarda müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı tədbirlərin maliyyələşdirilməsinə;

8-1.2.4. idarəetmə xərclərinə;

8-1.2.5. qanunla müəyyən edilən digər istiqamətlərə.

8-1.3. İdarəetmə xərcləri sığorta haqqının 5 faizədək miqdarında müəyyən edilir və bu vəsaitin xərclənməsi müvafiq qaydada təsdiq olunmuş xərclər smetasına uyğun olaraq həyata keçirilir.

8-1.4. Sığorta vəsaitindən, o cümlədən sığorta ehtiyatından istifadə qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir.

8-1.5. Sığorta ehtiyatı sığorta haqlarının illik proqnoz həcminə bərabər olduqda, sığorta ehtiyatının artırılması dayandırılır, onun depozitə yerləşdirilməsindən əldə edilən gəlir isə müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı tədbirlərin maliyyələşdirilməsinə yönəldilir.

8-1.6. Sığorta ödənişi almaq hüququ olan şəxslərin sayında kəskin artım nəticəsində sığorta ödənişləri üzrə illik gözlənilən xərclər sığorta haqları üzrə illik gözlənilən daxilolmadan artıq olduqda, gözlənilən sığorta ödənişləri üzrə xərclər və sığorta haqları üzrə daxilolmalar arasındakı kəsir sığorta ehtiyatı hesabına maliyyələşdirilir.

8-1.7. Cari ilin sonunda sığorta vəsaitinin istifadə olunmamış qalığı, sığorta ehtiyatı və onun depozitə yerləşdirilməsindən əldə edilmiş gəlir növbəti il üçün xərclərin maliyyələşdirilməsinə yönəldilir.

**Maddə 8-2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tətbiq edilən cərimələrdən ayırmalar**

Bu Qanunun tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən toplanan vəsaitin 43 faizi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hesabına köçürülür.";

1.8. 9-cu maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 9. Nəzarət və bu Qanunun pozulmasına görə məsuliyyət**

9.1. Dövlət icbari şəxsi sığortanın həyata keçirilməsinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) nəzarət edir.

9.2. Sığortaçı dövlət icbari şəxsi sığorta sahəsində görülmüş işlərə dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) hesabat verir.

9.3. Bu Qanunun tələblərini pozan şəxslər Azərbaycan Respublikasının Mülki, İnzibati Xətalar və Cinayət məcəllələrində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.".

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2021-ci il*

# "Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 419-VIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 419-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun 2.1.2-ci, 2.1.3-cü, 2.1.4-cü, 4-1.2.1-ci, 4-1.2.2-ci, 4-2.1.2-ci, 4-2.1.4-cü, 4-2.2.3-cü, 4-3.2.5-ci, 4 4-cü maddələrində, 5-ci maddəsinin üçüncü hissəsində, 7.1-ci maddəsinin birinci və ikinci cümlələrində, 8-1.1.3-cü, 8-1.2.3-cü, 8-1.4-cü maddələrində, 8-2-ci maddəsinin adında və mətnində (hər iki halda), 9.1-ci və 9.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 8-1.2.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 4-3.2.5-ci, 4-4-cü maddələrində, 5-ci maddəsinin üçüncü hissəsində, 7.1-ci maddəsinin ikinci cümləsində, 8-1.1.3-cü və 8-1.4-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Qanunun 2.1.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi nəzərdə tutulur;

1.5. həmin Qanunun 2.1.4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Qanunun 4-1.2.1-ci, 4-1.2.2-ci, 4-2.1.2-ci, 4-2.1.4-cü, 4-2.2.3-cü maddələrində, 7.1-ci maddəsinin birinci cümləsində, 8-2-ci maddəsinin adında və mətnində (hər iki halda), 9.1-ci və 9.2-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.7. həmin Qanunun 2.1.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 419-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2021-ci il*

# Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı və 19-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 443; 2006, № 6, maddə 486, № 11, maddə 927, № 12, maddə 1013; 2007, № 1, maddə 1, № 5, maddə 441, № 8, maddə 756, № 11, maddə 1078; 2008, № 3, maddə 155, № 4, maddə 253; 2009, № 6, maddə 399; 2010, № 3, maddə 171, № 6, maddə 484; 2016, № 2 (I kitab), maddə 194; 2017, № 7, maddə 1259; 2018, № 12 (I kitab), maddə 2474; 2020, № 5, maddə 526; 2021, № 8, maddə 902) ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"nin 74-cü maddəsi aşağıdakı redaksiyada verilsin:

"74. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən vergi orqanında xidmət edən vəzifəli şəxslərin həyat və sağlamlığının dövlət icbari şəxsi sığortası dövlət büdcəsinin vəsaiti hesabına "Məhkəmə və hüquq mühafizə orqanlarının işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir. Vergi orqanlarında işləyən digər vəzifəli şəxslər "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada icbari sığorta olunurlar.".

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2021-ci il*

# "Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 422-VIQD nömrəli Qanununun tətbiqi və "Dövlət vergi orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 539 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 422-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki, "Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"nin 74-cü maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 422-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Dövlət vergi orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 539 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 476; 2005, № 2, maddə 71; 2007, № 4, maddə 323; 2008, № 5, maddə 372; 2014, № 7, maddə 806, № 10, maddə 1174; 2017, № 2, maddə 164, № 7, maddə 1331; 2018, № 12 (I kitab), maddə 2539; 2019, № 2, maddə 231) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2-ci hissədə "maddəsinin əvvəlində" sözləri "maddəsində, 74-cü maddəsinin birinci cümləsində" sözləri ilə, "şəxslərinə Azərbaycan Respublikası Vergilər Nazirliyi yanında Vergi cinayətlərinin ibtidai araşdırılması Departamentinin" sözləri "şəxsləri dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsinin" sözləri ilə, "aiddir" sözü "nəzərdə tutulur" sözləri ilə əvəz edilsin;

3.2. 3.1-ci bənddə "maddəsinin əvvəlində" sözləri "maddəsində" sözü ilə əvəz olunsun və həmin bəndə "və 78-ci" sözlərindən əvvəl ", 74-cü maddəsinin birinci cümləsində" sözləri əlavə edilsin.

4. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2021-ci il*

# "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 685; 2006, № 11, maddə 932; 2007, № 5, maddə 442, № 11, maddə 1053; 2016, № 6, maddə 969, № 12, maddə 1989; 2017, № 3, maddə 346, № 6, maddələr 1024, 1046, № 7, maddə 1266, № 12 (I kitab), maddə 2255; 2018, № 6, maddə 1161; 2019, № 4, maddə 588, № 7, maddə 1177, № 12, maddə 1882; 2020, № 8, maddə 1012) aşağıdakı məzmunda 32.3-cü və 33.1.9-6-cı maddələr əlavə edilsin:

"32.3. "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş lotereya təşkilatçısının və "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş idman mərc oyunları operatorunun operator və ya provayderlərin telekommunikasiya şəbəkələrindən istifadəsi ilə bağlı münasibətlər onlar arasında bağlanmış müqavilə ilə tənzimlənir.";

"33.1.9-6. telekommunikasiya xidmətləri vasitəsilə qumar oyunlarının təşkili və keçirilməsinin, qumar oyunlarında iştirak üçün biletlərin satışının təşkili və (və ya) satışı, həmçinin qumar oyunlarında iştirakın, o cümlədən ölkə ərazisindən xarici lotereya təşkilatçılarının və idman mərc oyunları operatorlarının, habelə onların satıcılarının virtual mühitə çıxışlarının qarşısının alınması üçün qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;".

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2021-ci il*

# "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 309; 2009, № 7, maddə 517; 2016, № 3, maddə 422; 2017, № 2, maddə 144; 2018, № 2, maddə 154, № 12 (I kitab), maddə 2469; 2019, № 1, maddə 33) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci maddə üzrə:

1.1.1. 2.0.1-ci maddədən hər iki halda "(onlara bərabər tutulan digər məlumat daşıyıcılarının)" sözləri çıxarılsın və həmin maddəyə "uduş fondunun" sözlərindən sonra "(virtual lotereya istisna olmaqla)" sözləri əlavə edilsin;

1.1.2. 2.0.5-ci, 2.0.6-cı və 2.0.8-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"2.0.5. **məqsədli lotereya** - müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarı ilə mədəniyyət, sosial, səhiyyə, idman, təhsil və digər dövlət əhəmiyyətli layihələrin maliyyələşdirilməsi məqsədilə keçirilən lotereya forması;

2.0.6. **uduş fondu** - virtual lotereya istisna olmaqla, lotereyanın şərtlərinə uyğun lotereya təşkilatçısının uduş fonduna qoyduğu və geri götürə bildiyi əlavə vəsait də daxil olmaqla, lotereyada oynanılan və uduş şəklində ödənilməsi nəzərdə tutulan pul vəsaitlərinin və ya verilməsi nəzərdə tutulan digər əmlakın (əşyanın) və ya göstərilməsi nəzərdə tutulan xidmətlərin (işlərin) məcmusu (dəyəri);";

"2.0.8. **uduş** - lotereyanın şərtlərinə əsasən uduşlu hesab edilən lotereya biletinin sahibinə ödənilməli olan pul vəsaiti və ya verilməli olan digər əmlak (əşya) və ya göstərilməli olan xidmətlər (işlər);";

1.1.3. 2.0.9-cu maddəyə "hissəsinə" sözündən sonra "və (və ya) uduşa" sözləri, "sənəd" sözündən sonra ", ona bərabər tutulan digər məlumat daşıyıcısı və ya elektron kod" sözləri əlavə edilsin;

1.1.4. 2.0.11-ci maddədən "(ona bərabər tutulan digər məlumat daşıyıcısının)" sözləri çıxarılsın;

1.1.5. 2.0.14-cü maddədən "rəsmi" sözü çıxarılsın;

1.1.6. 2.0.15-ci və 2.0.16-cı maddələr aşağıdakı redaksiyada verilsin:

"2.0.15. **səlahiyyətli orqan** - müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum);

2.0.16. **elektron lotereya** - lotereya iştirakçıları arasında uduş fondunun lotereya terminalları və ya virtual mühit vasitəsilə oynanılması həyata keçirilən lotereya;";

1.1.7. aşağıdakı məzmunda 2.0.16-1-ci maddə əlavə edilsin:

"2.0.16-1. **virtual lotereya** - uduşlu lotereya biletlərinin sahiblərinə uduşların təqdim edilməsi ilə müşayiət olunan və (və ya) mərc imkanları yaradan, kompüter alqoritmləri vasitəsilə keçmişdə baş vermiş real idman və digər yarışlar sırasından seçilmiş yarışlar əsasında və (və ya) kompüter alqoritmləri vasitəsilə simulyasiya edilən və ya yaradılan lotereya forması;";

1.1.8. 2.0.17-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.0.18 - 2.0.20-ci maddələr əlavə edilsin:

"2.0.18. **virtual mühit** - lotereya təşkilatçısının lotereyaların oynanılması üçün yaratdığı telekommunikasiya şəbəkələri, informasiya sistemləri və şəbəkələri, informasiya-telekommunikasiya şəbəkələri, o cümlədən internet şəbəkəsi, mobil rabitə şəbəkələri, sosial media platformaları, digər elektron rabitə vasitələri, internet və mobil telekommunikasiya tətbiqləri, habelə digər texnologiyalara əsaslanan platformalar;

2.0.19. **lotereya terminalları** - özünəxidmət terminalları, avtomatlaşdırılmış köşklər və lotereya oynanılmasına və (və ya) satışına imkan yaradan istənilən digər texnoloji vasitələr;

2.0.20. **lotereya biletlərinin satıcısı** - lotereya təşkilatçısı ilə bağlanmış müqaviləyə əsasən fəaliyyət göstərən və lotereya biletlərinin satışını bilavasitə lotereya terminalları və ya virtual mühit vasitəsilə həyata keçirən şəxs.";

1.2. 3-cü maddə üzrə:

1.2.1. adına "münasibətlərin" sözündən sonra "dövlət" sözü əlavə edilsin;

1.2.2. 3.2-ci maddəyə "münasibətlərin" sözündən sonra "dövlət" sözü əlavə edilsin və həmin maddədə "maliyyə bazarlarına nəzarət orqanı" sözləri "səlahiyyətli orqan" sözləri ilə əvəz edilsin;

1.2.3. 3.2.1-ci maddədə "xarakterli" sözü "hüquqi" sözü ilə əvəz edilsin;

1.2.4. 3.2.2-ci maddə ləğv edilsin;

1.2.5. 3.2.6-cı maddəyə "edilməsi" sözündən sonra ", o cümlədən bu məqsədlə lotereyalardan əldə edilən uduşların iştirakçılara ödənilməsinə nəzarət edilməsi" sözləri əlavə edilsin;

1.2.6. 3.2.7-ci maddədə "xəbərdarlıq edilməsi" sözləri "göstəriş verilməsi" sözləri ilə əvəz edilsin;

1.2.7. 3.2.9-cu maddədə "lotereyaların (stimullaşdırıcı lotereyalar istisna olmaqla)" sözləri "məqsədli lotereyaların" sözləri ilə əvəz edilsin;

1.2.8. 3.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"3.3. Azərbaycan Respublikasında lotereyalar (stimullaşdırıcı lotereyalar istisna olmaqla) yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təşkil edilir və keçirilir.";

1.3. aşağıdakı məzmunda 3.4-cü maddə əlavə edilsin:

"3.4. "Lotereya" sözünün işlədildiyi mətndən bu sözün lotereya fəaliyyətinə aid edilmədiyi tam aydın olduğu hallar istisna olmaqla, bu Qanunun 3.3-cü maddəsində nəzərdə tutulan lotereya təşkilatçısından başqa digər hüquqi şəxslərin adında "lotereya" sözünün ("lotereya" sözü olan söz birləşməsinin) istifadəsi qadağandır.";

1.4. 4-cü maddə üzrə:

1.4.1. 4.1.2-ci maddədən "keçirilmə" sözü çıxarılsın;

1.4.2. 4.1.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"4.1.5. lotereya biletinin sənəd, ona bərabər tutulan məlumat daşıyıcıları və ya elektron kod formasında olması və onların əldə edilməsi qaydaları haqqında məlumat;";

1.4.3. 4.1.6-cı maddəyə "məlumat" sözündən sonra "(əgər tətbiq olunursa)" sözləri əlavə edilsin;

1.4.4. 4.1.7-ci maddə aşağıdakı redaksiyada verilsin:

"4.1.7. lotereyanın oynanılması və uduşun müəyyən edilməsi qaydaları haqqında məlumat;";

1.4.5. 4.1.8-ci maddədən "(onlara bərabər tutulan digər məlumat daşıyıcılarının)" sözləri çıxarılsın və həmin maddəyə "qəbulu" sözündən sonra "(elektron biletlər üzrə təsdiqi)" sözləri əlavə edilsin;

1.4.6. 4.1.8-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 4.1.9-cu, 4.1.10-cu və 4.1-1-ci maddələr əlavə edilsin:

"4.1.9. bu Qanunun 4.3-cü maddəsi ilə müəyyən edilmiş hallarda qeyri-pul uduşlarının pul dəyəri haqqında məlumat;

4.1.10. lotereya təşkilatçısı tərəfindən uduş fonduna əlavə vəsaitin qoyulmasının və həmin vəsaitin udulmamış hissəsinin geri götürülməsinin mümkün olub-olmaması haqqında məlumat.

4.1-1. Lotereya təşkilatçısı qanunla qadağan edilməyən digər məlumatları lotereyanın şərtlərinə daxil edə bilər.";

1.4.7. 4.2-ci maddənin ikinci cümləsində "nisbəti" sözü "nisbətinin aşağı həddi" sözləri ilə əvəz edilsin;

1.4.8. 4.6-cı maddədə "maliyyə bazarlarına nəzarət orqanının" sözləri "səlahiyyətli orqanın" sözləri ilə əvəz edilsin və həmin maddənin ikinci cümləsi çıxarılsın;

1.4.9. 4.7-ci maddəyə "vasitələri ilə" sözlərindən sonra "lotereya biletlərinin satışına başlamazdan əvvəl" sözləri əlavə edilsin;

1.4.10. 4.8-ci maddədə "maliyyə bazarlarına nəzarət orqanının" sözləri "səlahiyyətli orqanın" sözləri ilə əvəz edilsin;

1.4.11. 4.9-cu maddənin birinci və ikinci (hər iki halda) cümlələrində ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "səlahiyyətli orqan" sözləri ilə və həmin maddənin birinci cümləsində "uduş fondunun oynanılması tarixinə azı 15 (on beş)" sözləri "dəyişilmiş şərtlərlə keçiriləcək ilk oyun tarixinə azı 7 (yeddi)" sözləri ilə, ikinci cümləsində isə "5 (beş)" sözləri "3 (üç)" sözləri ilə əvəz edilsin;

1.4.12. 4.11-ci maddədə "uduş fondunun" sözləri "lotereyanın" sözü ilə, "7 (yeddi)" sözləri "3 (üç)" sözləri ilə əvəz edilsin;

1.5. 5-ci maddə üzrə:

1.5.1. 5.1-ci maddəyə "elektron" sözündən sonra "və virtual" sözləri əlavə edilsin;

1.5.2. aşağıdakı məzmunda 5.2-1-ci maddə əlavə edilsin:

"5.2-1. Lotereya təşkilatçısı tiraj komissiyasına üzv ola biləcək şəxslərin siyahısını və onların vətəndaş qüsursuzluğunu təsdiq edən sənədləri tiraj komissiyasının tərkibi formalaşana qədər səlahiyyətli orqanla razılaşdırmalıdır. Səlahiyyətli orqan siyahı təqdim edildikdən sonra 5 (beş) iş günü müddətində siyahıda olan şəxslərdən hər hansı biri barədə səhv və ya təhrif olunmuş məlumatın təqdim edildiyini aşkar etdikdə, lotereya təşkilatçısına məlumat verir və həmin şəxsin siyahıdan çıxarılmasını tələb edir. Bu müddət ərzində səlahiyyətli orqan lotereya təşkilatçısına təqdim olunan məlumatların səhv olması və ya təhrif olunması barədə məlumat verməzsə, siyahı səlahiyyətli orqanla razılaşdırılmış hesab olunur. Siyahı səlahiyyətli orqanla razılaşdırıldıqdan sonra siyahıya daxil edilmiş şəxslərdən hər hansı birinin vətəndaş qüsursuzluğunu itirdiyi məlum olduqda, səlahiyyətli orqan həmin şəxsin siyahıdan çıxarılmasını tələb edir. Lotereya təşkilatçısı siyahıya daxil edilmiş şəxslərdən hər hansı birinin vətəndaş qüsursuzluğunu itirdiyini özü müəyyən etdikdə, həmin şəxsi tiraj komissiyasına üzv ola biləcək şəxslərin siyahısından çıxarır və bu barədə səlahiyyətli orqana məlumat verir.

Səlahiyyətli orqanla razılaşdırılmış siyahıda olan şəxslər səlahiyyətli orqanla təkrar razılaşdırılmadan tiraj komissiyasının tərkibinə daxil edilir. Lotereya təşkilatçısı bu maddə ilə müəyyən edilmiş qaydada səlahiyyətli orqanla razılaşdırılmaqla siyahıda dəyişiklik edə bilər.";

1.5.3. 5.3-cü maddə ləğv edilsin;

1.5.4. 5.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"5.4. Lotereya təşkilatçısı uduş fondunun oynanılmasına azı 1 (bir) iş günü qalmış tiraj komissiyasının üzvləri və həmin üzvləri əvəz edə biləcək daha 5 (beş) şəxs haqqında məlumatı özündə əks etdirən siyahını səlahiyyətli orqana təqdim etməlidir. Səlahiyyətli orqan bu maddənin birinci cümləsində göstərilən məlumatı aldıqdan sonra tiraj komissiyasının bu Qanunun tələbləri pozulmaqla yaradıldığını müəyyən etdikdə, tiraj komissiyasının tərkibində və (və ya) əvəzləyici şəxslərin siyahısında dəyişiklik edilməsi barədə lotereya təşkilatçısına dərhal, lakin hər bir halda uduş fondunun oynanılmasına azı 12 (on iki) saat qalmış icrası məcburi olan göstəriş verir. Səlahiyyətli orqana barəsində məlumat təqdim edilmiş siyahı üzrə tiraj komissiyasının üzvlərindən hər hansı biri (bir neçəsi) üzrlü və ya üzrsüz səbəbdən tiraj komissiyasında iştirak edə bilmədikdə, lotereya təşkilatçısı bu barədə səlahiyyətli orqanı məlumatlandırmaqla onu (onları) digər şəxslə (şəxslərlə) əvəz edə bilər.";

1.5.5. 5.7-ci maddədə "maliyyə bazarlarına nəzarət orqanına" sözləri "səlahiyyətli orqana" sözləri ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Səlahiyyətli orqan uduş fondunun oynanılması zamanı lotereyanın şərtlərinin pozulması barədə tiraj komissiyasından məlumat aldığı tarixdən etibarən 30 (otuz) gün müddətində müvafiq qərar qəbul etməli və qərarın surətini lotereya təşkilatçısına təqdim etməlidir.";

1.5.6. 5.8-ci maddədə "maliyyə bazarlarına nəzarət orqanı" sözləri "səlahiyyətli orqan" sözləri ilə əvəz edilsin;

1.6. 6-cı maddə üzrə:

1.6.1. 6.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"6.1. Lotereyanın uduş fondu lotereya şərtlərində müəyyən olunur və həmin fondun oynanılmasına qədər formalaşdırılır. Lotereya təşkilatçısı uduş fonduna öz vəsaiti hesabına əlavələr edə bilər.";

1.6.2. 6.2-ci maddəyə "Uduş fondu" sözlərindən sonra "(lotereya təşkilatçısının qoyduğu və udulmamış əlavə vəsait istisna olmaqla)" sözləri əlavə edilsin;

1.6.3. 6.3-cü maddənin birinci cümləsində "və 80%-dən çox ola bilməz" sözləri "ola bilməz və bu zaman lotereya təşkilatçısı tərəfindən qoyulan əlavə vəsait nəzərə alınmır" sözləri ilə əvəz edilsin və həmin maddənin ikinci cümləsinə "ola bilməz" sözlərindən sonra "və bu zaman lotereya təşkilatçısı tərəfindən qoyulan əlavə vəsait nəzərə alınmır" sözləri əlavə edilsin;

1.6.4. aşağıdakı məzmunda 6.4-1-ci maddəsi əlavə edilsin:

"6.4-1. Bir tirajın uduş fondunun oynanılması nəticəsində həmin uduş fondunun udulmamış hissəsi lotereyanın şərtlərində göstərildiyi qaydada növbəti tirajda oynanılır. Lotereya təşkilatçısının uduş fonduna qoyduğu əlavə vəsaitin udulmamış hissəsi isə lotereya təşkilatçısı tərəfindən geri götürülə bilər.";

1.6.5. 6.5-ci maddədən "və 80%-dən çox" sözləri çıxarılsın;

1.7. 7-ci maddə üzrə:

1.7.1. 7.1.1-ci maddəyə "adı" sözündən sonra "və ya loqosu" sözləri əlavə edilsin;

1.7.2. 7.1.2-ci maddədən "keçirilmə" sözü çıxarılsın;

1.7.3. 7.1.4-cü maddədə "uduş fondunun oynanılmasının" sözləri "lotereyanın keçirilməsi və ya oynanılması" sözləri ilə əvəz edilsin;

1.7.4. aşağıdakı məzmunda 7.1.5-1-ci maddə əlavə edilsin:

"7.1.5-1. bu Qanunun 7.1-1-ci maddəsində qeyd olunmuş məlumatların əldə oluna biləcəyi mənbə;";

1.7.5. 7.1.6 - 7.1.10-cu və 7.2-7.4-cü maddələr ləğv edilsin;

1.7.6. aşağıdakı məzmunda 7.1-1-ci maddə əlavə edilsin:

"7.1-1. Bu Qanunun 7.1-ci maddəsində sadalanan məlumata əlavə olaraq, lotereya haqqında aşağıdakı məlumatlar lotereya təşkilatçısının internet səhifəsində əks olunmalıdır:

7.1-1.1. lotereyanın uduş fondu haqqında məlumat (əgər tətbiq olunursa);

7.1-1.2. lotereyanın uduş fondunun oynanılması və ya uduşun müəyyən edilməsi şərtləri haqqında məlumat;

7.1-1.3. uduşların verilməsi (ödənilməsi) üçün uduşlu lotereya biletlərinin lotereya təşkilatçısı tərəfindən qəbul müddəti və uduşların verilməsi (ödənilməsi) qaydaları haqqında məlumat;

7.1-1.4. lotereyanın qeydiyyata alınması haqqında məlumat.";

1.7.7. 7.7-ci maddə aşağıdakı redaksiyada verilsin:

"7.7. Uduşlu lotereya biletləri barədə məlumat lotereya təşkilatçısının istifadə etdiyi informasiya sistemində 3 (üç) il ərzində saxlanılır.";

1.7.8. 7.9-cu maddədə "Uduşlu lotereya biletlərinin saxlanılması, satılmamış" sözləri "Satılmamış" sözü ilə, "maliyyə bazarlarına nəzarət orqanı" sözləri "səlahiyyətli orqan" sözləri ilə əvəz edilsin;

1.7.9. aşağıdakı məzmunda 7.10-cu maddə əlavə edilsin:

"7.10. Bu Qanunun 7.1-ci, 7.6-cı, 7.8-ci və 7.9-cu maddələrinin tələbləri yalnız sənəd formasında olan lotereya biletlərinə tətbiq olunur. Digər məlumat daşıyıcıları və ya elektron kod formasında olan lotereya biletlərinin istifadə qaydaları və onların rekvizitləri səlahiyyətli orqan tərəfindən müəyyən edilir.";

1.8. 8-ci maddə üzrə:

1.8.1. 8.1-ci maddədə "nəzarətin" sözü ", habelə məqsədli lotereyanın keçirilməsindən əldə olunmuş vəsaitin məqsədyönlü istifadəsinə dövlət nəzarətinin" sözləri ilə, "maliyyə bazarlarına nəzarət orqanı" sözləri "səlahiyyətli orqan" sözləri ilə əvəz edilsin;

1.8.2. 8.2-ci maddədə "keçirilməsinin başlanmasına azı 20 (iyirmi) iş günü qalmış maliyyə bazarlarına nəzarət orqanına" sözləri "ilk oyununun keçirilməsinə azı 10 (on) iş günü qalmış səlahiyyətli orqana" sözləri ilə əvəz edilsin;

1.8.3. 8.2.1-ci maddədən "keçirilməsi" sözü çıxarılsın;

1.8.4. 8.2.3-cü maddəyə "biletinin" sözündən sonra "(elektron kod formasında olan biletlər istisna olmaqla)" sözləri əlavə edilsin;

1.8.5. 8.2.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"8.2.4. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla hüquqi şəxslərin dövlət reyestrindən çıxarış;";

1.8.6. 8.2.5-ci, 8.2.6-cı və 8.3-cü maddələr ləğv edilsin;

1.8.7. 8.4-cü, 8.5-ci və 8.8-ci maddələrdə "maliyyə bazarlarına nəzarət orqanına" sözləri "səlahiyyətli orqana" sözləri ilə əvəz edilsin;

1.8.8. 8.4.3-cü maddədə "məlumat daşıyıcısının" sözləri "elektron kod formasında olan lotereya biletləri istisna olmaqla" sözləri ilə əvəz edilsin;

1.8.9. 8.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

"8.6. Səlahiyyətli orqan lotereya şərtlərində göstərilən müddəaların aydınlaşdırılmasını və ya onlara konkretləşdirici müddəaların əlavə edilməsini, habelə ərizədə (bildirişdə) və ona əlavə edilmiş sənədlərdə aradan qaldırılması mümkün olan və imtinaya (qadağaya) səbəb olmayan çatışmazlıqlar aşkar edildikdə, onlar təqdim edildiyi tarixdən etibarən 7 (yeddi) iş günü müddətində lotereya təşkilatçısından tələb edə bilər. Bu halda lotereyanın qeydiyyatı barədə qərarın qəbul edilməsi müddətinin axımı dayandırılır və dayandırılmış müddət qərarın qəbul edilməsi müddətinə daxil edilmir. Çatışmazlıqlar aradan qaldırıldıqdan sonra müddətin axımı bərpa olunur.";

1.8.10. 8.7-ci maddədə "maliyyə bazarlarına nəzarət orqanına" sözləri "səlahiyyətli orqana" sözləri ilə, "15 (on beş)" sözləri "7 (yeddi)" sözləri ilə əvəz edilsin;

1.8.11. 8.9-cu maddədə "Maliyyə bazarlarına nəzarət orqanı" sözləri "Səlahiyyətli orqan" sözləri ilə əvəz edilsin;

1.8.12. 8.9.1-ci maddəyə "maddələrində" sözündən sonra "(bu Qanunun 8.6-cı maddəsi ilə müəyyən edilmiş hal nəzərə alınmaqla)" sözləri əlavə edilsin;

1.8.13. 8.9.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"8.9.2. ərizəyə (bildirişə) və ona əlavə olunmuş sənədlərə bu Qanunun tələblərinə cavab verməyən və ya təhrif olunmuş məlumatlar daxil edildikdə;";

1.8.14. 8.9.3-cü maddədə "stimullaşdırıcı lotereyanın təşkilatçısı maliyyə bazarlarına nəzarət orqanının" sözləri "lotereyanın təşkilatçısı səlahiyyətli orqana" sözləri ilə əvəz edilsin;

1.9. 8-1-ci maddə üzrə:

1.9.1. 8-1.1-ci maddənin ikinci cümləsindən "(onlara bərabər tutulan digər məlumat daşıyıcılarının)" sözləri çıxarılsın;

1.9.2. 8-1.8-ci maddəyə "qadağan edilmiş" sözlərindən sonra "və ya keçirilmə hüququ əldə edilməmiş" sözləri əlavə edilsin;

1.10. 8-2-ci maddə üzrə:

1.10.1. adına "Elektron" sözündən sonra "və virtual" sözləri əlavə edilsin;

1.10.2. 8-2.1-ci maddəyə "elektron" sözündən sonra "və virtual" sözləri əlavə edilsin;

1.10.3. 8-2.2-ci maddədə "maliyyə bazarlarına nəzarət orqanı" sözləri "səlahiyyətli orqan" sözləri ilə əvəz edilsin;

1.10.4. aşağıdakı məzmunda 8-2.3-cü maddə əlavə edilsin:

"8-2.3. Virtual lotereyanın təşkili və keçirilməsi qaydası səlahiyyətli orqan tərəfindən müəyyən edilir.";

1.11. 9-cu maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 9. Lotereyanın dayandırılması və onun keçirilməsinə xitam verilməsi**

9.1. Bu Qanunun 9.2-ci maddəsində nəzərdə tutulan hallar istisna olmaqla, bu Qanunun və bu Qanuna uyğun olaraq qəbul edilmiş digər normativ-hüquqi aktların tələblərinin və ya lotereyanın şərtlərinin lotereya təşkilatçısı tərəfindən pozulması halları aşkar edildikdə, səlahiyyətli orqan həmin pozuntuların aradan qaldırılmasına dair ona yazılı bildiriş göndərir. Lotereya təşkilatçısı bildirişi aldığı tarixdən 20 (iyirmi) iş günü müddətində aşkar edilmiş pozuntuları aradan qaldırmalı və bu barədə səlahiyyətli orqana məlumat verməlidir.

9.2. Səlahiyyətli orqan aşağıdakı hallarda lotereyanın keçirilməsini dayandırır:

9.2.1. bu Qanunun 9.1-ci maddəsində nəzərdə tutulmuş bildirişin icrası məhkəmə və ya "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dayandırıldığı və ya bildiriş ləğv edildiyi hallar istisna olmaqla, lotereya təşkilatçısı həmin göstərişi müəyyən edilmiş müddətdə icra etmədikdə;

9.2.2. lotereyanın təşkili və keçirilməsi zamanı törətmiş olduğu dələduzluq, korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan cinayətlərə görə lotereya təşkilatçısının vəzifəli şəxsinə və (və ya) tiraj komissiyasının üzvünə qarşı cinayət işi başlandıqda;

9.2.3. lotereyanın təşkilinə və ya keçirilməsinə qanunsuz müdaxilə (uduş şansının dəyişdirilməsinə səbəb olan müdaxilə) aşkar edildikdə;

9.2.4. lotereya şərtlərinin əhəmiyyətli dərəcədə pozulması halları aşkar edildikdə.

**Qeyd:** Bu Qanunun 9.2.4-cü maddəsində "əhəmiyyətli dərəcədə pozulma" dedikdə 1000 və ya daha çox lotereya iştirakçısının hüquqlarının pozulması və ya pozuntu (pozuntular) nəticəsində iştirakçılara dəyən zərərin ümumi məbləğinin 100 000 (yüz min) manat və daha artıq təşkil etməsi başa düşülür.

9.3. Səlahiyyətli orqan bu Qanunun 9.5-ci maddəsi ilə müəyyən edilmiş müddət ərzində lotereyanın dayandırılması üçün əsas olan pozuntuların aradan qaldırılması və zərərin ödənilməsi (olduğu halda) barədə lotereya təşkilatçısından məlumat aldıqda, 5 (beş) iş günündən gec olmayaraq lotereyanın dayandırılması barədə qərarı ləğv edir və lotereyanın bərpa edilməsi barədə lotereya təşkilatçısına yazılı bildiriş göndərir.

9.4. Bu Qanunun 9.2.2-ci maddəsi üzrə barəsində cinayət işi başlanılmış lotereya təşkilatçısının vəzifəli şəxsi ilə əmək münasibətlərinə xitam verildikdə və ya həmin şəxs vəzifədən kənarlaşdırıldıqda və ya tiraj komissiyasının üzvü komissiyadan kənarlaşdırıldıqda, habelə bu Qanunun 9.2.4-cü maddəsi üzrə əhəmiyyətli dərəcədə vurulmuş zərər ödənildikdə, lotereyanın dayandırılması üçün əsas olan pozuntular aradan qaldırılmış hesab olunur.

9.5. Lotereya təşkilatçısı lotereyanın dayandırılması haqqında səlahiyyətli orqanın qərarını aldığı tarixdən 30 (otuz) iş günü müddətində bu Qanunun 9.2-ci maddəsində nəzərdə tutulmuş lotereyanın dayandırılmasına səbəb olan halları aradan qaldırmadıqda və ya bu barədə məlumatı təqdim etmədikdə, səlahiyyətli orqan lotereyanın keçirilməsinə xitam verilməsi barədə məhkəmədə vəsatət qaldırır.

9.6. Stimullaşdırıcı lotereyanın təşkilatçısı stimullaşdırıcı lotereyanın keçirilməsinin dayandırılması və ya ona xitam verilməsi haqqında qərarın qəbul edilməsi barədə bildiriş aldıqda, bu barədə məlumatı kütləvi informasiya vasitələri ilə elan etməlidir. Bu zaman stimullaşdırıcı lotereyada iştirak etmək üçün təkliflərin edilməsi qadağandır.

9.7. Lotereya təşkilatçısı lotereyanın (stimullaşdırıcı lotereya istisna olmaqla) dayandırılması və ya ona xitam verilməsi haqqında müvafiq olaraq səlahiyyətli orqanın və ya məhkəmə qərarının qəbul edilməsi barədə bildiriş aldıqda, oynanılmamış lotereya biletlərinin yığılmasını (məhv və ya ləğv edilməsini) və onların dəyərinin lotereya biletlərinin sahiblərinin ilk tələbi ilə ödənilməsini təmin etməlidir. Lotereya biletinin sahibinin razılığı ilə lotereya biletinin dəyərinin ödənilməsi əvəzinə ona digər lotereyada iştirak üçün eyni dəyərli lotereya bileti verilə bilər.

9.8. Lotereyanın dayandırılması və ya onun keçirilməsinə xitam verilməsi lotereya təşkilatçısını uduşların verilməsi (ödənilməsi) vəzifəsindən azad etmir.

9.9. Lotereya təşkilatçısı lotereyanın şərtlərində müəyyən olunan hallarda səlahiyyətli orqana qabaqcadan məlumat verməklə həmin lotereyanı dayandıra və ya ona xitam verə bilər. Lotereya lotereya təşkilatçısının təşəbbüsü ilə dayandırıldıqda və ya ona xitam verildikdə, bu Qanunun 9.6 - 9.8-ci maddələri tətbiq olunur.";

1.12. 10-cu maddə üzrə:

1.12.1. 10.1.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

"10.1.6. uduşlu lotereya biletləri (saxtalaşdırılmış və ya eyniləşdirilməsi mümkün olmayan biletlər istisna olmaqla) üzrə uduşların müvafiq bileti təqdim etmiş şəxsə verilməsini (ödənilməsini) təmin etmək;";

1.12.2. 10.1.7-ci maddədə ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "səlahiyyətli orqan" sözləri ilə əvəz edilsin;

1.12.3. 10.1.9-cu maddə aşağıdakı redaksiyada verilsin:

"10.1.9. lotereyanın keçirilməsi dayandırıldıqda və ya xitam verildikdə, bu Qanunun 9.6 - 9.8-ci maddələrinin tələblərinə əməl etmək;";

1.12.4. 10.4-cü maddə ləğv edilsin;

1.13. 11.0.1-ci maddədə "maliyyə bazarlarına nəzarət orqanına" sözləri "səlahiyyətli orqana" sözləri ilə əvəz edilsin;

1.14. 12-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Bu Qanunun tələblərinin pozulmasında təqsirli olan şəxslər Azərbaycan Respublikasının Mülki Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində və Cinayət Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.".

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2021-ci il*

# "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 450-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında lotereya fəaliyyətinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 23 noyabr tarixli 599 nömrəli, "Lotereyalar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 26 may tarixli 64 nömrəli, "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 156-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2016-cı il 9 mart tarixli 824 nömrəli, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 30 dekabr tarixli 911 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 450-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Lotereyalar haqqında" Azərbaycan Respublikası Qanununun 2.0.5-ci, 2.0.15-ci və 3.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 2.0.5-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 2.0.15-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.4. həmin Qanunun 3.3-cü maddəsində "orqan (qurum)" dedikdə "Azərlotereya" Açıq Səhmdar Cəmiyyəti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 450-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi "Lotereyalar haqqında" Azərbaycan Respublikası Qanununun 8-2.3-cü maddəsinə uyğun olaraq, virtual lotereyanın təşkili və keçirilməsi qaydasını iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

4. "Azərbaycan Respublikasında lotereya fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 23 noyabr tarixli 599 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 11, maddə 707; 2003, № 10, maddə 585; 2004, № 12, maddə 1004; 2009, № 3, maddə 163; 2014, № 6, maddə 644; 2016, № 7, maddə 1252, № 8, maddə 1384) 3-cü hissəsində "nəzarəti" sözü "dövlət nəzarətini" sözləri ilə, "Maliyyə Bazarlarına Nəzarət Palatası" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

5. "Lotereyalar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 26 may tarixli 64 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 337; 2009, № 3, maddə 163; 2016, № 7, maddə 1253; 2018, № 12 (I kitab), maddə 2551) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1-ci bənddə "2.0.15-ci " sözləri "2.0.5-ci, 2.0.15-ci, 3.3-cü" sözləri ilə əvəz edilsin;

5.2. 2.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.2. həmin Qanunun 2.0.5-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;";

5.3. 2.3-cü bənddə "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin, həmin bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.4-cü və 2.5-ci bəndlər əlavə edilsin:

"2.4. həmin Qanunun 2.0.15-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

2.5. həmin Qanunun 3.3-cü maddəsində "orqan (qurum)" dedikdə "Azərlotereya" Açıq Səhmdar Cəmiyyəti nəzərdə tutulur.";

5.4. 3-cü hissədə "Maliyyə Bazarlarına Nəzarət Palatası" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

6. "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 156-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 9 mart tarixli 824 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 3, maddə 445) 3-cü hissəsi ləğv edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1954; 2020, № 5, maddə 542, № 7, maddə 862, № 9, maddə 1151; 2021, № 7, maddə 743) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

7.1. 1.1-ci bəndə "sisteminin" sözündən sonra ", habelə lotereyaların və idman mərc oyunlarının təşkili və keçirilməsi sahəsində münasibətlərin" sözləri əlavə edilsin;

7.2. aşağıdakı məzmunda 2.0.22-1-ci və 3.0.53-1-ci yarımbəndlər əlavə edilsin:

"2.0.22-1. lotereyaların və idman mərc oyunlarının təşkili və keçirilməsi sahəsində münasibətlərin tənzimlənməsini "Lotereyalar haqqında" və "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş vasitələrlə təmin etmək;";

"3.0.53-1. lotereyaların və idman mərc oyunlarının təşkilinə və keçirilməsinə qanunla müəyyən edilmiş qaydada nəzarəti həyata keçirmək;".

8. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2021-ci il*

## Azərbaycan və Rusiyanın xarici işlər nazirləri arasında telefon danışığı olub




Dekabrın 30-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər regiondakı cari vəziyyət, üçtərəfli bəyanatların icrası ilə bağlı fikir mübadiləsi aparıblar.

Bölgədəki son inkişafı nəzərdən keçirən tərəflər, o cümlədən 3+3 məsləhətləşmələr mexanizminin Moskvada baş tutan təsis görüşü, habelə Azərbaycan və Ermənistan ictimaiyyətinin nümayəndələrinin Moskvada keçirilən görüşünə dair fikirlərini bölüşüblər.

Tərəflər həmçinin ikitərəfli münasibətlər gündəliyinin aktual məsələlərini və qarşılıqlı maraq doğuran digər mövzuları müzakirə ediblər.

Telefon danışığı zamanı nazirlər yeni il münasibətilə təbriklərini bölüşüblər.

## "Ağdam rayonunda məcburi köçkün icması üçün Resurs Mərkəzinin yaradılması" layihəsi başa çatıb

"Regional İnkişaf" İctimai Birliyinin (RİİB) Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının (BMT QAK) dəstəyi ilə həyata keçirdiyi "Ağdam rayonunda məcburi köçkün icması üçün Resurs Mərkəzinin yaradılması" layihəsinin yekun hesabat iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda "Regional İnkişaf" İctimai Birliyinin, müxtəlif təhsil, səhiyyə və sosial xidmət müəssisələrinin nümayəndələri və yerli icma üzvləri iştirak ediblər.

"Regional İnkişaf" İctimai Birliyinin nümayəndəsi layihə çərçivəsində görülən işlər barədə məlumat verərək bildirib ki, Ağdam rayonunun Birinci Dördyol qəsəbəsində Resurs Mərkəzinin fəaliyyəti təmin edilib, icma üzvlərinin ehtiyaclarının araşdırılması və qiymətləndirilməsi məqsədilə sorğular keçirilib, hədəf qrup müzakirələri aparılıb, icmada çalışan 200-dən çox sosial, təhsil və tibb işçisi təlimlərə cəlb olunub. Eləcə də icma üzvləri səyyar təlimlər vasitəsilə beynəlxalq və yerli qanunvericilikdə nəzərdə tutulmuş hüquq və təminatları barədə maarifləndirilib, əhaliyə maarifləndirici materiallar paylanılıb.

Daha sonra layihə komponentləri üzrə müzakirələr aparılıb.




# Dünya azərbaycanlılarının ZƏFƏR HƏMRƏYLİYİ

*Əvvəli 1-ci səh.*

Ümummilli Lider cəmiyyətin bütövləşməsi, azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı amilinə çevrilməsi istiqamətində mühüm işlər gördü, ümumxalq birliyinin dərin politoloji-nəzəri əsaslarını yaratdı. Xaricdə yaşayan soydaşlarımızın tarixi vətənə bağlılığını təmin edən ideoloji istinad nöqtəsinin tapılması da Ümummilli Liderin dövlətçilik qarşısındakı əvəzsiz xidmətləri sırasında xüsusi diqqət çəkir. Ona görə ən yeni tariximizdə dünya azərbaycanlılarının milli həmrəyliyinə nail olunması Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı əvəzsiz xidmətlərindən biridir.

### Dünyanın bütün ölkələrində yaşayan azərbaycanlıların lideri

Ulu Öndər Heydər Əliyevin milli həmrəylik və azərbaycançılıq amalının şüurlarımızda möhkəm yer tutmasına yönəlmiş uzaqgörən siyasətini bu gün inamla davam etdirən, milli həmrəylik və diaspor fəaliyyətini daim diqqət mərkəzində saxlayan Prezident İlham Əliyevin bu istiqamətdə həyata keçirdiyi fəaliyyət ardıcıl və sistemli səciyyə daşıyır. Xarici ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələrin genişləndirilməsini dövlət siyasətinin mühüm istiqamətinə çevirmiş İlham Əliyev mövcud sosial-iqtisadi inkişaf şəraitində diaspor quruculuğu sahəsində dövrlə səsləşən genişmiqyaslı tədbirlər həyata keçirir. Dövlətimizin başçısı xaricdə yaşayan hər bir azərbaycanlının maraq və mənafeyinin qorunmasını Azərbaycan dövlətinin başlıca vəzifəsi hesab edir, hər zaman ölkə hüdudlarından kənarda yaşayan soydaşlarımızda milli ruhun yüksəldilməsinə, onların vahid ideologiya və məqsədlər ətrafında birləşməsinə böyük töhfələr verir.

Məhz bu siyasətin məntiqi nəticəsi olaraq Prezident İlham Əliyev daim 50 milyonluq dünya azərbaycanlılarının dəstəyini alıb, onların alternativsiz namizədi və lideri olub. Bu fəaliyyətin ən ümdə cəhətləri xaricdəki azərbaycanlıların ana vətənimizin maraqları ətrafında daha sıx səfərbər olmaları və ən əsası, Azərbaycan həqiqətlərinin dünyada getdikcə yaxından eşidilməsidir.

Bakıda dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi soydaşlarımızın tarixi Vətənlə əlaqələrinin güclənməsinə əlverişli zəmin yaratmaqla yanaşı, milli həmrəyliyə və yekdilliyə nail olmaq amalının Azərbaycanın dövlət siyasətinin əsas tərkib hissəsinə çevrildiyini nümayiş etdirib. Bütün bu tədbirlər milli-mənəvi, intellektual potensialına görə dünyanın böyük xalqları ilə bir sırada dayanan xalqımızın azərbaycançılıq ideyası ətrafında sıx birləşməsinə, tarix səhnəsində mühüm rol oynayan mütəşəkkil qüvvə kimi formalaşmasına güclü təkan verib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən 18 ildə Azərbaycanın inkişaf yolunda ardıcıl qazandığı uğurlar bütün dünya azərbaycanlılarını qəlbən sevindirir. Azərbaycanın Cənubi Qafqazda əsas söz və nüfuz sahibi kimi çıxış etməsi dünyanın müxtəlif ölkələrinə səpələnmiş həmvətənlərimizi daha da qürurlandırır. Azərbaycan dövlətinin güclənməsi soydaşlarımızın xaricdəki diaspor təşkilatlarının fəaliyyətinə də müsbət təsir edir. Odur ki, dünyanın müxtəlif guşələrində yaşayan soydaşlarımız Azərbaycanın müstəqil siyasət yeritməsindən, dünya birliyində mövqelərini daha da möhkəmləndirməsindən, eyni zamanda həyata keçirilən diaspor siyasətindən məmnunluq duyurlar.

### İlham Əliyevin rəhbərliyi ilə xalqımız milli həmrəyliyin ən gözəl nümunəsini yaradıb

Dövlət müstəqilliyinin bərpasının 30-cu ilini geridə qoyan xalqımız şərəfli günlərini yaşayır. Çünki müstəqilliyimizin 30-cu ildönümünü qalib dövlət, torpaqlarını işğaldan azad etmiş xalq kimi tamamladıq. Hələ Vətən müharibəsinə qədər özünün sürətli yüksəlişi və uğurları ilə nümunələr yaradan Azərbaycan torpaqlarını işğaldan azad etməklə qlobal və regional miqyasda mövqelərini və nüfuzunu daha da artırdı.

44 günlük Vətən müharibəsi müddətində xalqımız bir daha öz rəhbərinin müdrikliyinə və siyasi iradəsinə şahidlik etdi. Həmin günlərdə İlham Əliyevin yenilməz qətiyyəti bütün cəmiyyətimizi qələbəyə kökləndirdi. Məhz Azərbaycan Prezidentinin ortaya qoyduğu nümunə xalqımızı bu müqəddəs savaşda zəfərə apardı. Əsas məsələlərdən biri də odur ki, bu müharibədə cəmiyyət Prezident İlham Əliyevin ətrafında sıx səfərbər oldu. Bu, həm milli həmrəyliyimizin, həm də xalqımızın öz rəhbərinə olan yüksək ehtiram və inamının təcəssümü idi. Dövlətimizin başçısının əzmkarlığı, ilk gündən nümayiş etdirdiyi hərbi-siyasi qətiyyət hər bir azərbaycanlını öz rəhbərinin ətrafında daha sıx birləşdirdi. Siyasi əqidəsindən, statusundan, vəzifəsindən, milli mənsubiyyətindən və dünyanın harasında yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı 44 günlük müharibədə milli həmrəylik nümayiş etdirdi.

*Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunması həm də milli həmrəylimizin və bütün azərbaycanlıların Prezident İlham Əliyevin ətrafında birliyinin təntənəsi oldu. Bütövlükdə, 44 günlük savaşdakı Zəfərlə xalqımız İlham Əliyevin rəhbərliyi ilə milli həmrəyliyin ən mükəmməl nümunəsini yaratdı.*

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Laçın rayonunda yerləşən hərbi hissələrin döyüş hazırlığına baxış keçirilib





Müdafiə nazirinin tapşırığına əsasən müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Laçın rayonunda dislokasiya olunan hərbi hissələrdə olub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sərt iqlim şəraitində, çətin relyefli dağlıq ərazidə xidmət aparan şəxsi heyətlə görüşən Baş Qərargah rəisi dövlət sərhədində, o cümlədən Qaragöl gölü istiqamətində döyüş qabiliyyətinin daha da artırılması və döyüşə hazır olma vəziyyətinin yüksək səviyyədə saxlanılması üçün lazımi tapşırıqlar verib.

Sonra hərbi birliyin şəxsi heyəti ilə xidməti müşavirə keçirilib, 2021-ci ilin yekunları təhlil olunub. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin və müdafiə nazirinin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqlar, o cümlədən hərbi qulluqçuların sosial-məişət şəraiti və mənəvi psixoloji durumunun yaxşılaşdırılması istiqamətində aparılan işlər müşavirə iştirakçılarının diqqətinə çatdırılıb. Xidməti döyüş fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı müvafiq göstərişlər verilib.

Müşavirədə polkovnik Münasib Babayevə "general-mayor" ali hərbi rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı oxunub, ona gələcək xidmətində uğurlar arzulanıb, xidməti fəaliyyətin daha səmərəli təşkili ilə bağlı müdafiə nazirinin tapşırıq və tövsiyələri çatdırılıb.

Sonda Baş Qərargah rəisi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə Müdafiə Nazirliyinin rəhbərliyi adından şəxsi heyəti təbrik edib.

## Azad edilən ərazilərdə şəxsi heyətin maddi-texniki təminatı yoxlanılıb

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən Maddi-Texniki Təminat Qərargahının rəisi vəzifəsini icra edən general-mayor Qədir Nəsibov işğaldan azad olunan ərazilərdə olub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, şəxsi heyətin sosial-məişət şəraiti, maddi-texniki təminatı, mənəvi-psixoloji vəziyyəti ilə maraqlanan general-mayor Q.Nəsibov burada aparılan təmir-tikinti işləri ilə bağlı müvafiq tapşırıqlar verib.

Sonra azad olunmuş ərazilərdə döyüş növbətçiliyi aparan hərbi qulluqçularla görüşən general-mayor Q.Nəsibov qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Müdafiə Nazirliyinin rəhbərliyi adından şəxsi heyəti təbrik edib, onlara möhkəm cansağlığı, şərəfli xidmətlərində uğurlar arzulayıb. Hərbi qulluqçulara bayram sovqatları təqdim edilib, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordu quruculuğuna göstərdiyi yüksək diqqət və qayğı nəticəsində hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərin sürətlə davam etdirildiyi bildirilib.

Sonda şəxsi heyətin təminatının daha da yaxşılaşdırılması, eyni zamanda təmir-tikinti işlərinin keyfiyyətli aparılması ilə bağlı müdafiə nazirinin müvafiq tapşırıqları aidiyyəti üzrə çatdırılıb.

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240,2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163 № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 11, maddələr 1332, 1333, 1336, № 12 (I kitab), maddələr 1432, 1440; 2021, № 4, maddə 306, № 5, maddə 428, № 6 (I kitab), maddələr 535, 541, 546, 560, № 7, maddələr 701, 705, 711, № 8, maddə 894; Azərbaycan Respublikasının 2021-ci il 5 noyabr tarixli 397-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 43.1-ci maddəyə "428.7," rəqəmlərindən sonra "428.9," rəqəmləri və "428.10," rəqəmlərindən sonra "429.0.5," rəqəmləri əlavə edilsin;

1.2. 398-ci maddənin "Qeyd" hissəsinin 1-ci bəndindən "401.1, 401.2," rəqəmləri çıxarılsın;

1.3. 401-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 401. Qumar oyunları

401.1. Azərbaycan Respublikasının ərazisində qumar oyunlarında iştirak üçün imkanların yaradılması, o cümlədən qumar oyunlarının oynanıldığı virtual mühitə çıxışın təmin edilməsinə görə -

fiziki şəxslər üç min manat məbləğində, vəzifəli şəxslər yeddi min manat məbləğində, hüquqi şəxslər qırx  min manat məbləğində cərimə edilir.

401.2. Qumar oyunlarında iştirak üçün biletlərin (və ya biletə bərabər tutulan digər iştirak hüququnun) satışının təşkili və (və ya) satışına görə -

fiziki şəxslər üç min manat məbləğində, vəzifəli şəxslər yeddi min manat məbləğində, hüquqi şəxslər qırx min manat məbləğində cərimə edilir.

401.3. Qumar oyunlarında iştirak üçün mərclərin qəbul edilməsi, pul vəsaitlərinin, əşyaların və qeyri-maddi əmlak nemətlərinin qəbulu, köçürmələrin aparılması, uduşların ödənilməsi, uduşların, mükafatların və ya digər gəlirin verilməsi, bunların təşkili və bunlarla əlaqədar xidmətlərin göstərilməsinə görə -

fiziki şəxslər üç min manat məbləğində, vəzifəli şəxslər yeddi min manat məbləğində, hüquqi şəxslər qırx min manat məbləğində cərimə edilir.

401.4. Qumar oyunlarının təşkili, keçirilməsi, iştirak üçün biletlərin (və ya biletə bərabər tutulan digər iştirak hüququnun) satışı ilə, qumar oyunlarında iştirakla bağlı müştərinin ödəniş tapşırıqlarının və ya bank hesabı üzrə digər əməliyyatlarının bank əməliyyatları aparan şəxslər tərəfindən icrasına (aparılmasına) görə -

fiziki şəxslər üç min manat məbləğində, vəzifəli şəxslər yeddi min manat məbləğində, hüquqi şəxslər qırx min manat məbləğində cərimə edilir.

**Qeyd:**

1. Bu Məcəllədə "qumar oyunları" dedikdə pul vəsaitləri, maddi və sair nemət (uduş) barəsində oynanılan və uduşu qeyri-müəyyənlikdən və ya təsadüfdən asılı olan oyunlar (o cümlədən mərclər) başa düşülür.

2. "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada keçirilən lotereyalara və "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada keçirilən idman mərc oyunlarına bu maddənin qüvvəsi şamil edilmir.

3. Qumar oyunlarının təşkili və ya keçirilməsi Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 244-1.1-ci maddəsi ilə cinayət məsuliyyətinə səbəb olur.";

1.4. 428.9-cu maddə aşağıdakı redaksiyada verilsin:

"428.9. Qumar oyunlarının və ya belə oyunların təşkilatçısının (operatorunun) və satıcısının, o cümlədən keçirilməsi qadağan edilmiş və ya keçirilmə hüququ əldə edilməmiş stimullaşdırıcı lotereyaların və qeydiyyata alınmamış digər lotereyaların reklamına görə -

fiziki şəxslər üç min manat məbləğində, vəzifəli şəxslər yeddi min manat məbləğində, hüquqi şəxslər qırx min manat məbləğində cərimə edilir.";

1.5. 429-cu maddə üzrə:

1.5.1. adına və 429.0-cı maddəyə "Lotereyalar" sözündən sonra "və idman mərc oyunları" sözləri əlavə edilsin;

1.5.2. 429.0.1-ci maddə ləğv edilsin;

1.5.3. 429.0.2-ci maddədə "yaratdığı qurumun" sözləri "müəyyən etdiyi orqanın (qurumun)" sözləri ilə əvəz edilsin;

1.5.4. aşağıdakı məzmunda 429.0.4-cü və 429.0.5-ci maddələr əlavə edilsin:

"429.0.4. İdman mərc oyunlarının təşkili və keçirilməsi sahəsində idman mərc oyunlarının operatoru tərəfindən "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsinə görə -

fiziki şəxslər səkkiz yüz manatdan doqquz yüz manatadək məbləğdə, vəzifəli şəxslər min manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər səkkiz min manatdan doqquz min manatadək məbləğdə cərimə edilir.

429.0.5. İdman mərc oyunlarının satıcısı tərəfindən yetkinlik yaşına çatmayanların idman mərc oyunlarında birbaşa və ya dolayı iştirakına yol verilməsinə görə -

min manat məbləğində cərimə edilir.";

1.5.5. "Qeyd" hissəsi ləğv edilsin;

1.6. 471-ci maddənin dispozisiyasından "idman mərc oyunlarının operatorları," və "lotereya təşkilatçısı" sözləri çıxarılsın;

1.7. 525-ci maddə üzrə:

1.7.1. sanksiyada "müsadirə edilməklə dörd yüz manatdan altı yüz manatadək məbləğdə" sözləri ", qazanılmış uduş, mükafat və ya digər gəlir müsadirə edilməklə üç min manat məbləğində" sözləri ilə əvəz edilsin;

1.7.2. "Qeyd" hissəsi ləğv edilsin.

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2021-ci il*

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 451-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli, "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 23 fevral  tarixli 1256 nömrəli və "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 451-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 429.0.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 429.0.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.

2. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018,  № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884, № 8, maddələr 1027, 1032, № 9, maddə 1155, № 11, maddə 1359, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 36, № 4, maddə 317, № 5, maddə 444, № 6 (I kitab), maddələr 565, 575, № 7, maddələr 724, 728, 741, № 10, maddə 1101) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4.1-1-ci bənddən "429.0.2," rəqəmləri çıxarılsın;

2.2. 4.33-cü bənddə "477-1.1.7-ci maddəsində (hər iki halda)" sözləri "429.0.2-ci və 477-1.1.7-ci (hər iki halda) maddələrində" sözləri ilə əvəz edilsin;

2.3. 5.43-cü bənddən "428.9, 429," rəqəmləri çıxarılsın;

2.4. 5.58-1-ci bənddə "477-1.1.7-ci maddəsində" sözləri "429.0.2-ci, 429.0.3-cü, 429.0.4-cü və 477-1.1.7-ci maddələrində" sözləri ilə əvəz edilsin;

2.5. 5.70-2.4-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"5.70-2.4. lotereya təşkilatçılarına və idman mərc oyunları operatorlarına münasibətdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi;".

3. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200, № 6, maddə 1105, № 9, maddə 1638, № 11, maddə 1984; 2018, № 2, maddə 199, № 3, maddələr 415, 419, 429, № 5, maddələr 915, 927, № 7 (I kitab), maddə 1481,    № 8, maddə 1698, № 11, maddələr 2242, 2289, № 12 (I kitab), maddələr 2566, 2597; 2019, № 1, maddə 82, № 2, maddə 213, № 3, maddə 426, № 4, maddələr 620, 630, 649, № 5, maddələr 819, 862; 2020, № 3, maddələr 238, 240, № 4, maddə 404, № 7, maddələr 864, 885, № 8, maddə 1041, № 9, maddə 1153; 2021, № 6 (I kitab), maddə 566, № 7, maddələr 724, 728) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 14.1-ci bənddən "429," rəqəmləri və ", lotereya və idman mərc oyunları təşkilatçılarına" sözləri çıxarılsın;

3.2. 14.2-ci bənddən "428.9," rəqəmləri çıxarılsın.

4. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may  tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252, № 5, maddələr 538, 564, № 6, maddələr 710, 714, № 7, maddələr 865, 880, № 8, maddə 1032, № 11, maddə 1345, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 33, № 6 (I kitab), maddə 566, № 8, maddə 921) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 33.1-ci və 33.2-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"33.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi adından - bu Siyahının 26-cı hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

33.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti adından - bu Siyahının 28-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.";

4.2. 34-cü hissə üzrə:

4.2.1. 34.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"34.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından - bu Siyahının 8.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;";

4.2.2. 34.2-ci bənddə "Vergilər" sözü "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat" sözləri ilə əvəz edilsin, həmin bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 34.3-cü bənd əlavə edilsin:

"34.3. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından - bu Siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.";

4.3. 34-1-ci bənd üzrə:

4.3.1. 34-1.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"34-1.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından - bu Siyahının 8.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər (bu Fərmanın 34-1.3-cü bəndində nəzərdə tutulmuş hallar istisna olmaqla);";

4.3.2. 34-1.2-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 34-1.3-cü bənd əlavə edilsin:

"34-1.3. vergi nəzarəti zamanı aşkar edildiyi hallarda Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından - bu Siyahının 32.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.";

4.4. aşağıdakı məzmunda 34-2-ci hissə əlavə edilsin:

"34-2. Məcəllənin 401.4-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

34-2.1. inzibati xətalar haqqında işlər üzrə icraat Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən aparılarkən Azərbaycan Respublikasının Mərkəzi Bankı adından - bu Siyahının 57.2.2-ci yarımbəndində nəzərdə tutulan vəzifəli şəxslər;

34-2.2. vergi nəzarəti zamanı aşkar edildiyi hallarda Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından - bu Siyahının 32.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.";

4.5. 42-ci hissədə "428.10-cu maddəsində" sözləri "428.9-cu və 428.10-cu maddələrində" sözləri ilə əvəz edilsin;

4.6. aşağıdakı məzmunda 42-1-ci hissə əlavə edilsin:

"42-1. Məcəllənin 429.0.5-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

42-1.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından - bu Siyahının 8.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

42-1.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından - bu Siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.".

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 451-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

6. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2021-ci il*

# Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011,  № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, № 12, maddə 1435; 2016, № 5, maddə 836, № 6, maddə 1016, № 11, maddələr 1761, 1763, № 12, maddə 2047; 2017, № 2, maddə 155, № 4, maddə 523, № 5, maddələr 706, 750, № 11, maddələr 1935, 1975; 2018, № 5, maddə 879, № 8, maddə 1672,  № 11, maddələr 2209, 2225, № 12 (I kitab), maddələr 2524, 2534; 2019, № 1, maddə 23, № 5, maddələr 792, 812, № 7, maddə 1197, № 12, maddələr 1897, 1907; 2020, № 7, maddə 832, № 11, maddə 1333; 2021, № 4, maddə 309, № 7, maddələr 711, 713, № 8, maddə 894) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 305.1.16-cı maddəyə "internet" sözündən əvvəl "yayılması qanunla qadağan edilən informasiyanın internet informasiya ehtiyatından götürülməsi və ya" sözləri əlavə edilsin;

1.2. 40-6-cı fəslin adında "İnternet" sözü "Yayılması qanunla qadağan edilən informasiyanın internet informasiya ehtiyatından götürülməsi və ya internet" sözləri ilə əvəz edilsin;

1.3. 355-20.1-ci və 355-21-ci maddələrdə "internet informasiya ehtiyatına" sözləri "yayılması qanunla qadağan edilən informasiyanın internet informasiya ehtiyatından götürülməsi və ya internet informasiya ehtiyatına və ya onun müvafiq hissəsinə" sözləri ilə əvəz edilsin;

1.4. 355-20.2-ci və 355-22.4-cü maddələrdə "İnternet informasiya ehtiyatına" sözləri "Yayılması qanunla qadağan edilən informasiyanın internet informasiya ehtiyatından götürülməsi və ya internet informasiya ehtiyatına və ya onun müvafiq hissəsinə" sözləri ilə əvəz edilsin;

1.5. 355-22.1-ci maddədə "İnternet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması barədə ərizəyə" sözləri "Ərizə" sözü ilə əvəz edilsin, "sonra" sözündən sonra "ona" sözü əlavə edilsin.

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2021-ci il*

# Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 12-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937,  № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2 (I kitab), maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; 2017, № 2, maddələr 151, 153, № 5, maddələr 703, 735, № 6, maddə 1035, № 11, maddə 1953, № 12 (I kitab), maddələr 2210, 2234, 2239; 2018, № 2, maddə 142, № 4, maddə 650, № 5, maddələr 845, 851, № 11, maddə 2212, № 12 (I kitab), maddələr 2467, 2518, 2526, 2533; 2019, № 1, maddələr 23, 50, № 5, maddələr 806, 812, 814, № 6, maddələr 994, 996, № 7, maddə 1202, № 8, maddə 1369, № 11, maddə 1681, № 12, maddə 1908; 2020, № 5, maddə 515, № 7, maddələr 822, 832, 839, 843, № 12 (I kitab), maddələr 1423, 1435; 2021, № 1, maddə 8, № 4, maddə 307, № 6 (I kitab), maddələr 556, 558, № 7, maddə 711; Azərbaycan Respublikasının 2021-ci il 29 oktyabr tarixli 393-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1084-cü maddədə "Oyun" sözü "Lotereyalar və idman mərc oyunları istisna olmaqla, oyun" sözləri ilə əvəz edilsin;

1.2. 1086-cı maddədən "(ona bərabər tutulan digər məlumat daşıyıcısının)" sözləri çıxarılsın.

**Maddə 2.**  Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2021-ci il*

# Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli, "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 26 iyun tarixli 148 nömrəli və "İxracın və investisiyaların təşviqi sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında" 2018-ci il 28 dekabr tarixli 451 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2056; 2017, № 8, maddə 1521, № 10, maddə 1777; 2018, № 5, maddə 920, № 6, maddə 1196, № 7 (I kitab), maddələr 1496, 1506, № 11, maddə 2287; 2019, № 2, maddələr 218, 236, № 4, maddə 625, № 5, maddələr 848, 855; 2020, № 2, maddə 100, № 9, maddə 1148; 2021, № 1, maddə 43) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"nin 7.1.1-ci yarımbəndinin "Tədbir 1.1.4: KOS evinin yaradılması" yarımbəndinin ikinci abzasına, 7.2-ci bəndinin dördüncü abzasının adına, birinci və ikinci cümlələrinə, 7.3-cü bəndinə (hər iki halda), 7.3.1-ci yarımbəndinin "Tədbir 3.1.1: KOS subyektlərinin beynəlxalq ticarət əməliyyatlarının müvafiq maliyyə xidmətləri ilə təmin edilməsi" yarımbəndinə, "Tədbir 3.1.2: KOS-un beynəlxalq standartlara və tələblərə uyğunlaşdırılmasına dəstək göstərilməsi" yarımbəndinin ikinci abzasının ikinci cümləsinə, 7.3.2-ci yarımbəndinin "Tədbir 3.2.1: İxrac assosiasiyalarının inkişaf etdirilməsi" yarımbəndinin ikinci abzasının birinci cümləsinə və beşinci abzasına, 7.4-cü bəndinin üçüncü abzasının birinci cümləsinə, 7.4.2-ci yarımbəndinə (hər iki halda) ismin müvafiq hallarında "Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi" sözlərindən sonra ismin müvafiq hallarında " - AZPROMO" sözü əlavə edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238, № 10, maddə 1991, № 11, maddə 2287; 2019, № 3, maddə 411, № 4, maddə 619, № 5, maddələr 839, 855, № 6, maddə 1027, № 12, maddə 1921; 2020, № 1, maddə 5, № 2, maddə 100, № 8, maddə 1039, № 11, maddə 1357; 2021, № 1, maddə 30, № 6 (I kitab), maddələr 579, 593, № 8, maddə 908; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 2 iyul tarixli 766 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nın 4-cü hissəsinin "Göstərdiyi xidmətlər" sütununa "Azərbaycan Respublikası İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin" sözlərindən sonra " - AZPROMO-nun" sözü əlavə edilsin.

3. "İxracın və investisiyaların təşviqi sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli 451 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2608; 2021, № 7, maddə 745) 1-ci hissəsinə və 2.1-ci bəndinə "Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi" sözlərindən sonra " - AZPROMO" sözü əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2021-ci il*

# “Dövlət borcu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Dövlət borcu haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 748, № 11, maddə 1093; 2010, № 4, maddə 276; 2016, № 11, maddə 1772; 2017, № 5, maddə 704, № 12 (I kitab), maddə 2252; 2018, № 12 (I kitab), maddə 2501; 2019, № 1, maddə 3; 2020, № 12 (I kitab), maddə 1456) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.11-ci maddədə “yaradılan məqsədli büdcə” sözləri “hüquqi şəxs yaratmadan təsis edilmiş büdcədənkənar dövlət” sözləri ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 7.3-cü maddə əlavə edilsin:

“7.3. Dövlət borcunun əsas məbləğinin qaytarılması üzrə ödənişlər cari büdcə ili ərzində cəlb edilən dövlət borcalması hesabına təmin edildikdə, bu ödənişlərin həmin ilin dövlət büdcəsində dövlət borcuna xidmət edilməsi ilə bağlı nəzərdə tutulan xərclərdən artıq olan hissəsi dövlət büdcəsinin xərclərinə aid edilmir.”.

3. 3-cü maddə üzrə:

3.1. 13.1-ci maddədə “Azərbaycan Respublikasının dövlət büdcəsinin tərkibində məqsədli büdcə” sözləri “hüquqi şəxs yaratmadan təsis edilmiş büdcədənkənar dövlət” sözləri ilə əvəz edilsin;

3.2. 13.2.3-cü maddədən “dövlət büdcəsinə” sözləri çıxarılsın;

3.3. aşağıdakı məzmunda 13.3-2-ci maddə əlavə edilsin:

“13.3-2. Təminat Fondunun xərclərinin yuxarı həddi həmin fondun büdcə ilinin əvvəlinə olan qalığından və il ərzində mədaxil olunacaq vəsaitin cəmindən yuxarı ola bilməz.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 dekabr 2021-ci il*

# “Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1050, № 12, maddə 1939; 2020, № 5, maddə 551; 2021, № 3, maddə 224, № 6 (I kitab), maddə 576, № 9, maddə 976) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4.2-ci bəndə “kənd təsərrüfatı təyinatlı” sözlərindən sonra “, habelə digər kateqoriya torpaqlarda məqsədli təyinatı əkin və çoxillik əkmələrin altında olan” sözləri əlavə edilsin;

1.2. həmin Fərmanla təsdiq edilmiş “Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası” üzrə:

1.2.1. 1.2.8-ci yarımbəndə “vasitələrinin” sözündən sonra “, habelə müasir suvarma sistemlərinin və dirəklərin” sözləri əlavə edilsin;

1.2.2. 1.2.9-cu yarımbənd aşağıdakı redaksiyada verilsin:

“1.2.9. **əkin subsidiyası** - fermerlərə əkin və çoxillik əkmələrin altında olan torpaqlarda həmin torpaqların məqsədli təyinatına uyğun kənd təsərrüfatı bitkilərinin becərilməsi üçün istifadə etdikləri kənd təsərrüfatı istehsal vasitələrinin alınmasına, torpaqların aqrokimyəvi analizinin aparılmasına, çoxillik əkmələrdə müasir suvarma sistemlərinin və dirəklərin alınmasına, habelə qurulmasına sərf olunan xərclərin bir hissəsini kompensasiya etmək məqsədilə bitki becərilən sahənin hər hektarına görə verilən subsidiya;”;

1.2.3. 1.2.10-cu yarımbənddən “əkin subsidiyasına əlavə olaraq” sözləri çıxarılsın;

1.2.4. 1.2.16-cı yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.2.17-ci yarımbənd əlavə edilsin:

“1.2.17. **vahid əkin sahəsi** - fermerlərin istifadəsində olan və onlar tərəfindən seçilmiş vahid bitkinin becərilməsinə qərar verilən qonşu əkin yerləri.”;

1.2.5. 2.4.1-ci yarımbəndə “tətbiqi üçün” sözlərindən sonra “vahid əkin sahəsi elan edilən yerlərin siyahısının,” sözləri əlavə edilsin;

1.2.6. 2.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

“2.7. Agentlik fermerin razılığı və kredit təşkilatlarına müraciəti əsasında ona veriləcək subsidiya vəsaitinin fermerin kənd təsərrüfatı təyinatlı kredit (lizinq) borclarının təminatı kimi rəsmiləşdirilməsi və ya həmin borcların ödənilməsinə yönəldilməsi ilə bağlı kredit təşkilatlarının fermerin formalaşan elektron bəyannaməsi və ya subsidiya vəsaiti barədə məlumatlara çıxışını təmin edir.”;

1.2.7. 2.9.2-ci yarımbəndə “kənd təsərrüfatı təyinatlı” sözlərindən sonra “, habelə digər kateqoriya torpaqlarda məqsədli təyinatı əkin və çoxillik əkmələrin altında olan” sözləri əlavə edilsin;

1.2.8. 3.1-ci bənd üzrə:

1. birinci abzasdan “(eyni ildə iki və daha çox əkin aparılması halında təqvim ilinin əvvəlindən ilk bəyan edilən bitki növü üzrə)” sözləri çıxarılsın;

2. ikinci abzasa “bitkilər,” sözündən sonra “vahid əkin sahələri,” sözləri əlavə edilsin;

1.2.9. 3.8.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“3.8.2. “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinə əsasən EKTİS ilə inteqrasiya edilən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Elektron Xidmətlər Portalı və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin “Elektron notariat” informasiya sistemi vasitəsilə əldə etmək mümkün olmadıqda, torpaq sahəsinin xüsusiyyətlərini (torpağın məqsədli təyinatı, bonitirovkası) və fermerin istifadə hüququnu təsdiq edən sənədi;”;

1.2.10. aşağıdakı məzmunda 3.8.2-1-ci yarımbənd əlavə edilsin:

“3.8.2-1. kənd təsərrüfatı təyinatlı, habelə digər kateqoriya torpaqlarda məqsədli təyinatı əkin və çoxillik əkmələrin altında olan torpaqların aqrokimyəvi analizinin nəticələrinə dair sənədləri;”;

1.2.11. 3.12-ci bənd aşağıdakı redaksiyada verilsin:

“3.12. Əkin subsidiyası ilə bağlı fermer hər il apardığı əkin, o cümlədən mövcud və yeni salınacaq çoxillik əkmələr barədə informasiyanı SİS-ə daxil edərək, avtomatlaşdırılmış qaydada formalaşan elektron bəyannaməni təsdiq edir və subsidiya almaq üçün müraciət edir. Bu Qaydanın 2.1-ci bəndi ilə müəyyən edilən xidmət reqlamentlərinə və 5-ci hissəsinə uyğun olaraq 30 (otuz) iş günü müddətində aparılan monitorinqin nəticələri nəzərə alınmaqla təsdiq edilən subsidiyanın məbləği 30 (otuz) iş günü müddətində fermerin kart hesabına köçürülür və bu barədə fermerə məlumat (SMS, elektron poçt və ya bilavasitə SİS vasitəsilə) verilir. Fermer müvafiq ödəniş xətti üzrə kart hesabında olan əkin subsidiyası balansından bu Qaydanın 3.13-cü bəndinə uyğun olaraq istifadə etdikcə həmin vəsait kart hesabından avtomatlaşdırılmış qaydada təchizatçıların, aqrokimya laboratoriyalarının və ya müvəkkil kredit təşkilatlarının hesabına köçürülür.”;

1.2.12. 3.13-cü bənddə “istehsalın təşkili məqsədilə” sözləri “əkin üçün kənd təsərrüfatı istehsal vasitələrinin satın alınması, torpaqların aqrokimyəvi analizinin aparılması, çoxillik əkmələrdə müasir suvarma sistemlərinin və dirəklərin alınması, habelə qurulması üçün” sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi vahid əkin sahələrində vahid əkin üsulunun tətbiqi qaydalarını iki ay müddətində təsdiq etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2021-ci il*




SOCAR
SOCAR PETROLEUM QSC

Xalqımızı
31 Dekabr - Dünya Azərbaycanlılarının
Həmrəyliyi Günü və
Yeni il münasibətilə
təbrik edir, qüdrətli Azərbaycana
davamlı inkişaf arzulayırıq!




QARABAĞ AZƏRBAYCANDIR!


# Azərbaycan Respublikası Prezidentinin “Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası”nın təsdiq edilməsi haqqında” 2018-ci il 24 avqust tarixli 235 nömrəli, “Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə” 2018-ci il 22 dekabr tarixli 431 nömrəli fərmanlarında dəyişiklik edilməsi və “Büdcə qaydasına uyğun icmal büdcə xərclərinin yuxarı həddinin hesablanması Qaydası”nın təsdiq edilməsi haqqında” 2018-ci il 18 dekabr tarixli 411 nömrəli Fərmanının ləğv edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 24 dekabr tarixli 440-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 235 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1685; 2019, № 2, maddə 212; 2021, № 9, maddələr 987, 981) ilə təsdiq edilmiş “Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası”nın 4.17-ci bəndindən “xərclənə bilən neft gəlirləri,” sözləri çıxarılsın.

2. “Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 dekabr tarixli 431 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2588; 2019, № 1, maddə 71, № 5, maddə 866, № 7, maddə 1244; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 aprel tarixli 644 nömrəli və 19 aprel tarixli 653 nömrəli fərmanları) 2-ci hissəsindən “, 2020-ci il və növbəti iki il üçün hədəf göstəriciləri müvafiq olaraq 30,1, 29,1 və 28,1 faiz” sözləri çıxarılsın.

3. “Büdcə qaydasına uyğun icmal büdcə xərclərinin yuxarı həddinin hesablanması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 411 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2568; 2019, № 11, maddə 1698; 2021, № 9, maddə 987) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2021-ci il*

*Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin və dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisinin hesablanması QAYDASI

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun 11-1.5-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin və dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisinin hesablanması qaydasını müəyyən edir.

1.2. Bu Qaydada istifadə olunan anlayışlar “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyənləşdirilmiş mənaları ifadə edir.

**2. İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin və dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisinin hesablanmasında istifadə olunan göstəricilər**

2.1. İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisi və dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisinin hesablanması zamanı Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin növbəti il və sonrakı üç il üçün makroiqtisadi proqnozları və həmin proqnozlar əsasında Azərbaycan Respublikası Maliyyə Nazirliyinin proqnozlaşdırdığı icmal büdcənin və dövlət büdcəsinin göstəriciləri, habelə dövlət borcu və ona xidmətlə bağlı ödənişlər nəzərə alınmaqla, aşağıdakı proqnoz göstəricilərindən istifadə olunur:

2.1.1. ümumi daxili məhsulun nominal həcmi;
2.1.2. qeyri-neft ümumi daxili məhsulun nominal həcmi;
2.1.3. xam neftin ixrac qiyməti;
2.1.4. milli valyutanın ABŞ dollarına nisbətdə orta illik məzənnəsi;
2.1.5. icmal büdcənin gəlirləri;
2.1.6. icmal büdcənin neft gəlirləri;
2.1.7. icmal büdcənin qeyri-neft gəlirləri;
2.1.8. icmal büdcənin xərcləri;
2.1.9. icmal büdcənin baza xərcləri;
2.1.10. dövlət borcunun həcmi;
2.1.11. dövlət borcu üzrə faiz ödənişləri.

**3. İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin və dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisinin hesablanması**

3.1. İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisi aşağıdakı kimi hesablanır:

$$İ_{qnbk(ng)} = \frac{İ_{qnbk}}{ÜDM_{qn}} * 100\%$$

$$İ_{qnbk} = İG_{qn} - İX_{b}$$

burada:

$İ_{qnbk(ng)}$ - icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisi;
$İ_{qnbk}$ - icmal büdcənin qeyri-neft baza kəsiri;
$İG_{qn}$ - icmal büdcənin qeyri-neft gəlirləri;
$İX_{b}$ - icmal büdcənin baza xərcləri;
$ÜDM_{qn}$ - qeyri-neft ümumi daxili məhsulun nominal həcmidir.

3.2. Dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisi aşağıdakı kimi hesablanır:

$$DB_{ng} = \frac{DB}{ÜDM} * 100\%$$

burada:

$DB_{ng}$ - dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisi;
DB - dövlət borcunun həcmi;
ÜDM- ümumi daxili məhsulun nominal həcmidir.

3.3. Ortamüddətli dövr üzrə icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin və dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisinin yuxarı hədləri “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun 11-1.3-cü maddəsinə uyğun olaraq həmin dövr üçün müəyyən edilən xam neftin ixrac qiyməti əsasında hesablanır.

3.4. “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun 11-1.4-cü maddəsinə uyğun olaraq ortamüddətli dövr üzrə icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin və dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisinin yenidən hesablanması zərurəti yarandıqda, həmin göstəricilər bu Qaydanın 2.1-ci maddəsində qeyd edilən göstəricilər yeniləndikdən sonra bu Qaydanın tələblərinə uyğun olaraq yenidən hesablanır.

**4. Yekun müddəalar**

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisini və dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisini bu Qaydaya uyğun olaraq hesablayır və “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun 11-1.1-ci maddəsinin icrasını təmin etmək məqsədilə həmin Qanunun 11-1.2-ci maddəsinə uyğun olaraq müəyyən edilən yuxarı hədləri keçməməsini təmin edir.

Əziz Əliyev - 125

XX əsrin birinci yarısına aid tarix o dövrün kəskin dəyişikliklər və sürətli inkişaf mühitində formalaşmış şəxsiyyətlərimizin adları ilə zəngindir. Həmin illərin gərgin, təbəddülatlı ab-havası insanları ağır sınaqlara çəkir, şəxsiyyət kimi çox tez yetişdirir və onların üzərinə tarixi missiya yükləyirdi. Ömürlüklərini vərəqləyəndə taleyin bu insanları tez-tez yaşadıqları məkanı dəyişmək, karyeralarını müxtəlif sahələrdə davam etdirmək, bəzən hətta yenidən başlamaq məcburiyyətində qoyduğunu, ağır çətinliklərlə, təhlükələrlə üzləşdirdiyini görürük. Amma ömrün bütün anlarından bu insanların bütöv şəxsiyyəti, nəcib əməlləri, yaratdıqları mükəmməl insanlıq örnəyi ucalır. İstisnasız olaraq belə böyük şəxsiyyətlərimizdən biri də görkəmli Azərbaycan alimi və ictimai-siyasi xadim, professor Əziz Məmmədkərim oğlu Əliyevdir.



# Əməlləri ilə əbədiləşən şəxsiyyət

2022-ci il yanvarın 1-də anadan olmasının 125-ci ildönümü tamamlanan Əziz Əliyev bütün ömrünü xalq üçün yaşamışdı. O, çox gənc yaşlarından Azərbaycanda səhiyyə işinin təşkilində, eləcə də dövlət quruculuğu proseslərində fəal iştirak etmiş, milli səhiyyə sistemimizin inkişafında, dövlət idarəçiliyi işinin təkmilləşdirilməsində tarixi xidmətlər göstərmişdir. Professor Əziz Əliyevin gördüyü işlər Azərbaycan hüdudlarını aşır. Azərbaycanın yetirdiyi belə böyük şəxsiyyətlərin timsalında ölkə sərhədlərindən kənarda, ümumən, xalqımıza rəğbəti daha da artırır, haqqımızda parlaq təəssürat yaradır.

Əziz Məmmədkərim oğlu Əliyev 1897-ci ildə İrəvan Quberniyasının Hamamlı kəndində anadan olmuşdur. Atası Məmmədkərim Əliyev ticarət və kənd işləri ilə məşğul olurdu, anası Zəhra xanım isə məşhur İrəvan taciri İbrahim bəyin qızı idi. Əziz Əliyev ilk ibtidai və orta təhsilinin bir hissəsini İrəvanda, bir hissəsini Çitadakı (Rusiyada) gimnaziyada, bir hissəsini də İrəvandakı kişi gimnaziyasında almışdı. İrəvanda böyüyən yeniyetmənin həyatının müəyyən dövrünün Çitada keçməsi maraqlı görünə bilər. Həmin vaxtlar Əziz Əliyevin bacılarından Göyçək xanım ailəsi ilə birlikdə Çita şəhərində yaşayırdı. O da bacısıgildə qalır və orta təhsilini orada davam etdirirdi. Amma 1914-cü ildə Birinci Dünya müharibəsinin başlanması hər şeyi dəyişir. Əziz Əliyev həmin il yay tətilini doğma yurdda keçirmək üçün Çitadan İrəvana gəlmişdi. Birinci Dünya müharibəsi başlandığından gediş-gəliş çətinləşməyə başlayır. Bununla əlaqədar Əziz Əliyev Çitaya qayıda bilmir. Məcbur olub 1914-1917-ci illərdə İrəvandakı kişi gimnaziyasında təhsil alır. 1917-ci ildə həmin gimnaziyanı əla qiymətlərlə başa çatdırır.

Gələcək sənət seçimini o, hələ uşaqlıqdan etmişdi: həkim olmaq arzusunda idi. Amma bundan ötrü Rusiya imperiyasının aparıcı şəhərlərindəki ali məktəblərdən birinə qəbul olunmaq lazım gəlirdi. O zaman Azərbaycanda hələ ali tibb təhsili verən məktəb yox idi. Uzaq şəhərlərdə təhsil almaq, yaşamaq üçünsə kifayət qədər maddi vəsait tələb olunurdu və gənc Əzizin ailəsi bu məsrəfləri ödəmək gücündə deyildi. Əziz Əliyev çıxış yolu tapır. O dövrdə Azərbaycan iqtisadi cəhətdən inkişaf edir, xüsusilə neft Bakısında xeyriyyəçilik fəaliyyəti gündən-günə genişlənirdi. Neft milyonçuları arasında Azərbaycanın gələcək taleyini düşünənləri, millətə faydalı olmağı özünə mənəvi borc bilənləri, gənclərin təhsilinə bacardıqları qədər diqqət göstərənləri az deyildi. Belə mesenatlarımızdan ən tanınmışı isə xeyirxah əməllərinin sözü-söhbəti dildən-dilə dolaşan Hacı Zeynalabdin Tağıyev idi. Əziz Əliyev də tibb təhsili almasına kömək göstərilməsi üçün məktubla Hacı Zeynalabdin Tağıyevə müraciət edir. Məşhur xeyriyyəçi oxumaq həvəsi olan digər gənclər kimi Əziz Əliyevə də köməyini əsirgəmir. Onun təhsil almasına həmin vaxt üçün kifayət qədər dəyərli vəsait hesab olunan 300 rubl kömək göstərir. Əziz Əliyev elə həmin il Sankt-Peterburqda tələbkar alimlərin iştirakı ilə aparılan müsabiqədən müvəffəqiyyətlə keçir. O dövr üçün Rusiyanın ən nüfuzlu ali tibb məktəblərindən sayılan Hərbi Tibb Akademiyasına daxil olur. Akademiyada təhsil almaqla yanaşı, elə birinci kursun əvvəllərindən boş vaxtlarında Sankt-Peterburqda səpkili yatalaqla mübarizə əleyhinə təşkil edilmiş dezinfeksiya-profilaktika briqadasında çalışır. Aldığı maaşla həm özünün minimal güzəranını təmin edir, həm də valideynlərinə bacardığı qədər yardım göstərməyə başlayır. Əfsuslar olsun ki, bu dəfə də gözlənilmədən növbəti maneələr qarşıya çıxır. Əziz Əliyev 1918-ci ildə akademiyanın birinci kursunu uğurla başa vurub ikinci kursa keçir və yay tətili günlərində İrəvana gəlir. Burada erməni daşnaklarının azərbaycanlılara qarşı törətdikləri dəhşətli əməlləri görür. Əziz Əliyevin ailəsi də ermənilərin azərbaycanlılara qarşı bəşəri cinayətlərindən əziyyət çəkən ailələrdən idi. O, erməni zülmü nəticəsində yerindən-yurdundan didərgin düşmüş ailəsini belə vəziyyətdə qoyub Sankt-Peterburqa qayıda bilmir. Ali təhsilini birinci kursdan yarımçıq dayandırır. Onlar əvvəlcə Naxçıvanın Şərur rayonunda, Cənubi Azərbaycanın Ərəblər kəndində, sonra yenidən Naxçıvanın Şahtaxtı kəndində məskunlaşırlar. Burada ağır məcburi köçkünlük həyatı yaşayırlar.

Vəziyyət nə qədər ağır olsa da, Əziz Əliyev yenə də gələcəyə inamını, ümidini itirmirdi. İnsanlara faydalı olmağa çalışırdı. Yaşın erkən çağlarından onda belə bir prinsip formalaşmışdı ki, əsl insan hansı şəraitdə olur-olsun bacardığı qədər başqalarına kömək etməyə çalışmalıdır. Təşkilatçı olmalıdır, vəziyyəti mümkün qədər nizama salmaq üçün bütün gücünü ortaya qoymalıdır, xalqa xidmət göstərməlidir. Gimnaziyada qazandığı mükəmməl savad, ardınca Sankt-Peterburq Tibb Akademiyasında birillik təhsil və həkim briqadasında iş təcrübəsi Əziz Əliyevdə tibb sahəsində müəyyən bilik və bacarıqlar formalaşdırmışdı. Heç bir tibbi xidmət imkanının olmadığı, məcburi köçkünlük şəraitində insanların müxtəlif xəstəliklərdən əziyyət çəkdikləri vaxtlarda Əziz Əliyev kimi tibbi bacarığı olan gənclərə böyük ehtiyac var idi. O, həkim köməkçisi, əczaçı köməkçisi vəzifələrini fədakarcasına yerinə yetirirdi. Həm xalqa xidmət edir, həm də gələcək həkim və səhiyyə təşkilatçısı kimi zəngin təcrübə toplayırdı. Tibb təhsilini davam etdirmək arzusundan da bir an olsun vaz keçmirdi.

Əziz Məmmədkərim oğlu 1923-cü ildə ali tibb təhsilini davam etdirmək üçün ailəsi ilə birlikdə Naxçıvandan Bakıya köçdü. Onda indiki Bakı Dövlət Universiteti yenicə yaranmışdı, universitet həkim kadrlar da hazırlayırdı. Əziz Əliyev Bakıya gəldikdən sonra Azərbaycan Xalq Komissarları Şurasında işə düzəldi. Ona tapşırılan bütün işləri bacarıqla yerinə yetirməyə başladı. Orada iş icraçısı, ümumi şöbə müdirinin müavini, katib köməkçisi və katib vəzifələrində çalışaraq qısa müddətdə özünü mükəmməl təşkilatçı, dövlət işçisi kimi göstərə bildi. 1923-cü ildə isə Əziz Əliyev qəbul imtahanlarını müvəffəqiyyətlə verərək, Bakı Dövlət Universitetinin Tibb fakültəsinin tələbəsi oldu. Çoxdan arzuladığı ali tibb təhsilini 1927-ci ildə əla qiymətlərlə başa vurdu. Elə həmin il Xalq Komissarları Şurasının göndərişi ilə klinikada elmi-pedaqoji işə başladı. 1927-ci ildən BDU-nun Tibb fakültəsinin diaqnostika kafedrasında ordinator və aspirant, 1930-cu ildən isə yenicə təşkil edilmiş Azərbaycan Dövlət Tibb İnstitutunun Birinci terapiya kafedrasında assistent və dosent vəzifələrində çalışdı.

Əziz Əliyev bu dövrdə özünü artıq püxtələşmiş, bacarıqlı bir təşkilatçı kimi göstərə bilmişdi. Ona görə də həkimlik fəaliyyəti ilə yanaşı, ona ən məsuliyyətli ictimai və dövlət əhəmiyyətli işlər də tapşırılırdı. Gənc həkim tibb fakültəsini bitirdikdən sonra apardığı elmi-pedaqoji işlərlə yanaşı, 1928-1929-cu illərdə Xalq Səhiyyə Komissarlığında işə cəlb olunmuşdu, orada müalicə şöbəsinin müdiri vəzifəsini yerinə yetirirdi.

1929-cu ildə isə o, təşkilində özünün də fəal iştirak etdiyi Azərbaycan Kliniki İnstitutunun direktoru vəzifəsinə təyin olundu. 1932-ci ilə qədər bu instituta rəhbərlik edərək respublikanın tanınmış idarə rəhbərlərindən biri kimi böyük şöhrət qazandı. Təsadüfi deyil ki, 1930-cu il may ayının 9-da Azərbaycan Dövlət Universitetinin Tibb fakültəsinin bazasında Azərbaycan Dövlət Tibb İnstitutu yaradılarkən bu mürəkkəb prosesin həyata keçirilməsinə bacarıqlı təşkilatçı kimi Əziz Əliyevi də cəlb etdilər. 1932-ci il iyunun 1-dən isə o, Azərbaycan Dövlət Tibb İnstitutunun rektoru vəzifəsinə təyin olundu. 1938-ci ilə qədər bu vəzifəni müvəffəqiyyətlə yerinə yetirdi.

Çoxşaxəli fəaliyyət dairəsinə malik olan Əziz Əliyev eyni vaxtda bir neçə vəzifənin öhdəsindən məharətlə gəlirdi. O, müəyyən müddət ərzində Azərbaycan Dövlət Tibb İnstitutunun rektoru olmaqla yanaşı, Əczaçılıq İnstitutuna da rəhbərlik edirdi. 1937-ci ildə eyni zamanda həm ATİ-nin, həm də Bakı Dövlət Universitetinin rektoru vəzifəsində çalışırdı. Bir müddət Azərbaycan SSR Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru vəzifəsində də fəaliyyət göstərmişdi. Bundan əvvəl isə 1934-cü ildə Bakı şəhər səhiyyəsində böyük problemlər olduğu vaxtlarda Əziz Əliyev oraya rəhbər təyin edilmişdi. Qısa müddətdə - 8 ay ərzində vəziyyətin köklü şəkildə dəyişilməsinə nail olmuş, Azərbaycanın paytaxtı epidemiyadan xilas edilmişdi.

Onun rektorluğu illərində yeni yaranmış Azərbaycan Dövlət Tibb Universitetinin maddi-texniki bazası çox zəif idi. Bakı Dövlət Universitetinin Tibb fakültəsində o dövrə qədər milli kadrların yetişdirilməsinə elə də ciddi diqqət göstərilməmişdi. Həmin fakültədə təhsil alanların içərisində başqa millətlərin nümayəndələri üstünlük təşkil edirdi. Odur ki, Əziz Əliyev ATİ-yə rəhbərlik etdiyi ilk illərdə hər şeyi, demək olar ki, sıfırdan başlamalı olmuşdu. Tədris prosesini çətinləşdirən və milli həkim kadrların hazırlanmasına ciddi mane olan amillərdən biri də bu sahədə dərsliklərin, demək olar ki, hamısının xarici dillərdə olması idi.

Azərbaycan üçün peşəkar tibbi kadrların hazırlanması işində ana dilimizdə dərsliklərin yazılmasının müstəsna rolunu aydın görən Əziz Əliyev tibbin müxtəlif ixtisasları üzrə səriştəsi olan azərbaycanlı alimləri qısa müddətdə bu istiqamətdə səfərbər etdi. Onları ana dilində dərsliklər yazmağa ruhlandırdı. Rus dilində olan tibbi kitablardan ən vacibləri Azərbaycan dilində nəşr olundu. O vaxtlar kitab nəşri üçün texniki təchizat yox dərəcəsində idi. Buna baxmayaraq Əziz Əliyev mümkünsüz görünən işlərin öhdəsindən layiqincə gəlirdi. Çox qısa müddətdə bu bacarıqlı təşkilatçının rəhbərliyi ilə Azərbaycan dilində 55 adda dərslik işıq üzü gördü. Onlardan biri də görkəmli alimin özünün yazdığı "Klinik analizlər" kitabı idi. Bu təşəbbüsə qoşulan ilk alimlərdən K.Ə.Balakişiyevin "İnsanın normal anatomiyası", M.Qəniyevin "Mikrobiologiya kursu", C.Hüseynovun "Patoloji anatomiya", Y.Qazıyevin "Ağciyər vərəmi", Ü.Musabəylinin "Göz xəstəlikləri", Ə.Talışinskinin "Travmatologiya", Q.Səfərov və Ə.Həsənovun "Bioloji kimya" və digər dərslikləri, eləcə də M.Mirqasımovun, M. Topçubaşovun, M.Mirsəlimovun, M.Əfəndiyevin, Z.Məmmədovun və başqalarının ana dilində çap olunan əsərləri Azərbaycanın tibb təhsili tarixində abidəyə çevrilmiş orijinal nəşrlərdəndir.

Əziz Əliyev Azərbaycan Dövlət Tibb İnstitutunun nəzdində tibbi kitabxana da yaratdı. Görkəmli alimin ardıcıl səyləri ilə professor P.Rostovtsevin sədrliyi altında Kitabxana komissiyası təşkil edildi. Komissiya plan üzrə SSRİ-də nəşr olunan bütün təzə kitabları, o cümlədən dövrü tibbi-bioloji ədəbiyyatı almağa başladı. Bunlardan əlavə, kitabxananın SSRİ-nin 231 elmi müəssisəsi və 87 xarici ölkə ilə kitab mübadiləsi aparması təmin edildi.

Əziz Əliyev institut kollektivinin köməyi ilə 1934-cü ildə "Tibb nəşriyyatı"nın da təməlini qoydu. Onun təşəbbüsü və redaktorluğu ilə ilk dəfə "Praktiki və nəzəri tibb jurnalı"nın nəşrinə başlandı. Qeyd edək ki, Əziz Əliyev 1929-cu ildən etibarən "Azərbaycan Tibb Jurnalı"nın məsul katibi vəzifəsində çalışırdı. 1935-ci ildə isə həmin jurnalın baş redaktoru təyin edildi. Həmin jurnal da "Tibb nəşriyyatı"nda çap olunurdu. 1933-cü ildə həmçinin yenə də Əziz Əliyevin təşəbbüsü ilə Azərbaycan Dövlət Tibb İnstitutunda "Tibb kadrları uğrunda" adlı çoxtirajlı qəzetin ilk nömrəsi çapdan çıxdı. Hazırda bu qəzet "Təbib" adı altında Azərbaycan Tibb Universitetinin orqanı kimi nəşr olunmaqdadır.

Əziz Əliyevin Azərbaycan Dövlət Tibb İnstitutuna rəhbərlik etdiyi 6 il müddətində burada 11 doktorluq, 30 namizədlik dissertasiyası müdafiə edilmişdi. O illərdə tibb sahəsində yetişən gənc alimlərimizin əksəriyyəti məhz milli kadrlar idi. Bu vətənpərvər dövlət xadimi hər il Azərbaycan Dövlət Tibb İnstitutunun son kurs tələbələrinin ən bacarıqlılarını Moskvanın və Sankt-Peterburqun məşhur ali tibb məktəblərinə ezam edər, onlara təcrübə toplamaları üçün əlverişli şərait yaradardı.

Rektor Azərbaycan Dövlət Tibb İnstitutunda təhsil alan tələbələrin həyatı ilə yaxından maraqlanırdı. Gənclərlə bağlı probemlərin həllinə çalışırdı. 1933-cü ildə Əziz Əliyevin təklifi, təşəbbüsü və bilavasitə iştirakı ilə indiki Kliniki Tibbi Mərkəzin yaxınlığında "Tibb şəhərciyi"nin inşasına başlanıldı. Sonralar həmin şəhərcikdə tələbə yataqxanaları ilə birlikdə nəzəri kafedralar üçün tədris korpusları da tikildi.

1933-1934-cü illərdə ölkədə çörək qıtlığı yarandığından tələbələrin güzəranı xeyli ağırlaşmışdı. Həmin dövrdə Əziz Əliyevin qayğısı sayəsində "Azad qadın" heykəlinin yaxınlığındakı orta məktəbin birinci mərtəbəsində tələbə yeməkxanası təşkil edilmişdi. Orada tələbələrə gündə 500-600 qr çörək və pulsuz isti yemək verilirdi. Əziz Əliyev Azərbaycan Dövlət Tibb İnstitutunda rektorluq fondu da yaratmışdı. Ehtiyacı olan əlaçı tələbələrə həmin fondun hesabına hər il pal-paltar, ayaqqabı alınardı.

Əziz müəllim 1939-1941-ci illərdə Azərbaycan SSR Xalq Səhiyyə Komissarı vəzifəsində çalışdığı dövrdə də xalqa xidmətin mükəmməl örnəyini yaratdı. O, respublikanın ən ucqar rayonlarını kəndbəkənd gəzib vəziyyəti nəzarətdə saxlayırdı. O dövrdə Azərbaycanda tüğyan edən son dərəcə təhlükəli yoluxucu xəstəliklərə qarşı mübarizə proqramı hazırlanmışdı. Bu proqram dövlət səviyyəsində Əziz Əliyevin rəhbərliyi altında həyata keçirilirdi. Onun başçılığı ilə ölkədə xüsusi dispanserlər, şəhər və kəndlərdə 50 yerlik göz xəstəxanaları açılmışdı. Görülən tədbirlər sayəsində traxoma, malyariya və digər ağır xəstəliklərin qarşısını xeyli dərəcədə almaq mümkün olmuşdu. Bir çox ciddi infeksion xəstəliklərin isə tamamilə kökü kəsilmişdi. Təsadüfi deyil ki, Əziz Əliyevin təcrübəsi o vaxtlar SSRİ Xalq Səhiyyə Komissarlığında müzakirə olunmuş, bu təcrübənin SSRİ miqyasında yayılması tövsiyə edilmişdi. Böyük Vətən müharibəsi dövründə Əziz Əliyev özünü bacarıqlı siyasi rəhbər kimi də göstərmişdi. O, Ordu Hərbi Şurasının üzvü kimi İrana ezam olunmuş, 1941-1942-ci illərdə orada sovet qoşun hissələrinin siyasi komissarı vəzifəsində çalışmışdı.

Əziz Əliyev Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi, Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində çalışdığı dövrlərdə də respublikada elmin, səhiyyənin, təhsilin inkişafına köməyini əsirgəməmişdi.

Görkəmli dövlət xadimi çoxsaylı ictimai, inzibati, təşkilati vəzifələri ilə yanaşı, elmi axtarışlarını da fədakarcasına davam etdirirdi. 1933-cü ildə Almaniyada elmi ezamiyyətinin nəticəsi olaraq Əziz Əliyev doktorluq dissertasiyasını uğurla müdafiə etdi. Azərbaycanda ilk dəfə olaraq onun dissertasiya işi 1937-ci ildə Moskvada gənc alimlər müsabiqəsində SSRİ Elmlər Akademiyasının və ÜİLKGİ Mərkəzi Komitəsinin mükafatına layiq görüldü. 1941-ci il mayın 13-də isə Əziz Əliyev SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının Rəyasət Heyəti nəzdində təşkil edilmiş Elmi Şuranın üzvü, 1956-cı ildə professor vəzifəsinə seçildi.

Əziz Əliyevin həyatındakı mühüm dövrlərdən biri də Dağıstana rəhbərlik etdiyi illərdir. Qonşu respublikanın ağır vəziyyətində - 1942-ci ildə Əziz Əliyevin Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi seçilməsi onun təkcə Azərbaycanda deyil, keçmiş SSRİ-də də böyük nüfuza malik olduğunu sübut edirdi. Altı il bu vəzifədə çalışan Əziz Əliyev Dağıstanın həyatının bütün sahələrində böyük irəliləyişə nail olmuş, çoxsaylı xalqların həmrəyliyini təmin etmiş, Azərbaycan-Dağıstan dostluğunun daha da möhkəmlənməsinə əvəzsiz töhfə vermişdir.

Əziz Əliyev I-II çağırış SSRİ Ali Sovetinin, I-III çağırış Azərbaycan SSR Ali Sovetinin, II çağırış Dağıstan MSSR-in Ali Sovetinin deputatı olmuşdu. Onun vətən və xalq qarşısındakı müstəsna xidmətləri hər zaman yüksək qiymətləndirilmişdi. Professor Əziz Əliyev iki dəfə "Lenin" ordeni, "Qırmızı Əmək Bayrağı" ordeni, "I dərəcəli Vətən müharibəsi" ordeni, "Səhiyyə Əlaçısı" döş nişanı, bir çox medallar, o cümlədən 1948-ci ildə "Moskvanın yaranmasının 800 illik" xatirə medalı və çoxsaylı fəxri fərmanlarla təltif edilmişdi. 1960-cı ildə Əziz Əliyevə "Azərbaycan SSR Əməkdar həkimi" fəxri adı verilmişdir.

Həyatın ən böyük mükafatı isə bu dəyərli ziyalının, gözəl ailə başçısının ocağından çıxan övladları idi. Əziz Əliyevin övladlarından biri dünya şöhrətli oftalmoloq-alim Zərifə xanım Əliyevadır. Oğlu, Əməkdar elm xadimi, professor Tamerlan Əliyev uzun illər Azərbaycan Tibb Universitetinin Daxili xəstəliklər kafedrasının rəhbəri olmuş, yüksəkixtisaslı həkim kadrlarının hazırlanmasına böyük əmək sərf etmişdir. Qızı, Əməkdar incəsənət xadimi Gülarə xanım Əliyeva Azərbaycan musiqisinin, incəsənətinin inkişafı və təbliğində böyük xidmətlər göstərmişdir. Qızlarından Ləzifə xanım Əliyeva uzun illər ATU-nun Göz xəstəlikləri kafedrasında aparıcı dosent vəzifəsində çalışmış, gənc tibb kadrlarının yetişdirilməsində böyük xidmətlər göstərmişdir. Daha bir qızı Dilbər xanım isə adlı-sanlı rabitəçi-mühəndis idi. Əziz müəllimin bir oğlu da ölkə hüdudlarından kənarda şöhrət qazanmış məşhur cərrah-onkoloq, akademik Cəmil Əliyevdir.

Bu gün Əziz Əliyevin nəvə və nəticələri onun şərəfli yolunu ləyaqətlə davam etdirir, onun adı ilə başlanan işıqlı missiyanı yeni dövrlərə daşıyıb aparırlar.

*Əhliman ƏMİRASLANOV,*
*Milli Məclisin səhiyyə komitəsinin sədri, akademik,*
*SSRİ Dövlət mükafatı laureatı*

# Dünyanı birləşdirən bayram

**Dünya xalqlarının əksəriyyəti tərəfindən sevilən bayramlardan olan Yeni ilin yaranma tarixi ilə bağlı müxtəlif fərziyyələr var. Bəzi mənbələrdə bu bayramın ilk dəfə qədim germanlar, romalılar, çinlilər tərəfindən qeyd edildiyi deyilsə də, digər mənbələr Yeni ilin qarşılanması ənənəsinin Mesopotamiyada yarandığını iddia edirlər.**

Mesopotamiyada Yeni il ilk dəfə eramızdan əvvəl 2000-ci ildə martın ortalarında yaz bərabərliyi zamanı qeyd edilib. Burada Dəclə və Fərat çaylarında suyun səviyyəsi artanda əkin-biçin işləri başlayarmış. İnsanlar Yeni ilin gəlişini də elə o zaman qeyd edirlərmiş. Təntənəli mərasimlər isə 12 gün çəkərmiş. Babilistanda əsir olan yəhudilər Yeni il bayramı ənənəsini babillərdən öyrənərək sonradan onu yunanlara ötürüblər. Yunanlar vasitəsilə isə bu ənənə Qərbi Avropaya yayılıb.

Başqa bir mənbəyə görə, qədim hindlilər və farslar həyatın ölüm üzərində qələbəsi olaraq dekabrın 22-ni - ən qısa gündüzlə ən uzun gecənin növbələşdiyi günü Günəş Tanrısı Mitranın doğum günü kimi qeyd ediblər. Lakin farsları öz əsarəti altına alan romalılar Mitranı özününküləşdirirlər. Əsrlər keçdikdən sonra rəsmi olaraq xristian dövləti kimi tanınan Roma həm İsa peyğəmbərin doğum gününü, həm Yeni ilin gəlişini, həm də həyatın ölüm üzərində qələbəsini özündə birləşdirən Milad gününü qeyd etməyə başlayır.

Bir çox tarixçilər isə dünya xalqlarının fərqli vaxtlarda keçirdiyi Yeni il şənliklərinin tarixinin qədim Misirdən qaynaqlanan məhsul bayramı ilə bağlı olduğuna əmindirlər.

Orta əsr xristian Avropasında Yeni il müxtəlif vaxtlarda - bəzi yerlərdə dekabrın 25-də, bəzi yerlərdə martın 1-də keçirilirdi. 1582-ci ildə Qriqorian təqvimində islahat aparılmaqla yanvarın 1-i Yeni il günü kimi qəbul edildi. Katolik ölkələrinin əksəriyyəti demək olar ki, dərhal bu təqvimi qəbul etsə də, protestant ölkələr onu tədricən qəbul etdilər. Məsələn, ingilislər islahat təqvimini 1752-ci ilə qədər qəbul etmədilər. O vaxta qədər Britaniya və onun koloniyaları yeni ili martın 25-də qarşılayırdılar.

## Küknar ağacı Yeni il yolkasına çevrildi



**Əslində, Yeni il bayramında evdə küknar ağacının bəzədilməsi xristianlardan gələn ənənə deyil. Həyat rəmzi olan şam ağacının bəzənməsi tarixi xristianlıqdan əvvəl başlayıb və hansısa bir dinlə bağlı deyil.**

Hələ miladdan çox-çox əvvəl qədim Misirin sakinləri dekabrın ən qısa günlərində yaşıl palma ağaclarını evlərinə gətirirdilər. Bu, həyatın ölüm üzərində qələbəsinin rəmzi idi. Romalılar isə Əkin ilahəsinin şərəfinə evlərini yarpaqlarla bəzəyirdilər. Druidlər palıd budaqlarına qızıl almalar asıb qış bayramını qeyd edirdilər. Orta əsrlərdə qırmızı almalarla bəzədilmiş həmişəyaşıl ağaclar dekabrın

25-də qeyd edilən "Adəm və Həvva" bayramının rəmzi idi.

Yeni ilin şam ağacı haqqında ilk yazılı məlumat XVI əsrə təsadüf edir. Həmin mənbələrə görə, o vaxt alman şəhəri olan Strasburqda Yeni il gecəsi həm kasıb, həm də adlı-sanlı zadəgan ailələrində küknar ağacları rəngli kağızlar, meyvələr və şirniyyatla bəzədilirmiş. Vaxt keçdikcə bu adət bütün Avropaya yayılır. Amerika Birləşmiş Ştatlarına yolkanın bəzənməsini almanlar gətiriblər. 1851-ci ildə ABŞ-da ilk dəfə təntənəli şəkildə yolka fənərlərinin yandırılması mərasimi keçirilib. O vaxtdan hər il Yeni il bayramında Ağ evin qarşısında bu mərasim keçirilir.

## Santa Klaus kəndi turistlərin ən çox səyahət etdikləri yerlərdəndir



Şaxta babanın xeyirxah missiya ilə dünyanı dolaşaraq hədiyyə paylamaq ənənəsinin əsası isə ilk dəfə Almaniyada qoyulub. Bu ənənə sonra Avropa xristianları arasında sürətlə yayılıb. Şaxta babanın hədiyyə paylamaq ənənəsi hollandiyalı mühacirlər tərəfindən Amerikaya da yayılıb.

Skandinaviyalılar deyirlər ki, Yeni ildə Şaxta baba öz hədiyyələri ilə dünya səyahətinə məhz onların torpağından başlayır. Onlar Şaxta babanın Laplandiyada yaşadığını, buranın onun vətəni olduğunu iddia edirlər. Laplandiyanın Santa Klaus kəndi turistlərin ən çox səyahət etdikləri yerlərdəndir. Burada Santa Klausun özünün daxması da var.

## Ginnesin Rekordlar Kitabına düşən yolkalar




Dünyanın ən hündür təbii Yeni il yolkası 1950-ci ilin dekabrında ABŞ-ın Vaşinqton ştatında quraşdırılıb. Duqlas küknarı olan bu yolkanın hündürlüyü 67,36 metr olub. Dünyanın ən böyük süni yolkasının hündürlüyü 72,1 metr olub. O, 2016-cı ilin 24 dekabrında Şri Lankanın Kolombo şəhərində qurulub. Bu yolkalar özlərinin möhtəşəmliyinə görə Ginnesin Rekordlar Kitabına düşüb.

Tarixdəki qeyri-adi Yeni il yolkaları yalnız ağaclardan ibarət olmayıb. 2015-ci ilin 19 dekabrında Hindistanda insanlardan ibarət Yeni il "yolkası" hazırlanıb. "Yolka" geyim rəngləri ilə bir-birini tamamlayan 4030 iştirakçıdan ibarət olub.

## Şaxta babanın məzarı var?

**Şaxta baba kimdir və haradandır? Şaxta babanın mövcudluğu mifik hekayədirmi? Bu suallara verilən cavablar nəinki uşaqlar, hətta böyüklər üçün də maraqlıdır.**

Yeni il bayramının bir çox ənənələri Miladdan qaynaqlandığı üçün Şaxta baba obrazının əsli də xristian dünyasında axtarılır. Yeni ilin nağıl qəhrəmanının daha çox Şimal qütbündən gəldiyi düşünülür. Amma bəzi mənbələr Şaxta babanın əslinin Türkiyədən olduğunu göstərir.

Şaxta babanın tarixi ilə bağlı qədimdən bizə gəlib çatan əfsanəyə görə, Türkiyənin Muğla vilayətinin Patara şəhərindəki Santa Klaus kilsəsinin Nikolas adlı keşişi varmış. Bu keşiş III əsrin axırlarında Patarada varlı tacir ailəsində anadan olubmuş. Orta yaşlarında rahib Nikolas Patara şəhərinin baş keşişi seçilir. O, bu şəhərdə yaşayan kasıb bir kişinin 3 qızına cehiz vermək üçün pul tapa bilmədiyini eşidir və bir gecə gizlicə onların evinə gedərək pəncərədən və bacadan evə pul kisələri atır. Qızların cehiz pulu düzəlir. O gündən xristianlar maddi problemi olanlara müqəddəs Nikolasın kömək edəcəyinə inanırlar.

Bəzi mənbələrin yazdıqlarından belə məlum olur ki, Nikolas 343-cü ildə 65 yaşında vəfat edib. Keşiş Nikolasın qəbri milyonların ümid yerinə çevrilir. 1087-ci ildə türklər Muğla vilayətini fəth edəndən sonra xristian tacirlər keşiş Nikolasın məzarını bir gecə gizlicə açıb, sümüklərini oğurlayıb və İtaliyanın Bari şəhərinə apararaq orada dəfn ediblər. Katolik və pravoslav xristianların əksəriyyəti bu şəhərdəki Basilika San Nicola kilsəsində saxlanılan insan sümüklərinin qalıqlarının Şaxta babaya aid olduğunu iddia edirlər.

Şaxta babanın nəvəsi Qar qız isə Rusiyada yaranıb. Qar qızın peyda olmasının kökü qədim rus folklor ənənələrinə gedib çıxır. Rusların İvan Kupala bayramında ocağın üstündən tullanaraq əriyən Qar qız qışla yayın əvəzlənməsinin rəmzidir.

## Yeni ili maraqlı adətlərlə qarşılayanlar



Bir çox xalqlar Yeni ili fərqli ənənələrlə qarşılayırlar. Məsələn, Kolumbiyada ili səyahətlərlə keçirmək üçün bayram günü çemodanla gəzirlər. Yaponiyada ilin təhvil verildiyi heyvanın maskasını taxaraq 108 dəfə zəng çalınan məbədə toplaşırlar. Danimarkalılar köhnə boşqab və bardaqları yaxınlarının qapısına atır, stuldan tullanmaqla pis ruhların getdiyinə və yeni ilin onlara uğur gətirəcəyinə inanırlar. Cənubi Afrikada da yerli əhali Yeni ilin şans və bərəkət gətirməsi üçün köhnə ev əşyalarını pəncərədən atır. İspanlar saat 00:00-da 12 üzüm giləsi yeyirlər. 12 üzüm giləsi ayları və uğuru simvolizə edir. Finlandiyada ərimiş metalı suya tökürlər. Əldə edilən fiqura baxaraq gələn ili proqnozlaşdırmağa çalışırlar. Məsələn, ürək və dairə evliliyə işarədir. Panamada xüsusi hazırlanan kuklalar yeni il tonqalında yandırılır. Köhnə ili təmsil edən kuklanın yandırılması pis ruhların uzaqlaşdırılması və yeni başlanğıc deməkdir.

Filippində masada olan hər şeyin yuvarlaq olmasına diqqət edirlər. Çünki yumru forma pulu simvolizə edir. Bu isə zənginlik əlamətidir. Estoniyada isə inanırlar ki, Yeni il günü bir insan 7 növ yemək yesə, 7 nəfərin gücünə sahib olacaq. Peruda Yeni ildə Takanakuy festivalı keçirilir. Yeni il gecəsi insanlar bir-birini yumruqlayır, bununla Yeni ilə daha rahat girəcəklərini düşünürlər. Rumıniyada qəpikləri çaya atır və bunun uğur gətirəcəyinə inanırlar. Boliviyada şirniyyatların içərisinə pul qoyurlar. Kimə bu pullu şirniyyat düşsə, Yeni ilin onun üçün daha uğurlu olacağına inanırlar. Çilidə insanlar yaxınlarının məzarı başında gecələyirlər. Sibirlilər yeni ildə buzlu suya girirlər.

*İlhamə İSABALAYEVA,*
*"Azərbaycan"*

Günay Bank

Azərbaycan xalqını
31 Dekabr - Dünya Azərbaycanlılarının
Həmrəyliyi Günü və
Yeni ilin gəlişi münasibətilə təbrik edir,
sülh və xoş günlər arzulayır!



QARABAĞ AZƏRBAYCANDIR!

azərişıq
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

Azərbaycan xalqını




# 2021-ci ildə "Azərenerji" 23 enerji obyektini istismara verib

Yola salmaqda olduğumuz 2021-ci ildə "Azərenerji"nin 23 elektrik stansiya və yarımstansiyası tikilib və ya yenidən qurularaq istismara verilib. Qurumun Mətbuat xidmətindən verilən məlumata görə, ölkənin ən böyük yarımstansiyası olan 500 kilovoltluq "Abşeron" yarımstansiyası, həmçinin strateji əhəmiyyətli 220 kilovoltluq "Xırdalan" və "Hövsan", o cümlədən sistem əhəmiyyətli 110 kilovoltluq "Binəqədi", "Xırdalan-2", "Maştağa", "Suraxanı" yarımstansiyaları yenidənqurmadan sonra cənab Prezident İlham Əliyevin iştirakı ilə istismara verilib. 3 sentyabr tarixində Prezident İlham Əliyevin iştirakı ilə "Sumqayıt" Elektrik Stansiyasının əsaslı təmiri, yeni estakada nasos stansiyasının istismara verilməsi ilə 2018-2021-ci illəri əhatə edən Enerjisistemin Reabilitasiya Proqramı başa çatıb. 2021-ci ildə Enerjisistemin yeni SCADA proqramı istifadəyə verilib, tikilməkdə olan 330 kilovoltluq yarımstansiya, 385 meqavatlıq elektrik stansiyasından ibarət "Qobu" Enerji Qovşağında işlər yekunlaşıb. Nəhayət, 2021-ci ildə işğaldan azad olunmuş ərazilərdə 13 enerji obyekti tikilib və yenidən qurulub. Cənab Prezidentin iştirakı ilə Laçındakı "Güləbird" SES, "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su elektrik stansiyalarının yenidənqurmadan sonra açılışı olub. "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyasında işlər tamamlanıb. İşğaldan azad olunmuş ərazilərdə




110/35/10 kV-luq 9 rəqəmsal yarımstansiya tikilib. Mayın 12-də "Şuşa", iyunun 14-də "Füzuli" və "Şükürbəyli", avqustun 16-da "Kəlbəcər", oktyabrın 4-də "Cəbrayıl", oktyabrın 20-də "Zəngilan", oktyabrın 25-də isə "Qubadlı" yarımstansiyalarının cənab Prezidentin iştirakı ilə açılışı olub. Ağdam rayonunda iki yerdə inşa edilən 110/35/10 kV-luq "Ağdam-1", "Ağdam-2" yarımstansiyalarının, o cümlədən "Qarabağ" Regional Rəqəmsal İdarəetmə Mərkəzinin tikintisi yekunlaşıb.

"Azərenerji"nin İctimaiyyətlə əlaqələr mərkəzinin rəisi Teymur Abdullayevin sözlərinə görə, Qarabağ və Şərqi Zəngəzurda tikilən 9 yarımstansiyanın hamısı Azərbaycanın ümumi enerji sisteminə qoşulmaqla yanaşı, tam rəqəmsallaşdırılıb: "Belə ki, dördüncü Sənaye inqilabına uyğun olaraq intellektual enerjisistem konsepsiyası həyata keçirilib və müasir, dayanıqlı, rəqəmsallaşdırılmış yarımstansiyalar modeli formalaşdırılıb. İstismara verilən yarımstansiyalarda aktivlərin, proseslərin, resursların idarə edilməsi, açılıb qoşulma əməliyyatları, tədarük və paylanma zəncirlərinin təkmilləşdirilməsi, qüsurların vaxtında aradan qaldırılması proqram təminatı vasitəsi ilə avtomatik həyata keçirilir".

Azad olunmuş ərazilərdə ümumi uzunluğu 365 km məsafədə ikidövrəli olmaqla 10 istiqamətdə yüksəkgərginlikli 110 kilovoltluq elektrik verilişi xətti çəkilib.

Coca-Cola
şirkəti
Azərbaycan xalqını
31 Dekabr -
Dünya Azərbaycanlılarının
Həmrəyliyi Günü və
2022-ci ilin gəlişi münasibətilə
təbrik edir, hər bir ailəyə səadət,
sevinc dolu günlər arzulayır.

"Bakı Abadlıq Xidməti" MMC
Azərbaycan xalqını
31 Dekabr -
Dünya Azərbaycanlılarının
Həmrəyliyi Günü və
Yeni il münasibətilə
təbrik edir, birlik, xoşbəxt gələcək
və firavan həyat arzulayır.
QARABAĞ AZƏRBAYCANDIR!

## İllər qovuşur...

# Qış ovqatlı, Zəfər sovqatlı...

**Bayram ab-havalı, Qələbə bayraqlı Bakının küçələri bu dəfə "Şən yolka" əhvali-ruhiyyəlilərlə aşıb-daşır...**

**Bu** da yola salınan ilin son günü. Tarixin daha bir səhifəsi çevrilir. 30 ilə yaxın idi ki, hər ilin son günlərində xalqımızın böyükdən-kiçiyə diləyi Qarabağımızın azad edilməsi idi. Şükürlər olsun ki, ötən ilin sentyabrından başlayıb 44 gün davam edən Vətən müharibəsində əldə edilən Qələbə həmin həsrət dolu nisgilimizə son qoydu, diləklər hasil oldu. Bu Zəfər bayramını xalqımıza yaşadan isə Müzəffər Ali Baş Komandan İlham Əliyev və rəhbərlik etdiyi Silahlı Qüvvələrimizin sıralarında düşmənə öz layiq olduğu yeri göstərən qəhrəman Azərbaycan oğullarıdır. Ömrümüzə-günümüzə, həyatımıza yenicə qədəm basan Yeni ildən dilək diləyənlər az olmadı. Axı, illər boyu, Qarabağımızın, onun zümrüd tacı olan könül şüşəmizin - Şuşamızın, eləcə də işğal altında qalan digər yurdlarımızın erməni vandallarının əsarətindən azad edilməsi diləyi ilə anaların əlləri göylərə ucalırdı...







Yola salınan hər köhnə ilin sonunda hesabat anları olur. Yeni illə könhə ilin qovuşduğu gün xalqımız üçün daha əlamətdardır. 31 dekabr xalqımızın tarixinə Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi yazılıb. Bu günü xalqımıza bəxş edən Ulu Öndər Heydər Əliyevin arzu və istəklərindən biri məhz Azərbaycan adlı Vətənindən uzaq düşmüş soydaşlarımızın birliyini yaratmaq idi. Bu müqəddəs birliyə nail olan Ümummilli Liderin gerçəkləşən hər bir ideya və arzusu Azərbaycanımızın sabahının bugünündən də işıqlı, nurlu, güclü olmasına, azadlığının və müstəqilliyinin möhkəmləndirilməsinə hesablanıb. Həmin müqəddəs amala söykənən siyasət bu gün Prezident İlham Əliyev tərəfindən məqsədyönlü şəkildə uğurla davam etdirilir.

Yeni təqvim ilinin xalqımız üçün gətirdiyi yeniliklər ildən-ilə öz rəngarəngliyi ilə yadda qalır. Yola saldığımız 2021-ci il də xalqımızın və ölkəmizin tarixinə yaddaqalan zəngin hadisələrlə yazıldı.

Builki Yeni il şənliklərimiz Qələbə ovqatlı - Zəfər sovqatlıdır. Paytaxt Bakı bu dəfə bayram libasına bir özgə ovqatda bürünüb. Bu, sanki qış fəslinin gəlişindən daha çox Qələbəmizin Vətənimizə bəxş etdiyi bayram sovqatıdır. Şaxta baba ilə Qar qızın heybəsində bu dəfə gətirdikləri sovqat əslində, hünərvər şəhid və qazilərimizin adları, həm də illərlə düşmən tapdağında inləyən yurdlarımızın işğaldan azad edilmə tarixi həkk olunan hədiyyələrdir.

Yolumuzu şəhərin hansı tərəfindən salsaq, 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günündən və xoş müjdələrlə hər ailənin, bütövlükdə xalqımızın qapısını döyən 2022-ci ilin gəlişindən danışılır və sevinc dolu söz açılırdı. Həmsöhbətlərimizin arasında kimlər yox idi ki? Bağçadan, ailədən, orta və ali məktəblərdən gələnlərin arasında babalar da vardı, nənələr də, atalar, analar, qardaş-bacılar, əmilər-dayılar, xalalar-bibilər... Hamısının da simasında xoş ovqatlı bayram əhvali-ruhiyyəsi duyulurdu.

Əslən Yardımlı rayonundan olan, ixtisasca həkim Fikrət Əliyev yeganə övladları - Murad balası və həyat yoldaşı Nahidə xanımla builki Yeni il şənliklərinə qatılıblar. Həkim deyir ki, illərdir belə xoş ovqatın həsrətini çəkirdilər: "...Deyirlər ki, ili hansı ovqatla qarşılayarsansa, o cür də yola salarsan. Bu mənada, xalqımız hər gələn yeni ili həmişə yüksək əhvali-ruhiyyə və xoş ovqatla qarşılayıb. Sanki təbiət də illərin görüşünə əliboş gəlməməyə çalışır. Hər Yeni ili doğma Bakımız və ümumiyyətlə, Azərbaycan təbiəti özünəməxsus qarşılayır. "Qışın oğlan çağı" günəşin zərrin şəfəqləri mavi Xəzərdə "yuyunursa", qəfildən əsən gilavar bu ovqata qar sovqatı ilə qoşulur. Şaxta baba və Qar qız üçün darıxan nəvələr nənələrinin, babalarının əllərindən yapışıb şəhərin füsunkarlığında əylənmək, xüsusən ən sevimli əyləncələri olan xizəklə sürüşmək, qartopu oynamaq... istəyində olurlar. Qış da ki qarı, şaxtası, dağlarda çovğunu, boran-tufanıyla gözəldir..."

Ağdam rayonunun Bağbanlar kəndində dünyaya göz açan Namiq Nəbiyevin ömür-gün yoldaşı Tünzalə xanımın da bu bayram günlərində deməyə sözü az deyildi. Ailənin anası deyir ki, Ağdamdan didərgin düşəndən, əslində, bizim bayram əhvali-ruhiyyəmiz olmamışdı. Adət-ənənələrimizə uyğun ürəyimizdə niyyət tutar, dilək diləyərdik. 2020-ci ildə də diləmişdik ki, Yeni il Qarabağ ili kimi yazılsın tarixə. Diləklərin hasil olmasını biz də yaşadıq. Ötən ildən bayramlarımız, Yeni illərimiz xoş ovqatlıdır. Bir az bundan öncə Hərbi Qənimətlər Parkını ziyarət etdik. Qarabağımızın, yerləyeksan edilən "Ruhlar şəhəri" - Ağdamımızın daş-torpağının azad edilməsi yolunda canından və qanından keçən igidlərimizin qəhrəmanlıqlarını, şücaətlərini təsdiqləyən həmin park da Şəhidlər xiyabanı kimi xalqımızın əsl ziyarət məkanlarından birinə çevrilib. Bu sevinci bizə yaşadan Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu yaxınlarda imzaladığı bir sıra fərman və sərəncamlar da xalqımızın rifahının daha da yüksəldilməsi baxımından çox mühüm və alqışlanasıdır. Gənclərimizə, yaşlı qocalarımıza, əlil və qazilərimizə dövlət qayğısı ilə əhatə olunan xalqımızın arzuları nəinki çiçək açdı, hətta firavan yaşamaları üçün Prezidentimiz tərəfindən mühüm qərarlar qəbul edildi..."

Bakı şəhərindəki 21 nömrəli Kəlbəcər tam orta məktəbin məktəbəqədər və ibtidai sinif şagirdlərinin də bir qrupu paytaxtın küçələrində, İçərişəhərdə Yeni ili qarşılayan şənlik iştirakçıları arasında idilər. Məktəbin direktoru Şəmsi Nəbiyevlə 4-cü sinfin rəhbəri, YAP fəalı Gültəkin Cəlilova balacaları - Əminə Cəfərovanı, Fərahim və Fuad Məmmədovları, Xədicə Verdiyevanı, Yasir İsmayılovu, Nihad Əhmədovu təqdim edirlər. Məryəm, Orxan, Nuray, Fərrux və Əziz də məktəbli dostlarına qoşulurlar. Onlar bu dəfə yalnız "Şaxta baba" şeirini yox, "Üçrəngli bayrağım" və şəhid qəhrəmanlarımıza həsr edilən mahnı və şeirləri söyləyirlər.

Gültəkin müəllim onu da vurğuladı ki, şagirdlərimiz də müəllimlərimiz kimi builki Yeni il şənliklərinə Zəfər ovqatı ilə qatılıblar.

Övladları ilə ilin son günlərində Bakı küçələrində keçirilən şənliklərə qatılanlardan biri də Laçın rayonundan olan, Bakıda müvəqqəti məskunlaşmış, Nəsimi rayonunda fəaliyyət göstərən MKS-in əməkdaşı Sevinc İbrahimova idi. Ovqatı şənliklərə köklənmiş kitabxanaçı fikirlərini ifadə edərkən bildirdi ki, bu il də Şaxta baba ilə Qar qız qarlı dağlar aşaraq, çox ellər dolaşaraq yurdumuza, Vətənimizə ayaqları sayalı gəlir: "2021-ci il xalqımızın həyatına özünəməxsus tarixi hadisələrlə yazıldı. Onların arasında ən mühümü Qarabağda Qələbəmizin bir illiyinin təmtəraqlı təşkili oldu. Şuşa Azərbaycanın mədəniyyət paytaxtı kimi sinəsini doğmalarına açdı. Şuşada keçirilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalında, həmçinin M.P.Vaqifin məqbərəsinin açılışında iştirak edənlər "Zəfər Yolu"nun yolçuları kimi tarixə yazıldılar. Bundan da böyük xoşbəxtlik olarmı?! Biz bunu illərdir ki, arzulayır və gözləyirdik".

Koronavirus pandemiyasının özü ilə gətirdiyi bəzi qadağalara baxmayaraq, xalqımızın illərin qovuşuğunda yaşadığı bayram sovqatlı günlər yeni başlayır. Bu günlərdə xoş ovqat yaradan daha bir mühüm məsələ də ölkəmizdə COVID-19-a yoluxanların sayının az olması, sağalanların və normal həyata qaytarılanların isə çoxalmasıdır. Bu da onu göstərir ki, xalqımız qarşıdan gələn 2022-ci ili elə pandemiyasız qarşılayıb, sağlam əhvali-ruhiyyədə də yola salacaq.

Ayrı-ayrı xalqlar Yeni ili eyni ümidlərlə - xoş möcüzələr, uğurlar, xoşbəxtlik arzusu ilə öz adət-ənənələrinə uyğun qarşılayıb yola salırlar. Azərbaycanda isə dekabrın son günü bayramları da bir-birinə qovuşdurur. Axı, həm də 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür. Bayramlarımız mübarək! Xoş gəlmisən, təzə il, gəl, ömrümüzü bəzə, 2022-ci il!

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

GCM GLOBAL ENERGY AZERBAIJAN

"Global Energy Azerbaijan" şirkəti və onun törəmə şirkətləri

Azərbaycan xalqını

"Absheron Operating Company"
"Binagadi Oil Company"
"Karasu Operating Company"
"Shirvan Operating Company"
"Neftechala Operating Company"

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edir, xoş günlər və firavan həyat arzulayır.

QARABAĞ AZƏRBAYCANDIR!




◆ Dünya gündəmi

# 2021-ci il nə ilə yadda qaldı?

## Təbii fəlakətlər bəzi dünya ölkələrinə ümumilikdə 170 milyard dollar zərər vurdu

**Son on ildə altıncı dəfə qlobal təbii fəlakətlərdən ölkələrə dəyən ziyan 100 milyard dolları ötüb. 2021-ci ildə isə dünyanın müxtəlif ölkələrində baş verən təbii fəlakətlər daha ağır nəticələr verdi.**



2021-ci ildə dünyaya böyük insan və maliyyə itkisi gətirən yalnız koronavirus pandemiyası deyil. Xəbər başlıqlarına COVID-19 hakim olsa da, iqlim böhranı ölkələrin həyatına və iqtisadiyyatına zərər vurmaqda davam edir - ABŞ, Çin və Hindistandakı qasırğalardan Avstraliya, Avropa və Kanadada daşqınlara qədər... Böyük Britaniyanın "Christian Aid" təşkilatı yola saldığımız ildə dünyaya ən cox baha başa gələn 10 iqlim hadisəsinin siyahısını tərtib edib.

### Zərər artır

2021-ci ildə baş vermiş ən iri təbii fəlakətlərdən dəyən ümumi ziyan 170,3 milyard dollara çatıb. Dayanıqlı inkişaf və vətəndaş cəmiyyətinin dəstəklənməsi, yoxsulluqla mübarizə və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması məqsədilə 1945-ci ildə yaradılmış "Christian Aid" təşkilatı iqlim hadisələri ilə bağlı hesabat təqdim edib. 2011-ci ildən başlayaraq bu, fəlakətlərdən dəyən zərərin 100 milyard dollar məbləğində sığortalanmış həddini aşdığı altıncı dəfədir.

Narahatlıq doğuran odur ki, pandemiyaya baxmayaraq, atmosferdə istixana qazlarının konsentrasiyası, Dünya Meteoroloji Təşkilatının araşdırmasına əsasən yeni rekord səviyyəyə çatıb. "Christian Aid" xəbərdarlıq edir ki, dünya emissiyaların azaldılması üçün təcili tədbirlər görməzsə, fəlakətlərin sayı artacaq.

### Texasda qış fırtınası, Avropada daşqınlar

Fevral ayında Sakit okeanda meydana gələn güclü "Uri" fırtınası ABŞ-da tüğyan edib. Texas daha çox zərər çəkib. Ştatda kommunal sistemlərin görünməmiş bir çökməsi baş verib. Hakimiyyət enerji sistemini həddindən artıq yükləyən rekord dərəcədə aşağı temperatur səbəbiylə elektrik enerjisini dayandırıb. Prezident Co Bayden Texasda fövqəladə vəziyyət elan edib.

Rəsmi olaraq ştatda 215 ölüm halı qeydə alınıb, lakin qiymətləndirməyə görə, həqiqi say bundan üç dəfə çox ola bilər. Sığortalanmış zərər 23 milyard dollar təşkil edib, ümumi iqtisadi zərər isə, bəzi məlumatlara görə, 200 milyarda yaxındır.





İyulun 12-dən 15-dək Qərbi Avropanın bəzi yerlərində güclü yağış yağıb, Almaniyada Ar və Erft çaylarının ətrafında yerləşən ayrı-ayrı regionlarda gün ərzində 90 millimetrdən çox yağıntı düşüb. Daşqınlar nəticəsində azı 240 nəfər həlak olub. İqtisadi itkilər 43 milyard dollardan çox qiymətləndirilib.

"World Weather Attribution" belə bir ekstremal yağış hadisələrinin iqlim dəyişikliyindən qaynaqlandığı və bunun Niderlandda və Lüksemburqda baş verəcəyi ehtimalının 1,2-9 dəfə daha yüksək olduğu qənaətinə gəlib. Regionda bu cür leysan yağışları insan fəaliyyətinin yaratdığı istiləşmə səbəbindən 3-19 faiz intensivləşib.

### Avstraliyada daşqınlar, Fransada kənd təsərrüfatı fəlakəti

Mart ayında Avstraliyanın şərq sahilində güclü yağış yağıb, daşqınlar baş verib, nəticədə iki nəfər həlak olub. Sidney şəhərinin yerləşdiyi Yeni Cənubi Uelsdə güclü daşqınlar bir həftə davam edib. 18 minə yaxın adam təxliyə olunub, ümumi ziyan 2,1 milyard dollar təşkil edib.

İlıq qışdan sonra aprelin əvvəllərində güclü soyuqlaşma mərkəzi Fransanın böyük bir hissəsini əhatə edib, kənd təsərrüfatına, xüsusilə üzüm bağlarına böyük ziyan vurub. Kənd təsərrüfatı naziri bu hadisəni "yəqin ki, XXI əsrin əvvəllərinin ən böyük kənd təsərrüfatı fəlakəti" kimi səciyyələndirib.



Rona regionunun fermerlərinin qiymətləndirmələrinə görə, soyuqlaşma məhsulun 80 faizdən çoxunu, Burqundiyada üzümlüklərin azı 50 faizini məhv edib. Məşhur Şabli sortu xüsusilə zərər çəkib. Ümumi ziyan 5,6 milyard dollar həcmində qiymətləndirilib. "World Weather Attribution" təşkilatının araşdırmasına görə, iqlim dəyişikliyi bu cür soyuqlaşmaların ehtimalını 60 faiz artırıb.

### "Tauktaye" və "Yaas" siklonu

May ayında Ərəbistan dənizində formalaşan "Tauktaye" tropik siklonu Maldiv adalarına və Şri-Lankaya toxunaraq Hindistanın qərb sahillərinə doğru hərəkət edib. Bu, 1999-cu ildən bəri Hindistanın Qucarat ştatını vuran ən güclü siklon idi.

Güclü küləklər, yağışlar və daşqınlar 1,5 milyard dollardan artıq məbləğdə ziyan vurub. Azı 198 nəfər həlak olub. Onlardan 71 nəfəri Mumbay sahilləri yaxınlığında bərənin batması nəticəsində həyatını itirib. Qucarat ştatında 200 mindən çox adam təxliyə edilib.

May ayında Bengal körfəzində formalaşmış yaas tropik siklonu Banqladeş və Hindistana doğru hərəkət edərək minlərlə insanı evindən didərgin salıb və 19 nəfərin həyatını alıb. Yağışdan başqa, siklon güclü bir fırtınaya səbəb olub. Küləyin sürəti saatda 140 kilometrə çatıb. İqtisadi zərər 3 milyard dollar həcmində qiymətləndirilib, aran rayonlarında yaşayan 1,2 milyondan çox insan öz evlərini tərk etməyə məcbur olub. Hindistanın Odişa əyalətində 10 mindən çox kənd zərər cəkib.

### Çində daşqın, Asiyada tayfun

İyul ayında Çinin Henan əyalətində leysan yağışları böyük daşqınlara və 302 nəfərin ölümünə səbəb olub. Bir milyondan artıq insan öz evlərini tərk edib, yüz minlərlə insan evsiz qalıb.

Əyalətin paytaxtı Çjençjou şəhərində üç gün ərzində 617,1 millimetr yağıntı düşüb ki, bu da region üzrə orta illik göstəriciyə uyğun gəlir. Metro stansiyalarını su basıb, insanlar yerin altında həlak olublar. Daşqınlar nəticəsində dəyən ziyan 17,6 milyard dollar məbləğində qiymətləndirilib.

İyulda "İnfa" tayfunu adlı tropik siklon (Filippində Fabian kimi tanınıb) Yaponiya, Filippin və Çin də daxil olmaqla, Asiyanın bir neçə ölkəsini vurub. Küləyin sürəti saatda 176 kilometrə çatıb və çoxlu yağıntı olub.

Çinin Çjetszyan əyalətinin Çjustan şəhərində 612 millimetr yağıntı düşüb, minlərlə adam evlərini tərk edib. Şanxayda hava limanları bağlanıb, qatarların hərəkəti dayandırılıb. Filippinin paytaxtı Manila şəhərində 20 mindən çox adam təxliyə edilib. Qasırğadan iqtisadi itkilər 2 milyard dollar qiymətləndirilib, altı nəfərin həlak olduğu bildirilib.

### ABŞ-da "İda" qasırğası, Kanadada daşqın

Avqustun sonu-sentyabrın əvvəllərində dördüncü dərəcəli İda qasırğası ABŞ-ın bir neçə regionuna zərbə endirib. Bu, gücünə görə, müşahidələr tarixi boyu ölkədə quruda qeydə alınan beşinci qasırğa idi.

Luiziana ştatında bir milyon insan işıqsız qalıb. Qasırğa həmçinin şimal-şərqdə yerləşən bir çox ştatlarda, o cümlədən Delaver, Pensilvaniya, Nyu Cersi və Nyu York da daxil olmaqla bir çox yerlərdə daşqınlar törədib. 95 nəfər fəlakətin qurbanı olub, zərər 65 milyard dollar səviyyəsində qiymətləndirilib.

Noyabr ayında Kanadanın Britaniya Kolumbiyası regionunda rekord miqdarda yağıntı düşüb. Güclü yağışlar minlərlə insanı evlərini tərk etməyə məcbur edib, Vankuverin ölkənin qalan hissəsi ilə əlaqəsi kəsilib. Əyalət hökuməti fövqəladə vəziyyət elan edib. 7 min nəfər əhalisi olan Merritt şəhəri tamamilə təxliyə edilib. Azı dörd nəfər həlak olub, ziyan 7,5 milyard dollar təşkil edib.

Kanadanın Baş naziri Castin Trüdo, daşqınları planetdə istiləşmə ilə əlaqələndirərək iqlim dəyişikliyinin nəticələrinin "gözləniləndən daha əvvəl gəldiyini və dağıdıcı olduğunu" bildirib.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# Azərbaycanda COVID-19 əleyhinə 32 min dozadan çox peyvənd vurulub

Azərbaycanda son sutkada yeni növ koronavirus (COVID-19) əleyhinə 32 min 103 vaksin vurulub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, bir gündə birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 2 min 794, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 3 min 591, "buster" doza üzrə vaksinasiya olunanların sayı isə 25 min 718 nəfərdir.

Ölkədə indiyədək vurulan vaksinlərin ümumi sayı 11 milyon 318 min 107, birinci mərhələ üzrə vaksinasiya olunanların ümumi sayı 5 milyon 166 min 741, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 4 milyon 673 min 411, "buster" doza üzrə vaksinasiya olunanların sayı isə 1 milyon 477 min 955 nəfər təşkil edir.




# Son sutkada yeni növ koronavirus infeksiyasına 510 yeni yoluxma qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 510 yeni yoluxma faktı qeydə alınıb, 1039 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 14 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 616 min 352 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 598 min 793 nəfər müalicə olunaraq sağalıb, 8 min 346 nəfər vəfat edib, aktiv xəstə sayı 9 min 213 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 10 min 771, ötən müddət ərzində isə ümumilikdə 5 milyon 853 min 336 test aparılıb.






## BİLDİRİŞ

"Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 09 oktyabr 2021-ci il tarixdə elan edilmiş LOT-1 110/35/6 kV-luq "Salyan" Yarımstansiyasının yenidən qurulması və istismara verilməsi işlərinin satın alınması, LOT-2 110/35/10 kV-luq "Yevlax" Yarımstansiyasının yenidən qurulması və istismara verilməsi işlərinin satın alınması, LOT-3 110/35/10 kV-luq "Ucar" Yarımstansiyasının yenidən qurulması və istismara verilməsi işlərinin satın alınması, LOT-4 110/35/10 kV-luq "Masallı" Yarımstansiyasının yenidən qurulması və istismara verilməsi işlərinin satın alınması üzrə təkliflər sorğusu üsulu ilə keçirilən tenderdə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və Tender komissiyasının qərarı ilə formal tələblərə cavab verən, ən aşağı qiymət təklif edən "Azconstruction" QSC, "Light City" QSC, "Gidromaşservis" QSC, "Azconstruction" QSC tenderin qalibləri müəyyən edilmişdir.

Qalib gəlmiş təşkilatlarla müvafiq satınalma müqavilələri imzalanmışdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

"Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 02 oktyabr 2021-ci il tarixdə elan edilmiş LOT-1 110/35/6 kV-luq "205 saylı" Yarımstansiyasının yenidən qurulması və istismara verilməsi işlərinin satın alınması, LOT-2 110/35/6 kV-luq "Zığ" Yarımstansiyasının yenidən qurulması və istismara verilməsi işlərinin satın alınması, LOT-3 110/35/6 kV-luq "Puta" Yarımstansiyasının yenidən qurulması və istismara verilməsi işlərinin satın alınması üzrə təkliflər sorğusu üsulu ilə keçirilən tenderdə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və Tender komissiyasının qərarı ilə formal tələblərə cavab verən, ən aşağı qiymət təklif edən "Electro İndustries" QSC, "Azconstruction" QSC tenderin qalibləri müəyyən edilmişdir.

Qalib gəlmiş təşkilatlarla müvafiq satınalma müqavilələri imzalanmışdır.

*Tender komissiyası*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanova atası, Aşıq Şəmşir Mədəniyyət Ocağının sədri, Respublika Ağsaqqallar Şurası Məclisinin üzvü

**QƏNBƏR ŞƏMŞİR OĞLU QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanova atası

**QƏNBƏR ŞƏMŞİR OĞLU QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan İnvestisiya Holdinqinin kollektivi "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanova atası

**QƏNBƏR ŞƏMŞİR OĞLU QURBANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanova atası, Aşıq Şəmşir Mədəniyyət Ocağının sədri

**QƏNBƏR ŞƏMŞİR OĞLU QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanova atası

**QƏNBƏR ŞƏMŞİR OĞLU QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanova atası

**QƏNBƏR ŞƏMŞİR OĞLU QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanova atası

**QƏNBƏR ŞƏMŞİR OĞLU QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanova atası

**QƏNBƏR ŞƏMŞİR OĞLU QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanova atası

**QƏNBƏR ŞƏMŞİR OĞLU QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ədliyyə nazirinin müavini Ceyhun Həsənov və Penitensiar xidmətin kollektivi "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanova atası

**QƏNBƏR ŞƏMŞİR OĞLU QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Kənd Təsərrüfatı Nazirliyinin kollektivi "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanova atası

**QƏNBƏR ŞƏMŞİR OĞLU QURBANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Aydın Əliyev "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanova atası

**QƏNBƏR ŞƏMŞİR OĞLU QURBANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi və kollektivi "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanova atası

**QƏNBƏR ŞƏMŞİR OĞLU QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanova atası

**QƏNBƏR ŞƏMŞİR OĞLU QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanova atası

**QƏNBƏR ŞƏMŞİR OĞLU QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Təlatüm Quliyev və Xanlar Fətiyev "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanova atası

**QƏNBƏR ŞƏMŞİR OĞLU QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Mədət Quliyev və nazirliyin kollektivi "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanova atası

**QƏNBƏR ŞƏMŞİR OĞLU QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanova atası

**QƏNBƏR ŞƏMŞİR OĞLU QURBANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanova atası

**QƏNBƏR ŞƏMŞİR OĞLU QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Hadi Rəcəbli və Hüseynbala Mirələmov Razim Məmmədova anası

**ŞÖHLƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər

---

Hadi Rəcəbli və Hüseynbala Mirələmov Cavid Qurbanova atası

**QƏNBƏR ŞƏMŞİR OĞLU QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5574
Sifariş 2780
Qiyməti 40 qəpik